HÜSEYN ŞƏRQİDƏRƏCƏK
(SOYTÜRK)

# GÜNEY AZƏRBAYCAN TÜRKOLOGİYASI






**Dr. Hüseyn Şərqi Dərəcək Soytürk**

# GÜNEY AZƏRBAYCAN TÜRKOLOGİYASI

***Bu kitabdakı məqalələrin hamısı Tehranda nəşr olunan «Xudafərin» jurnalında dərc edilmişdir***

**1-CİLD**

**"AzAtaM"**
**"Elm və təhsil"**
**Bakı - 2013**

**Redaktor:** **İslam Qəribli**
*filologiya elmləri doktoru, yazıçı-ədəbiyyatşünas*

**Dr. Hüseyn Şərqi Dərəcək Soytürk.**
**Güney Azərbaycan türkologiyası.**
**Bakı, "Elm və thəsil", 2013 -244 səh.**

$\frac{4702000000}{N098-2013}$ *qrifli nəşr*

**© «Elm və thəsil», 2013**

# ÖN SÖZ

Hüseyn Şərqi Dərəcək İbrahim oğlu Soytürk 1966-cı il Azərbaycanın (Güney Azərbaycanın) Xudafərin bölgəsində yurdsevər bir ailədə dünyaya göz açmışdır.O, Azərbaycan adət-ənənələrinin çox dərin köklərə malik olan qədim türk ənənələri ilə böyüyüb başa çatmışdır. İbtidai təhsilini Xudafərində fars dilində oxumaq məcburiyyətində qalmışdır (Cənubi Azərbaycanda ana dilli məktəblər yoxdur). Hüseyn 14 yaşında ana dilində olan ilk şeirlərini söyləyərək kaset şəklində lentə yazdırmış, bölgə xalqı içərisində dərin sevgi və məhəbbət qazanmışdır. Həm də ana dilində yazdığı ilk inşaya görə məktəbdən məcburi olaraq çıxarılmışdır. Bununla yanaşı, o, Azərbaycan dilində məktəblərarası teatrların türkdilli birinci balaca rejissoru kimi «Ərbab-rəiyyət», «Şagird-müəllim» və «Xəstə» kimi ssenarilərin müəllifi olmuş və Xudafərinin kənd məktəblərində bu ssenariləri səhnəyə çıxararaq doğma dilində xalqına təqdim etmişdir

Hüseyn orta təhsilini Tehran şəhərində davam etdirərək yurddan uzaq acı mühacirət taleyi yaşamışdır. Bir çox Cənubi azərbaycanlı kimi o da vətənsizlik dərdini lap iliyinə qədər hiss etmişdir. Orta məktəb çağlarında bir çox şeir axşamları ssenarilərinin müəllifi, ana dilli divar qəzetlərinin naşiri kimi yadda qalan Hüseyn valideynlərinin ona fars dili ilə yanaşı ana dilində məktəbdən sonra evdə öyrətdiklərini nəticəsiz qoymamışdır. Tehranda universitetə daxil olmuş, tələbəliklə yanaşı müəllimliklə də məşğul olmuşdur. O, tələbəlik dövründə elmi-pedaqoji fəaliyyətlə yanaşı, ədəbi-ic-

timai fəaliyyətlə də yaxından ilgilənmişdir. Tehranda çox az da olsa Azərbaycan dilində nəşr olunan nəşriyyat orqanlarının ən fəal üzvü kimi Azərbaycan mədəniyyətinin və elminin inkişafında rol oynamışdır. Tehranın «Rudhen» Universitetinin «Sosial elmlər və psixologiya» kafedrasında Sosiologiyanın Sosial xidmətlər bölümünü bitirərək «İran, Türkiyə və Azərbaycan türklərinin ortaq və fərqli cəhətləri» mövzusunda dissertasiya müdafiə etmiş, universitetin yeganə azərbaycanlı tələbəsi olaraq dilçilik elminin inkişafında yeni addım atmağı bacarmışdır. O, elmi-ictimai, siyasi və ədəbi sahədə Azərbaycanın dünya miqyasında tanınmasında və qüdrətlənməsində böyük əmək sərf etmiş, ana yurdu Azərbaycanın varlığı üçün bir çox dəyərli işlər görmüşdür.

1997-ci ildə Bakı Dövlət Universitetinin «Sosial elmlər və psixologiya» fakültəsinə «Sosial psixologiya» üzrə əyani aspirant (doktorant) kimi qəbul olunmuş və 2002-ci ilin noyabr ayında Sosial psixologiya ixtisası üzrə «Narkomanların kliniki və postkliniki reabilitasiyasının sosial-psixoloji problemləri» mövzusunda dissertasiya müdafiə edərək psixologiya elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Eyni zamanda o, Azərbaycan teleradio şirkətlərinin elm və təhsil redaksiyası ilə yaxından əməkdaşlıq etmiş, bir çox elmi, ədəbi və ictimai məqalələrin müəllifi olmuşdur.

Tanınmış psixoloq doktor Şərqi İranın Yazarlar Birliyi Qələm Dərnəyinin (1997), Sosial Elmlər üzrə Sosial Xidmətçilər Dərnəyinin (1994), İran Dünya Səyyahlar Birliyinin (1998) üzvü olmaqla yanaşı, Azərbaycan Psixiatrlar Assosiasiyasının (2002), Azərbaycan Yazıçılar Birliyinin (2003), Azərbaycan Jurnalistlər Birliyinin (2010) də üzvüdür. Ölkəsində psixoloq-məsləhətçi kimi çalışan H. Şərqi bir çox psixoloji məsələlərin həlli yönündə dünya əhəmiyyətli məqalələrin də müəllifidir.

Doktor Şərqi Azərbaycan dilçiliyinin inkişafında dəyərli işlər görmüş, o cümlədən Gənubi Azərbaycanda və İranda ilk dəfə Quzey Azərbaycanda nəşr olunan elmi-ədəbi kitabların ərəb əlifbasına transliterasiyasını təşkil edərək aradakı bir əsrə yaxın olan fərqi minumuma endirməyi bacarmışdır. Onun əməyi sayəsində Şimali Azərbaycan ədəbiyyatı, ədəbi dili normaları, siyasi-ictimai xadimləri, şair, yazar və incəsənət ustaları milyonlarca güneyli oxuculara tanıtdırılmışdır.

O, hal-hazırda elmi və psixoloji məsləhətlə yanaşı, xalqının su və hava kimi ehtiyacı olduğu anadilli mətbuatın genişlənməsində də əvəzsiz rol oynamaqdadır. 2003-cü ildən 7 il səbr və səylə nəşr icazəsini gözlədiyi, Tehranda yeganə aylıq azərbaycandilli jurnalın təsisçisi, baş redaktoru və məsul müdiridir. İllərdir Azərbaycan yazıçılarının fikir və düşüncəsini öz içində ehtiva edən «Xudafərin» jurnalı hal-hazırda ədəbi abidəyə çevrilmişdir. Doktor Hüseyn Şərqinin təməlini qoyduğu «Xudafərin» dərgisi bütöv Azərbaycanın fikri şəkildə birləşməsinin əsasını təmin etməkdədir.

Hüseyn Şərqi ədəbi yaradıcılığı artıq qeyd etdiyim kimi, erkən yaşlarından başlamışdır. Ana dilli mətbuatın qadağan olunması üzündən valideynləri onun şeirlərini kasetə yazdıraraq yaymışlar (1980-ci il). Birinci yazılı publisist əsəri 16 yaşında qələmə aldığı «Elm yaxşıdır ya sərvət»(1982) məqaləsi olmuşdur. O, birinci mətbuat çalışmasına isə Tehranda nəşr olunan «Səhənd» adlı azərbaycandilli mətbuat orqanında ədəbiyyat və ədəbi şəxslərimizin tanıtdırılması ilə başlamışdır(1990).

Doktor Şərqi bir alim kim ana dilini Azərbaycan Respublikasında öyrənmək şansını əldə etmişdir. Onun həyat və elmi yaradıcılıq yolları üzüntülü anlarla dolu olsa da, həmişə uğurlu olmuşdur. Tale bu yurdsevər, qayğıkeş alimin üzünə gülməsə də, ona geniş ürək və istedad bəxş etmişdir. O, bu istedadının nəticəsində dilinə qıfıl vurulmuş, soy kökü

inkar edilmiş, milli mənliyi təhqir olunmuş xalqının hikmət dünyasına pəncərə açmağı bacarmışdır.

1997-ci ildə onun «Bölünmüş ürək» adlı şeiri Cənubi Azərbaycanın Zəncan şəhərində çıxan «Ümidi-Zəncan» qəzetində nəşr edilmişdir. Elə həmin ildə Hüseynin «Bölünmüş ürək» adlı şeir toplusu da işıq üzü görmüşdür. O, bu şeir toplusunda vətəninin bölünməsinə etiraz səsini yüksəldərək xalqına tutulan divanı şeirləri vasitəsilə oxuculara çatdırmaq istəmişdir. Bu topluda «Məzar daşları», «Türklüyüm», «Ana dilim», «Turan», «Türk yurdu» kimi çox ciddi və kəskin milli ruhlu, tale yüklü şeirlər özünə yer almışdır.

Sevincli və kədərli ömür payını yaşayan şair Hüseyn ata və anasından ona yadigar qalan doğma türkcəsini - Azərbaycan dilini kəskin qadağalar və qadağa hökmləri altında olsa da kağız üzərinə köçürməyi bacarmış və onun bu fəaliyyəti elmi-ədəbi ictimaiyyətdə marağa səbəb olmuşdur. Bununla da xalq ona Soytürk ləqəbini vermişdir. Bu adın nə qədər mənalı və ağır yüklü olduğunu dərk edən Hüseyn durmadan çalışaraq bu adı doğrultmağa çalışmışdır. Türkü və türkçülüyü sevməyənlər, rəsmi olaraq ona qarşı qadağalar qoyanlar əməlli-başlı bu adın dadını onun damağından çıxartmağa cəhd göstərmişlər. Ancaq o inandığı müqəddəs türkçülük yolunda heç bir qadağa və qorxuya boyun əyməyərək elmi, publisistik, ədəbi araşdırmalar, o cümlədən "Azərbaycan ədəbi dili tarixi" (1997), "Azərbaycan ədəbiyyat tarixi» (1997) kimi əsərləri xalqının istifadəsinə vermişdir. O, Azərbaycanın ən məhsuldar alimlərindən biri kimi 30-a yaxın kitabın, 300-dən çox ədəbi-ictimai və 20-dən çox elmi məqalənin müəllifidir.

Güney Azərbaycanda Azərbaycan ədəbi dilinin işlənmə sahənin genişləndirilməsində onun "Azərbaycan ədəbi dili tarixi" kitabının rolu əvəzsizdir. O, hər zaman Azərbaycan ədəbi dilinin zənginləşdirmə yollarını araşdıraraq yeni-yeni uğurlar qazanmış, o cümlədən, «Əski türk kitabələri»

kitabını 2002-ci ildə Ərdəbildə "Savalan" nəşriyyatında nəşr etdirmişdir. O, bu kitabda qədim türklərin, yəni prototürk, türk və Azərbaycan dili dövrünün araşdırılmasının təhlili ilə yanaşı, Orxon-Yenisey və Gültəkin abidələrinin tərcüməsini, təhlili və transkripsiyasını, fars, türk və Azərbaycan dillərində elmi ictimaiyyətə təqdim etmişdir.

Durmadan çalışan alim elmi və psixoloci fəaliyyət və novatorluğu ilə yanaşı, dilimiz haqqında yeni-yeni əski türk qaynaqlarının tapılmasında, tərtib, tədqiq, tətbiq və yayılmasında bir kollektivin görə biləcəyi işi təkbaşına görərək bir çox nailiyyətlərə imza atmışdır. Azərbaycan ədəbi dilini və Azərbaycan ədəbiyyatını ümumtürk ədəbiyyatı kontekstində öyrənmək, nəşr etdirmək və yaymaq işini davam etdirərək müəyyən tarixi təkamül prosesində differensiallaşmış türk ədəbi dil və ədəbiyyatının ümumi türk dil prosesinin tarixi tərkib hissəsi kimi o, 1998-ci ildə Məsihi divanını Tehranda "Rastan" nəşriyyatında nəşr etdirmişdir. H. Şərqi XVI-XVII əsrlər Azərbaycan şairi Məsihinin Səfəvi şahlarının sarayında, İsfahanda, demək olar ki, təxminən Əmir Əlişir Nəvai dilinə yaxın bir dildə yazıb və xalqımıza miras buraxdığı əsəri müasir Azərbaycan türkcəsində geniş şərhlə xalqımıza ərməğan etmişdir. O, eyni zamanda digər görkəmli ədib və şəxsiyyətlərimizin əsərlərini də ədəbi dil nümunəsi kimi aşkarlayıb üzə çıxartmağı özünə borc bilmişdir. Bu əsasda apardığı davamlı araşdırmalar nəticəsində orta türk ədəbiyyatının nümayəndələrindən olan Ədib Əhməd Yüknəkinin «Ətəbətül Həqaiq» kitabını geniş şərhlə Azərbaycan, türk və fars dillərində ərəb, latın və uyğur əlifbaları ilə 2001-ci ildə Tehranda nəşr etdirərək oxucuların istifadəsinə vermişdir. O, bu kitabda türk dilinin uyğur əlifbasında olan ədəbiyyatını fars və azərbaycandilli oxuculara geniş şərhlər yazmaqla təqdim etmiş, böyük ədibin dəyərli kəlamlarını yenidən xalqımıza mənəvi və əxlaqi dəyər kimi qazandırmışdır.

Doktor Şərqi illər boyu türkü təhqir edən, türk dilini yox sayan, «pantürkist» damğası vuran, çirkin şovinist mahiyyətlə mənəvi varlığımızı yox edən kəsrəviçiliyə, panariyayizmə, panfarsizmə və bütün bunların qarşısında dayanaraq Azərbaycan türkünün türk dünyasının bir parçası olaraq yaşamasını isbatlayan böyük bir əsərə imza atmışdır. 2000-ci ildə Tehranda nəşr etdirdiyi «Müsəlman türk dünyası, ədəbi örnəkləri» kitabı bütün xoflara sinə gərmək üçün yetərli cavab kimi türklərin dünyada sayı, nüfusu, ölkə, bölgə həm də irqi adları, coğrafi bilgilərlə yanaşı ədəbi nümunələrlə zəngin əsər ərsəyə gətirmişdir. Bu əsərdə müəllif bütün türk dünyasından ədəbi örnəklər verərək onların fars, türk və Azərbaycan dillərinə tərcümə edilməsini də təmin etmişdir.

Doktor Şəpqi hazırda bir mütəxəssis kimi peşəkarcasına araşdırmalırını davam etməkdədir. O,Nizaminin türkcə qəzəllərini 2006-cı ildə geniş şərhlə Bakıda "Nurlar" nəşriyyatında çap etdirmişdir. Böyük sensasiyaya səbəb olan bu əsər dahi Nizaminin Misirin Qahirə şəhərindəki Xədiviyyə kitabxanasından tapılmış əlyazmasının əsasında nəşrə hazırlanmışdır.

Psixologiya elminə xüsusi töhfələr olan «Sosial psixologiya və tibb psixologiyasının tətbiqi», «Narkomanların kliniki və postkliniki reabilitasiyası və sosial bərpası», «Siqareti necə tərk etmək olar», «Gözəl yaşamaq üçün nə etmək lazımdır» və digər elmi əsərlər onun gərgin əməyinin nəticəsi olaraq meydana çıxmışdır.

Doktor H. Şərqi 1998-ci ildən 2002-ci ilə qədər mərhum professor, dünya şöhrətli doktor Məhəmməd Təği Zehtabi Kirişçinin iki cildlik «Əski İran (Azərbaycan) türkləri tarixi» kitabını (I cild – «Ən qədim dövrdən İsgəndərə qədər»; II cild – «İsgəndərdən İslama qədər») çevirərək Azərbaycan radiosunun elm və təhsil redaksiyasında silsilə verilişlər şəklində xalqımıza təqdim etmişdir. Bu kitablar hal-hazırda Bakıda "Nurlar" nəşriyyatında çap ərəfəsində-

dir. Qeyd etmək lazımdır ki, Doktor Zehtabinin adı çəkilən kitabı türkün 7 min illik tarixindən faktlar əsasında bəhs etdiyi kimi, eyni zamanda bəzi düşmənlərə tutarlı cavab olaraq çox mühüm əhəmiyyətə malikdir.

Doktor Şərqi peşəkar elmi, ədəbi və tarixi araşdırmalarla yanaşı bir çox publisistik və bədii əsərlərin də müəllifidir. «Adımız dadımızdır» (2007) əsəri ilə o, xalqımızın adqoyma adət-ənələrənini ədəbi-tarixi ictimai faktlarla sənədləşdirərək oxucu kütləsinə təqdim etmişdir. Bununla da o, Dədə Qorquddan qalan adqoyma ənənələrini, yaxud da adalma ənənələrini yenidən beyinlərinmizdə canlandıraraq hər bir doğulan körpənin türkcə ad almasını təmin etməyi oxuculara aşılamışdır.

Böyük həyat yolu keçmiş, acı sınaqlardan çıxmış və hələ də çox da ürəkaçan olmayan bir həyat yaşayan yazıçı silsilə yazılar toplusu olaraq 2010-cu ildə Tehranda «Bizim köç öykülərimiz» adlı əsəri ərsəyə gətirmişdir. O, bu topluda xalqının acı köç və köçürülmə taleyini dərin faktlara, hətta, canlı şahidlərə əsaslanaraq yazmağı bacarmışdır.

1900-cü ildən müxtəlif yollar və bəhanələrlə azərbaycanlıların yurdlarından başqa yerlərə köçürülmələri, bəlkə də, çoxlarını düşündürməmişdir. Mövzuya vətəndaş və jurnalist gözü ilə baxan Hüseyn ata-babalarının, digər soydaşlarının Azərbaycanın şəhər və kəndlərindən hansısa qeyri-insani metodlarla və qeyri-insani amacla didərgin edilmələrini açıq şəkildə yazmağı bacarmışdır. O, bu əsərdə Azərbaycan türkünün doğma yurd-yuvasından uzaqlaşdırılmasını milli faciə kimi qələmə almışdır. Bu yurd-yuvasını tərk edən Azərbaycan türklərinin sabah başqa mədəniyyətlərin allı-güllü ilan donu geymiş bəzəyi altında soy kökünü də inkar etməsi müəllifi çox narahat edir və bu narahatlıq onun yazılarının özəyini təşkil edir.

Hüseyn Şərqi Soytürk sözünü xalqına çatdırmaq üçün əbədi və inkaredilməz bir tribuna yaratmışdır. O da

aylıq «Xudafərin» jurnalıdır. Müəllifin bütün yaradıcılığı ilə yanaşı, «Xudafərin» jurnalı demək olar ki, onun şah əsəridir. O, bu jurnalda güneyli və quzeyli yazıçı və şairlərin, alim və mütəxəssislərin əsərlərini nəşr edərək Xudafərin körpüsünü sözdən əmələ çevirmişdir. O, başqa əsərləri kimi bu əsərini də vətənə, xalqa, millətə, dilə məhəbbət bəslədiyinin ən bariz nümunəsi kimi yaradıb və yaşatmışdır. Azərbaycan türkcəsinin bütün sahəsini işıqlandıran «Xudafərin» jurnalı məktəbi olmayan güneylilərin həm tarixi salnaməsi, həm də gündəlik dərsliyinə çevrilmişdir.

«Xudafərin» jurnalı artıq öz davamlılığı, dolğunluğu və oxunaqlığı ilə alimlərimizin, ədiblərimizin və xalqımızın rəğbətini qazanmışdır. Elmi, milli, publisistik ruhda olan «Xudafərin» jurnalı Hüseyn müəllimin təkbaşına əməyinin nəticəsi olaraq Azərbaycan mətbuatı tarixində bir abidə kimi yaşayacaqdır.

Doktor Şərqi milli düşüncə boşluğunun olduğunu dərk edərək, demək olar ki, «Xudafərin»in hər bir sayında milli kimlik adlı məqalələr çap etdirməklə xalqa düzgün və dəqiq informasiya verməyi özünə borc bilmişdir. Milli varlığımızın əsas elementlərindən olan dilimiz, mədəniyyətimiz, milli yazılı irsimiz hər ay «Xudafərin» jurnalının uğuru kimi Güneydə yaşayan soydaşlarımıza təqdim olunmaqdadır. Daha dəqiq desək, milli varlığımız haqqında ətraflı bəhs və yazılara yer verən «Xudafərin» həm sosial, həm dilçilik, həm də ədəbiyyat baxımından çox böyük əhəmiyyət kəsb edir. Hesab edirik ki, bu müqəddəs yolda gərgin əmək sərf edən doktor Hüseyn Şərqi Soytürk yeni ədəbiyyatçılar ordusunu yaratmağı bacarmışdır. Artıq «Xudafərin» məktəbi bir çox yazıçı və şairin əsas amalına çevrilmişdir və hər gün gənc xudafərinçilər bu milli mücadilə sırasına qoşulmaqdaırlar. Beləliklə, qeyd etmək olar ki, Hüseyn Şərqinin açdığı cığır, nəhayətdə böyük bir yola çevrilməkdədir.

Güney Azərbaycanda ədəbi dilimizin funksional xüsusiyyətlərini tədqiq edən, araşdıran H. Şərqi Güneydəki ədəbi dilimizin lüğət tərkibinin ümumi mənzərəsini verməklə yanaşı, ədəbi dilimizin vəziyyəti, mədəni-ictimai mühit barədə də oxucuları məlumatlandırmağı özünə borc bilir. Soytürk yaradıcılığı ilə tanış olandan sonra hiss olunur ki, Güney Azərbaycanda dilimiz orfoqrafik qaydalara əsalanaraq tədricən yüksəlməkdədir. İctimai şüur səviyyəsinə birbaşa təsir göstərən amillərlə ictimai şüur arasında münasibət yaradan Soytürk yaradıcılığı dilimizin potensiyasında olan söz varlığını da üzə çıxartmaqdadır. Cəmiyyətə dilimizi sevdirmək, mənəviyyatımızı müxtəlif məqamlarda aşılamaq, tarix, musiqi, etnoqrafik müəyyənliklərlə klassik və çağdaşlaşma yönlərini bir inkişaf eşqi ilə davam etdirmək Soytürkün məslək və məramıdır.

Şübhəsiz, Soytürk yaradıcılığı Güney Azərbaycanda şifahi xalq ədəbiyyatından ilham alaraq milli bədii təfəkkür əsasında formalaşmışdır. Bu yaradıcılıq inqilabi oyanışın və mənəviyyatın vəhdətindən yaranmışdır ki, onun da əsasında doğma Azərbaycan xalqı və bu millətə olan sevgi dayanır. .

*Nizami Cəfərov*
*AMEA-nın müxbir üzvü, professor*

## QULAMHÜSEYN SAİDİNİN (GÖVHƏRMURAD) BİOQRAFİYASİ (1925-1975)

1925-ci ildə qış fəslində Təbrizdə dünyaya göz açmışdır. O, ibtidai təhsilini "Bədr" adlı məktəbdə almış, orta məktəbi də "Mənsur" adlı mədrəsədə oxuyaraq başa vurmuşdur. Saidi orta məktəbi bitirdikdən sonra ədəbi və siyasi fəaliyyətə başlamışdır.

1942-ci ildə Təbrizdə nəşr olunan "Fəryad", "Suud" və "Cavanani Azərbaycan" qəzetlərində öz məqalələri ilə çıxış edir, Tehranda nəşr olunan "Daniş-amuz" ("Tələbə") qəzeti ilə də yaxından əməkdaşlıq edirdi.

1943-cü ildə əmniyyət qüvvələri tərəfindən tutularaq bir neçə ay həbsxanada yaşamışdır. Neçə ay dustaq həyatında "Hər aşın noxudu" nağılını yazmağı bacarmışdır.

1945-ci ildə Təbriz Tibb Fakültəsinə daxil olmuş, 1946-cı ildə "Süxən" adlı jurnalla əməkdaşlığa başlamış, "Əncir toyuq" və "Piqmaliyon" nağıl və ssenarisini də burada çap etdirmişdir. 1947-ci ildə "Rey şəhərinin evləri" adlı nağılını yazaraq Təbrizdə çap etdirmişdir. Bununla yanaşı, "Leylaclar" adlı dastanını da Təbrizdə nəşr olunan "Süxən" adlı nəşriyyədə çap etdirmişdir.

O, 1948-ci ildə tələbə azadlıq hərəkatına qoşularaq Səməd Behrəngi, Behruz Dehqan, Məftun Əmini, Kazım Səadəti və Mənaf Mülki kimi hərəkatın başçıları ilə tanış olur. Elə bu ildə o, "Gecənin qəhrəmanları" ssenarisini və "Şikayət" adlı nağılı yazmışdır.

Qulamhüseyn Saidi "Gecə kölgələri" adlı ssenarisini 1949-cu ildə qələmə almışdır. 1950-ci ildə "Səngərdə foklarla

iş” adlı ssenarisini yazmışdır. Elə bu ildə o, “Möhtəşəm Gecə” ssenarisini dörd pərdədə yazaraq çap etdirmişdir.

1951-ci ildə Tibb İnstitutunu bitirmiş və “Azərbaycanda psixonevrozların sosial səbəbləri” adlı dissertasiya müdafiə etmiş və bir il sonra əsgərliyə gedərək orada da “Evin səsi”, “Boz qardizon”, “Atəşə qarşı” kimi qısa nağılları “Kələk” curnalında çap etdirmişdir.

1953-cü ildə “Fəqir” adlı pantomim əsərini yazmış və bu əsər Cəfər VƏli tərəfindən televiziya tamaşası kimi icra edilmişdi. Doktor Qulamhüseyn Saidi bir çox elmi-tibbi məqalə və kitabların da müəllifidir. O həmçinin Artur Cersildin “Özünü Tanıma” kitabını tərcümə edərək çap etdirmişdi. H.Bleksleyin “Qan Təzyiqi, Ürək Xəstələri Və Ürək” əsərini farscaya tərcümə etmişdir.

1954-cü ildə “Azərbaycana səyahət” adı ilə Xiyav ya Meşkinşəhr mövzusunda əsər yazmış və “Amerika” ssenarisini tərcümə etmişdir. Elə bu ildə ən möhtəşəm əsəri olan “Bəyəl əzalıları” adlı əsərini 8 bölmədə yazaraq çap etdirmişdir. 1955-ci ildə Saidinin möhtəşəm ssenarisi əsasında səhnələşdirilmiş “Vərzil Əli ağaclıları” tamaşası Cəfər Vəli tərəfindən Tehran şəhərinin “Sənglax” teatrında tamaşaya qoyulmuşdur. Bu tamaşa ilə yanaşı “Dünyanın ən gözəl atası” tamaşası da İzzətulla İntizaminin recissorluğunda səhnəyə qoyulmuşdur. Həmin ildə “Məqtəl” adlı əsərini iki fəsildə yazaraq “Negin” jurnalında dərc etdirmişdir.

Saidi ömür boyu yazıb-yaratmışdır. O cümlədən “Dəndil” nağıl toplusu, “Əhli-hava”, Məşrutiyyət inqilabı haqqında beş tamaşa, “Damla və damların altı” ssenarisi, “Əldən düşməyənlər”, “Ənsi nənə”, “Qurdlar”, “İnək” kimi möhtəşəm səhnə əsərlərini də yazıb ərsəyə gətirmişdir. “Papaqsız A”, “Rövşəninin evi” adlı beş pərdəlik tamaşa, “Dəvət”, “Əl üstündə əl” və başqa əsərlər ərsəyə gətirmişdir.

1958-ci ildə "Cahani-no" ("Yeni dünya"), "Firdovsi", "Xuşə"("Salxım"), "Negin"("Qaş"), "Ədəbi conglar" kimi mətbuat orqanları ilə əməkdaşlıq etmişdir. "Qorxu və titrəmə"(altı nağıldan ibarət), "Diktə və Zaviyə"(ssenari) əsərlərini yazmış, "Azərbaycana səfər" adlı əsərində Azərbaycanın Qaradağ bölgəsinə səfərə çıxaraq, Kələybər, Mərənd, Əhər, Xoy, Urumiyyə kimi şəhərlər haqqında etnoqrafik yazılar hazırlayaraq "Peyki-cavanan" adlı dərgidə çap etdirmişdir.

Qulamhüseyn Saidi özünün çox möhtəşəm əsərini 1959-cu ildə Tehranda "Top" adı ilə "Əşrəfi" nəşriyyatında çap etdirmiş və bununla da dünyaya öz xalqının ədalətli səsini çatdırmışdır. "Top" əsərinin bütün əhvalatı Qaradağın Şahsevən kəndində baş verir.

Böyük yazıçı, dünya şöhrətli ssenarist elə bu ildə "Dəniz kənarında itmişlər" ssenarisini yazaraq uşaqlar dünyasına öz töhfəsini vermişdir.

Saidi çox universal insan olmuşdur. Hər tərəflidir və hər tərəfə döndükdə özünün tayı-bərabəri olmayan əsərlərini ortaya qoymuşdur.

1960-cı ildə böyük yazar "Məğlub olana vay olsun", "Canişin", "Biz eşitmirik", "Zöhhak", "Göz gözə qarşı", 1961-1962-ci illərdə isə "Mehrabda ilan", yaxud senzura idarəsinin dili ilə desək, "Məbəddə ilan", "Oyun bitdi" kimi əsərləri yaratmışdı.

1964-cü ildə böyük yazıçı Savak (şahın təhlükəsizlik qüvvələri) tərəfindən tutularaq Tehranın "Evin" zindanında həbs edilmişdir. O, həbs müddəti boyu işgəncələrə məruz qalmışdır.

Saidi "Güləyən tatar" əsərini həbsxanada olarkən yazmışdır. O, 1965-ci ildə həbsxanadan azad edilərək evinə gəlmiş və "Yazmağın aqibəti", "Afiyətin yeri", "Yağışın həngaməsi" kimi əsərləri ərsəyə gətirmişdir.

Yazıçı 1966-cı ildə ana vətəni Təbrizə dönərək "Şəhərdə qəribə" adlı romanını yazmışdır. Bu əsər yazarın bir çox əsərləri kimi ölümündən sonra nəşr edilmişdir. 1967-ci ildə "Minanın dairəsi" ssenarisi əsasında "Zibil qabı" və "Gordan yüyərmə" adlı əsərlərini oxuculara təqdim etmişdir. Bu ssenari kinofilm olaraq sinemalarda ekran edilmişdir. "Bal ayı", "Didərginliyin kökü və damarı" kimi ssenariləri də hal-hazırda çap edilmişdir.

Qulamhüseyn Saidinin bir çox əsərləri rus, alman, ingilis və türk dillərinə tərcümə edilmişdir.

1968-ci ildə Amerikanın "Qələm dərnəyi" tərəfindən dəvət edilərək bu ölkəyə getmişdir. Orada bir çox çıxışlar və məruzələr etmişdir. Eləcə də bu ildə Londona səfər edərək orada qəzet nəşrində Əhməd Şamlu ilə əməkdaşlıq etmişdir. 1968-ci ilin axırlarında yenə Tehrana dönmüş və İranın "Keyhan", "İttilaat", "Ayəndeqan" mətbuat orqanlarında siyasi və ictimai məzmunlu məqalələri ilə çıxış etmişdir. Elə bu ildə "Cümə kitabında", "Qara vaqon" əsərlərini dərc etdirmişdir.

Saidinin bir çox əsərləri, o cümlədən "Fırtınada İskəndər və Səməndər", "Üzranın öpüşü", "Ev gərək təmiz olsun", "Kirpi" əsərləri və "Xırman yandıranlar", "Yağış", "Quşlar tövlədə" kimi ssenariləri çap edilməmişdir. Bunların bir çoxu yarımçıq əlyazma kimi qalmışdır. Onun "Tatar əmirinin diyarına Misir şahlarının səfirlərinin səfəri" romanı yarımçıq olsa da, onun bir neçə bölümü Tehranda nəşr olunan "Arəş" curnalında çap edilmişdir. "Şənbə başlandı", "Dərzi cadulandı", "Qonaqlıq", "Sandviç" ("Dürmək"), "Oyaq bəxtəvərlərin məlul halları" kimi əsərləri də "Adinə" və "Söz dünyası" jurnallarında çap edilmişdir.

1971-ci ildə Parisə səfərə gedib və orada xanım Bədri Lənkərani ilə ailə qurmuşdur.

1972-1975-ci illərdə Parisdə "Əlifba" adlı jurnalı nəşr etdirmiş və bir neçə ssenari və tamaşa əsərləri, o cümlədən "Otello əcaiblər ölkəsində", "Doktor Əkbər", "Renessans", "Mulus Korpus" və b. yazaraq bəşər mədəniyyətinə ərməğan etmişdir. Qeyd etmək lazımdır ki, Saididən bizə bir çox şeirlər də miras qalmışdır.

Q. Saidi 1975-ci ilin noyabr ayında Parisdə dünyasını dəyişmiş və Per-Laşez qəbiristanlığında dəfn edilmişdir.[1]

# GÜNEY AZƏRBAYCANI SATİRA ƏDƏBİYYATININ SULTANI USTAD MƏHƏMMƏD HÜSEYN KƏRİMİ

Cənubi Azərbaycanın dünya şöhrətli satira şairi Mirzəli Möcüz Şəbistərinin təxminən həmyerlisi olan Kərimi 100 illik Azərbaycan satirasının davamçısı olaraq, Güney Azərbaycanın qədim tarixi şəhəri, ədəbiyyat, elm, incəsənət və musiqi beşiyi , ədəbiyyat və mədəniyyat tariximizə, siyasi və ictimai həyatımıza dünya şöhrətli musiqiçi Əbdülqadir Marağalı, şair Övhədi Marağalını bəxş edən Marağa şəhərində 1931-ci ildə dünyaya göz açmışdır. Mirzə Məhəmməd Hüseyn Kərimi böyük Azərbaycan şairi olan Məhəmmədəli Zakirin övladı olaraq onun məktəbindən dərs almışdır. Kərimi göz ağrısı ucbatından məktəbə getmək imkanında olmamışdır. Beş yaşına çatar-çatmaz dəyərli ədib və şairimiz olan babası Məhəmmədəli Zakirin hüzurunda dərs almışdır. Məhəmməd Hüseyn atasının baqqal dükanında işləyərək onunla yanaşı, basmaçılığa (kitabsatma) meyl göstərmiş, atasının iş yerini kitab satışı mağazasına çevirmişdir.

O, Mirzə Ələkbər Sabir, Mirzəli Möcüz Şəbüstəridən sonra demək olar ki, Azərbaycanın ən güclü satirik şairidir. Başqa sözlə desək, Güney Azərbaycanı çağdaş satirasının sultanıdır. O, tənz, həcv, lağlağı, şaka, yumor və istehza şairidir. O, gülüş ustadıdır. ustad Kərimi ictimai tənqidçidir və Azərbaycan şer sənətinin xalq deyimi üzrə ən böyük sənətçisidir.

Satira sözü isimdir. Cəmiyyətdəki mənfilikləri, eybəcərlikləri ifşa və təsvir edən bədii əsər satira sayılır. Bu işin ən böyük qələm ustası Mirzə Cəlil Məmmədquluza-

dədir. Satiranın ikinci üzü isə ifşaedici, acı, öldürücü gülüş deməkdir. Buna da örnək "Molla Nəsrəddin" jurnalını göstərmək olar. Satiraya xas, satiraya aid, satira mahiyyətində olan satirik komediya, satirik şeirlərə nümunə kimi Mirzə Fətəli Axunzadə və Mirzə Ələkbər Sabirin əsərlərinin adlarını çəkmək olar.

Mirzə Məhəmməd Kərimini satirik, məzəli, gülməli, tənqidi şeirlərin müəllifi olmqla bərabər, həm də mərsiyə şeirlərinin yazanı kimi qeyd etmək olar. Güney Azərbaycan və digər türk toplumlarında onun əsərləri ev-ev gəzərək dillər əzbəridir.

Ustad Kəriminin Azərbaycan türkcəsinin qoruyucusu olan yaşlı və ağsaqqal ata, ədəbiyyat və şeirsevər şəhəri olan Marağanın bazarında balaca bir kitab mağazası var idi. O, demək olar ki, ömrünün bütün hissəsini şeir və kitabla keçirmişdir. İndi isə ömrünün qalan hissəsini ata yadıgarı olan bu kitab dükanında yaşamaqdadır. Yolunuz Marağa şəhərinə düşərsə, onun kitab mağazasının digər kitab mağazalarından nə qədər fərqli olduğunu görərsiniz. O, qədim şer kitabları, qədim əlyazmalar, rəsm tabloları və bir də dil və mədəniyyətimizə aid olan ab-havanın içərsinidə yaşamaqdadır. O, gündəlik həyat sıxıntılarından və hay-küyündən özünü ayıraraq bu kitab evinin küncünə sığınaarq yazıb-yaratmaqla məşğuldur. Ustad Kəriminin gülər üzü, mənalı siması hər kəsi təsirləndirə bilir. Onun şəxsi xarakteri ilə yanaşı yazıb-yaratdığı satirik və tənqidi şerləri də insana mənəvi zövq və gözəl əhvali-ruhiyyə bağışlayır. Zəmanəsinin ən güclü və tayı-bərabəri olmayan satira şairi yazdığı şerlərdə ana dilimizi çox səlis səsləndirməyi bacarır.

Xalq arasında "ağlar-gülər", başqa sözlə desək, "ağladan və güldürən şair" adı alan ustad Kərimi xalq adət-ənənələrinə və dini inanclarına uyğun mərsiyə kitabları yazır, məhərrəm-səfər ayları xalqımızın ana dilində dini şeirlərə tələbatını qarşılayaraq başqa dilə ehtiyacın

qalmamasını sübut edir. O iki janrda, yəni həm növhə-mərsiyə şeirləri, həm də satirik şeirlər yazaraq xalq kütlələrinin rəğbətini qazana bilmişdir. Onun şeirləri bütün xalqın dilində əzbərdir.

Ustad Kərimi tənqidi və satirik şeirlərini şeir toplusu olan «Rəngarəng» və «Minicup» adlı kitablarında toplamışdır. Ustad Kərimi satirik və mərsiyə şairi olaraq, hazırda yaşayan tək-tük şairlərdəndir. İndiyə kimi 50 min beytdən artıq şeiri çap olunan bu şair demək olar ki, xalqının satira və mərsiyəyə olan ehtiyacını tamamilə qarşılamağı bacarmışdır. O, həmişə, hər an gülərüzlü, xoş danışıqlı, şirin sözlü və qayğıkeş bir insandır. Harada olmasından asılı olmayaraq onun iştirak etdiyi hər bir məclisə sevinc və şadlıq hakim olur. Ustadın şeir təbi xalqımızı həm güldürür, həm də ağladır. Bu da bizim ədəbiyyatımızın möcüzələrindən hesab oluna bilər.

Marağalı Övhədinin «Övhədi» dərnəyinin təməl daşını qoyan ustad Kərimi günümüzədək 35 clilddən çox Azərbaycan dilində iki janrda əsərlərin müəllifidir. Onun «Rəngarəng» şer məcmuəsinin 15-ci sayı işıq üzü görmüşdür. Bunlarla yanaşı, «Müsibətnamə», «Səyahətnamə» kimi əsərləri də ana dilimizdə nəşr olunmuşdur.

Ustad Kəriminin dili ilə desək, «Satira indi həm azdır, həm çətin. Satira budur ki, sözü bir cur yazasan, tərəfə toxuna, amma xoşuna da gələ». Xalq arasında deyirlər ki, ustad Kərimi adama yaman deyirsə, o da adamın xoşuna gəlir. Bir də o, sözünü Azərbaycan şifahi xalq ədəbiyyatına əsaslanaraq, xalqımızın forlklor xəzinəsindən yararlanaraq yazıb yaradır. Yenə el sözü ilə desək, tanınmış və qocaman şairin evinin bir hissəsində məhərrəmlikdir, bir hissəsində isə şeir və ədəbiyyatdır.

O, oğullu-qızlı, gəlinli-uşaqlı çox cəmiyyətli ailədə yaşadığından bu arada cərəyan edən Azərbaycan xalq deyimlərini ustalıqla şeirə çəkərək belə demişdir:

Bax Kəriminin evi bir bala telefonxanadır,
Beş oğul, beş gəlinə telefonumuz bir danadır,
Düzülüblər səfə, gəl görməli bir fırtınadır,
Zəng vurursan bizə, düz Ay batandan sonra vur,
Gecə keçmiş yarısı, hamı yatandan sonra vur.

Ustad Kəriminin satirik mövzu ilə bağlı «Rəngarəng» şer toplusu xalq arasında o qədər önəmli və oxunaqlıdır ki, ilin ən çox satılan kitablarından hesab olunur və o əsərin adına Marağa şəhərində bir meydan tikilibdir. Onun şeirləri Azərbaycanın quzeyinə, Türkiyəyə, Dərbəndə və türk dünyasının bir çox yerlərinə gedib çatmışdır. Bakıda mədəniyyət evinin qarşısında onun büstü də qoyulmuşdur. O bunu eşidəndə demişdir: «Şükür Allaha, mən ki bir karə deyiləm, Allah məhəbbəti salıb ürəklərə».

Ustad Kəriminin əsərləri Güney və Quzey Azərbaycanın bir çox tədqiqatçı və yazıçıları tərəfindən araşdırılaraq dəyərləndirilmişdir və bu günkü gündə ünlü şairin şerləri gənclərin telefonlarında, yaşlıların cib dəftərlərindədər.

Sağlığımda məni yad et, əxəvi,
Mən öləndən sonra cırma yaxəvi.
Sağlığımda dindir məni dil ilə,
Gəlmə tərhimimə tacu gül ilə.
Baba, sağlıqda mənim gül üzümə,
Müştəri ol sözümə, həm özümə.
Məni təşviq eylə xələtlər ilə,
Könlümü şad eylə dəvətlər ilə.
Nə yalandan çapı, qəhqəhələr ilə
Mersi, əhsən, yaşa bəh-bəhlər ilə.
El gərək qiyməti əşarı billə,
Niyə İranda gərək şair ölə...?

Ustad Kərimi bu xoş sözlərlə dilimizi gənclərimizə sevdirməyi özünə əsas məqsəd götürmüşdür və Azərbaycan türkcəsinə kütləvi marağı artırmışdır. Ustadın özü xalqın ona olan marağını hiss edərək Urmiyədən, Təbrizdən,

Əhərdən, Ərdəbildən, Zəncandan olan bir çox gənclərə hər il kitab hədiyyə etməyi özünə borc bilir. Ustadın tək bir sözü var: «Mən istəyirəm ana dilinə olan məhəbbəti ürəklərdə yaşadım».

Ustad Şəhriyarla çox isti münasibəti olan Ustad Kərimi söz mülkünün sultanı Şəhriyara üz tutaraq onun haqqında belə demişdir: «Mən rəhmətlik Şəhriyarı çox görürdüm və onunla bağlı çox xatirələrim var və o, mənə deyirdi ki, Kərimi tez-tez gəl, səni görəndə cavanlaşıram. Şəhriyar hər zaman öz yazılarını qiymətli qablara bənzədirdi ki, o da varlıların evində ola bilərdi. Amma, mənim şerlərimi su bardağına bənzədirdi və deyirdi ki, o, hər evdə ola bilər.»

Hörmətli oxucular, ustad Kəriminin şeirinin möcüzəsi də elə bundadır. Onu həm savadlı, həm də savadsızlar anlaya bilir:

**Ana dilimə**

Alovlu sinəmin ahı vücudumu kül edər.
Əgər su səpməsə bu çeşmi-xunfişan dilimə.
Nə qədər gizlədirəm dərdi-eşqi əğyardan,
Ürəkdə cuşə gəlir, qəm olur rəvan dilimə.
Ana dilim elə şirindir, candan istəməli,
Açanda mən dil anam çox deyibdir "can" dilimə.
Dilim şirindir baldan, odur ki, qəm yemərəm
Əyər vura ayılar niş hər zaman dilimə.
Qəzəldə sevgilini türkə bənzədər şair,
Gözəl kəlam ilə türkü veribdir can dilimə.
Mənəm o türk ki, Buxara ilə Səmərqəndi,
Bağışlayıblar qara xalə xoşbəyan dilimə.
Deyin o düşmənə daldan çıxardaram dilini,
Qəhərrərəm əngini hər kim desə yaman dilimə.
Dilim gözəldir, sözüm cümlə sözlərin gözüdür,
Özüm sözüm kimiyəm, bağlama yalan dilimə.
Fəzilət etsən Allah yanında təqvadır,

Batırma tən ilə, ey müddəi tikan dilimə.
Buyurmuş «əkrəməkum ində rəbbi ətkakom»,
Belə bəyan eyləyib xətmi-mürsəlan dilimə.
Gəlin verək əl-ələ düşmənin qazaq kökünü,
Yetirmə zəhərli əqrəb kimi ziyan dilimə.
Kərimiyəm, dilimi rayici-zəman edərəm,
Təvəccöh etsə ağam sahib-əz-zəman dilimə.

# DƏYƏRLİ FOLKLORŞÜNAS ALİM MƏHƏMMƏDƏLİ QÖVSİ FƏRZANƏ

Güneydə məlum səbəblərə görə uzun bir müddət Azərbaycan türkləri ana dilində təhsildən, bədii ədəbiyyat oxumaqdan məhrum edilmişlər. Doğma dilində yazıb-oxuya bilməyən azərbaycanlıların el nəğmələri, atalar sözləri, bayatıları, nağılları, dastanları dildən-dilə, eldən-elə dolaşmışdır. Folklor nümunələri xalqın ruhuna yaxın olduğu üçün anlaşımlı və həmişə yaşar olmuşdur. Millətin xəzinəsi sayılan folklor örnəklərini də qorumaq, yaşatmaq lazımdır. Güney Azərbaycanda folklor və xalq yaradıcılığını toplayıb, onu sistemə, nizama salan və araşdıran alimlərin sayi az deyildir. Onların biri adını çəkdiyimiz çox gözəl alim Məhəmmod Əli Fərzanədir. Məhəmməd Əli Fərzanə Güney Azərbaycan türkcəsinin qramatikasını və Azərbaycan ədəbiyyatı qaynaqlarına dair kitabları yazan, bu dildə folklor nümunələrinin ardıcıl toplayıcısı və nəşr etdirəndir. Adı çəkilən dəyərli alim 1945-ci il Güney Azərbaycanda cərəyan edən milli hərəkatda iştirak etmış, qələmini bu yolda millətinin xidmətinə yönəltmişdir. Düşüncələrinə görə şah rejimində dəfələrlə həbs edilmişdir.

Məhəmməd Əli Fərzanə 1923-cü ildə Güney Azərbaycanın mərkəzi Təbriz şəhərində dünyaya göz açmışdır. Onun atası Məşrutə inqilabının iştirakçılarından idi. Anası savadsız bir qadın olsa da, gözəl el ədəbiyyatı bilicisi idi. Adlı-sanlı aşıqlar yetirən Güney Azərbaycanın Qaradağ bölgəsindən idi. Doqquz uşağın ilki olan Məhəmməd Əli Fərzanənin anasının ona və qardaşına söylədikləri onun düşüncə və hafizəsində dərin iz qoyur. Xalq ədəbiyyatı xəzinəsinə heyranlığı və sonsuz sevgisi onun bütün həyatını məhz bu sahədə yaradıcılığa yönəldir.

O, 1942-ci ildə Təbriz şəhərində Pedaqoci İnstitutu bitirdikdən sonra əmək fəaliyyətinə başlayır və Təbriz kitabxanasında işə girir. Bir gün kitabxanada təsadüfən üzərində "atılası kitablar" yazılmıs bir bağlama görür. Oradakı kitablardan biri əsrimizin əvvəllərində Kilisli Rüfətin Türkiyədə nəşr etdirdiyi "Dədə Qorqud" əsəri onda böyük maraq doğurur. O illərdə türk millətinin ən böyük abidəsi olan "Dədə Qorqud" dastanlarına həm sovetlərdə, həm də İranda qadağa qoyulmuşdu. Əsərlə tanış olduqdan sonra Avropa, Türkiyə və Azərbaycanda "Dədə Qorqud" dastanları haqqında yazılanları, kitabları toplayır, onların üzərində araşdırmalar aparır.

1945- 46-cı illərdə Təbrizdə nəşr olunan «Azərbaycan» qəzetində Məhəmməd Əli Fərzanə tərəfindən toplanmış "Dədə Qorqud" dastanları, eləcə də bayatıların ilk örnəkləri çap edilir. Başda Məhəmməd Əli Fərzanə olmaqla qəzetin əməkdaşları, oxucuları da folklor örnəkləri toplamağa cəlb edir. Dil özəllikləri saxlanmaqla çap olunan bu örnəklər xalq arasında maraqla qarşılanır, onları ruhən öz soyuna kökləyir.

Məhəmməd Əli Fərzanə folklorla bağlı 50 illik toplama və araşdırmalarını "Dədə Qorqud"( müqəddimə ilə birlikdə), "Azərbaycan folklor antologiyası"(2 cilddə) və başqa kitablarında çap etdirmişdir. Dəyərli alimin folklorla bağlı yazıları bir neçə cəhətdən özünəməxsus keyfiyyət kəsb edir. Bu yazılarda dərin müşahidəçilik qabiliyyəti, milli bədii təfəkkürə dərindən bələdlik duyulur. Bunun nəticəsində onun yazılarında elmiliklə bədiilik, xatirə düzümü ilə publisistik çalar bir-birini tamamlayır.

Pəhləvi rejimi dövründə İranın 2 ən böyük qövmündən biri olan türklər və onların gələcəyi hakim fars millətçilərini qorxuya salırdı və sonuncular Azərbaycan türklərinə qarşı açıq hücuma keçirdilər. Bunun üçün xalqın

tarixi keçmişi və dili haqqında iftira və uydurma dolu elm və gerçəklikdən uzaq şovinist niyyətli qalın-qalın kitablar yayırdılar. Qeyd olunduğu kimi, Güney Azərbaycanda ilk dəfə Azərbaycan türkcəsinin qramatikasına aid kitab nəşr edən M.Fərzanə olmuşdu və o, bu kitabı ağır həbs şəraitində yazmışdı. Kitabın yazılıb çap edilməsi türkcənin qədim və müstəqil bir dil kimi mövcudluğunu danmaq istəyən fars şovinistlərinə tutarlı cavab olur. Nəşr olunduqdan sonra onun yayılması haqqında rəy və şərhlərin mətbuatda işıqlandırmasına imkan verilmədi və tezliklə Pəhləvi rejimi tərəfindən kitab yasaq edildi. Lakin bütün qadağalara baxmayaraq, onun sorağı Quzey Azərbaycan, Türkiyə və Avropaya gedib çatdı. Almaniyada Köln Universitetinin professoru, məşhur şərqşünas cənab Dorfer bu kitabla tanışlıqdan sonra ona müsbət rəy verərək alman dilinə çevirdi. Bu gün həmin kitab Almaniyanın Köln Universitetinin şərqşünaslıq fakültəsində dərs vəsaiti kimi istifadə edilir. Həcmcə çox böyük olmayan bu 2 cildlik kitabin dəyəri, onun özündən sonra Azərbaycan dilçiliyinə aid onlarla elmi kitabın yazılmasına örnək ola bilməsindədir.

Məhəmməd Əli Fərzanə Tehranda nəşr olunan "Varlıq" dərgisində çap etdirdiyi «Ana dilimiz və milli varlığımız uğrunda xatirələr» silsilə yazılarında o dövrdə türkcə tamaşaların, kitab nəşrinin, dini ayinlərin icrasında Azərbaycan türkcəsinin işlənməməsi və məktəblərdə türkcənin yasaq olunmasından geniş bəhs etmiş, bunlarla bağlı şahidi olduğu və eşitdiyi hadisələrdən epizodlar gətirmiş, başqa sözlə desək, Güney Azərbaycan ziyalılarının milli maarif, elm, məktəb uğrunda mübarizələrini əks etdirmişdir.

Fərzanənin 1964-cü ildə işıq üzü görmüş «Azərbaycan xalq bayatıları» toplusu İrandakı sonuncu inqilabdan

sonra hər dəfə yenidən işlənmiş və təkmilləşdirilmiş şəkildə 10 dəfə çapdan buraxılmış, tirajına görə folklorumuzun topluları arasında birinci yeri tutmuşdur.

M.Ə.Fərzanə 1946-cı ildən başlayaraq Azərbaycan ədəbiyyatı mənbələrinə müraciət edir. Nizami Gəncəvi haqqında silsilə məqalələr yazır. Dövrümüzün tanınmış söz ustaları Məhəmməd Hüseyn Şəhriyar, Bulud Qaraçorlu Səhənd, Səməd Behrəngi ilə yaxından əlaqələr qurur. Böyük şairimiz Şəhriyarın «Heydər babaya salam» poemasının əlyazmasını oxuduqdan sonra əsərin bədii özəllikləri barədə Güney Azərbaycan mətbuatında ilk çıxış edənlərdən olur. Şair Səhənd və böyük araşdırıcı Səməd Behrəngi ilə onu təkcə sənət deyil, dostluq telləri də bağlamışdı. Əsərlərinin çoxunu folklor materialları əsasında yazdıqları üçün adı çəkilən bu iki yazar həmişə M.Ə.Fərzanə ilə mədəni-mənəvi, eləcə də ədəbi yaradıcılıq əlaqələri saxlamışlar.

M.Ə.Fərzaninin yaddaşı Güney Azərbaycan folklorunun, ümumiyyətlə tarixi və ədəbi olaylarının canlı ensiklopediyasıdır. O, müxtəlif vaxtlarda topladığı nümunələri və araşdırmalarını «Azərbaycan söz inciləri» üç cildlik kitabında çapa hazırlamışdır. M.Ə.Fərzanə İranda Azərbaycanın milli-mənəvi dəyərlərinə aid nəşrlər boşluğunu doldurmaq üçün iki qardaşı ilə bərabər "Fərzanə" adlı nəşriyyatını açmışdır. Burada o, şovinist şah rejimi tərəfindən faşistcəsinə yandırılmış, yığdırılmış kitabların nüsxəsini tapıb yenidən çap etdirmişdir.

Bu günə qədər adı çəkilən nəşriyyatda otuzdan artıq kitab işıq üzü görmüşdür. Fədakar alimin özünün neçə-neçə kitablarının çapa ehtiyacı olduğu halda, digər müəlliflərin kitablarının çapını ön plana çəkməsi faktı onun xalqı və milləti qarşısında nəcib və insani bir hərəkətinin nümunəsidir.

Onun son 20 illik yaradıcılığı Tehran şəhərində dünya şöhrətli alim doktor Cavad Heyətin başçılığı ilə nəşr olunan “Varlıq” dərgisi ilə bağlıdır. Azərbaycan millətinin ədəbi, elmi dəyərlərini sətir-sətir varisinə çatdıran, sevdirə bilən bu universal toplu 23 ildir ki, İranda yaşayan türklərin ana dili məktəbinə çevrilmişdir. Varlıq jurnalının yaradıcı müəlliflərindən biri olan M.Ə.Fərzanə klassik və müasir ədəbiyyatın, milli mədəniyyətin digər sahələri ilə folklor materiallarının da bu dərgidə tədqiq və təbliğində özəl xidmət göstərir. Mətbuatda folklor toplamaları, elmi-publisistik yazıları, tərcümələri ilə ardıcıl çıxış edən Məhəmməd Əli Fərzanənin Güney milli şüurunun hazırki ərsəyə gəlməsində inkaredilməz zəhməti olmuşdur. Alim bu yaxınlarda İsveçrədə Bulud Qaraçorlu Səhəndin “Dədə Qorqud” daslanlarının əsasında yazdığı «Sazımın sözü» poemasını tərtib edərək çapdan buraxmışdır.

# DİLİMİZ-DİRİLİYİMİZ

Dil xalqın ən zəngin sərvətidir. Güney Azərbaycanda dilin qorunması və inkişafı ilə bağlı problemlər həmişə böyük əhəmiyyət kəsb etmişdir. İran ərazisində fiziki sərhədlərini çoxdan itirən 35 milyonluq millətin ərazi sahibliyini, etnik varlığını, tarixi haqlarını, yalnız dil qoruyub təsdiq edə bilər. Bəlkə, elə bu səbəbə görə İranda Azərbaycan dilinə qarşı görünən və görünməyən «müharibələr» ən qatı və cinayətkar şəkildə davam etməkdədir. Bugünkü İran ərazisində yüz illərlə taxt-tac sahibi olmuş türk əsilli şahlar bölgənin etnik mənşəyinə deyil, dövlətçilik maraqlarına daha çox üstünlük versələr də, təxminən son 200 ildə bu yerlərin tarixi sakinləri və sahibləri olan azərbaycanlılara qarşı davamlı «dil müharibələri» getmişdir. Belə anti-humanist tendensiyanın xronologiyasını izləyəndə İrandakı etnik təmizləmə, assimilyasiya planlarının gizli mahiyyəti üzə çıxır. Demokratiyaya meylli olan dünyada İranın da gələcəyi bu ərazidə yaşayan xalqların milli kimliyi, tarixi haqları prinsipi əsasında müəyyənləşəcək. Bundan ehtiyatlanan şovinistlər, böyük milli güc saydıqları Azərbaycanın bu ərazilərdəki haqlarını şübhə altında qoymaq məqsədilə, planlı siyasət həyata keçirirlər. Bu plan əsasən iki xətt əsasında aparılır: a) tarixi ərazilərin təhrifi; b) milli kimliyin saxtalaşması.

Bu planın antik izləri «Şahnamə» dastanını yaradan Firdovsinin türk bahadırı Alp Ər Tunqaya (Əfrasiyaba) münasibətində də öz əksini tapir. Çox təəssüflər olsun ki, IX əsrdə ədəbi ideoloqların başladıqları bu anti-humanist münasibət tarixçilər, siyasətçilər tərəfindən bu günümüzə kimi davam etdirilmiş, Azərbaycan xalqının hüquqları daim basqılar altında saxlanılmışdır.

XVI əsrin birinci yarısında Şah İsmayıl Xətainin uzaqgörən siyasəti hesabına tarixi ədalətsizlik qısa zaman kəsiyində aradan qalxsa da, onun farspərəst varislərinin sadəlövhlüyü üzündən bu proses yenə çıxış nöqtəsinə qayıtmışdır.

Azərbaycan dilinə və milli kimliyinə qarşı ən qatı cinayətlərin leqallaşdığı ikinci mərhələ kimi, İranda uzun əsrlərin türk hökmranlığının çökməsi, taxt-tacın Rza şah Pəhləvinin əlinə keçməsi ilə (1925) başlandı. 70-ci illərin sonunda İran İslam inqilabından sonra cəmiyyətdə gedən nisbi mülayimləşmə fonunda yeni diskriminasiya formaları öz spesifik cəhətləri ilə 3-cü mərhələni təşkil edir. Son 20-30 ildə isə azərbaycanlıların bu milli maraq dünyasını konservasiya etməklə gözdən salmağa çalışırlar. Bu işdən ötrü İranın maraqlı dairələri külli miqdarda vəsait ayırmaqdan, xüsusi təlim görmüş tarixçi, etnoqraf, dilçi, folklorçu, politoloqlar yetişdirməkdən usanmır. Belə fars şovinist liderlərindən Əhməd Kəsrəvinin bu sahədəki iftira və şantajları miqyasına görə ölçüyəgəlməzdir. O, qədim Azərbaycan tarixini öz bildiyi kimi yazmaqdan qəti xəcalət çəkmir, alim, ziyalı adını öz cızma-qaraları ilə kölgə altında qoyur. Ə.Kəsrəvi «Azərbaycan ya zəbani bastani Azərbaycan» adlı əsərində gah XI əsrdə Azərbaycana səlcuqların gəlişindən, gah da Ağqoyunluların və Qaraqoyunluların, Səfəvilərin hakimiyyəti illərində bu yerlərin türkləşməsi barədə ziddiyyətli fikirlər irəli sürür(1). Belə qərəzli tarixçinin yetişdirmələrindən olan Cavad Şeyx əl İslami bir az da qabağa gedərək azərbaycanlılara qarşı inkvizasiya dövrünün cəzalarını tətbiq etmək təklifini irəli sürür. Onun düşüncəsinə görə, azərbaycanlı uşaqlar valideynlərindən alınıb İranın ucqar fars vilayətlərində xüsusi təlim mərkəzlərində yerləşdirilməlidir. Azərbaycanın

farslaşdırılması bu tədbirlər hesabına 50 il ərzində həyata keçirilməlidir (2).

Hələ ötən əsrlərdən başlayan bu təhlükəli tendensiya İranda qeyri millətlərə qarşı çox ağır nəticələrlə yekunlaşa bilərdi. İki əsaslı əks təsirin müqaviməti qismən də olsa, bu tendensiyanın qarşısını aldı. Bu faktlardan birincisi Avropanın mütərəqqi elmi ictimaiyyətində türk etnik varlığına və onların qədim şumerlərin əcdadları olduqlarına inamın qətiləşməsidir. İkinci faktorsa, İranda yaşayan görkəmli azərbaycanlı alimlərin tarixi gerçəkliyi əks etdirən fundamental əsərləri ilə fars şovinizminə tutarlı cavablar vermələri işinin fəallaşmasıdır. İngilis alimi S.Loyd və Q.Çayld yazır: «Turanlar təxminən 10-12 min il bundan əvvəl səfalı, bəhrəli Dəclə və Fərat çayları hövzəsində məskən salıb ətrafda yaşayan saysız-hesabsız vəhşi qəbilələrin heyrətli nəzərləri altında dünya sivilizasiyasının səhərini açdılar. Dünyada ulu bir mədəniyyətin məşəli alışdı. Bu işıq daxildən gəlirdi və çox keçmədi ki, qoca Asiyanın münbit torpaqlı hər guşəsində bu işıq şöləlləndi» (3).

Görkəmli Azərbaycan tarixçisi M.T.Zehtabi «İran türklərinin əski tarixi» əsəri ilə təkcə fars şovinistlərinə deyil, bu sahədə elmi kəşflərini dəqiqləşdirmək istəyən avropalılara da sübut etdi ki, Türküstan, Azərbaycan, Zaqros dağları, İkiçayarası və ətraf ərazilər vahid mədəniyyət, incəsənət sektoruna daxildir. Bu faktı daha çox həmin ərazilərdən toplanmış maddi-mədəniyyət nümunələri də təsdiq edir(4).

M.T.Zehtabinin tarixə, arxeologiyaya aid təxminləri Avropa tarixçilərinin fikirləri ilə üst-üstə düşdüyündən onun hər bir əsəri, məqaləsi İranda sensasiya doğurur. Azərbaycan-Şumer etnik birliyini təsdiq edən fakt kimi tarixi ərazilərimizdəki Aratta dövlətinin şumerlərlə mədəni-iqtisadi əlaqələri e.ə. III minilliyin birinci yarısında meydana

çıxan Şumer dastanlarında («En-Merkar və Aratta hökuməti», «En Merkar və En Şukuşsirana», «En-Merkor və Luqalbanda», «Luqalbanda və Hurrum dağı») da öz təsdiqini tapmışdır (5).

M.T.Zehtabinin tədqiqatlarında maraqlı bir versiya da diqqəti cəlb edir. Alim güman edir ki, şumerlər Orta Asiyadan Xəzərin şimalı, Dərbənd və Daryal keçidləri ilə Azərbaycandan İkiçayarasına keçərkən e.ə V əsrdə onlardan müəyyən tayfalar və boylar ayrılıb bu ərazilərdə məskən salmış, sonralar Aratta, Qutti, Lullubi, Kassi və s. dövlətlərin əsasını qoymuşlar(6).

Azərbaycanın tarixi türk əraziləri olması faktını islam alimləri, ərəb və fars tarixçiləri də dönə-dönə təsdiqləmişlər. Ərəb alimi İbn Hişam öz əsərində yazır: «Dövrünün xəlifəsi Übeydə sual verir: türk və Azərbaycan nədir? Übeyd isə cavabında deyir: Azərbaycan qədimdən türklərlə məskun olduğu bir ölkədir»(7).

Samani dövlətinin vəziri olmuş Əbu Əli Məhəmməd Bələmi «Tarixi-Bələmi» adlı əsərində (səh. 42) Azərbaycanın ərazi kimi tarixən türkün əlində olmasını bildirir. Bütün bunlar göstərir ki, Azərbaycan təkcə ərazi faktı kimi deyil, həm də milli-etnik cəhətdən türk dünyasının, dilinin, mədəniyyətinin ən qədim ocağı, mühafizi, mənşəyidir. Bu tarixi məkanda Şah İsmayıl Xətai, Saib Təbrizi, Şeyx Qasim Ənvər, Həqiqi, Vahid Təbrizi, Qövsi Təbrizi kimi böyük şair və mütəfəkkirlər məhz türk və Azərbaycan etnik mühitinin yetişdirmələridir. Bu dövrün milli ədəbi faktı olan «Qara məcmuə» əsəri nəsrin ən maraqlı nümunəsi kimi bu gün də əhəmiyyətini qoruyub saxlayır. Heç şübhəsiz, ötən əsrin əvvəllərində şiddətlənən fars şovinizminə qarşı mübarizədə tarixi faktlarla yanaşı, milli ədəbi nümunələrin mövcudluğunun da böyük rolu olmuşdur. Azərbaycan milli dövlətçiliyi tarixində unikal şəxsiyyət olan Şah İsmayıl

Xətainin ədəbi irsi onun qılınc hakimiyyətindən çox-çox uzunömürlü olmuş və milli şeirimizin inkişafında, Azərbaycan dilinin funksionallığının artırılmasında əvəzsiz xidmət göstərmişdir. Xətainin milli dilin işləkliyi istiqamətində gördüyü işlər ondan sonrakı əsrlərdə də İran ərazisində Azərbaycan ruhunun yaşamasına, bu dildə bədii əsərlər yazılmasına və çapına şərait yaratmış oldu. M.Füzuli «Divan»ının ilk dəfə Təbrizdə nəşri (1828) bütün şərq uçun maraqlı hadisə hesab oluna bilər. Sonralar bu divanın təkrar nəşrləri (1831, 1849, 1854, 1857) də İranda dil mühitinin işləkliliyinin, funksionallığının əyani göstəricisidir. Füzuli «Divanı»ı sonralar İstanbulda, Xivədə, Daşkənddə, nəhayət, Bakıda (1844) çap olundu(8).

XIX əsrın bırıncı yarısında Təbrızdə kitab çapının belə inkişafı dilimizə gizli və açıq təzyiqlərə qarşı mübarizə vasitəsi kimi ,yerli ziyalılar tərəfindən istifadə olunurdu. Təəssüflər olsun ki, uzun əsrlər İran xanədanına rəhbərlik etmiş türk əsilli şahlar milli duyğudan uzaqlıqları ilə, Azərbaycan etnik varlığına qarşı bugünkü, qeyri-normal münasibətin formalaşmasında yadlara imkan yaratmışlar. Qacarların hakimiyyəti zamanı türkdilli ədəbiyyatın çapına, qəzet və jurnalların yaydmasına güclü qadağalar qoyulmuşdur. Hətta «Molla Nəsrəddin» jurnalının İranda yayılması cinayət kimi dəyərləndirilirdi(9).

Bütün bunlara baxmayaraq, Güney Azərbaycanda dilimizə, milli kimliyimizə qarşı basqılara qəzet və ədəbiyyatın çapı ilə cavab verilir, fars şovinizminin hökmranlığına qarşıdurmalar güclənirdi. XX əsrin əvvəllərində anadilli qəzetlərin sayı və sanbalı artırılır, bu mətbuat orqanları xalqı ayıltmaq, öz milli hüquqlarını onlara tanıtmaq istiqamətində tədbirlər görürdü. «Ədalət» qəzetinin əlavəsi kimi cap olunan «Ana dili» 1907-ci ildə Təbrizdə işıq üzü

gördü. «Azərbaycan» dərgisi bu sahədə xüsusi xidmət göstərirdi (10).

Milli dilin, milli düşüncənin təhsildən keçdiyini yəqinləşdirən Azərbaycan ziyalıları anadilli məktəblərin açılmasına, təhsilin bu istiqamətdə qurulmasına önəm verirdilər. Belə təkliflər çox vaxt ziyalıların fərdi təəssübkeşliyi ilə dövlət dəstəyi olmadan həyata keçirilirdi. Bu cəhətdən görkəmli Azərbaycan pedaqoqu Mirzə Həsən Rüştiyyənin fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir. O, uzun illər Şimali Azərbaycanda, İrəvanda pedaqoji işlə məşğul olmuş, anadilli məktəblər açmış, 1893-cü ildə isə Təbrizə gedərək müasir təlim metodlarına əsaslanan ilk ibtidai məktəbin əsasını qoymuşdur. İranda bu işin ən önəmli cəhəti məktəbdə təlim və tədrisin ana dildə olması idi(11).

Dilin inkişafında şəxsiyyətlərin, görkəmli siyasətçi və ölkə başçılarının qayğısının rolu böyükdür. Şah İsmayıl Xətainin XVI əsrdə başladığı işi sonralar Şeyx Məhəmməd Xiyabani davam etdirərək xalq qarşısında dogma ana dilində alovlu nitqləri ilə onun dövlət haqqını özünə qaytarmış oldu. Ölkədə başlayan milli azadlıq hərəkatı tezliklə anadilli qəzetlərin meydana gəlməsi ilə nəticələndi ki, bu da Azərbaycan ruhunun yüksəlməsinə səbəb oldu. «Təcəddüd», «Azadistan», «Ədəb» kimi qəzet və jurnallarda xalqın əsas arzu və istəkləri öz əksini tapırdı:

«Təcəddüd olub üsyanın gur səsi,
Gəzir bölgə-bölgə onun nəğməsi,
Ayıldır yatan hər bir kəsi.
Yazır durmadan fırqənin haqq sözün,
Açır xalqa ədalətın iç uzun,
Və yol göstərır usyana...».(12)

Deyildiyi kimi, Güney Azərbaycana milli etnik təcavüzün ikinci - ən sərt təpgisi XX əsrin birinci yarısında (1925), uzun illər sürən Qacar sülaləsinin Rza şah Pəhləvi

hakimiyyəti ilə əvəzlənməsindən sonra başlandı. İngiltərə hökumətindən dəstək alan və onun əlaltısına çevrilən bu qatı şovinist İran ərazisindəki azərbaycanlıların etnik kimliyini, milli maraqlarını silib atmaq üçün çox qəddar üsullardan istifadə edir, onların ən adi insani hüquqlarını tapdalayırdı. Dilə, milli kimliyə görə diskriminasiya halı bu vaxt baş alıb gedirdi. Nəinki azərbaycan dilli qəzetlər bağlanır, hətta ictimai yerlərdə bu dildə danışmaq qadağan olunurdu. Çox maraqlıdır ki, təcavüz gücləndikcə azərbaycanlıların da müqaviməti paritet əsasda artır, xalqın dil, mədəniyyət, tarixi haqlar üzrə mübarizəsi sistem halını alırdı. Uzun çətinliklərdən sonra Seyid Cəfər Pişəvərinin başladığı 21 Azər hərəkatının qələbəsi 1945-1946-cı illərdə Azərbaycan dilini rəsmi dövlət dili elan etdi, bütün idarələrdə kargüzarlıq işləri bu dildə apardmağa başlandı (13).

Bu qısamüddətli azadlıq, müstəqillik Güney Azərbaycanda onlarla, yüzlərlə adda kitabın, dərginin, qəzet və jurnalın sürətli çapı ilə nəticələndi. Xalqın milli azadlıq duyğularının tərcümanı olan bu mətbu nəşrlər ana dilinin ədəbi dil normativliyi qazanması, bütün İran ərazisində funksionallığın təmin edilməsi sahəsində böyük iş gördü. Təbrizdə Azərbaycan Milli Məclisinin orqanı «Azad millət», Azərbaycan Həmkarlar İttifaqının orqanı «Qələbə», Demokrat Gənclər Təşkilatının «Cavanlar», «Yeni şərq», «Fəryad», qəzetləri, «Cövdət»(Ərdəbil), «Urmiya» (Urmiya), «Azər» (Zəncan), «Vətən» (Miyanə), «Şəfəq», «Demokrat» (Təbriz), Azərbaycan Şairlər Cəmiyyətinin orqanı «Günəş», «Azərbaycan», «Mədəniyyət» az bir zaman ərzində milli ideyaların kütlələr içərisinə daşınmasına xidmət etdi( 14).

Bu sevincli günlərdə Güney Azərbaycan radiosunun ilk dəfə yayıma başlaması (7 aprel, 1946) xalqımızm taleyində ən uğurlu səhifələri tarixə yazmış oldu(15).

Hər gün günortadan sonra 4 saat yayımlanan Təbriz radiosunun himni də, şair Seyid Mehdi Natiqin və bəstəkar Cahangir Cahangirovun bu ümummilli işə ciddi münasibəti kimi yadda qalır:

Ey vətənim, Azərbaycan,
Əbədi odlardan nişan.
Adlı-sanlı keçmişin var,
Sən böyütdün qəhrəmanlar.
Qoca Şərqin çırağısan,
Azadlığın bayrağısan.
Tarix boyunca yadigar
İftixarlı əsərin var.
Sənsən bizə ana vətən,
Sənsən bizə nemət verən.
Sənsən bizə ruhi-rəvan,
Yaşa, yaşa Azərbaycan! (16)

Lakin Azərbaycan xalqının bu mənəvi dirçəlişi uzun sürmədi. Qərbə, o cümlədən SSRİ-yə müəyyən güzəştlər hesabına Pəhləvi hökuməti yenidən Azərbaycan dövlətinin üstünə hücuma keçdi. Bu hücum xalqımızın yaşı min illərlə ölçülən mənəvi dəyərlərinin, tarixi etnik genefondunun məhvinə istiqamətləndirilmişdi. Ölkədə Azərbaycan dilli məktəblər, mətbuat, nəşriyyatlar qapandı. Dövlət idarələrində bu dil yasaq edildi. Təxminən bir il ərzində çap olunmuş kitablar, qəzetlər od vurub yandırıldı. Ziyalıların, fikir, düşüncə adamlarının təqibi, həbsi, terroru ağılasığmaz vüsət aldı. İş o yerə gəlib çatmışdı ki, məktəblərdə, ictimai yerlərdə «cərimə sandıqları» yerləşdirilir, Azərbaycan dilində danışanlar bu sandığa pul salmaqla yaxalarını inzibati cəzalardan qurtara bilirdilər. Taxtda olduğu 50 il ərzində Pəhləvi recimi Azərbaycan milli varlığına qarşı iki

istiqamətdə mübarizə aparırdı: 1) yasaqlar, təzyiqlər, həbslər və terror; 2) süni milli kimliyin, qondarma coğrafı-inzibati ərazinin formalaşdırılması. Birinci «metod» üzdə getdiyindən qarşılıqlı təsirlə müşahidə olunurdusa, ikinci daha dərin qatlarda və strateji mahiyyət daşıyan tədbirlər əsasında aparılırdı. Bu işə vicdanını itirib, imperiya quluna çevrilmiş çoxlu tarixçi alimlər, ideoloqlar cəlb olunmuşdur. Taleyi mübarizələrdə keçmiş Azərbaycan xalqı heç olmasa söz azadlığını, dil istiqlalını qorumaq üçün qarşıdurmadan əl götürmədi. Məşhur «Heydər babaya salam»ın müəllifi M.Şəhriyar, Bulud Qaraçorlu Səhənd, Cabbar Baxçaban, Səməd Behrəngi, Nüsrətulla Fəthi, Məmmədəli Məhzun, Məmmədəli Fərzanə, Yadulla Məftun Əmini, Həbib Sair, Əli Təbrizi kimi şair və yazıçılar həyatlarını riskə qoyaraq milli azadlıq eşqini bədii ədəbiyyatda yaşadırdılar(17).

Təkcə azərbaycanlılara qarşı deyil, İranda yaşayan bütün etnik mədəniyyətlərə düşmən kəsilən bu rejim, nəhayət ki, 1979-cu ildə İslam inqilabının nəticəsində aradan qaldırıldı. Azərbaycan etnik varlığının və mədəniyyətinin inkişafından ötrü yeni mərhələnin başlandığını yəqinləşdirən ziyalılar daha geniş demokratik islahatlara iimid bəsləsələr də, bu sevinc uzun sürmədi. İranda yaşayan xalqların dil haqları (maddə 15), hüquq bərabərlikləri (maddə 19) konstitusiya aktında öz əksini tapsa da, dövlət məmurları hər addımda milli mədəniyyətlərin inkişafına mane olur, tək-tək fəaliyyət göstərən qəzet və dərgilərin də nəşrini dayandırırdılar. İnqilabın eyforiyası hesabına işıq üzü görən «Varlıq», «Dədə Qorqud», «Ülkər», «Koroğlu», «Günəş», «İnqlab yolunda», «Yoldaş» kimi dərgilər çox keçmədi ki, («Varlıq» istisna olmaqla) səbəbi göstərilmədən qapandı(18).

Açıq və gizli basqıları hiss edən ziyalılar (Həmid Nitqi, Cavad Heyət) heç olmasa «Varlığ»ı qoruyub

saxlamaq üçün ən mütərəqqi fikir adamlarını bu dərgi ətrafında topladılar. 25 ilə yaxındır ki, «Varlıq» Güney azərbaycanlıların milli-etnik varlığının, mövcudluğunun nümunəsi kimi bəşəri ideyaların, ədəbiyyat və mədəniyyətin, tarixin, dilin ən seçmə nümunələrini çap edib yaymaqla məşğuldur. «Varlıq» həm də ədəbi dilin formalaşmasında, əlifba islahatının keçirilməsində Cənubda yaşayan soydaşlarımızın bu dil işığı ətrafında toplaşmasında öz vətəndaş mövqeyini həmişə qoruyub saxlayır. İran ərazisində azərbaycanlıların tarixi miqrasiyasını, təşkilatlanma tarixini və arealının, digər xalqlarla qarışıq yaşadıqları bölgələrin xəritəsini dəfələrlə ostanlıqlara parçalanan ərazilərin vahid bölünməz konturlarını məhz «Varlığ»ın səhifələrindən oxuyub öyrənən xalq bu dərgini öz varlıqları hesab edir, qoruyurlar. Milli dil və düşüncə ideyası ətrafında birləşən ziyalıların böyük bir qrupu hələ 1999-cu ildə İran prezidenti Xatəmiyə müraciət edərək, Azərbaycan dili və ədəbiyyatına qayğı göstərməsini xahiş etmişlər. Lakin yuxarı dairələrdə Pəhləvi dövründən mövqe tutan bir çox rəsmilər xalqın bu konstitusion tələblərinə məhəl qoymur, onun icrasına hər vəchlə mane olurlar. Bu gün İrandakı ümumi çap məhsulunun yalnız 3-4 faizi qarışıq - Azərbaycan və fars dilində çap olunur (19) .

Güney Azərbaycanda çap edilən «Rauate no», «Məhdi-Azadi», «Ümidi-Zəncani», «Mobin», «Sahib», «Nedaye-Azərbaysan», «Əmin», «Şəms Təbriz», «Fərci-Azərbaycan», «Misaq», «Əhrar», «Azərbaycan», onların bir çoxu açıq milli ideyalar yaydığına görə («Mobin», «Ümidi-Zəncan», «Şəms Təbriz») öz fəaliyyətlərini dayandırmış oldu(20).

Son vaxtlar nəşrə başlayan «Avaye-Ərdəbil», «Əxtər», «Ərk» qəzetləri, «Yol», «İslami birlik», «Səhənd»

və «Peyki-Azər» curnalları da «Varlıq» ideyalarının daşıyıcısı kimi fəaliyyətə başlayıblar.

İctimai hərəkat milli azadlıq hərəkatı tələbələri arasında daha kütləvi xarakter alır. Təbriz Universitetinin tələbələri bu gün həmişə olduğundan daha fəal təsir bağışlayır, milli dil, milli kimlik problemlərinin həllində ön sırada gedirlər. Tələbə dərgisi «Səhər» universitet gənclərinin ictimai fikir ətrafında birləşməsində, strateji planların reallaşmasına yardımçı olur. Bu dərgidə çap etdirdikləri məqalələrdə gənclər Azərbaycanın bir məmləkət kimi tarixən mövcudluğundan, dilimizin bugünkü inkişafı prosesinə təsir göstərən amillərdən bəhs edirlər. Dərgilərin 9-10-cu saylarında məqalə sərlövhələri seçilmiş fikirləri göz önündən keçirmək təbrizli gənclərin milli düşüncə istiqamətlərini öyrənməyə kifayət edir: «İran tarixçiliyində Azərbaycan hardadır?», «Azərbaycan adı ətrafında mübahisələrin siyasi əhəmiyyəti», «Aran yalnız Azərbaycanın bir vilayətidir», «Azərbaycan haradadır?», «Qafqaz Albaniyasına aid Aran adının anlayışı», "Bir kitaba tənqid: Aran Azərbaycanın bir vilayətidir", «İran-Turan həmin Azərbaycan deyilmi?», «Azərbaycan-Aran tarixindən» və s.

Dərginin başqa səhifələrində ədəbiyyat və mədəniyyət məsələlərinə dair «Çağdaş türk-Azərbaycan yeni şeiri», «Türk ədəbiyyatı», «Musiqi», «Mahnı ədəbiyyatı» və s. dəyərli məqalələr çap olunmuşdur ki, onların da bir çoxunda dil problemləri öz geniş həllini tapır(21).

Öz ictimai fəaliyyətini dövrü mətbuatda təbrizli gənclərlə bölüşdürən Urmiya universitetinin tələbələri «Baxış» adlı dərgi nəşr olunmuşdur.

## İstifadə olunmuş qaynaqlar


1. "Varlıq" jurnalı N-109-2. Tehran 1377 h.ş. səh. 27.
2. "Varlıq" jurnalı N-122-3 Tehran 1380 h.ş. səh 67
3. "Səhər" jurnalı N- 7-8, Təbriz 2001, soh. 3
4. M.T. Zehtabi "İran türklərinin əski tarixi" Təbriz 1999 və "İldırmı" jurnalı N-2, Montral, Kanada 1999, səh.3-6
5. "Azərbaycan tarixi" 1-ci cild. Z. Bünyadov və Y. Yusifovun redaktəsi ilə. Bakı-1994.
6. M.T. Zehtabi "İran türklərının əski tarixi" Təbriz 1999 və "İldırım" jurnalı N-2, Monreal, Kanada 1999, səh.3-6
7. Arazoğlu "Müxtəsər Azərbaycan tarixi" səh-9. 2000-ci il.
8. Doktor Cavad Heyət "Azərbaycan ədəbiyyatı tarixinə bir baxış" səh.5, Tehran 1980.
9. Hasan Cavadi "Satire in Persian literature, (Fairlaqh Dickinson University Press 1988, PP 137-138 and 142 ff.
10. "Tribun" jurnah N- 6, səh-295, İsveç -2001 N.
11. "21 Azər" jurnalı N-11, səh- 15, Bakı 2001.
12. Şeyx Məmməd Xiyabaninin "Ağırlama qurultayı" məqalə və şer toplusu, Əmir Kəbir Universitetinin "Tələbə" jurnalı, səh-62, Tehran -2001
13. S. Mociri 21 Azər Nehzətinin 75 illiyinə həsr edilmiş bədii blokton. Səh-78. 1970.
14. «21 Azər» jurnalı. №9, Bakı, 2000, səh.39
15. «21 Azər» jurnalı, №1, Baku 1998, səh.30
16. «21 Azər» jurnalı, №2, Bakı, 1999, səh.25
17. «Tribun» jurnalı, №6, İsveç, 2001, səh. 297
18. «Varlıq» jurnalı, №109, Tehran, 1998, səh.36
19. «Tribun» jımalı, №6, İsveç, 2001, səh. 302
20. «Tribun» jurnah, №6, İsveç, 2001, səh.443
21. «Səhər» dərgisi, №910, Təbriz, 2002, səh. 1
22. «Baxış» jurnalı, №11, Urmiya, 2002, səh.1
23. «Varhq» jurnah, №120, Tehran, 2001, səh. 57

# KİMLİYİMİZ,YADDAŞIMIZ, VARLIĞIMIZ VƏ YOXLUĞUMUZ

Dünya düzəni hər an dəyişə-dəyişə irəliləməkdədir. Dinamik və dəyişkən birisi olmaq istəyiriksə, biz də gəlişməli və inkişaf etməliyik. Bütün bunların təməlində yalnız və yalnız ilk növbədə özümüzü tanımaq və tarixi yaddaşımıza var-gəl etmək dayanır. Görəsən nədən bu qədər ac-yalavac və unutqan olmuşuq? Keçmişimizi bir qəpiyə belə satmış kimi görünürük. Uzaq və yaxın tariximizdən bir millət olaraq düzgün xəbərdar deyilik. Bu arada sayın Cingiz Aytmatovun "Manqurt" rəvayəti yadıma düşdü. Görəsən bizim başımıza nə gəlib ki, özümüzü bu qədər tanımazdan gəlirik? Bəlkə Cingizin rəvayət etdiyi manqurt məsələsidir?

Deyirlər bir gün orta Asiyada türklər bir savaşda məğlub olur (yenilir). Onların bir igidi tutsaq (əsir) düşür. Qalib tərəf yeni kəsilmiş dəvənin dərisini bu igidin qırxılmış başına keçirir və Asiyanın isti havasında əl-qolu bağlı, susuz buraxılar. O qədər günəşin altında qalır ta ki, isti dəvə dərisi bişir və igidin başına yapışır. Isti hava şəraiti dərini sıxmağa başlayır. Dəri isə igidin başını sıxır. Nəticədə onun beyninə ziyan vurur. Bu halda başın qılcıqlı tükləri də bitməyə başlayır. Tüklərin bəzisi dərini yarıb çıxır, bəzisi isə içəriyə doğru hərəkət edir. O əski igidin kafasında deformasiya əmələ gəlir. Düşmənin bu əməli keçmiş igidi öz mənliyini unutmaq üçün belə bir qeyri-adi tərzi seçmiş və ona da nail olmuş, başı xarab olmuş türk igidi indi öz varlığından xəbərsiz düşmənin ixtitarındadır və istənilən vaxt ondan millətinin əleyhinə istifadə etmək olar. Çünki o manqurtlaşıb və anasını belə tanımır. Anası isə onun yaxşı

olmasına çarə axtarır. Manqurt isə hər an xəyanət fikrindədir.

Düzdür, bu rəvayət əfsanəyə bənzəyir, ancaq günümüzdə o qədər manqurtlaşmış insanlar var ki, o hər an vətəninə xəyanət etməyə hazırdır. Baxmayaraq ki, qədimdən bəri manqurtlaşdırmanın metodları dəyişdirilmişdi.

Bu rəvayəti ona görə qeyd etdim ki, indi biz yeni bir ilə başlayırıq. Və bu ildə nə isə öz içimizdə götür-qoy etməliyik: o cümlədən tarixi yaddaş və hafizəmizi , milli varlığımızı, yaxud var olmamağımızı. Bunların isə ana xətti cəsarətli qərardan irəli gələn bir mənimsəmədən və düşüncə tərzindən irəli gəlir: o da kimliyimizi kəsin olaraq özümüzə aşılamaqdadır. Bu milli kimlik yaxud, heyət deyilən şey, estatik (duraq) deyil: o hər zaman dinamik və hərərkətdə olan bir tarixi həqiqətdir. Milli kimlik üç yöndə oluşa bilir. Özəllik, toplum, dünya üzərə formalaşır. Bütün bunların hamısı içimizdə olan bir suala cavab tapmaqdan ibarətdir.

Kimlik, yaxud heyət toplumsal (ictimai) yöndə özünü qövm, soy, din, tayfa, dil, sosial qat, cinsiyət, yaxud milli mənsubiyyət və onun ötəsində insani kimlik kimi özünü göstərməkdədir. Bunların yanı sıra milli kimlik tarixi bir surəcin dəyişik və qarışıq ortamından və ekonomik durumundan irəli gələrək, bizim mahiyyətimizi və varlığımızı mədəni və kültürlü yöndən bir millət olaraq oluşdurmaqdadır. Hər zaman varlığımızın göstəriciləri dəyişikdir: ancaq onun özülü və təməli olan simgələr olduğu kimi qalmaqdadır. Bu o deməkdir ki, hər birimiz, sadə dildə desək, özünü mədəni prizmadan mənalandırmalıdır və bu mənalandırma isə gercək tarixi həqiqətlər və kültürlü paylaşmalara dayanıqlı olmalıdır.

Sən kimsən? Öz özlüyünün adresini necə verə bilərsən? Hər birimiz evimizin adresini bildigimiz kimi

,kimlik adresimizi də bilməliyik. Bu olmadığı halda biz var olduğumuz halda itmiş hesab edilə bilərik...

Baxaq görək kimliyin oluşum sürəcində özümüzü harada hiss edirik: nizamlanmış və yaxud doğrulanmış və yuxarıdan bizi idarə üçün bizə tətbiq edilmişə sahiblənmişik. Buna da qane qalaraq, yaşayırıq. Ya da ki, bir direniş və müqavimət kimliyinə sahib olaraq bizə edilən sitəm və səlhədən qaçmaq istəyirik: özümüz üçün yeni bir kimliyin təriflənməsinə çalışırıq? Yaxud da bütün əldə olan imkanlardan istifadə edirik ta ki, öz gerçək varlığımızı yeni metodlar əsasında özümüzə tərif edək? Nə üstdən zorla təhmil edilən kimliyi qəbul edirik, nə də müqavimət göstərmək niyyətimiz var. Bəlkə, dəyişdirmək və proqramlaşdırılmış kimlik axtarışındadyıq. Kimlik məsələsi dünya millətlərində, o cümlədən Avropa xalqları və bəzən də şərq insanlarında tarixdən üzü bəri davam edib gəlməkdədir. Insanların özlərini tanımaq prosesi onların müxtəlif ideolojilərin yaranmasına gətirib çıxarmışdır. Şərqi Avropada marksist-leninisti , Qərbi Avropada bir cox sosial cərəyanlar və məktəblər tutumunda, o cümlədən bəzi fəlsəfi düşüncələr əsasında. Amma kapitalizmin üstünlüyü ilə. Şərqdə isə gah şərqi və qərbi avropalıların ideoloji düşərgələri kimi əməl edilməsi, Orta doğuda isə istibdad və şah-rəiyət formasında həm məmləkət adı ilə əlaqədar, o çümlədən, iraqlı, iranlı, ərəbistanlı kimi bastalah modern kimliklər formalaşdırmaqda idi. Ancaq bunların yüzdə 90 %-ı hal-hazırda mənsux olmuş kimliklər vəsiləsi kimidir. İndi tarixi bilinc əsasında hər kəsin şüuru və düşüncəsində oluşan yeni heyət faktorları özünü göstərməkdədir. "Özünü tanımayan millət özgə millətlərə yem olar demiş" atalarımız. Bunu başa düşüb hazırki dünyamızda yola çıxmamız lazımdır. Hər kəs öz kimliyini öz bilinci əsasında qurmalı, göstərməli və sərgiləməlidir. Bunun ən mükəmməl

tərəfi isə fərddən-fərdə artan və sonra toplumlaşan bir kimlik və heyətin ortaya çıxmasıdır. Sosioloji elmi əsaslarına görə kimliyin ana oluşum mənafeyi, bilinc, öz bilinc və yenə öz bilincinə, bilincli olmalıqdır. Çünki nə qədər bilincli oluruqsa, o qədər öz ehtiyaclarımızı başa düşə bilirik. Bu da var olmağımızın bir zərurət olmasını bizə aydınlaşdırır. Düzdür, hər kəs öz varlığı idrak etmək üçün gərək zəhmətə qatlaşsın və onu mücadilə edərək qazansın. Bu da o deməkdir ki, halva-halva deməklə ağız şirin olmaz. Gərəkdir ki, zəhmətə qatlaşıb halvanı bişirəsən və onun şirinliyini dadasan. Mən buyam, mən oyam deməkdən heç nə çıxmaz, gərəkdir öz üzərimizdə çalışaq və içimizdə sanki bir yox olma qorxusu varmış kimi mübarizəyə başlayaq.

Biz hansı varlığa mənsub olduğumuzu özümüzə dərs keçməliyik. Yeni ildə bütün hər kəsə başarılar diləyi ilə sizləri xoş gördük.

## KİMLİK NƏDİR?

Gərçəkdən kimlik nə deməkdir? Doğrudan da kimlik əqli məsələdir, yaxud irsi, iç və dış aləmə bağlı olan mövzudur. Necə demək olar ki, bizim varlığımız nəyə bağlıdır? Ölkəyə, yaxud milli kimliyimizə, bilgimizə, yaxud sərvətimizə? Hansı ki, bu kimi faktorlar bizim nə olduğumuzu bilirləyir. Yaşamağa məcbur olmuş canlı növ insan nədən belə parametrləri axtarır? Axtarmalıdır, axtarmasa nə olar? Biz insan olaraq başqalarından nə ilə fərqlənirik? Afrikada yaşayan ərəblə Azərbaycanda yaşayan türkləri nə kimi ortaq və fərqli yönlər birləşdirir?

Uzun sözün qısası, əzəldən yaradılışda bir kökdən olan insan oğlu niyə fərqlərin axtarışındadır? Bir belə oxşarlıqlara göz yumub pərdə arxasında olan gizli bilinclərin duyurulmasına çaba sərf edir? Məncə, ona görə ki, kimlik insanın tanıtma və özündən öz mənəmliyinə bilincilik yaratma əməlidir. Demək olar ki, özünü yaxşı dərk etmək və tanımaq başqalarını özün qədər dərk etmək deməkdir. Ortaq dərkə yiyələndikdə ümumi olaraq dünya üzərində etibar qazanırsan. İnsanlar toplusuna giriş bileti əldə etmiş olursan. Demək olar ki, dünya düzənini qurmaq və bu düzəndə öz yerini bilmək üçün sən kim olduğunu bilməlisən.

Başqa tərəfdən baxdıqda, kimlik toplumsal tanıtım faktoru olduqda sənin özündən toplumda sən üçün xas olan "məni" aydınlaşdırır. Bu konu demək olar ki, sən və yaşadığın toplum arasında körpü vasitəsini oynayır. Yəni sən öz kimliyini bildiyin vaxtdan yaşadığın camidə,

toplumda nə olduğunu da anlayacaq və yerini tutacaqsan. Önəmli olan budur ki, biz tutduğumuz yerin fərqində olaq, bizi yer tutmaq üçün alət etməsinlər. Qara qüvvə kimi yer doldurmaqdansa, nə olduğunu bil və özünə yer tut. İnsanlar arasında, millətlər arasında hər bir insanı qarşı tərəfi o qədər qəbul edir ki, o, öz özünü necə və nə qədər qəbul edir. Toplumluq və millətlər arasında eyni məsələ hakimdir. Sən millət olaraq hansı kimliyi daşıdığını sərgilədikdən sonra səni öz aralarında qəbul etməyə qərar verirlər. Baxın, sadə bir məsələdir: Dünya topluluqlar düzənində Konqo ya Nigeriyanın Almaniya və Türkiyəyə görə olursa arasında nə qədər önəmli olduğunu görmək mümkündür.

Başqa yöndən kimlik məsələsi üç yöndən qəbul edən, tarazlayan və etkiləyən qüvvələr tərəfindən ayarlayır, yəni demək olar ki, hər bir kimlik zaman çərçivəsində etkili ola bilir. Türklərə baxın. Osmanlı dönəmində türk kimliyi ilə barışmağa məcbur olan, ona bac verən Avropa kimliyi bu gün həmən kimliyi öz arasında görmək istəmir. Bunun nədənləri elə öz kimliyinin kimlik sahibi tərəfindən necə alqılanıb və təriflənməsindədir. Ya da bəzi kimliklər öz qalxımında sorunların olduğunu gördükdə özünü əxlaqi yönə çevirir. Olanları, bitənləri əxlaqi dəyərlər əsasında izah edərək çevirməyə başlayır. Bu kimliyin ən son anda əbham ilə qarşılaşacağı indidən bəllidir. Baxın, biz türklər hal-hazırda bütün kimlik faktorlarından uzaqda qaldığından bəzən əxlaqi dəyərlərə yönəlik öz varlığımızı qorumağa çalışırıq. Türklər ağsaqqala hörmət edir. Dizi üstə oturar və böyüyün yanında danışmaz, halbuki bu əxlaqi faktorlar kimlik göstərgəsi kimi zamanında canlı və zamanı keçdikdə ölü hesab edilə bilər. Çünki indi evlərdə oturma qaydaları

dəyişilmiş, ağsaqqalın forması elmi biliyə görə saqqalın ağlığından ağlın ağlığına keçmişdir və s...

Kimlik öz tanıtım faktoru olaraq bilinc və düşünülmüş, aşılanmış insan oğlu tərifidir ki, iki cəhətdə baş verir: bir o ki, öz-özünü tanımaq, digəri isə özündən sonra başqalarını öz kimliyin əsasında bilib-tanımaq və onları tanıdıqda öz mənliyini bəlirləmək deməkdir. Başqalarının səni tanıma göstərisi həmən kimlikdir. Indi baxın görün, siz bir azərbaycanlı türkü olaraq özünüzü necə hesab edirsiniz? Sağ olun və bu yöndə bizimlə yazışmağı unutmayın.

# MƏTBUAT KİMLİYİN ANA XƏTTİDİR..

Bu gün türk dilli mətbuat hər dövrə görə İranda ən ayıq, ən dolğun və ən güclü durumunu yaşamağına baxmayaraq, bəzi çətinliklərdən dolayı milli zəmində xəbərləşmə ortq iş birliyi və iqtisadi yöndən heç də ürək açan deyil.

Tarixinin ən fəal dövrünü yaşayan türk dilli Azərbaycan mətbuatı ana dəyərlərə əsaslanaraq öz dirçəlmə və çiçəklənmə dövrünü yaşayırkən həm də kadr hazırlama və bu işə olan gəncliyin marağı acısından aktiv anlar sürdürür.

Mətbuat ərkanları arası çəkişmələr eyni halda bütün güclə bir mıxa vurmaları, ana dili mövzusu və asimilasiona qarşı dirəniş və mücadilə, elmi, bədii və publistik düşüncənin çiçəklənməsi və örünləşməsi (istehsal)baxımından danılmaz fakta çevrilmişdir.

Ekonomi cəhətdən olum və qalım arasında mübarizə aparan türk dilli mətbuat cox cətin anlarını yaşayarkən tam şəkildə öz müstəqilliyini qorumağa davam etməkdədir. Bütün çətin anlarda Azərbaycan mətbuatı xalqın keçmişlə bu günü arasındad qırılmaz körpü rolunu oynamağa davam etmişdir.

Azərbaycanlıların zəngin dil fondu, sağlam genetik kodları, çeşidli folklor örnəkləri bütün zor durumları arxada qoyaraq nikbin addımlarla yavaş da olsa irəliyə doğru addımlamaqdadır.

Bununla bərabər, bütün mətbuat üzrə çalışanların ana dilli təhsili olmadığından ana dilində yazmaq zoru (müşkülü) mövcuddur. Təhsilini başqa dildə tamamlayan, doğma dilində sistemli şəkildə dərs oxumayan türk dilli mətbuat yazarları gərcekdən acı hekayələr yaşayırlar. Bu məsələdə özlüyündə türk dilli mətbuatda əks hal yaradır. ictimai-siyasi, mədəni və elmi düşüncədən boş olan yazılar

çox vaxt kağız üzərində quru sözlər yığnağına çevrilir. Başa düşülməyən, zamanda geri və günün müşküllərini yansıtmayan mövzulara çox yer verilir. Ancaq dilimizin fövqəladə zəngin lüğət fondu Azərbaycan türk dilli mətbuatının yazarlarının dilində özünü müsbət bir faktor kimi göstərməkdədir. Dilimiz işlək dil kimi hər zaman dillər arasında öz yerini tutmaqdadır.

Azərbaycan türk dilli mətbuatında İranın digər mətbuat orqanlarına görə daimi bir coşğunluq gözə çarpır. Ana dilimizin normativliyi, söz qurma qabiliyyəti, məna zənginliyi, məntəqi qapsam dairəsi və geniş ehtiva əl-ələ verərək bu coşğunluğun yaranmasına zəmin yaradır. Mətbuatımız millətimizin kimliyini tarixi daş yaddaşlara yazmaqla yanaşı, təbii olaraq, milli kimliyimizin əsas və önəmli faktoru olan dil faktının da yaşamasını əbədiləşdirir.

Azərbaycan türkünün bu yerlərdə neçə min illər həyat və zəhmətlə dolu varlıq mücadiləsi, həm də onun mədəniyyətinin sözlə ölçülən bir ifadəsi var ki, o da onun mətbuatıdır.

Mətbuatımızın ən başlıca görəvi, demək olar ki, dildə və mədəniyyətdə sabitləşən varlığın qorunub saxlanılması məqsədini gördü. Ona görə ki, harada yaşamağımızdan asılı olmayaraq biz bu gün özümüzü başqalarının yanında təsdiq etməyə layiq mətbuat formalaşdırmalıyıq. Dilimizi, tariximizi, milli varlığımızı unutdurmadan, dağıdıcı cərəyanlara qarşı mətbuatımızın gücündən maksimum dərəcədə bəhrələnməliyik.

Azərbaycan türkcəsində yayımlanan bütün nəşriyyələr xalq üçün, millət üçün dəyərli işlər görməyə fürsət əldə ediblər. Uzun illər basqıçı tənqidlərə məruz qalan dilimiz, mədəniyyətimiz, tariximiz, hətta şəxsi həyat atributlarımız özünün qurtuluş istiqamətini yalnız öz mətbuatında arayaraq ona inanır. Demək olar ki, bu gün Azərbaycan mətbuatı onun övladlarının güvənc və inam qaynağıdır.

Mətbuat dili diri və sağlam saxlayır, təkmilləşdirir və vətəndaşlara inam aşılayır. Daha doğrusu, gələcəyə ümid yaradan, bu gün sorunlarını yansıdan mətbuat, bir növ təbliğat sistemi olmaqla, həm də millətin iradəsidir.

Bütün dünyada olduğu kimi, bizim də mətbuatımız bir əsrdən çoxdur ki, millətimizin sosial və psixoloji, ədəbi və elmi düşüncəsinin ümumi görüntüsü əlamətləri kimi meydana çıxmışdır. Vahid istiqamətdə mücadilə edən, vahid amala doğru yönələn dini və insani dəyərlərə söykənən, çox uzaqlardan gələn türk mətbuatı daim milli dil, milli inam törədərək misilsiz vasitə rolu oynayıb. Mətbuatımız milli varlığımız, milli kimliyimizin hər zaman milliləşməsində böyük təsiredici qüvvəyə malik olmuşdur. Mətbuat azadlığın təməli olan milli ideyalarla, milli şüurun dirçəlməsində qat-qat güclü ərdolardan, güclü siyasətdən və ən böyük sərmayələrdən artıq rol ifa etmişdir.

İranda Azərbaycan dilli mətbuat hər zaman qovuşdurucu maraqlara xidmət edərək milli dil, milli mədəniyyət üzərə hər zaman çaba sərf etmişdir. Demək olar ki, Azərbaycan mətbuatı heç vaxt ticari yönlü olmamış və milli birliyi, milli iradəni və milli şüuru öz qığılcımlarıyla yanar saxlamağa meyilli olmuşdur.

Bir çox nədənlərdən dolayı ola bilsin ki, hazırki mətbuat orqanları tam şəkildə bir çox sorunları çözə bilməsin. Ancaq qeyd edə bilərik ki, ilk Azərbaycan mətbuat orqanının işıq üzü gördüyü gündən bəri hər bir gün belə irəliyə doğru addım hesab edilməlidir. Bizim nəsil bizdən sonrakı və sonrakılar belə yazılı tanıtım abidəmiz olan mətbuatımızı davam etməlidirlər. Mənəvi dirçəlişimiz naminə ucu-bucağı görünməyən bu geniş vadidə var olmaq ümidilə yola davam etməliyik.

# 21 AZƏR: SİTƏMƏ QARŞI MÜCADİLƏ VƏ ÖZÜNƏİNAMIN ƏSAS RƏMZİ

Azərbaycanın əlvan tarixindən 21 Azər hərəkatı bütün azərbaycanlıların illər boyu dərk edib və mahiyyətinə vardıqları fəlsəfənin varlığının təsdiqi deməkdir. Hər bir millət yaxşı nəsil yetişdirmək üçün səy edir və yaxşı yetişən nəsillə yaxşı yetişdirilən nəsil hərəsi başqa zaddır. Nəsil var ki, babaların kəlamları, qeyrətləri və oğulları ilə yetişir. Nəsil var ki, babaların uğursuzluğu, şikəst və yoxsulluğu ilə yetişir. Hər ilk yetişən nəsildə qəhrəmanlar vardır. Ancaq sonrakı nəslin qəhrəmanlığının əsasında namus, hessiyyət və vətən uğrunda ölmək məsuliyyəti durur. Bizim məqsədimiz tarixi faktorları aramaq, yaxud onlardan nəticə çıxarmaq deyil. Lakin xalqın şüurunun məhsulu olan azadlıq mücadiləsini təsdiqləmək və onunla qürur hissi yaşatmaqdır. 1941-ci ildə ölkəmiz parçalandıqda Şura qüvvələrinin(Sovet ordusu –red.) yurdumuza gəlişi, buna uyğun olaraq həm gələn rus qoşunlarına qarşı, həm də daxildə şahlıq zülmünə qarşı olan xalq hərəkatı gücləndi və xalq inamına istinadən milli və yerli hakimiyyət yaradılır. Bu hakimiyyətə o vaxtın bacarıqlı adamı Seyid Cəfər Pişəvəri başçılıq edir. Zamanın istəyindən irəli gələn, Xiyabanilərin hərəkatının davamı olan azadlıq nəğməsi sanki bir bədbəxt səmum küləyi kimi Azərbaycanın başı üstündə əsməyə başlayır. O vaxt Stalin Pişəvərini (7-05-1932) şərqin pioneri adlandırırsa da, imperiya sifətli olduğunda bu cəsur insanın ölümünü planlaşdırır və nəhayət Azərbaycan Amerikanın köməyi ilə şahlıq qoşunu tərəfindən zəbt edilərək işğal olunur. Bunun nəticəsində Azərbaycan məsələsində Şərq və Qərb dövlətləri ortaq bir məxrəcə gəlirlər. O da bu millətin var olması fəlsəfəsini yox etmək və onun izini tarixdən silməkdir. Bütün acılara baxmayaraq, hələ də bu xalq yaşayır və yaşamağa

davam edir. Ayrıca ataların, anaların qan yaddaşı da bunları diri saxlamağa yetərli görünür. Indi hər bir Azərbaycan türkü tarixində aldığı dərslərdən irəli çıxaraq var olmaq mücadiləsi edir.

Hər bir ana yaxşı övlad yetişdirmək istəyindədir, daha doğrusu zorundadır. Hər bir ata da yaxşı nəsil bəsləmək əzmindədir, ta ki sümükləri üstündə yürüdüyümüz əcdadlarımız bizə qəhqəhə çəkib gülməsinlər ki, biz bacarmadıq, bəs siz haradasız?

Müxtəlif bəhanələrlə azəriləri tovlayıb, yanımızı basan "dostlar", bizi sükuta vadar edən qonşular, lap alnımızın ortasından vuran düşmənlər hələ də öz tarixi vəzifələrini yerinə yetirməkdə çaba göstərilər. Gərəkdir hər bir vətən övladı tarixdən gələn fakt dolu səsləri duymuş olsun. Daha yenilmək zamanı çoxdan keçmişdir. Qərb istismarı və Şərq istibdadı biz yalançı boyalarla uydurmasınlar. Vətən naminə şəhid olmağa, ölkənin bayrağına sarılaraq ölməyə tərcih etməyimiz gərəkdir. Görünür, varımıza-yoxumuza göz tikən ac və yalavaclar hər gün milli mücadiləmizi gözardı etməkdə milyonlarla dolları xəzinə etməkdədirlər. Lakin bilmək gərəkdir ki, ən son və ən əvvəl xəzinə etmək gərəkdirsə, o bizim zəkamız və canımızdır. Çünki vətən yoxsa, sən də yoxsan, vətən varlığı solubsa, gələcək nəsil də yox olub solacaqdır. Ümummilli iradə nümayiş etdirib gələcəkdən qidalanaraq bir daha hər azərbaycanlı öz vətəninə məhəbbətini nümayiş etdirməlidir. Vətənimizin batılı və doğulu həris düşmənlərinə qarşı mübarizə etməli, bütövlüyümüzü, qardaşlığımızı qorumaq əzmində olmalıyıq. "Vətən uğrunda ölən varsa vətən var", - deyib yola çıxmalıyıq. Atdığımız hər bir addım şəhidlərimizi incitməməlidir. Oyaq ruhları pərişan etməməlidir. Maddi dünyanın felinə uymayaraq daha aydın düşüncə ilə yola çıxıb və mətanətlə yola davam etməyimiz lazımdır.

Uydurma Qərb və Şərq kampaniyaları bizi yolumuzdan çaşdırmamalı, vətənə uzanan mənfur əlləri tanıyıb və onları qısaltmağımız gərəkdir. Bizdən başqa kimsə bizə yar olmaz, dərdimizi özümüzdən başqa heç kim duymaz. Bu amacla "yaxşı nəsil" şüarı ilə "yaxşı vətən naminə", irəli! Çünki başqa yol yox. Gəlin vətənimizi ən azı özümüz qədər sevək, onun bizə verdiyi suyu, duzu, çörəyi və havanı düzgün mənada anlayaq və ona borclu olduğumuzu vəzifə hiss edək. Vətənimiz yaşasın ki, biz də yaşayaq.

# ULUSAL(MİLLİ) TÖRƏNLƏR VƏ KİMLİK MƏSƏLƏSİ

Qarşıdan yeni il, yeni gün və yeni işlər gəlir. Həyat yeniləşir, təbiət canlanır, insanın qara duyğuları yerini gözəl, mülayim və istəkli duyğulara buraxır. Soyuğun, çilənin və acıların bitməsi insanda uğur hissi yaşadır. Qürur və qələbə duyğuları hər kəsin içərisində yaşamağa başlayır. Başqa sözlə desək, insan oğlu öz iç məhdudiyyətlərindən azad edilir. Geniş üfüqlü bir baxışa sahib olur. Bunları bizə bəxş edən və bizi qara qışın yuxusundan oyadan gözəllik duyğularıyla dolu olan bahar, öz yaz və qorucu nəfəsini içimizə hopduracağına əminik.

Dəyərli "Xudafərincilər", sayqılı vətəndaşlar, bilirsiniz ki, bu gələn bahar ilə də "Xudafərin" beşinci yaşına girmiş olacaqdır. Milli dəyərlərə yön və yer verən, ulu, uca mədəniyyətimizin carçısı olan, həm də özündə dərin inam və sevgini fəlsəfi anlam və mahiyyəti ilə oxucularına aşılayan "Xudafərin" dərgisi tariximizin çətin və sınaqçı dövründə ayaq üstə durmağı bacarmış oldu. Inandırmaq istəmirəm, ancaq bildirmək istəyirəm ki, mənəvi sevincimizin həddi və hüdudu olmayan bir qaynar bulaq olan "Xudafərin" gecə-gündüz təmənnasız, şərtsiz bir özgürcü çalışmanın hasili olaraq dörd il boyunca sizlərə təqdim olunmuşdur. İnanc və iradə sayəsində dərk etmədən addımlamamaq, yürümədən uçmamaq, düşünmədən görməmək, görmədən duymamaq kimi xarakterik görünümləri özümüzə sorum edərək, heç vaxt bu mədəni abidəyə, bu mədəni gələnəyə öz şəxsi fikir və şəxsi sahiblənməmiz kimi baxmamışıq. Birinci sayımızdan ona elimizin mənəvi sərvəti kimi baxmışıq və bu baxışlarda, əlbəttə, siz bilgin və uzaq gün vətəndaşlarımızın irad və təkliflərini yolumuza inanc tək düzərək yola davam etmişik.

Daşlı-kəsəkli, gileyli-guzarlı, sevincli qutsal yolda hər zaman özümüzü məsuliyyətli bilmişik. Bunu da yaxşı və lap yaxşı bilmişik ki, hər acının bir şirin gələcəyi var. Acılarımız uzun sürsə də, aydın gələcək, yəqin, bir gün üzümüzə güləcək. Gercəkdən gələcək gülüşləri övladlarımızla paylaşmaq üçün bu yoldayıq. Arzu və diləklərin yolunda ümid və istək qanadlarıyla başarılı anlarımızı mədəniyyət və yazılı ədəbiyyat tariximizdə qalarğı etməyi bacarmağa çalışsaq da, ən önəmlisi budur ki, bu başarını yeni səslə də sunmuş olaq. Uzun, incə bir yolda o qədər dözülməz anlar baş verib ki, çəkib getmək belə üzdə zor olub. Amma dərgimizin hər bir doğuşu təntənəli bir bayram olaraq o qədər sevməli anlar yaradıb ki, şükranı şərbət edib. İctimai-mədəni mühitdə və toplumda əsas iş məsələni düzgün qiymətləndirməkdir. Zira belə bir yolda daş atanlar, hətta səni satanlar, yaxud gözü götürməyənlər daş sinələrinə döyənlər, sənə qısqananlar və səni güdənlər olur, razısı da ,narazısı da olur. Gördüklərin kiminsə səliqə və düşüncəsinə uyğun da gəlməyə bilər. Kimləri isə həddindən artıq sevindirə də bilər. Belə bir çətin şəraitdə orta yolu tutub, yola davam etmək böyük sorumluluq tələb edir. Atalar demişkən: “İp incəldiyi yerdən qırılar”. Biz də ipimizin heç vaxt incilməsinə icazə verməmişik. Iç və dişarı çatışmalar həmişə olub və olacaqdır. Bu çəkişmələr mədəni və ədəbi zəmində çox yararlı olur. Çünki nəticə çıxara bilmək, gərçəyi anlamaq yalnız belə çatışmalardan doğur. Biz də bu çatışmaları bol-bol yaşadıq. Yəqin, bizim bu yolu bizdən sonra gələnlər dəqiq incələdikdən sonra işimizə qiymət verəcəklər. Yazın gəlişini qənimət bilərək “Xudafərin” dərgisinin hesabat xarakterli baş yazısını sizə təqdim etdik. Xeyirli, uğurlu və mutlu, xoşbəxt günlər diləyi ilə bir daha yeni ildə sıx, daha güclü və daha inamla burada, eləcə də bu adresdə, yəni “Xudafərin”də görüşmək və buluşmaq diləyi

ilə hamınıza "Görüşərik", - deyirik. Unutmayaq ki, yaxşılığı paylaşdıqca artır. Ətrafınızda kimsəsiz yoxsul və ehtiyac olan varsa unutmayın. Israf etmək fərdi ziyanlara gətirib çıxara bilər. Sağlamlığınızdan göz-qulaq olun, vətənin nə olduğunu insan yazda, baharda daha gözəl anlaya bilər. Vətənin gözəl gələcəyi naminə əl-ələ, omuz-omuza, qol-qola, ey igid, cəsur, comərd "Xudafərincilər!". Hamınızı Allaha ismarladıq, yeni iliniz qutlu və mübarək olsun.

## BİR İL DƏ ÖLMƏDİM, ANA!

Bizim ölkədə qış çox sərt keçdi. Ruzgar çox fırtınalı əsir, mənim də nə qalın paltarlarım var, nə isti yuvam, doğrusunu desəm, heç yeməyə yavan çörəyim də yoxdu. Siz məndən yaxşı bilirsiz, bir yazıçının sınıq qələm və cırıq kağızddan başqa nəyi ola bilər ki? Bütün bunlara baxmayaraq, bir ildə ölmədim, ölmədim ki, səni yaşadım vətən, hə səni yaşadım, ona görə ki, səni mən hamıdan çox hiss edirəm. Mən hamıdan çox düşünürəm, bilirsən niyə?

Ona görə ki, sənin soyuğun da, istin də mənim canımda sıx təmasdadı. Sənin istini də, soyuğunu da mən dadıram, heç təsfiyə olmamış suyun da mən içirəm, bunlardan başlıcası mən sənin üzərində yol gedirəm. Palçığınla uğraşıram, soyuğunla dalaşıram, isti günlərinlə vuruşuram, ac günlərimi nemətlərinə baxıb isinirəm. Tox günləri, pardon, heç tox olmadım ki, nə isə yavan çörəklə bir tikə pendir, bir az göyərtiylə doyduğum günləri deyirəm. Yenə səni mən özümdə hiss edirəm.

Nə olsun ki, sənin üzərində çox adamlar gəzir, onlara heç sənin küləyin dəymir, günəşin onları yaxmır, soyuqdan əlləri, ayaqları çatlaq-şatlaq olmur, istidən yanıb qap-qara olmurlar. Onların sənin istindən zəhlələri gedir, onlar nifrin edirlər. Onlar hər gün sənə qarğış edirlər, başqa vətənləri sevirlər, oralara getmək üçün can atırlar, sənin qanını sümürüb özlərinə pul-para toplayırlar. Sənin canını alırlar və sonra o canlar ilə özlərinə başqa yerlərdə yaşamaq imkanları yaradırlar. Amma mən canımı sənə verərəm. Əsən küləyin mənim lüt, paltarsız dərimdən bir az qopararaq sənə ərməğan edir, dabanlarımın çatından, əllərimin qabarlarından axan tər səni hər gün suvarır. Mənə can verirsən, mən isə cənə "can" deyirəm. Mən hec cox da

yeyib-işmirəm ki, sənin sərvətin zədələnir, sənin ruhun inciyir, amma onlar israf edirlər. Yalını, yamacını dərəni, düzünü, yerinin altını, yerinin üstünü talayırlar, onlar sənlə varlanmaq istəyirlər. Onlar sənlə canlanmaq istəyirlər. Onlar səni tükədir, məsrəf edir. Onlar səni sevmir, çünki sevən kəs qəddar ola bilməz. Sevməyənlər canlar yaxar. Nədən, görəsən, onlar səni bu qədər yaralayırlar, görəsən, onlar niyə bu qədər naşükürdürlər.? Mən bir yetimin gözünün bir damla yaşından şimşək çaxmasını gördüm, bütün buludların gurultusunu da duydum. Mən yalnız necə uşaq anasının iniltisini də, gümansız qalmış, beli bükülmüş şərqli ataları da, hətta namusu uğruna, sənin uğruna körpəcik övladını öpməyib sənin üçün fədda olanları da gördüm. Zavallı başım, sevdalı daş-qaşım, arım, namusum hər şeyim. Ölmədim bir il daha, ölmədim ki, səndə tərənnüm edən quşların səsilə yenə "not" dəftərimi avazla doldurum. Yenə körpələrinə laylalar deyim, yenə tarixi canlandırım: kələfcələndim, əzildim, amma ərimədim, darıxdım, amma üzülmədim. Usandım, amma bezmədim, axar su tək axdım, bütün həcirlərinə hopdum. Səni sevdiyim üçün bir ildə daha ölmədim. Lal qalmış dilim, ayaqlanmış varlığım, pozulmuş ilqarlarımla bir daha vidalaşmaq istəmədiyim üçün ölmədim, səni mənə ar bilən, "sus, utan, gözün kor olsun",- deyənlər üçün ölmədim. Tikan olub səni sevməyənlərin gözünə dikilmək üçün ölmədim. Küləyində nəfəs olmaq üçün dağlarından "inikaslı" səs, yaşam yolunda ölüm notlarını əzbərləmək üçün hələ ölmədim. Sənin varlığını duyurmaq üşün, sevgilim, körpə çocuqlarının qarnını, yox başını doyurmaq ücün uçurumlara yuvarlanan erkək, qadın vətəndaşlarımı bir azacıqda olsa oyatmaq üçün, yaşatmaq ücün, daha doğrusu bərabərcə yaşatmaq üşün daha bir il də ölmədim.

Vətən, ey mənim sevgili canım, candan əziz cananım, müqəddəs ruhların oylağı, qutsal cəsədlərin yatağı! Səni mən damaqda dadmadım, sən mənim üçün damaq dadı yox, varlıq bayrağı oldun, sənə "ləzzət" altı kimi baxanlara sıyrılmış qılınc olmaq ücün, sənə can kimi davrananlara yoldaş olmaq üçün daha bir gün də ölmədim. Gül-çiçəkli yazını, xoş avazlı baharını, bol məhsullu yayını, eşq qədər zəngin və gözəl payızını, istiqamət kimi igidlik məzhəri olan qışını görmək ücün analarımın, atalarımın bir daha əlindən öpmək üçün, yaşıdlarımla zarafatlaşmaq ücün, haqqı, ədalətli qorumaq üçün, canımı sənə sabah qurban vermək üçün bir gün daha ölmədim.

Sənə qovuşmaq böyük şərəf, sənlə vidalaşmaq dözülməz iş. Amma qorxum yox, çünki sevgimə inanıram. İnanan qorxmaz. Qorxan inana bilməz. Hara gömərlərsə gömsünlər. Orası sənin qucağın, orası sənin köşkün. Vay onlara ki, sənə gömülməkdən qorxarlar. Avropaya, Amerikaya dəyib qaçarlar, sənə dar gündə arxa olmazlar. Çünki onlar səni kullanarlar, sevməzlər. Ancaq mən səni sevmək üçün bir daha ölmədim, səni sevdirmək üçün ölmək nə mutlu.

Körpələrinin gözündə qanlı yaş sevincinə, ac qarınları tox görüncə, beli bükük şərqli ataları sevindirdikcə, ürəyi dolu anaları anınca, torpağında bayraq olub dikilincə, əbədiləşib ölməyincə bir il daha ölmədim....

# BİTMƏMİŞ GÜLÜN NƏ GÜNAHI?

Yer kürəsi var olandan bəri və onun özündə yaşamın icadından ta olduğumuz zamanadək çox güllər bitib, böyüyüb, solub, quruyub. Bir gün meşəlik ərazidən keçirdim, orada çoxlu qaratikan bitmişdi və onların gizli iclasları var idi. Ancaq səsləri uca olduğundan onların nə danışdığın mən eşidirdim. Çox söz-söhbətlər oldu. Çox ciddi məsələlər danışıldı. Hökm çıxarıldı, qərarlar sadər olundu. Məsələn, quşların tikan kollarına necə qonub üşüməsi, tikanların ətrafda olan heyvanlar və həşəratlar və ən vacibi insanlara rəftarı. Bunlardan ən mükəmməl qısqanclıqdan irəli gələn gül məsələsi idi. Tikanlar belə qərara gəldilər ki, çalışınlar özlərini güllərə yapışdırsınlar. Bacardıqları qədər gülün budaqlarına sarılsınlar. Ta ki onları biri gəlib nəvaziş edəndə, ya dərib iyləyəndə bir təhər onun əlinə batsınlar, ta ki güldən bir növ acı xatirə yaratmış olsunlar. Gülü istifadə edən kəslərə, gülün o qədər də gözəl olmadığını isbatlamış olsunlar. Bu təriflə gülə zərbə vurmuş olsunlar. Bu qərar tikanlar arasında yeddilliklə təsdiq olundu. Tikanların budaqlarının lap bədzatlarına məmuriyyət verdilər. Budaqlarının dibində ya da ki, gül budaqlarının üzərində bitsinlər. Elə belə də oldu. Hər külək əsdikcə tikanlar öz toxumların yerə səpməyə başladılar. Güllərin belə nəfəs çəkməsinə macal yoxdu. Hətta yazıq bülbüllər belə təbiətin bu rəftarına etiraz olaraq oxumaqlarına qaddağa qoydular. Küləyə məktub yazaraq tikana yardımçı olmamasını xahiş etdilər. Ancaq o qədər də təsiri olmadı, sonra güllər toplaşaraq Günəşə məktub yazdılar və ona onların günəş yaxıcı görmədiklərini bildirdilər. Və dedilər belə olan təqdirdə, bizim rəngimiz saralır və əhvalımız ürəkaçan olmur. Ancaq Günəşin də tikan koluna gücü çatmadı. Yazıq

güllər hey sıxışdırıldılar. Həm tikan kolları onların şəxsi hərimlərinə təcavüz edir, həm də ərazilərini işğal edirdi. Çarəsiz qalmışdılar.

Daha doğrusu güllərin toxumu belə cücərməyə imkan tapmırdı, hər yer qaratikanla dolmuşdu. Yerin üstündə açan güllər yaşam mücadiləsi verərkən, torpağın içindəki cücərməyə başlayan tumurcuqlar da ölüm-dirim savaşı aparırdılar. Hər gün, hər il bu ormanda güllərin sayı azalmağa başlayırdı. Ona görə ki, bitməmiş güllər qaratikan kolları tərəfindən ölümə məhkum olurdular. Nəinki bitə bilmirdilər, hətta onlar qaratikan koluna yem olub aradan gedirdilər. Bu həyat mücadiləsi qeyri-bərabər olsa da, sürdürürdülər. Gücsüz güclü qarşısında məhv olmağa məhkum idi. Gecə-gündüz güllər o gül üzləri ilə səhər dan yeri açılandan üzlərini Allaha tutaraq dua edib və qurtarmaların Tanrıdan diləyirdilər.

Atalar demişkən, hər bir qaranlıq gecənin aydın sabahı olduğu kimi, hər bir dərdin dərmanı da var. Ona görə də ,al-əlvan güllər səhər-günorta qaba qaratikanlarla mübarizəni davam etdirdilər. Və inanırdılar ki, bir gün haqq və ədalət gəlib öz yerini tutacaq. Onların canları bu istismardan qurtaracaq.

...Hər bir əlvan gülün yerindən qan rəngli yeni-yeni güllər çıxmağa başlayırdı. Meşəyə gəlib gedən insanlar gülləri görüb həzz alırdılar. Arılar onların şəhdindən bal çəkirdilər. Düzünü deyim. Mən bu mənzərəni izlədiyim zaman gördüm ki, qarışqadan tutmuş kəpənək, arı və digər quşlara qədər vəziyyətin güllərin əlində olmasından narahat edirlər. Ancaq nə edə bilərdilər?

Günlərin bir günü bir nurlu siması gözəl insan səyahətə çıxaraq ormanı seyr edərkən qaratikanın hər yeri bürüdüyünü görür. Öz-özünə deyinərək deyir ki, heyif bu güllərə. Hər gün azalırlar, bunlara bir çarə lazımdır. Həmən

ağlına gözəl bir fikir gəlir. Deyir ki, gedim bir necə arı kəndusu alım gətirim və bu qara tikanları da kökdən çıxardıb atım. Yerində gülləri çoxaldım. Həm buranın mənzərəsi gözəlləşsin, həm də arılarım bal tolid eləsinlər ki, onun məhsulundan millət istifadə etsin. Bu xəbəri eşidən qaratikanlar daha da gülləri sıxışdırmağa başladılar, amma iş-işdən keçmişdi. Çünki həm tədbir və həm də əql ikisi bir yerdə gülün xeyrinə idi. Beləcə, dözümlü güllər mübarizədə tikana qələbə çaldılar, ancaq üzərlərinə yapışan tikanları hələ də qopara bilməmişlər. Ona görə ki, ətrafdakı tikanları birisi ehtiyacı olduğunddan və bal istehsal etmək arzusundan ötrü aradan apardı. Ancaq gülün canına yapışan tikanlar insanı o qədər də maraqlandırmadığından, hənuz da gül tikansız yaşamır. Bu diri gülün taleyidir. Bəs görəsən bitməmiş gülün günahı nədir?

Dəyərli dostlar, həqiqətdə təbiətin bir ümumi mənzərəsini bir yaz əyamından sizə daşımağa səy elədim. Amma gəlin kimsəyə tikan olmayaq. Bacardıqca gül olaq, gözəllik oxşayaq. Doğrudan, bir dəyərli sualım da var idi. Imkan varsa buna cavab yazın. Göndərin, adınızdan çap olunsun.

-Siz "Xudafərin"in məsul müdiri olsaydınız nə yazardınız?

# QİSAS QİYAMƏTƏ QALMIR

Həyat deyilən şey bəzən o qədər maraqlı olur ki, onun bir anını belə min il yaşamaq istəyirsən. Yaxud onu heç unutmağı belə ağlına gətirmirsən. Bunlar dünyada tanrının yaratdığı bütün qollara şamil olur. Odur ki, bu anlar həm ibrətamiz, həm də nəşə dolu olur. Kiməsə fəlsəfi anlamın açılışı, kiməsə dünyəvi ləzzətin xoş rayihəsi, kiməsə nəyin harada baş verməsi. Düzünü deyim, yaşımın düşünür dövrünü yaşadığım çağda mən belə anlarla rastlaşdım və onların bəzisi məni çox üzdü. Bəziləri də məni çox sevindirirdi. Fələstinli uşağın israillilər tərəfindən dünyanın gözü qarşısında güllələnməsi, yaxud Qarabağda ermənilər tərəfindən müsəlman azərbaycanlı uşağının qarnına nizənin soxulması və buna bənzər digər hadisələr məni çox üzür və hər zaman yaddaşımda qalır. Bunlara əlavə eləyim ki, cəng zamanı yolddaşlarımın gözümün qabağında şəhid olmaqlarını unuda bilmirəm.. Bəlkə də bizdən öncə Xerosima və Naqasaki faciələrini yaşayan bəşər övladı hələ də öz sağlam ruhunda belə bəşəri cinayətləri unutmadan yaşayır.

Dəyərli dostlara bəllidir ki, Qərb riyakarlığı, qəsbkarlığı, Şərqə, xüsusilə də islam dünyasına olan nifrət hissini zaman-zaman gizlədə bilməmələrində biruzə verir. Onlar anadan mehriban dayə kimi də görsənsələr belə, ancaq gizlicə bizim yox olmağımızı planlayırlar. Bütün görünən olaylar buna sübutdür.

Nə isə. Bu məsələ İraqda, Əfqanıstanda, Azərbaycanda, müxtəlif müsəlman ölkələrdə və ən bariz nümunəsi Fələstində göz qabağımızdadır. Ancaq, məncə, ən maraqlısı həyatda iki cinayətkar şəxsin eyni qiyafədə yaxalanmasıdır. Biri dünya şöhrətli cinayətkar və ölkəmizə təcavüzü

planlayan Qərbin məzduru Səddam Hüseyndir, o biri də Qərbin öz toxumu olan İslav Nicad Pərəstilinin simvoluna çevrilən Radovan Karaciçdir. Baxmayaraq ki, Qərbin yetişdiməsi olan Səddam tez bir zamanda tutularaq öldürülür. Ancaq Qərbin öz balası olan Radovan törətdiyi cinayətlərdən 13 il sonra da əlini-qolunu sallayaraq Belqradda yaşaya bilir. Mən əminəm ki, Radovanı Qərbin humanistləri yox Allah tutdurub və bunun adı bizim dildə "qisas qiyamətə qalmaz"dı...

Radovan keçmiş tarixi cinayətkar Miloşeviçin köməkçisidir. 460 min müsəlman bosniyalını müharibədə yox, onların sakit həyat tərzində yaşadıqları evlərində qətliam edib və bununla müsəlmanların soy kökünü Avropada qurutmaq istəyib. O, iki milyona yaxın müsəlman bosniyalını ev-eşiyindən didərgin salıb (o və onun arxasındda duran gizli anti-müsəlman Qərb proqramçıları). Radovan təkcə Serbiyada 8 min müsəlmanı soy qırıma məruz qoyub. Onunla bərabər onun soydaşları da, general Ratku Milodiç də bu cür cinayətlərin iştirakcısı olublar.

Gəlin bir az diqqətlə məsələyə baxaq. 20-ci əsrdə heç bir avropalı qətliyam edilməyib. Ancaq bir milyon müsəlman Əfqanıstandda, 20 min müsəlman Azərbaycanda, bir milyon iraqlı Qərb ölkələri və amerikalılar tərəfindən, yüzlərlə kəşmirli, babirli hindlər tərəfindən, minlərlə müsəlman bosniyalı isə serblər tərəfindən qətliam ediliblər. Hələ sağalmayan fələstin yarası öz yerində. Onda gəlin görün, kim hansı insan haqlarından dəm vurur?

Mən şəxsən daxilən bu tayı-bərabəri olmayan Qərb qətliamcı cinayətkarların tutulmasından sevinc hissi keçirdim və əminəm ki, Allahın verdiyi əhd müsəlmanlar üçün bir gün mühəqqəq olacaq, təki səbirli olmaq lazımdır. Yer üzü heç bir cinayəti götürmür, gec-tez bütün cinayətkarlar Allahın yaradılışına qarşı olanları və onun

məxluqunu öldürənləri, yəqin ki, ədalət öz cənginə alacaq. Allah ədalətlidir və bu ədaləti, yəqin ki, bütün müsəlman dünyası ilə birlikdə bosniyalı müsəlman qardaşlarımız duyacaqlar və şükranlık hissi yaşayacaqlar. Bütün ,hər türlü cinayətkarların məhv olması arzusu ilə özümüzü o böyük Yaraddana tapşıraq. Qardaşlıq naminə omuz-omuza, qol-qola.....

# "DAŞNAKSÜTUN" VƏ ONUN QURULUŞUNUN İDEOLOJİSİ

Milli şovinizm və xəyali sosializm hermofidiyyəti olan "Daşnaksütun" partiyasının son yüz illikdə gah gizli, gah da açıq-aşkar dəstəklədiyi etnik təmizləmə siyasətinin ideya əsasları yeddinci yüzillikdə yəhudilərin peyğəmbəri olmuş Yezikilin məlum təlimindən qaynaqlanmışdır. Erməni ideoloqlarının yezitizm təlimindən məharətlə əxz etdikləri ehkamlara görə Allah tək olduğu kimi, erməni milliyyəti də yer üzündə bütün imtiyazlardan istifadə etməli olan yeganə millətdir. Əvəzsiz və bənzərsizdir. Nadir və qadirdir o!!!!. Erməni milləti hər şey, başqa millətlərsə heç bir şeydir. Harada erməni varsa, orada hökmən milli boya güclü olmalıdır. Daşnakların tanınmış ideoloqu Rubenin təbirincə, erməni milləti müstəqil fərdlər və sərbəst vahidlərin cəmi, başqa millətlər isə bu cəmin mənasız və əhəmiyyətsiz sıfıra bərabər vahidləri, zərrəcikləridir. Aharuniyan deyilən başqa bir ideoloq daha uca səslə bəyan edirdi ki, "erməni milləti Allah vergisidir. Onu başqa millətlə eyni tərəziyə qoymaq olmaz. Dünyada ən nadir, ən seçmə bir soy varsa, o da erməni soyudur. Bu soyun övladları olan biz ermənilər fəxr etməli, həm də ali hüquqlara sahib olmalıyıq". Daşnaklar təlqin edir ki, heç bir xalqın taleyi və tarixi zaman və məkan hüdudlarından kənarda ola bilməz. Erməni xalqının tarixi və taleyi isə elə bir ölməz ruhdur ki, bu ruh zaman və məkan qarşısında heç vaxt boyun əyməyəcək".

Yezitizm təliminin erməni mühitinə uyğun olaraq bu səbkidə təbliği möhkəm ideya əsasları kimi daşnakların 1907-ci ildə qəbul etdikləri proqramda çox qabarıq bir şəkildə öz əksini tapmışdır. Proqramın milli şovinizm

ruhunda yazılmış ilk iki cümləsində deyilir ki, "ali məqsəd yalnız və yalnız ermənilərin siyasi, iqtisadi və milli mənafeyinə xidmət etməkdir". Ikinci cümlədə göstərilir ki, başlıca diqqət ancaq və ancaq Türkiyədə "ermənilər yaşayan vilayətlərə yönlədilməlidir". Deməli, hər şey erməni üçün, hər şey ermənin milli varlıqı naminə" proqramın 9-cu maddəsində bu fikir güclü səslənir. Yenə də ermənilərin mənafeyini nəzərə almaq şərti ilə qafqazı yekcins, eyni etnk qruplar prinsipi ilə kantorlara bölmək təklif edirlər. Qəribədir ki, Andranik Mihranyan bu prinsiplərin təhlükəsizliyi naminə Qafqazın federativ əsaslara Rusiyanın tərkibinə daxil olmasını təklif edir. Təşkilat əsaslarını daşnaklar İqnati Loylun Parisdə 1534-cü ildə təşkil etdiyi "Eysi cəmiyyəti"nin 16-cı yüz illikdə geniş yayılmış dövlət idarəetmə üsulu təcrübəsindən əxd etmişlər. Cox ciddi mərkəziyyət prinsipi dəmir intizam, rəhbərə pərəstiş və qeyd-şərtsiz tabelik, məqsədə çatmaq və vəzifəni yerinə yetirmək yolunda ruiakarlıq, ikiüzlülük, casusluq, hətta ən ağır cinayətə belə əl atmaq məqbul sayılır.

"Daşnakstun" partiyasının proqramı və nizamnaməsi məhz bu ruhda təkmilləşdirildi. 1892-ci ildə qəbul olunmuş proqramda daşnaklar Türkiyədə yaşayan bütün erməniləri terror və silahlı üsyana çağırırdılar. 1907-ci ildə qəbul olunmuş nizamnamənin düz 5 maddəsi hər bir təşkilat nəzdində azı 10 nəfərlik silahlı dəstələr təşkil etməyi nəzərdə tuturdu. Ayrıca bir bölmə (155, 156, 157-ci maddələr) terrora həsr olunmuşdur. Partiya təşkilatlarına icazə verilir ki, məqsədə nail olmaq üşün, lazım gəldikdə siyasi və təşkilatlı terror üsulundan çəkinmədədn istifadə etsinlər. Bu ideya və təşkilat əsasları üzərində fəaliyyət göstərən partiyanın öz liderləri belə etiraf edirlər ki, "Daşnakstun" öz üzvlərinə sallaqxana malı kimi baxır. Onlara tək bir hüquq - məqsədə çatmaq yolunda ölmək hüququ verilir. Təşkilatın

əsaslarına görə, "Daşnakstun" həqiqətən də silaha, terrora arxalanan ən qatı milliyyətci, irticacı, təcavüzkar partiyadır. Təkcə qonşu xalqalra deyil, özünun "sosialist inqilabçılar" adını bayraq edərək azərbaycanlılara qarşı soyqırımına başçılıq edən bu partiyanın ilk qələbəsi "müsəlmansız Ermənistan" siyasətinin başa çatması idi.

1912-ci ildə "dənizdən dənizə böyük Ermənistan" planının formalaşması başa çatdı. "Türksüz Ermənistan" və ya "etnik təmizlənmə" bu planın ilk başlanğıc mərhələsi kimi irəli sürülmüşdü. Daşnak liderləri tələb edirlər: Ermənistan olması üçün əhalisi də ermənilərdən ibarət olmalıdır. Gərək dili də erməniyə mənsub olsun. Bütün həyatımızı başdan-ayağadək erməniləşdirməliyik. Bu taleyimizin hökmü, günümüzün təkidli tələbidir. Ermənilərin ən böyük bədbəxtliyi azərbaycanlılarla, Azərbaycanla qonşu olmalarıdırlar. "Türksüz Ermənistan" siyasəti bu əsasda formalaşdı. 1921 ci il noyabrın 29-da "Xorhərdayın hayastan" qəzetində A. Miyasnikyan yazır: "Ermənistanı erməni olmayanlardan birinci türklərdən təmizləmək lazımdır. Daşnakların milli siyasətinin tələbi belə idi. Nifrət edin, müsəlmanları qırın, kəndlərinə od vurub yandırın, əmlaklarını talan edin və bu yolla xambaret ruhu yaradın!".

1828-ci ildən başlayan və 1988-90-cu illərdə başa çatan etnik təmizləmə siyasəti sayəsində indiki Ermənistan ərazisində 2 minə yaxın kənd müsəlmansız qaldı. 1,5 milyon azərbaycanlı müsəlman öz doğma ocağından didərgin salındı. Müsəlmansız Ermənistan siyasətinin son nəticələri bu oldu ki, müsəlmanların Xan kəndindən Ağababa, Qazax, Göycəyədək ən azı 60 min kilimetr ərazi itirdi. 10 cildlik erməni tarixinin müəllifi Leo yazırdı ki, "Batum müqaviləsinə görə, Ermənistan ərazisi Göyçə gülü ətrafında ancaq erməniləri dəfn etmək üçün bir qəbirstanlığın

sahəsinə bərabər idi". Deməli, indiki Ermənistanda müsəlmanların məskunlaşdıqları ərazi ən azı 20 min kvadrat kilometr olmuşdur.

"Müsəlmansız Ermənistan" siyasəti sayəsində bu qədər ərazi türksüz qaldı. Sonra da islam dünyası öz torpaqlarından daha 20 min kvadrat kilometr itirdi. Daha bir təksib edilməz fakt: 1916-cı ildə İrəvan quberniyasında müsəlmanların sayı 373582 nəfər olmuşdur. İndiki Ermənistan ərazisində isə bir nəfər də müsəlman qalmayıb. Deməli, "Türksüz Ermənistan" siyasəti əslində müsəlmanlara qarşı tətbiq edilən mənəvi və fiziki soyqırımın təkmilləşdirilmiş müxtəlif şüarları altında rəngarəng metodlarla həyata keçirilən formasıdır.

Strategiya, taktika dəyişməz olmuş, daşnak təcavüzü indiki Ermənistan ərazisindən başlamış, indiki müsəlman Azərbaycan ərazisini bürümüşdür. Ən qəddar daşnak S. Şaumyanın təbirincə deyilirsə, təcavüzkar öz məkrli niyyəti və çirkin sifətini nə qədər ustalıqla pərdələyir pərdələsin, havadarları onun qulaqlarından tərəfindən tutub öz tərəfinə nə qədər dartırlarsa dartsınlar birdir, gec tez dünya ictimaiyyəti bu çirkin sifəti aydın görəcək, bu məkrli niyyətdən dürüst xəbər tutacaq, bu çirkin sifəti, bu məkrli niyyəti gizləmək mümkün olmayacaq.

# DİN VƏ KİMLİK MƏSƏLƏSİ MÜQƏDDƏS MƏKANLAR DÜZƏYİNDƏ

Hər bir insanı öz forma və qəliblərində göstərən onun sahib olduğu, yiyələndiyi kimlikdir. Kimlik həm vahid anlama tək kim olduğumuzu və parçalar anlamında kimlərdən, yaxud nələrdən oluşdurduğumuz ana kimlikdən ibarətdir. Ən birinci, kimliklərdən ibarət olan insan oğlu onun daşıdığı ilkin marka kodlarıdır.

-Haralısan?

-Kimlərdənsən?

-Nə dinə qulluq edirsən?

-Hansı millətdənsən?

-Nə iş ilə məşğul olursan? və b.

"Xudafərin" dərgisinin keçən sayılarında kimlik haqqında, bəzi kimliklər barəsində sizlərlə söhbət etmişdik. Ancaq bugünkü, habelə günlərin ab-havasını yansıtan, həm də kimliyimizi oluşduran və bizi bu oluşdurmadan dolayı "biz kimi" tanıtdıran dini kimlikdən qısaca olsa da söz açacağıq.

Ana kimliklərdən olan və təməl kimliyin əsasını təşkil edən dini kimlik irqi kimlikdən də önəmlidir. Ona görə önəmlidir ki, dini kimlik zəmirində yatan kimlik insani amaclardan savayı, ruhi və mənəvi dəyərləri də özündə qapsamaqdadır. Açıq sözlə desək, həyat tərzi və həyat qaydalarını əks etdirən və ümum iştirak sağlayıcısının daha geniş alanlı qapsamalı və istiqrarlı olan bu kimlik oluşdurucusu həm də insanın daxili hiss və əqli-tədbir elmi öyrənimlərini də öz içinə ala bilir.

İrqi kimlikdə bu məsələ o qədər də şəffaf deyil, ancaq dini varlıqda inanc və inam məsələləri həm də ehkam şəkillərində yazılı və şifahi formada aydın görünür və onun qavranılması

əqli cəhətdən daha uyğun görünür, halbuki başqa cüzi kimlik oluşduran kiçik varlıq versiyaları, deмək olar ki, din kimliyi qədər şəffaf və başa düşülən olmadığından arxa sıralarda yer alır.

Dini kimlik vəhdət verici bir amil kimi çox saylı, çox irqli, çox millətli başqa kimlikləri bir arada vahid şəkilə salmağı bacarmışdır. Çünki bu cür kimliyin ortaq və vahid inanc mirasları olduğundan, həm də ruhi və kitabət mövzularında olan bariz göstəriciləri onun səmavi və Allah tərəfindən buyrulduğundan insanda nurani bir varlıqa sövq etdirilməsi prosesini gücləndirir.

Din insanı mənfi cəhətlərdən arındıraraq düzlüyə, doğruluğa, yaxşılığa, paklığa, xeyirxahlığa, Tanrıdan qorxuya, ibadətə - bir sözlə, daxili və xarici gözəlliyə yönəldir. Insan inandığı zaman rahatlamağa başlayır. Aqressivliklərdən boşalmağa başlayır. Ona görə də dini kimlik səmavi inanc və gözəl duyğular zəminində baş verdiyindən bəşər oğlunda öz qalarıqlığını daimi qoruya bilir.

Dini kimlik dini məktəbə və dini təlimə çevrilə bilər. O, hər gün öz daşıyıcısını yoğurur, mükəmmələşdirir. Inandırır, sevindirir, əqli qüvvəsini felə çevirərək daxili potensialını artırır. Bu həm də məişətdən başqa, hər kəsin də daxili aləmini nurlandırır. Yol göstərir və artıq kimlik əqidə və düşünür halına gəlir. İqtisadi, sosial, siyasi, əməli, mədəni, və ictimai həyatımızda özünü qabarıq formada göstərməyə başlayır.

Müstəqim xətlə uzanan, Allahdan başlayıb Allaha çatan xətlə davam edir. Kimsənin kiməsə üstünlüyü vurğulanmır. Bu kimlikdə paklıq, təqva və imanın dərəcəsilə ölçülən dəyərlər hər kəsi məmnun edir. Zorlamadan özünü yüksəltmək, öz yüksəlişindən puan - xal qazanmaq qarşıdakıları da incitmir, bir az da məmnun göstərmə ünvan göstərir.

Dini kimliyin təzahürləri təpədən dırnağa məşhud və gözlə görünə biləcək qədər asanca uyğulanan yöntəmlərdir. Geyim, yeyim, dolanışıq, davranış övladdan, qonşudan tutmuş ta ki, dünya düzəyindəki siyasi məsələlərə qədər özünü bizim ruhumuzda və vücudumuzda göstərir. Bu kimlik mədəniyyətlərin və fərdlərin mənəvi əsasda fərq və iştirakını ortaya qoyur. Tavur sərgiləyir, ayin göstərir və ədəb irəli sürür. Siyasi görüş oluşdurur və bu görüş əsasında dünya millətləri ilə əlaqələr yarada bilir. Dost, qardaş, və düşmənlər aşıqca bilinməyə başlayırlar. Halbuki digər kimlik ortamında belə mövzular çox həssas olmur. Məsələn, irqi kimlik də tarixi faktor, dil, və bu kimi kimlik versiyaları öz əhəmiyyətini itirir, çünki milli kimlikdən üstün olan ümmət kimliyi maddi fərqləri o qədər də önəmsəmir. Rəngindən, dilindən, irqindən asılı olmayaraq mənəvi qardaşlıq bağları öz sözünü deməyə başlayır. Şəxsi kimlik oluşumları ilə milli kimlik oluşumları ortaq məxrəcdə dini kimlikdə ən yüksək formada amacı ilə şər və pis qüvvələrlə insan daxilində və xarici həyat aləmində mübarizəyə başlayır. Və onun aydın perspektivi tələbatlı bir danışmaya gətirib çıxarır. Bu uzun müqəddimədən sonra ən mühüm məsələyə bir qısaca nəzər salmaq istərdim.

Fərd və görünün kimliklərdən üstün bir də şüuru kimliklərdir. Şüuru kimliklər vardır. Bu bizim dini kimliyimizdə peyğəmbər Həzrətlərimiz bizə İslam dinini gətirdiyindən sonra, bütün sahələrimizdə özünü möhkəmləndirməyə və doğrulamaya başlamışdır. Bunlardan biri də Qüds məsələsidir. Hər orucluq ayının son çüməsi bütün müsəlmanları bir araya gətirən dini birlik dalğası, ümmət vahid dalğasında müxtəlif qətrə kimliklərin oluşumundan başlayaraq yaranır. Bu hadisə İmam Xomeyni tərəfindən əsası qoyulduqda və indiki ust düzəydə və şüuru kimlik şəklində islamın binövrələrini qorumaq qabiliyyətini

nümayiş etdirməyə qadir olduğunu göstərə bilir. Müqəddəs bildiyimiz Kəbə qədər sevdiyimiz ilk qibləgahımız Qüds niyə bu qədər bizim din və şüuru kimliyimizdə canlanmaya başlamış? Ona görə ki, cəmi və ümmət kimliyi sarsıdıcı və dağıdıcı təhlükəni düşmən tərəfindən duymuş və öz varlığını qorumaq əzminə qərarlı olmuşdur. Qüds etiqadı və inanc həm də mənəvi müqəddəsliyi ilə müsəlman insanında və İslam inancına tapınan hər kəsdə ümmətin vahid kimliyinin yekdil oluşumundan kutsal varlığını bir daha ürəklərdə və siyasət düzənində göstərməyə başlayır. Əlbəttə, Qüds mücadilə fədailəri, Fələstin körpələrinin qanıyla suvarılaraq 1947-ci ildən İslam dünyasının qıpqırmızı al bayrağına çevrilmişdir. Sionizmin və o kimliyi daşıyanların bizim müsəlman kimliyimizə təcavüzü hər an biz müsəlmanlarda şəhadət, müqavimət və əzmkarlığımızı Allaha qovuşmağımızla sübuta yetirir.

# SEVGİ TOPLUMU ACILARI TEZ UNUTDURUR

Dünya deyilən yaşadığımız yer kürəsi və onun üzərində yaşayan bütün canlı və cansız varlıqlar yaşam və olum haqqına sahibdirlər. Qarışqasından filinə, rəisindən fəhləsinə hər kəs bərabər haqqa sahibdir. Bizi yaradan, bizə "var ol", - deyən Tanrı "ağın qaraya, böyüyün kiçiyə fərqi var", - demədi. Bəşərin var olduğu çağdan üzü bəri göndərilən rəsulların, seçkin insanların vasitəsi ilə hər zaman düzənli və sevgi toplumu camisi oluşdurmaq və hər an olduğumuzdan irəliyə və kamala doğru inkişaf etməyimizi sağlamış və təmin etmişdir.

Təkvin və təkmil surəci hər zaman yeniləşən, ancaq əzəlindən qopmayan və yaranış nöqtəsində istehkam tapan canlı varlıqlar keçən hər anda bir an irəliyə doğruya və sevgiyə sarı irəliləməkdədir. Hər şey də sevgi, duyğu və inam olanda itki az olur. Aşkarlıq və düzlük görünməyə başlayır. Bunda da fayda var.

Ona görə fayda var ki, ortaq bir sevginin, qardaşlığın yaşam dairəsində yaşayan insanlar acı komplekslərindən uzaq olurlar. Nifrət azalır, eşq və sevgi, əldən tutmaq, yardım fəlsəfəsi daha çox özünü büruzə verir. Xarici amillərlə və daxili viruslara qarşı toplum aşkarlanmış olur. Sevgi toplumunda ara seçkiyə yer olmur, sədaqət və inam yalanın və əyrinin yerini tutmuş olur. Sevgi toplumunda sənə yaxşı olan mənə də yaxşı olur. Sənə pis olan mənə də pis olur. Belə toplumlarda özümüzü dərk edirik, insanlıq dəyərləri, mənəvi dəyərlər milli və şovinisti yalançı dəyərlərdən üstün olur. Zəhərlənmiş beyinlər azalır və müsbət düşüncəli insanlar yetişməyə başlayır. Hüquqi toplum sevgi toplumun nəticəsində yaranır.

Xarizmatiklikdən sevgiyə, üstünlük hisslərindən bərabərliyə, qardaşlığa doğru yürüyən toplum bütün sorunlarını qardaşcasına, könül birliyi ilə həll etməyə başlayır. Incimək yerinə etimad və güvən oluşmağa başlayır.

Maddi hərisliyin yerini ümummilli mənafey almağa başlayır. Səndə qürur hissi və vətən sevgisi təlatüm etməyə başlayır. Sən vətəni sevməyə başlayırsan, onun uğrunda ölməyi belə sevə-sevə qəbul edirsən. Zor, sonsuz düşüncələri qayçılamaq, sansoru gücləndirmək, sual altına gedəndə insanlarda daxili gərginlik hissi yaratmağa başlayır.

Belə kompleksi insanlarda intiqam və öc hissi güclənir. Ancaq sevgi və qardaşlıq toplumunda qorxu və kin hissləri yerinə güvən və inam güclü olur. İnsan sevgisi, haqq və həqiqət yolçuları çoxalır. Xarici saflıq, daxili paklıq, ictimai disiplin belə bir toplumda baş verir.

Əgər həyatımızı və onun gəlişimini bir gül ağacına bənzətmək istəsək görərik ki, suyu, gübrəsi yaxşı verilmiş gül və gül sahibinin nəvazişi, əzizləməsi ilə becərilən gül də bunlar nə dərəcədə öz əhəmiyyətini göstərə bilir və belə bir gülün başqa güllərə qarşı nə qədər təravətli olmasını göstərir. İnsanlar da belə bir sevginin möhtacıdırlar. İstər bu sevgi ata-ana, istərsə də vətəndaşlar tərəfindən olsun.

Əzmkarlıq, məqsədə doğru inadçılıq hamısı bir müqəddəs bulaqdan su içir ki, onun da adı sevgidir. Sevgi, o sevgi ki, ananı balaya məbud edir, balanı anaya, həm də tikanlı gülü bizə sevdirməyə bacarır. Həzrət Mövlana demişkən: "Məhəbbətdən tikanlar gül olar". Kimsən, nəsən, Məsihisən, Müsəlmansan, nə sən gəl....gəl.....gəl ki omuz-omuza, qol-qola olaraq birlik və bərabərlik yaradaq və sevgi toxumu əkək, acıları silək, hüzur gətirək. Yəqin sevgidən gələn müsibət enerji hamımıza lazımdır...

# YENİ İL VƏ MİLLİLƏŞMƏ

Yeni ilin başlanğıcında ölkəmizdə davam etməkdə olan bir çox irəliləyişlər, o cümlədən mənəvi-psixoloji amillər gözə çapmaqdadır. Bu il ölkə öndəri tərəfindən "Milli istehsal, iş və yatırım" ili elan edildi. Ona görə də bütün aidiyyatı olan orqanlar özünü bu buyruğa görə hazırlamış oldu. Əminik ki, rəhbərin buyurduğu bu dirçəliş ili ölkə üçün verimli, bol və bəhrəli olacaqdır.

Bütün bunlarla yanaşı, iqtisadı çətinliklər özünün pis üzünü insanlara göstərməkdə davam edir. Insanlar günü-gündən iş və alıcılıq qabiliyyətini itirərək bir çox ehtiyaclarını ödəmək üçün, demək olar ki, bəzi önəmli, o cümlədən də mədəni ehtiyaclarını arxa plana keçirmək zorundadırlar. Biz də "Xudafərin" olaraq bu çətinliklərin girdabında qol-qanad çalmağa davam edirik. Ancaq əminik ki, vətəndaşlarımızın müsbət yanaşmaları və olumlu baxışları bizi bu burulğandan sağ-salim çıxaracaqdır.

Bölgədə gedən dəyişim gedişatı bizim ölkədən də yan ötüşməmişdir. "Ərəb baharı" deyilən bir siyasi oyanış və dirəniş müxtəlif formalarda Suriya, Bəhreyn, Liviya, Yəmən, Səudiyyə Ərəbistanı və başqa ərəb ölkələrini əməlli-başlı çalxalandırmaqdadır. Bu çalxalanmaların əsintisi bizim ölkədə də istər-istəməz mənəvi və psixoloji təsirlər buraxmaqdadır. Bu o deməkdir ki, bu ölkələrlə müttəfiqlik və ya qeyri-müttəfiqlik bizləri də bu burulğana çəkməkdədir. Beləliklə, bu hadisələrin ölkə və bölgədə olumlu və olumsuz təsirləri görsənməkdədir.

Qonşularla normal şəraitdə yaşamaq, iqtisadi dirçəliş, mənəvi yüksəliş hamının təbii haqqıdır. Bu təbii haqqı əldə etmək üçün hər kəs öz daxili düşüncəsindən başlayaraq yan-yörəsindəki insanların beyin və zəkası ilə birləşməyə, yəni

həyatın canlanmasına kömək edə biləcək hər şeyi etməyə məcbudur.

Bütün bunlarla yanaşı, bizim də öz sorun və istəklərimiz hala qalmaqda və davam etməkdədir. Azərbaycanlı olaraq Urmu gölünün quruması, mədəni tələblərin həll edilməməsi bizi də maraqlandırır və bu yolda əsas məsələyə qayıdış önəm qazanır.

Təbii ki, bütün fəaliyyətimizdə milli məafeyimizi düşünəcəyik. Millətimizi düşündüyümüz zaman milli dərkin çərçivəsində milliləşdikcə özümləşəcəyik. Gəlin milliləşək, millətləşək və özünü dərk prosesində öz içimizdə düşüncələrimizi götür-qoy edək. Çox sağ olun. Görüşənədək.

# YALANÇI ERMƏNİ SOYQIRIMINA QARŞI NƏLƏRİ ETMƏK OLAR?

Bir türk olaraq qan davası güdmək, intiqam almaq inancımıza da, tarixi şərəfimizə də yaraşmaz, amma yazılanlara baxdıqda...

Hesab edirəm ki, həqiqətləri ortaya qoymaq, ermənilərin bağırtısını kəsmək, bizim səssizliyimizi aradan qaldırmaq və haqq səsimizi dünyaya bəyan etmək elm adamlarının, xüsusilə tarixçilərin şəhidlərimiz naminə ödəyəçəkləri bir borcdur. Ermənilərin iddialarına arxa çıxan dövlətlər özlərini tarix qarşısında məhkum etdiklərini bilməlidirlər. Mən bu gün bütün dünyada aktual bir mövzu halına gətirilən "erməni məsələsini" rəsmi sənədlərə dayanaraq ciddi bir şəkildə araşdırmış, bir elm adamı olaraq, erməni məsələsini geniş bir aspektdə tədqiq edən amerikalı tarixşunas alim prof. Custin Mokkartinin aşağıda verdiyimiz çox qiymətli yazısında, qeyd etdiyi bütün düşüncələrinin doğru olduğunu təsdiq edirəm. Onun söylədiklərini böyük məmnuniyyətlə təkrar edirəm...

"Türk və erməni tarixi haqqında yazılan bir kitab ermənilər tərəfindən öldürülən Anadolu və Azərbaycan türklərinin tarixini ehtiva etməzsə, doğru sayılmaz. Bu o qədər apaydın bir şeydir ki, söylənməsi belə yersizdir. Ancaq yenə də bunu xatırlatmaq lazımdır. Çünki bəzi tarixçilər dürüst tarix yazmanın qaydalarını unutmuş görünürlər.

Tarixçilər kimi, siyasətçilər də doğruları söyləməyə məsuliyyət daşıyırlar. Siyasətçilər tarix haqqında bir şeyi bəyan edirlərsə, tarixçilərin vəzifə və məsuliyyətini də daşımış sayılırlar. Onlar tarixi qeydlərə, hətta qeydlərin tamamına dürüstcə baxmaq məcburiyyətindədirlər. Siyasi

təzyiq olsun deyə, özlərinə söylənənləri doğru qəbul etməməlidirlər. Doğruluğuna ataları inanırlar deyə, bir şeyi doğru qəbul etməməlidirlər. Öz mənfəətlərinə uyğun hərəkət edərək, doğru olmayan şeyi qəbul etməməlidirlər. Siyasətçilər tarix haqqında danışacaqlarsa, tarixlə əlaqəli mövzularda məclis qərarı alacaqlarsa, tarixin qayda və qanunlarına uymaq məcburiyyətindədirlər. Əks halda, siyasətçilərin bəyanları həqiqəti əks etdirməyəcəkdir. Əksinə davranmaqla, bəlkə də özlərini siyasi baxımdan bir fayda və səs çoxluğu ilə təmin edə bilərlər. Ancaq heç bir zaman doğrunu söyləmiş sayılmaz və gec-tez o siyasətçinin yalanı ortaya çıxacaq. Bu, xüsusən təkrar-təkrar ifadə edilməsi lazım olan məsələdir. Əgər siyasətçilər tarixçi olduqlarını zənn edirlərsə, tarixin qanunlarına əməl etmək məcburiyyətindədirlər. Lakin "erməni soyqırımı" mövzusunda qərar çıxaran parlamentlər dərslərini yaxşı öyrənməmişlər. Bu parlamentlərin tarix ilə əlaqəli bəyanları insanı dəhşətə gətirən pis tarixçilikdir. Ermənilərlə əlaqəli məsələlər barədə qərar qəbul edərkən, fransız və ya Avropa birliyinin parlamentləri öz əqidələrinə zidd olan hər hansı bir dəlil incələmişlərmi? Xeyir! Başqan Caçquyes Cəhirac qısa bir zamanda bütün hökumətlərin "erməni soyqırımı"nı qəbul etmələrinin lazım olduğunu bəyan edərkən, Osmanlı dövlətinin qeydləri daxil olmaqla, bütün mənbələri ayrı-ayrı incələmişdirmi? Xeyir! Amerika senatından "soyqırım" qərarlarını keçirməyə çalışanlar bu çatışmada milyonlarla türkün öldüyü həqiqətləri qəbul etmişlərmi? Xeyir! Bu tarixçilərin bir tərəfli, saxta tarixinə görə ölənlər yalnız və yalnız ermənilərdir.

Etiraf etməliyəm ki, bir tarixçi olaraq, mövzunu bütünlüklə incələməyi rədd edib, öz siyasi mənfəətləri istiqamətində rahat danışanlara qarşı qəzəblənirəm. Əslində tərsini etmələrinə baxmayaraq ,"erməni problemi"ni bütün

tərəflərilə incələdikləri şəkildə, saxta ideyalarla ortaya çıxaranların ikiüzlülüklərinə də qəzəblənirəm.

"Erməni soyqırımı" olduğunu iddia edənlərin iftira alışqanlıqları var. Onlar bütün dünyaya Osmanlıların zor işlətdiklərini və bu zaman bir çox erməninin öldüyünü söyləyirlər. Onların sayı olduqca şişirdilmiş olsa, da ölənlər olmuşdur. Bu "soyqırım" törədildiyi demək deyildir, çünki köçürüldükdən sonra ermənilərin çoxu həyatda qalmışdır. Bu da "soyqırım" kimi bir planın olmadığına bir işarətdir.

1890-cı illərdə minlərlə erməninin müsəlmanlar tərəfindən öldürüldüyü söylənilir. Bu, doğru sayıla bilər. Amma orada söylənməyən bir şey vardır. Bu da on minlərlə türkün öz evlərində ermənilər tərəfindən öldürülmələridir və qətliami ermənilərin başlatdıqları tarixi və rəsmi sənədlərlə isbat olunur.

Bu gün mübahisə mövzusu olan, amma ələ alınmayan mübahisəsiz bir həqiqət var: Ermənilər ermənilərin başlatdıqları qırğınlara qarşılıq vermişlər. Doğrudur, türklər bəzən intiqam duyğusuyla hərəkət etmişlər. Amma qan tökməyi türklər başlamamışlar. Birinci Dünya müharibəsi illərində baş verən hadisələrin də səbəbkarı türklər yox, ermənilər olmuşlar.

Türkiyədəki 1915-ci il üsyanını, qırğını, satqınlığı və xəyanəti başlayan türklərdirlərmi? Xeyir! Vanı mühasirəyə alıb oradakı müsəlmanları vəhşicəsinə qətl edənlər erməni üsyançıları olmuşlar. Türkün silahı ilə türk insanını öldürən, partizan dəstələri olaraq rusların yanında yer alan ermənilər idi.

1919-cu ildə ermənilərə qarşı qətliam törədən Baki türkləri idimi? Xeyir! Silahsız insanlara hücum edən, Bakının altını-üstünə şevirib qarətlə məşğul olan ermənilər idi. Heç şübhəsiz, ermənilərə qarşı çıxmaq əxlaqi və siyasi baxımdan lazım idi. Azlıqda olan ermənilər Azərbaycan

türklərinin paytaxtında, çoxluqda olan türklərin üzərində rəhbərlik qurmaq istyirdilər. Belə bir ədalətsizliyə qarşı döyüşmək, türklərin Vətən və vətəndaşlıq borcu idi. Heç kim türklərin tamamilə məsum olduqlarını söyləməyə can atmır. Əsl günahkar məsum saydıqları insanları öldürməyə qalxanlardır.

Problemləri kimlərin yaratdıqlarını bilmək həm siyasi-insani, həm də tarixi baxımdan əhəmiyyətlidir. 100 ildən artıq bir müharibə halında olaraq türklər və ermənilər bir-birlərini öldürmüşlər. Öldürmə hadisələrini kimin başlatdığı sualı yaxşıca bilinməli, aydın şəkildə dünyaya bəyan edilməlidir. Çünki təcavüzkarlıq ancaq nadir halda, müdafiə olunmaq isə hər zaman haqlı hesab edilib. Günahkarlar döyüşü başladıb qan tökənlərdir. Problemləri başladanlar isə erməni millətçiləri olmuşlar. Bu günah erməni üsyançıların üzərində qalmalıdır..."

Birləşmiş Millətlər Təşkilatının 194 saylı qərarına görə bir qrupun siyasi və silahlı fəaliyyətdə olduğu isbat edildiyi andan etibarən o, müqavilə tərəfindən soyqırıma qarşı qorunan qruplar arasında qalmır. Ermənilər adından hərəkət edən partiya və ya bənzər təşkilatların ilk addımda kollektiv haqqlarının genişlədilməsi düşüncəsilə islahatlara başlayıb muxtariat əldə etmək, sonra da müstəqqiliyini həyata keçirmək istəyini və bu məqsədlə terrorizm də daxil olmaqla silaha baş vurduqlarını yuxarıda anlatmağa çalışdıq. Bu bir həqiqətdir. Nəinki Osmanlı dövlətinin tarixi-rəsmi sənədləri, hətta İngiltərə, Fransa, Rusiya, Almaniya və Amerikanın tarixi-rəsmi sənədləri bunu isbat edir. Osmanlılar ermənilərin törətdikləri vəhşiliklərə görə soyqırıma deyil, tamamilə yox edilməyə layiq olmalarına baxmayaraq, onları dövlətinin bir sahəsindən digər sahəsinə köçürdülər. Soyqırım belə olmur. Bunu bütün dünya ictimaiyyəti tarixi-rəsmi sənədləri tədqiq edib anlamalıdır.

Ermənilərə hücum edən çətələrlə ermənilərin vəziyyətindən istifadə etmək istəyən, üzərinə düşən vəzifəni yerinə yetirməyənlərin cəzalandırmaları ,osmanlı dövlətində erməniləri yox etmə qəsdinin olmadığının açıq-aydın sübutudur. 1918-ci ilə, yəni Modrs müqaviləsinə qədər bu məsələ ilə bağlı Türkiyədə 1318 nəfər həbs edilib müxtəlif şəkildə cəzalandırılmışdır. Bunların əksəriyyəti də edam cəzasına məhkum edilmişlər olmuşlar. Almanlar isə insan ölümünə səbəb olan hadisələrin qaqrşısını ala bilmədiklərinə görə deyil, soyqırımı tam şəkildə həyata kecirməyən və ya keçirə bilməyən əsgərlərini ini cəzalandırmışlar. Baxın, bu türk-müsəlman əxlaqı, bu da xristian-alman əxlaqı!

Bu həqiqətləri gizlətmək, dünya ictimaiyyətini azdırmaq üçün erməni əsilli yazıçılar iki yolla hərəkət edirlər. Osmanlı dövlətində məcburi köçürülmə nəticəsində ölənlərin sayını həddindən artıq yüksək göstərir, beləcə, türklərin məqsədinin köçürmə deyil, öldürmə, soyqırıma uğratma olduğunu isbat etmək istəyirlər. Bu yaxınlaşmanı dəstəkləyən dugər yol isə, sənədli, dəlilli tarix deyil, köçürülməni yaşamış olanların ağıllarından keçənlərin toplanmasıyla məsələni isbat etmək cəhdidir. Demək olar ki, erməni tarixcilərinin yaratdıqları kitabların hamısında olmayan soyqırım bu iki yanlış yolla guya isbat olunur.

Müxtəlif səbəblərlə ermənilrin şəxsiyyətlərini hədəf alan heç bir zülm olmamışdır. Birinci Dünya müharibəsi başlandıqdan sonra şərq cəbhəsində təhlükəli vəziyyət ortaya çıxdıqda ermənilər bütün Türkiyə əhalisi təki əsas haqlardan faydalanmaqa davam etdikləri kimi, köçürülmə qərarına qədər bu haqlardan məhrum edilməmişlər. Yuxarıda "soyqırım" iddialarını incələdiyimiz zaman türklərin erməniləri yoxetmə qəsdlərinin olmadığını bildirmişdik. Yəni Osmanlılar "küçə zorlama"dan istifadə

edərək ermənilərin həyatlarının təhlükədə olmamasını təmin etməyə çalışmış, köçürülmə qərarı ermənilri yox etmək məqsədilə qəbul edilməmişdir. Buna görə köçürülmə mövzusunu ermənilərin türk insanına qarşı törətdikləri qeyri-insanı qətliamlarla birləşdirərək, ələ almaq daha doğru olardı. Bu həqiqətlər köçürülmənin insanlığa qarşı işlənən cinayətin olmadığını açıq-aydın ortaya qoyur. Köçürülmə qərarı silahlı ermənilərin Şərq cəbhəsində dinc əhaliyə qarşı törətdikləri qeyri-insani hərəkətlərin və qətliamların qarşısını almaq üçün edilmişdi. Bu, əhalinin başqa yerə köçürülməsi üçün dövlət hüququna uyğun bir hərəkət idi. Digər tərəfdən, köçürülmə zamanı hökumətin ermənilərə qeydinə qalıb, onları ərzaq və və dava-dərmanla təmin etdiyi və bu sahədə xəsislik etməməsi , eyni bölgədə köç halında olan türk-müsəlman əhalisinin arasında qaydasızlıq və dərmansızlıq səbəbilə həddindən artıq ölümlərin olması faktı Paris sülh konfransının bəyanından da anlaşılır. Bundan əlavə, ermənilərin işğalçı rus ordusuyla birləşərək türklərin böyük çoxluqda olduqları, şərq bölgəsində soyqırım kimi bir etnik təmizləmə apararaq, öz dövlətlətini qurma səbəblərinin qarşısını almaq üçün, Türk dövləti köçürülməni həyata keçirməyə məcbur olmuşdur. Bu, günün tələbinə uyğun olaraq dövlətin və əhalinin təhlükəsizliyini təmin etmək baxımından qərara alınmışdı.

Qeyd etdiyimiz bu səbəblərdən aydın olur ki, ermənilərin köçürülmələri hər baxımdan qanuna uyğun olmuşdur. Doğrudur, köçürülmə zamanı baş verən bəzi ölümlər cəza hüququ baxımından adi cinayət xarakteri daşımışdır. Nəticədə 1917-1919 cu illər arasına bu cür cinayətləri işlədən 1398 nəfər çox ağır cəzalarla cəzalandırılmışdır. Ermənilərin köçürülməsində zorla köçürülmə hadisələri də vardır. Ancaq "küçə zorlama" vətəndaşa hücüm şəklində olmamışdır. Yaşayış yerlərindən qovulub öldürülənlər, təcavüzə

uğrayanlar, qətl edilənlər, atəşə tutulanlar, ac buraxılanlar da, demək olar ki, olmamışdır. Bundan əlavə "küçə zorlananlar" ölkənin xaricinə atılmamış, ölkənin bir yerindən başqa bir yerinə köçürülmüşdür. Hətta köşürülənlərə yerləşim yerlərində yeni həyata uyğunlaşmaq, yaşayışlarını təmin etmək üçün dövlət vəsaiti belə ödənilmişdir.

"Küçə zorlama" bir etnik irqi yox etmək planı olmadığından ermənilərin ikiüzlü, xəyanətkar olmalarına baxmayaraq osmanlı dövləti onları qrup halında, qatarlarla köçürmüşdür. Köçürülən qrupların təhlükəsizliyi və qida ehtiyaclarının qarşılanması üçün də mərkəzi hökumətin verdiyi dəqiq və açıq təlimatlar rəsmi sənədlərlə isbat olunur.

# BİR ŞAİRİN VƏTƏN XATİRƏSİ

Yeni əsrin yüksəkliyindən tarixi keçmişimizə nəzər salanda qədim və zəngin keçmişimizin cingiltiləri qulağımızda hələ də eşidilməkdədir. Daha doğrusu, bugünkü söz, sənət, maarif və mədəniyyətlə bağlı əsərlərimizdə min illik tariximizin konturlarını da görə bilərik. Dərin köklərimizin qədim duruluğunun bioloji, sosial, etnoqrafi və məvəvi yönünün genləri müasir elm və sənət xadimlərimizin simasında yaşatmaqdadılar.

Bu simalardan biri də uzun illər müəllimlik etmiş mərhum ustad doktor Həsən Əhmədi Guveydir. O, bütün çətinliklərlə baxmayaraq, 1354 cü ildə (1976-cıil) ana dilimizin basqılar altında olduğu dövürdə “Xalxal xatirələri” adlı əsəri ilə ədəb dünyasında silinməz iz buraxmışdır. Hamımıza bəllidir ki, insan bir tərəfdən xarici mühitə irtibat xüsusiyyətləri ilə, digər tərəfdən özünə məxsus daxili özəllikləri ilə səciyələnir. Biz insan oğlu olaraq əzəl yaradılışdan bəri bir bioloji varlıq kimi daxili genlərin kodlaşmasından ibarət düçüncə sahibi olan varlıqlarıq. Böyük türk ulusunun, zəngin və qədim türk uyqarlığının uzantısı olan “Xalxal xatirələri” ,o uzaqlardan yaxın olan fiziki və psixoloji genetik imkanların sağladığı məhsuldur. Bütün bunlar insan, cəmiyyət və sosioloji mühit birləşmələri əsasında meydana gəlir. Hər bir insan yaşadığı dövrə verdiyi psixoloji əks əməl kimi söz, sənət timsalında, ədəbiyyat fonunda bir maarif xəzinəsi kimi ortaya çıxır.

Çıxmır Güveyin güllü-çiçəkli bağı yaddan,
Yaşıl çəməni, arxı, çayı, çaylağı yaddan.

Fiziki varlıq olan insan mənəvi, toplumsal və çevrəsəl varlıq kimi də bulunmaqdadır. Təbiət və cəmiyyət qarşılığında ortaya çıxan şeir onun yaradıcısının yaşadığı mühitdən aldığı dərin etkinin nəticəsidir. İnsan ekoloji, bioloji məhsul kimi mənəvi şüurun göstərgəsidir.

Göy yal, Qoşa daşa Daşlı yamac, Kürd bulağı
Rüstəm daşı, Bəhmən dərəsi, Xan bağı yaddan.

İnsan mənəviyyatı bir tərəfdən genetik əsaslara malik olsa da, əsasən etnoqrafik, sosial və mənəvi çevrəyə təsiri ilə formalaşır. Bu amillər yaradıcılığda əksi bunların ona nə qədər yüksək təsir etməsindən xəbər verir. Həm də şair bu adları sadalamaqla vətənə olan borcunu ifadə etmiş olur və bu adları tarıxən yaşatmaq imkanlarını da yaratmış olur. Şair sözü ilə daş olur qayalara, daşlara ta ki xalqının yaddaşında əbədi həkk olmuş olsun. Bu dərin bağlılıqlarla şair özünü daşlaşdırır, əbədiləşdirir.

İnsanın boya-başa çatdığı təbii və ictimai mühit mövcuddur. Hər bir insanın böyüyüb yetişməsində mühitin kulturoloji istəkləri mühüm rol oynayır. Nəsillərdən qalmış bədii ədəbiyat və söz sənəti də insanın formalaşmasına təsirsiz qalmır. Bunlar kiminin şair, yazar, kiminin isə mühəndis və ya doktor kimi yetişməsində mühüm rol oynayır. Bioloji- ekoloji mühitin kültroloji-mənəvi mühütlə qaynayıb-qarışmaı dünyagörüşün formalaşmasına yardımçı olur.

Şairin 50 ildən artıq Tehran mühitində öyrətmən işləməsinin onu bioloji-kultroloji köklərdən ayıra bilməməsinin səbəbi də onun kökünə qayıdışının formal surətdə yox, bəlkə, və mahiyyətcə qayıdış olduğundan çox əhəmiyyətlidir.

Obasının, yörəsinin gül çiçəyinin ətrini burnunun ucunda daşıyan şair, burada milli özünü dərklə yanaşı, özünü qoruma fitri vəhdətinin olduğunu da qeyd edir. Onun əsərlərində psixi-bioloji anlayış mövcuddur. Burada sosial fitrətdən söhbət gedir. O, onun ictimai həyatına xaricdən daxil olan yad təsirlərə fitrətən olaraq yurdunun güllərinin ətrini, təbii gözəlliyini yada salaraq cavab vermiş olur və özünü formalaşdırır. Kimliyini ortaya qoyur. Ya da :

Görkəmli, sevimli Hırovun bağı-baharı
Dörd bir yanının lalələri, zanbağı yaddan

Milli özünü dərkdən irəli gələn və özü-özünə xatırladan yaddan çıxarmamaq kimi termini elə bil ibtidai sinif uşağı şeir kimi əzbərləyir. Onu yurdundan uzaqda olsa da, yurdun millilik, kimlik andıran cəhətlərini qabardaraq hey əzbərləmək istəyir. Şair şeiri özü üçün yazır. Burada da şair özünü unutmamaq üşün hər gün özünü yada salır və onu kodlaşdıran eko-bioloji konturları xatırlayır. O beyninin və ruhununu dərinliklərində olan maraqlı sözləri can fəzasına qazandırmaq istəyir.

Hacat bulağı, Körpü başı, Nurəli çayı
Qazlar küçəsi, Qırba xanı, Ut dağı yaddan

El-obasının milli olanaqlarını ifadə edən şair fürsət düşdükdə toponimləri vurğulayaraq ,onları birinci özünün və sonda da oxucunun yaddaşında yaşatmağa çalışır. Maraqlı istəkləri tənzimləyir və zehninin aktiv bölümündə gücləndirməklə yanaşı düçüncə təməlinə çevirir. Yurdun qabarıq görüntülərini fəlsəfi tərzdə göstərməyi bacarır. Kim bilir, toponimik varlıqlarımızın, bəlkə də, şairin şeirlərində öz əksini tapmaması gələcəkdə nə kimi acı aqibət gözləyə bilərdi? O, hazırlıq yapmadan öz düşüncəsində gələcəyi bu

gündən tarixiləşdirir və millətin hafizəsində qoruyub saxlaya bilir.

Olumsuzluq çox vaxt kortəbiiliyinin qurbanı olmuşdur. Milli toponimlər dəyişdirilərək özgələşdirilmişdir. Hətta belə bir ulus olaraq onun adını cəl edənlər olmuşdur. Bu baxımdan şairin etnoqrafik şeir yaradıcılığı öz tarixi və ədəbi görəvini başarı ilə yerinə yetirməkdədir. Bu da o deməkdir ki, ədəbiyyatın milli şüurun, milli dəyərlərin qorunub saxlanılmasında nə dərəcə rolu vardır. Siz bir ədəbi misrada yerləşirsiniz, daha heç bir güc sizi silə bilmir.

Ağkənd, Qara köl, Ağbulaq, Ağgül, Qaraqışlaq,
Ləmbər, Ləmədaş, Qozulu gəlin qışlağı yaddan.

Ədəbiyyat böyük gözəlliklərə qulluq edir. İnsanın bədii zövqünü oxşayır. Onun dəyərlərin qoruyub saxlayır, yaşam tərzini gözəlləşdirir. Öncə milli, sonra bəşəri tərəqqisinin əsaslarını qoyur. Şair sadaladığı adlarla orada yaşayan insanların təbiətlə sıx bağlı olduqlarını ortaya qoyur. Həm də bu gələnəyi saxlayır, qoruyur. Varlığı ümummilli konteksdə həqiqətə çevirir. Sadə dildə dərin məzmunu ifadə edərək bir xalqın varlığını yaşam qaranti altına almağı bacarır.

Şairin yaradıcılığı türk mifologiyasından gəldiyinə görə bir sıra motivlər ilkinliyinə, mənşəyinə qədər uzanır. Şerində Manasdan Dədə Qorquda bağlanan, sondan Şəhriyarın Heydərbabasıyla qucaqlaşır. Təfəkkürünü realizmə, məntiqi və təbii gözəllikləri real obrazlara çevirir. O, bu söz, sənət əsərində toponimik milli varlıqları fərdi təfəkkürlə milli ruhla axtarır və balaca köydən böyük Azərbaycana uçur. Bu uçuşda o nəfsani ehtiyaclarını deyil, mənəvi ehtiyaclarını köy əhalisi pozisyonunda çox böyük Azərbaycan coğrafiyasında, müstəvisində hər bir türkün ruhunda

axtarmış olur. O, öz şeri ilə pişvaza gedir, yön verir. Sadə dildə kütlə anlayışı səviyyəsinə qədər enib ədəbi əsər yaradan şair bu vasitə ilə insanla dünya arasında, dünya ilə Azərbaycan və Azərbaycanla köy arasında qırılmaz bağ yaratmağı bacarır.

Çərşənbədə su atmaq, su qeyçiləmək, subəh
Axşam bacadan salladığım, qurşağı yaddan.

Mənəvi və milli günlər ssenarisində özgələşməyə yox deyən şair ictimai və milli günlər zəminində insan ilə təbiət arasında və təbiətdən doğan ulusal ruhlu törənlərə baş vuraraq onu milli pay kimi böyük mədəniyyət süfrəmizdə sərgiləyərək "bir daha varıq",- deyə imza atır.

Yaddan necə çıxsın,ana yurdumdu çıxanmaz
Hörmətli atamın, anamın torpağı yaddan.

Şair onu zorla yurdunda unutduranlara şərt qoyaraq fərdi mənliyinə yox, ictimai və milli mənliyinə dönərək paradoksal həyat tərzində heç bir qadağaya məhəl qoymadan uca səslə ana yurdunu, ata hörmətini heç kimin onun yadından çıxarabilməyəcəyini deyir.

Tehran şəhərinin rəngarəng, zəngin və çox cəhətli yaşam tərzini sual altına alaraq, "milli mənafe hər şeydən üstündür", - deməyi bacarır. Bu da iki ziddiyyətli kültürün aralarında olduğu fərqdən irəli gəlir. Daxilən türk olan, zahirən başqa kültür qalibində yaşamağa məcbur olan şair öz ictimai mənafeyini milli mənafeyinə qurban verərək belə bir misraları yazmağa meyl göstərir. Demək olar ki, yaşamaq üçün məcburi həyat yaşayan şair ümumbəşəri dəyərləri hər şeydən üstün tutmağı bilir və ön şərt hesab edir.

Şanlı atamın atifəsi, şəkli, vüqarı
Düzgünlüyü , xətti-ədəbi , annağı
Mərhum anamın boy-buxunu, həcbu həyası
Başda çadra, üzdə olan yaşmağı yaddan.

Şair dini əzlaqi varlıqları önə çəkərək gördüyü pisliklərə etiraz edir, 1354 cü ildə açıq-saçıqlığa qəti qarşı durur. Anasının sahib olduğu dəyərləri üzə çəkərək, anasının daha üstün olduğunu söyləmək istəyir. O, o zamankı fəlsəfəsiz yaşamağın norma halına gəlməsinə gözünün ucu ilə baxır. Bu şeirləri fərdi maraq naminə, bəlkə, ulusal maraq naminə ortaya qoyur. Öz mədəniyyətinin üstünlüklərini dilə gətirir.

Bilirik ki, maddi dünyaya, təbiətə münasibətində bütün insanlar milli kimliyindən asılı olmayaraq bir mövqeydə dururlar. Ancaq mənəvi dəyərlərə gəldikdə, nəinki millətlər, hətta fərdlərin belə mövqeyi üst-üstə düşməyə bilir. Lakin müəyyən uluslar bu yöndə özünü daha qabarıq göstərir. Ailəyə hörmət, qonşu-qohum münasibətləri, dini əxlaqi yanaşma tərzləri insanın təbiətlə vəhdətinin nəticəsi kimi görsənsə də, xalqdan xalqa dəyişir. Şairin ata-anaya, qardaş-bacıya hörməti bunların baiz nümunəsidir. Yəni əslində öz xalqının mentalitetini yansıdır.

İnsanla təbiətin vəhdətində şair daha bir dəyərli məqamı xatırladır. O da etnoqrafik mövzu və məzmunlardır.

Ey,dükçə, yumaq, təşt, cəhrə,daraq, yun
Saf yumyumuşaq, yox tozu şaqqıldağı yaddan.
Təndir, yanacaq, qovurğa, ocaq, köylə qazança
Şampur qazan, ərsin tabağı, mətbəxi yaddan.

Gerçək həyatda ictimai quruluşu toplumun mövcudiyyəti kimi ortaya qoyan Azərbaycan insanın köy timsalında məişət tərzinə toxunaraq onları yaddaşlara hopdurur. O,

maddi dəyərləri mənəvi dəyərlərin inkişaf göstərgəsi kimi bəyan edərək daha çox proqramatikliyə üstünlük verir. Öz şairanə zövqü ilə məişət nümunələrinə estetik prizmaddan münasibətin necə minnətdarlıq hissi, yumuşaqlığı olduğunu oxucuya çatdırır. Şairin şeirində millilik daha çox üzə çıxır. Bu da onun əxlaqı, inam və elinə bağlılığından irəli gəlir.

Görkəmli cavanlar, üzü nurlu qoca kişilər,
Məşəd ağa Dədənin sübhlər azan verməyı yaddan
Dindar hacı, işlək əmlə,güclü biçinci
Alverçilərin, çarvadarın qıvrağı yaddan.

Məişət, sosial həyat və orada olan görəv və vəzifə ünvanları milli xüsusiyyətləri qısa, yığcam formada formalaşdırır, əsrlər boyu davam edən ənənəyə xidmət göstərir. Ədəbi məzmunlarla dolu olan misraları öz dayanıqlılığını, ədalətliliyini və fəlsəfi düçüncə tərzini, nizam-intizam və sabitlik düzəyində göstərir. "İşlək əmələ", "duz hacı" - bunlar elə terminlərdir ki, toplumun gözəl xüsusiyyətlərini ortaya çıxarır və onu başqalarıyla müqayisədə daha ciddi və sözə sadiq göstərir. Bu da bir fəlsəfi inancın tələbi zərurətindən yaranır. Beləliklə də, şairin düçüncə xətti onun yazdığı şeir dili öz milli varlığının keçdiyi tarixi inkişafyolundan ucalmağa başlayır.

Yöntəmin ümumölkə idarə sistemində şair mənəvi dəyərlərinə xor baxmasını o, özü ifadəyə sovq etmişdir. Şair inanır ki, dünyanı, ölkəsini zor qabadayılıq yox, bəlkə barış, dərin mənəviyyat qurtaracaq. Ona görə də xalqının gözəl dəyərlərini ön plana çəkməkdən qürur hissi yaşayır.

Azərbaycan torpağı ruhumdur, canımdır
Çıxmaz gecə-gündüz o gözəl torpağı yaddan.

Türk ulusunun özünü təşkil sürəcində bir-birinə təsir etmə gücü danılmazdır. Ancaq ana vətən bağlılığı və hər türkün torpağa bağlılığı, təbii həyat tərzi, etnik-tarixi vəhdəti ədəbiyyatımızda da uğurlu şəkildə özünü göstərmişdir. Elə buna görə də şair Azərbaycan torpağını ruhu adlandırır. Onun sarsıntısını öz sarsıntısı, sevgi və sevincini isə öz sevinci hesab edir. Qeyd etmək lazımdır ki, dəyərli şairin şerinə bu, ilk yazıdır. Umaram o daha da açıqlansın və oxuculara sunulsun. Məni şairlə tanışdırdığına görə dəyərli dostum mühəndis Ruhulla Sadiqquluya və ustad İltəqyana dərin təşəkkürümü bildirirəm.

# URMU GÖLÜ SEVDADIR GÖZ YAŞLARIMIZIN NİSGİLLƏRİNDƏ

Min illər havasının, suyunun, dadının, yan-yörəsinin bol bəhrəsi ilə qidalandığımız, anamızın südü ilə canımıza yoğrulan türklük ruhu kimi Urmu gölü bu gün göz yaşlarımızın damcılarına həsrət, bir susuz kimi kin dalında becərdiyimiz qoncənin gecə şehini gözləməkdədir.

Ağzımızı kimsələrin sözləri ilə açıb-yumduqca, qulaqlarımızı özgələrin pası tutduqca, qapılara düşüb dilənərək "sənə su istəyirik ey sevdanın səbir daşı, haçan duz olub xor baxan gözlərə savrulacaqsan. Içimizdə qopan fırtınanı özgürlüyün yollarına bir dan yeli tək əsdirəçəksən", - deyə fikirləşməkdəyik.

2011 –ci il ( hicri-səmsi tarixlə) 90.5.25-də Məclis bir sevgilinin, bir eşqin ölümünə fərman imzalarkən, mən bilirəm sən heç acımadan, susuz, caddar-cadar olmuş dodaqlarınla gülümsədin və bizim nə qədər zəif və düşüncəmizin nə qədər bəsit olduğunu öz böyüklüyünlə anlatmağa başladın. Zira bu yurdun qəhrəmanları ölümü qucaqlarkən belə alçalmamışlar. Onlar kimsənin qarşısındda kimsədən nəsə ummadan qızıl ölümü belə tərçih etmişlər.

Mən əminəm ki, sən sevdanın elçisisən. Gələcəyin çırpan ürəyi olsan belə, düz sönməsi olub bütün sevməyənlərinə qisas edəcəksən. Sənin iniltin bizim ağzımızdandır, sənin sancın bizim ruhumuzdadır, bizləri köçürtməyə məcbur etsələr də, yenə də İbrahimin İsmayılı kimi eşqin qapısında ölümü sevərəkdən gözləyib sənin varlığını sağlamaq üçün hazırıq.

Bizlər, bu yurdun uşaqları Arazın gəlməsini gözləmədən analarla birgə ağı deyir ki, göz yaşlarımızla səni dolduraq.

Ətrafında fidançılıq əkib kölgəsində qürurla əylənək. Səni qurudub 15 milyon balanı başqa diyarlara sürgün edənlərə cavab olaraq deyirik ki, yeri gəlsə, Tanrıdan sənin payını diləyəçəyik. Əllərimizi göylərə qaldıraraq başımızı dik tutub Altay dağlarından, qartal Savalanın boz qarından sənin alışan ləblərinə su gətirəçəyik.

Qocaman Səhəndin gözü baxa-baxa Təbrizin dilin qurtarsalar da qutsal və müqəddəs Savalanın gözü qarşısında Muğana, Ərdəbilə divan tutulsa da, Ağrı dağdan əsən küləklə səni içimizə bəsləyəcəyik, ey sevdalı dəniz! İçimizdə adını aşıqlik dəftərinə yazaraq uğrunda dağlar çapacağıq. Qorxma, Aral gölünün alın yazısını sənə çəkdirməyəçəyik Türküstanı çölləşdirmə və oranı viranəyə çevirməyə and içən rus imperiyası vaxtı ilə dünyanın dördüncü böyük gölü olan Özbəkistan-Türkmənistan arasında vaqe olmuş gözəl Aralı susdurub ölümə məhkum etsələr də, sən bil ki, biz səni Arazla birləşdirib Xəzərdən izin alaraq səni yaşadacağıq.

Bizləri satın alıb köçürtmə istəyənlər sənin duz fırtınana rast gələcək. Onlar bir sevdanın nə olduğunu, bir ananın "balam hey", - harayını nə anlar ki, indi ana Azərbaycan sənin xəstə canına mahnılar qoşub ağılar bəstələyərək gecə-gündüz bütün var gücü ilə hayqıraraq ağlamaqdadır. Göz yaşlarımız sel olmaqdadır. Bir az dözümlü ol, ey mənim ərköyün, sevdalı dənizim. Kim bilir, bəlkə, sən uzaqlara, lap uzaqlara olan bir özgürlük sevdasısan. Yaşa, Urmulu gölü!

# ZAMAN GƏLİR, ŞƏHRİYAR ÖLÜR

İçini eşq odu yandıranlardan biri də Şəhriyardır. O, Tanrının nurlu yaradılışlarından biri, xalqın isə sevgilisi idi. Şəhriyarımız söz mülkünün padşahı, ana dilimizin püskürən yanar dağı, Heydərbaba zirvəsi düz 103 il öncə, yəni 1275 şəmsi ilində başi uca qocaman Təbrizdə anadan oldu. Bəli anadan oldu ki, anasını yaşatsın, yaxşı oğlan olsun, ana dilini uca tutsun, ona sevgi payını qatsın. Yanlış duymadınız. O, Təbrizdə doğuldu ki, Təbriz bir daha ana dilini unutmasın. Başın uca tutsun, onun dilinə qənim kəsilənlərə gözdağı versin.

Şəhriyar Tanrı tərəfindən var oldu ki, varlığımızın nigahbanı olsun, o, öz cəsarətilə, şair ruhu və bacarığı ilə yaratdığı ölməz və əbədi "Heydərbabaya salam" əsəri ilə pas tutmuş dilini, yas tutmuş elini canlandırsın. O həm də insana olan sevgisi, mənəviyyat dolu bilgisini xalqının tutanağına çevirsin. O, "Ali, ey homy rəhmət" deyərək, dərin köklərə uzanaraq içində haqq və ədalət səsini tərənnüm etmiş qutsal mənəvi dünyamızın qəhrəmanı olan Alidən təcəlliyə uzanmaq istəmişdir.

Sərhəd tanımayan Şəhriyar şeiri, Şəhriyar sözü, həm də fərdi hüdudları da fəth etmişdir. İndi onu hər türlü əndişə sahibi sevir və oxuyur. Şəhəndin, Savalanın havasıyla qidalanan Eloğlu Şəhriyar, demək olar ki, ömrünün hər bir anını vətən sevgisi ilə dolu keçirmişdir. O, ayrılıqlara etiraz etmişdir. Xalqının əzilməsinə dözməyərək səsini ucaltmışdır. Zamanın qəddar hakimlərinə turş sifət göstərmişdir. Ancaq müqəddəs yolundan sapmamış və inamla irəli doğru addımlamışdır. Şair ibtidai və orta təhsilinin Təbrizdə, daneşgahı isə Tehranda oxumuşdur. O,

ailə məsləkinə uyğyn olmayan tibb yolu seçmiş, ancaq Şəhriyarın içində olan söz fırtınası onu başqa yönə aparmışdır. Atalar düz demişdir: "Taleyindən artıq yeyəmməzsən". 1299-cu ildə Təbrizdən Tehrana gələn şair Şəhriyar vaxtın ən sayılıb seçilən elm ocağı olan Daralfünunda beş il tibb təhsili alsa da, sözün sehri ilə müqəddəs söz və ruh yolunu seçmişdir. Sürgünlərə, haqsızlıqlara sinə gərən şair, nəhayət ki, sevgi qurbanı olmuş və əmisi qızı ilə evlənərək üç övlad sahibi olmuşdur. Şəhriyar həm ata, həm də böyük insan olaraq gözəl və dünya şöhrətli şair idi. Ancaq Tanrısının ona verdiyi ömür payı , nəhayət ki, 1367-ci ildə sona çatmışdır.

# İNSANİ İSTƏK VƏ GÜVƏN PSİXOLOJİ BAXIMINDAN

Güc və güclü, gücsüz və güzsüzlük, inam və davam bəşərin yaradılışdan üzü bəri uğraşdığı ən böyük psixoloji anlamlardandır. Daha doğrusu, varlıq qavranılmasının bilinc nöqtəsidir. Bu kimi etkinliklər insanın yüksəliş və toplumsallaşmasının ən etgin aşırımlarında belə, gözə çarpacaq dərəcədə önəmli olmasıdı.

Təbiət, olaylar və yeni yeni kəşflər, həcəriyələrin gəlişimi və oluşumu insanın ağırlığı olaraq hər gün beyin əməyi ilə üst sürəyə doğru yüksəliş və kamal mücadiləsi iki psixolojik tərənnümün müsbət və mənfi sonucunda bəlli olur. Nədən bəşər hər şeyi bir dəfəyə etməyə qadir deyil? Bir-birini öyrənə-öyrənə, təcrübəyə yiyələnə-yiyələnə hər şeyi mükəmməlləşdirməyə doğru gedirik. Bu kamilləşmə birinci növbədə yaşadığımız dünyada yaradılışdan bu günə davam etməkdədir. Və bəşəri dəyərlər olaraq üst-üstə qalanan bilim və təcrübələrdir.

Digəri isə insanın, hər bir şəxsin yaşadığı ümum fürsətində baş verən doğuşdan ölümə etdikləri və kamilləşməsidir.

"Hər bir oluşumun özülü sevgidir", - desək yanılmamışıq. Zira, sevgisiz yapılan tək bir çarəsizlikdir. Ölüm və yoxluğun arasında tək sevgisizlik var, o da bəşər olaraq bizim gücsüzlüyümüzdən irəli gələn bir çox hadisələrdir.

Güclü olmaq inanmaqdır, inanmaq isə əqldir, əql isə bilimdir və nəhayət bilim də içdir. Əməldir o ki, sevgidən başlanır və uzun bir sürəc içərisində işə çevrilir.

Üstdə qeyd etdiyimiz proses yalnız və yalnız dəqiq və düzənli bir psixoloji zəmində baş verə bilir. Ona görə ki,

psixolojisi pozuq amillərdə, demək olar ki, amillər səbəbsiz və səbəbli olaraq defektə uğrayır. Burada bir şey mövcuddur. O da təsadüfdir. Bu da o deməkdir ki, beş yaşında uşaqdan beyin kəşflərini etməsini möcüzəvi şəkildə gözləmənizdir.

İnsan oğlunun doğal olaraq yaşam sürəcində fərdi ömür boyu və dünya boyu ömür sürəci bir anlam da çox əhəmiyyətlidir. O da tədricən bizimlə kamalın arasında olan boşluqları doldurmaqdır. Əlbəttə, boşluqlar hər yönlü ola bilir. Götürək atomun kəşf məsələsini. Niyə bizdən yüz il qabaq bu əməl baş tutmamışdı? Yaxud ovtomobilin icadı ya bilgisayarın kəşfi. Onların ixtirası bizim nəslin təlaşının nəticəsidir. Yaxud çox uzaqlardan üzü bəri gələn çox yavaş, indisə biraz sürətli şəkildə mütəsil bir bəşəri çalışmanın nəticəsidir. Əgər insan say deyilən 1. 2. 3 kimi kəşfi icad etməsəydi, görəsən bu gün riyazi bilimdən nə bilirdik?

Elə bu mövzunu götürək. Dilin bir varlıq kimi ortaya çıxmasında hansı bir ifadəni ifadə etmək üçün sözlər, sözccüklər var olmassaydı, indi fit şalmaqla nəyi kimə anlada bilirdik?

Uzun zaman, milyon illərcə arxalandığımız bəşəri dəyərlər yalnız bir sevgi cizgisinin cığırı ilə uzanıb gəlməkdədir. O da bu günü sabaha, dünəndən daha kamil ötürmək amacıdır.

Hər nə qədər içimizdə arzulara az yer ayırırıqsa, o qədər də düha və psixikamızda olan lampaların sayın azaldırıq. Elə insan da deformasiya uğrama, inamdan uzaqlaşmaq, özgələşmək, yaxud assimlyasiya düçar olamaq kimi sosial psixoloji jfaktorları içərimizdə istəmək sorunundan yaranır.

Biz ya istəməyi bilmirik, ya da etməyi bacarmırıq, ya da ki, bu ikisinin arasında fərqli və bağları düzgün başa düşürük. Ya düşməyə qadir deyilik, ruhi ya əqli yöndən mövzuya yanaşan da görürsən ki, təməldə bir inkar edilməz

fakt dayanır. O da özümüzün öz üzərimizdə çalışmamızdan baş verən fəsadların ortaya çıxmasındadır. Yaradılışdan üzü bəri daşıdığımız hər yönlülük cenetiki kodların olduğu halda, gün bə gün ihmal və əməlsizlik ucbatından tək yönlüyə düçar olmağa məhkum oluruq.

Elə bu məsələni mədəni yöndə götürsək, hazırda bizim dövrümüz belədir. Hər gün tarixi hafizəmiz boşalmaqdadır. Dil zənginliyimiz pozulmaqda, şəxsiyyət zəminində güvənsizliyə uğramaqdayıq. Bilirsiniz niyə? Ona görə ki, bizdə həm sevgi və həm də sevgiyə alt yapı olan niyaz və ehtiyacın özgələşməsidir. O da ondan ibarətdir ki, hər bir türk özünün mədəni mükəmməlləşməsində öz ana kodlarından uzaqlaşaraq, doğal və təbii yaradılış həyat tərzindən imtina edərək güvənə yox, güvənsizliyə gedir ki, bu da siyasi-ictimai, hətta iqtisadi və mədəni yöndə başarıdan sonra belə bacarıqsızlığa və arzuların yersiz olduğu xəstəliyə düçar olur.

# PƏHLƏVİ DÖVRÜNÜN ÖZGƏLƏŞDİRMƏ SİYASƏTİNİN CAMİƏŞÜNAS TƏHLİLİ

Toplumsal yaşam bir insan üçün onun dünyaya göz açmasıyla başlayır və o bu sürəcdə gəlişir. Toplumsal bilimlər çərçivəsində olan bilimin aşağıdakı məqamları vardır:

1. Toplumsal ürətim (yaşam sürəcində bütün sahəli pedaqoji beyin tərbiyəsi);

2. Yaşam üslub tərzi və yasa uyğunluğu (hər bir kişi pisləri və eləcə də yaxşıları və etmələri, etməmələri öyrənməli);
3. Toplumu qəbul etmək(yaşadığı şəraiti hər sahədən arayıb və onu özü üçün uyğun görmək);
4. Sosial rol (hər bir fərdin yaşadığı toplumda ifa elədiyi rol, ancaq toplumun yaratdığı əsasda);
5. İnterkəşən (qarşılıqlı davranış).

Eləcə də çoxlu amillər, o cümlədən adətlər, bacarıqla ideoloji və meyar saydığımız faktlardan sonra onları yaşam sürəcində arayıb və sonuc çıxarmaq. Belə demək olur ki, hər şeydən baş və hər nəyə ana və təməl olaraq insan yaşamında önəmli yer tutanı öyrətmək və onun çox sahəli qollarını bilmək və ona malik olmaqdır. Birinci göstəriciyə görə, insan uşaqlıqdan istər-istəməz bir sıra təhmil olunan öyrənmə amillərinə öz böyükləri, daha doğrusu ziyalıları və siyasət başçıları tərəfindən qarşı qalır. Elə bu da onun hər hansı topluma və soya bağlı olduğunu və gələcəkdə onlara xas olan yaşam yollarını bilmək üçün lazım olur. Beləcə, ümumi oxşarlıq yaranır. Bəzən bu oxşarlıq fərdin xeyrinə, gah da tam onun zərərinə olur. Çox vaxt da fərdi yoxluğa aparıb çıxarır, bir növ asimilə şəraiti yaradır. Deməli, toplumun tərbiyəsi yaxşı yaşamaq üşün və ictimai olmaq

üçün lazımdır və eləcə də insan uşağı əzəldən ömrünün sonuna qədər özün təlaşda bulur. Buna görə ki, yaşadığı toplumun və qrupun düçüncəsi ilə uyğun olsun, o qrupdan tədric olmasın. Böyüklərin də bu alanda çalışmaları proqramlı olaraq kiçikləri sosial şəraitlə uyğunlaşdırmaq olur. İndi bu alanda "Pəhləvi rejiminin" fikrini cözümləyək.

Ana dilində okulların olmaması bu rejimin əsas diktatori siyasətindən irəli gələn bir canlı fakt kimi bu gün də Azərbaycan türklərinin gözü önündə dəhşətli div kimi dayanır. Yuxarıda qeyd olunduğu kimi, pedaqoji və ürətim insan üçün və onun sosial yüksəlişinə, qrup və toplum uyğunlaşmasında birinci yer tutur. Amma bu boşluğu biz Azərbaycanda görürük, hətta duyuruq və ondan psixoloji bilimlər əsasında belə bir sonuc alırıq. O da oradakı bilim, dirşəliş günlərində bu xalqın balaları Tehran siyasətinin pis üzündən bir tərbiyəvi boşluğa məruz qalır və onu belə də açıqlamaq olar ki, "Tədqiqatin yazdığı arayışa görə 11 yaşında bir uşağın bir meşədən tapılması, ya da 3 və 9 yaşlı hindistanlı uşaqların fiziki və rəftarı cəhətdən öz yaşıdları ilə fərqli olmasını göstərir. Onlar özlərindən heyvan xüsusiyyətləri göstərirmişlər, amma onda ki, tərbiyə alıb və insan toplusunda yaşadılar, yavaş-yavaş qrup uyğunlaşması yarandı". Mən bunu ona görə misal gətirdim ki, asimilə olmaq pisdir.Yəni başqa kültürlə tərbiyə almaq elə buna bənzər ki, sən bir ayrı coğrafiya və yaşam nizamında kök və soy ayrılığında yaşayan bir ulusal özündən çıxarma kültur və eyitimlə yaşam həyatı düzəldəsən. Onda elə o uşaqları macərasına və öz toplusuna, öz ulusuna qaytarsan onlar necə illər yaşamaqdan uzaq düşə bilər!

Çox güclü qabiliyyətlərin də itirə bilər və onlarda düha itirimi yaranıb və daha yararlı olmaları sual altına gedər. Öz xalqını itirir və kütlədən ayrı düşər və onda xidmət şüuru yüksəlmir və özgürlük duyğusu fani olur və özgələşmə ruhu

yaranır. İndi belə deyək ki, Pəhləvi reciminin amuzəş siyasəti nəticəsində biz 50 ildən artıq ümumi təlim-tərbiyədən məhrum qaldıq. Qalasaydıq fazla olardı, sonra bizi tərbiyə eləmək daha rahat olardı, bəlkə biz məhrum qaldıq! Özgə bir "şir nişan" və heyvanpərəstlik bayrağı altında özgə kültür tərbiyəsinə məruz qaldıq. Nə özümüz olduq, nə onlar deyən. O kəklik məsələsi oldu ki, biz həm öz yerişimizi itirdik, həm də onun yerişin öyrənmə bilmədik. Əlbəttə öyrənərdik, o da o vaxtı ki, biz könüllü onu istərdik. Ancaq biz istəmədən biz verdiyimiz vergilərlə bizə kültür basğınlığı oldu və necə min illik mədəniyyətimiz basırıq altında qaldı və Azərbaycan xalqı bir özgələşmə azarına qarşı qaldı. İran adlanan bir ormanda şir adlanan padşahın siyasətinin nəticəsində pis günə qaldı və illər boyu topsullaşmadan uzaq düşdü və bu, hələ də davam edir. Zira ki "Qarayaranı" illər boyu güclü dərmanlarla tədavi etmək lazımdır".

İkinci göstəriciyə görə, toplumsal tərbiyədən sonra insanda yasallıq və yasa uyğunluğu, mədəni olmaq yaranır, yaşamaq təzi və şəraiti standartlaşır. Örnək göstərdiyimiz uşaqları bir daha yada salaq. Onlarda fiziki çatışmazlıq və şəxsiyyət azarıcılığı gözə çarpırdı. Onların yol yeriməsi hətta insan toplusuna uyğun gəlmirdi. Dörd əl-ayaqlı yeriyirdilər. İnsan duyğulu, düşüncəli bir mövcud olduğuna görə onun özünə xas olan istək və tələbləri də vardır. İnsan gözəllikləri sevir və onda Tanrı sevgisi humanisti düşüncələr, uluspərvərlik və gerçəklik duyğuları da vardır. Amma ictimailəşmə və toplumsallaşma və onun sürəcində uyğunlaşma ictimaida yaranan şəraitdən irəli gəlir, etmələr və etməmələr, islər və yaxşılar, dəyərli və olarlar insanda təhmil öyrətimdən başlayaraq gəlişmə amacı daşıyır və kültur uyğunluğu ilə də genişlənir, kültürləşir və yaşam cəryanında sorunlar araddan qaldırılır. Qrup və ictimaini

qəbul etməsi və həmahənlik yaranır. O da toplumun standartlaşmasına səbəb olur və onda pozğunluğa yer verilmir.

Pəhləvi rejimində irəlidə qeyd etdiyimizə görə, biz təlim və tərbiyədən məhrum qaldıq. Özgəlləşdikdə biz bir insan olaraq tərbiyə almadıq, bəs özümüzü cəmiyyətə necə uyğunlaşdırmalıyıq? Ona görə indi, ümumiyyətlə Azərbaycanda savadsızlıq çoxdur. Güclü məlumatlara görə hələ də 95% xalq öz anadilini biimsəl bilmir və hətta onu oxumaqdan acizdir. Görün necə bir insani faciə üz verib və hələ də davam edir. 20-ci yüz illikdə dünyanın heç bir yerində belə bir propaqanda ilə üzləşmək olmaz, hətta dünyanın ən geri qalmış ölkələrində də belə bir bəşəri özgürlüyün tapdalanmasını siz görə bilmirsiz. İnsanları bir var silahla qırıb və "qətilam" edəsən, onun öz yeri var və bir növ bəşər hüququna zidd bir amildir. Ancaq gəldi dünyanın bu günündə insanları kütləvi surətdə "odlu silah" yox, bəlkə "yumuşaq silah", yəni qələmlə, genəl olaraq təlim-tərbiyə silahiyla yox eləmək həm səssiz və həm də rahatdır. Ancaq qeyd etməliyəm ki, bu heç də qardaşlıq, dindaşlıq ilişkisinə üz-üzə gəlməyin bir əməldir və tamam insan hüquqlarıyla qarşı-qarşıyadır.

Sayğılı soydaşlar, bəzi toplumsal azarıcılıqlar da elə buradan baş verir. Bir necə kütlədə söz işləkliyini sizə açıram. Öncə onların tərbiyəsiz olduğuna görə üzür diləyirəm. Bax belə sosial uyğunsuzluğun nəticəsində biz Azərbaycan türklərinə belə deyirdilər: "türk xər", "türkə digə". Nə qədər də aydın və bilimcil olsaydın bu anlam sənin mütləq həyatında işlənərdi, ya "əfsar xər gərdənş bəznid". Bu bir bəxşnamə kimi oxularda, rəsmi dairəlr tərəfindən icra olunurdu. Görürsünüz, biz bir qısaca aradıq və gördük ki, bizi əvvəl gəlib hər şeydən uzaq və məhrum saxlayırlar, sonra özgələşdirirlər. Nəticədə bizdən "itardin"

tədqiq uşağı kimi bir adamlar yaradıb sonra da müxtəlif adlar və böhtanları bizə yapıblar. Gör nə zalim şirin şam qum! Tarixdə adı olmayan bir dəhşətli padşahlıq! Bunlar qansovuran və kültür düşməni olublar. Bir şey də demək istərdim ki, indi bu gün dünyada qan tökmədən pis olan bir əməl insanın doğal hüquqlarını tapdalanmadır ki, biz azərbaycanlılar doğrudan da bir soyqırımı, soy batırımı faciəsi ilə üz-üzəyik. Özgələşirik, özünüdərk aradan gedir. Kimliyimizi qorumağı bacarmırıq. Başda olmaq gərəkdir...

Üçüncü göstəriciyə əsasən belə olur ki, hər fərd şəxsiyyət kamilliyi və ictimai yaşamaq zorundadır, yəni o tək başına yaşaya bilməz. Yalnız özgürlüyünü kütlə ilə birlikdə tapa bilir. Bu alanda da Pəhləvi rejimi biz azərbaycanlıları mum kimi əlində yumub-yumub və istədiyi şəkilə salmaq istəyirdi və "İranı yekdəst" düzəltmək istəyirdi. Düşünmədən ki, hər bir xalqın, ulusun özünə xas olan ənənəsi var, kökünə görə düşüncəsi və milli bağlılığı var. Ancaq o öz "mumizəm" siyasətini yürüdürdü və get-gedə bir yalnış nəticə də alırdı. Bəzi satqın adamları öz tutum bayrağı altına yığıb və bu xalqı istədiyi şəkilə salmaq niyyətini həyata keçirməyə onlardan yardım alırdı. O cümlədən biz azərbaycanlılara heç bir sosial imkanlara yaxınlaşmağa macal vermirdi. Ana dilimizdə olan kitablar yandırılırdı və ana dilində düşünüb yazıb-yaradanı ölüm gözləyirdi. Bir növ qorxu və ictimai soyğunluq yaranmışdı. Hər kəs üz-üzə olduğundan utanırdı və öz qardaşını düşünməz və kültürsüz, mədəniyyətsiz adlandırırdı və "ikilik azarı" bizim içimizdə yaradılmışdı ki, hələ də davam edir. Sonuc deyim ki, biz bir "İlqa şəraitində yaşayırıq, yəni özgələrin davranış və düşüncəsini bizə təhmil edirlər. Biz də gərək onu gözü yumulu qəbul edək. Burada mədəniyyət ilətişimi yoxdur, bəlkə təlqin mədəniyyəti hər şeyin yerini alıbdır. Hər şeydən başlıcası, bizdə təqlid mədəniyyətini canlandırıblar və onu qəbul etməyi özümüzə

fəxr edirik, amma gərəkdir ki, deyim: - Kültür basqısı, xalq ənənsinin əridib və mumlaşdırılması və onun yox edilməsi, özgə xalqdan özü üçün xalq yaratmaq düzgün siyasət deyil, bəlkə, heyvani bir sifətdir və yırtıcılıq düçüncəsidir ki, insanlıqdan uzaq bu qəddar siyasəti İngiltərə, Fransa, İtaliya illər boyu müxtəlif işğal elədiyi ölkələrdə yeritdilər. Amma nəticdə görürük ki, nəinki o xalqlara zor göstərə bilməyirlər, bəlkə onlardan özləri üçün düşmən yarada bilibər. Bir az diqqət ilə dünyaya baxsaq, bu məsələni yaxşı görərik.

Tehranın siyasəti azərbaycanlılarda bir növ ideoloji boşluğu yaradıb onlarda mənəviyyatın itirilməsinə güclü işlər görürdü. Mətbuat məsələsi ki, bu gün sosial uyğunlaşmada güclü rola malikdir. Heç bir dənə də azərbaycan mədəniyyətinə uyğun olanı, Azərbaycanda çap olub və xalqa verilməmişdi. Hər nə yaranıb fars və İran şahlığına xidmət alanında olubdur. Dil yasaqlığı, din pozğunluğu, əxlaqsızlıq və özgələşmə belə sümürqanlığın sonucudur ki, hələ də davam edir. Öz ilətişim yerli köklü yoxdur.

Dördüncü göstərici ilə bağlı olaraq qeyd etmək gərəkdir ki, moderen insan bir mədəni ictimaidə texnoloji və digər zehni yaranışlar və eləcə dəyaradıcı rol və düşüncə ilə özgürlüyə sayqı bəsləməklə anılır.

Belə bir mədəni toplumda insan hüquqları qorunur və dövlət də istər-istəməz kütlənin hüququnu qorumağı özünə borc bilir. Beləliklə, bir demokratik toplum yaranır ki, onda insan hüququnun pozulmasına yol verilməyə və demokratikləşmənin əsas və təməl faktorlarından biri fərd və etnik azarıcılıqları aradan qaldırmaq və coxluq yaratmaqdadır. Müxtəlif zumərələr arasında zor-zoruna düşüncə ayıqlığı yaranmalıdır, kültürəl rəqabət yaratmaq lazımdır. Demək gərəkdir ki, hər bir topluda hər fərd öz

milli qürurunu qorumalıdır və öz keçmişiylə, tarixi ilə fəxr edib və onun sürəcində davamında özünü alışdırıb, yaradıb və törətməlidir. Belə olsa, ümumi bir dirşəliş yaranıb və insanlara bir qapalı topludan sərbəst topluya addım basır. Onda fərdin o topluda rol oynaması gərəkli olur. Elə ki fərd topluda rola malik oldu, onda o özü üçün və bağlı olduğu zümrə və xalqı üçün yararlı işlər görə bilir.

Pəhləvi rejimi bir xalqın kültürü, mədəniyyəti ilə politika oyunu oynadı və üzə çıxmadan və dirçəlmədən saxladı. Minlər maniə törətdi, qanunsuzluq və mədəniyyətsizlik yaratdı və xalqı pozub yoxluğa sarı yönəltdi. Onun, yəni Azərbaycan yurdunun balalarına dirçəlmə və gəlişmə imkanı yaratmadı! Bəlkə də onu özgə mədəniyyəti ilə basqına aldı və "çürütmə siyasəti" ya mədəni yanıqlığı siyasəti yeridildi və Azərbaycan boyda qaranlıq bir coğrafiya ərazisi yaratdı. Azərbaycan türklərinin gündən-günə təhqir olunması və alçaq sayılması Pəhləvi şovinist doktorları tərəfindən canlandı.

İş o yerə çatdı ki, sərbəst bir topluya qədəm basmadıq. Son niyyəti və geri qalmış bir topluda yaşam sayağı günlər sürdük. Azərbaycan övladları belə bir qeyri-demokratik siyasətin sonucunda necə illər ağıllı və talantlı balalarını itirdi və hələ də onu xubəran eləməyə necə on illər zaman lazımdır. Bizi İran birliyi tərkibində və İranın düşməni kimi təbliğat fıstırığına verib müxtəlif xalq hərakatlarımızı düşünülməz bəhanələrlə, qanlı-qadalı yürüşləri ilə məhv elədi. Dirçələn ziyalılarımızı öldürüb və onların qanı ilə yurdumuzu suvardı. İndi Azərbaycan tanrı yardımı ilə bu qanlarla suvarılıb və öz haqqını almağı yaxşı düşünüb. Mənə elə gəlir ki, heç olmasa qardaşlıqdan qalan irsi bölmək üçün də əlimizə bir ölçü gəlib və belə qan, can və mədəni məhviyyəti altında Azərbaycan xalqı öz nifrətini xainlərə bildirdi. 22 bəhmən, 29 bəhmən..... və Azər yaratdı.

Odlar yurdu dördüncü göstəriciyə də sadiq qaldı və onun həyata kecirilməsində 70 ildir ki, guzəştə gedir, qardaşlıq, dindaşlıq, barış və sülh bayrağı altında yaşamağı qanlı-qadalı yaşamaqdan üstün tutur. Qarşılıqlı yaşamaq və davranışı ehtiram hissi ilə alqışlayır və mədəni həyatda demokratik yaşamı hər şeydən fazla sayır və hüquq bərabərliyinə hörmətlə yanaşır. Bunu Azərbaycanın 70 ilə yaxın susub dözmə tarixi hər gözü görməyən bir kəsə də aydındır.

Bizim bu nicatın qarşısında mərkəzi hökumət soyğunluq, duraqlıq, pozğunluq və əritmə siyasəti yürütdü. Hər şeyimizi aldı. Azərbaycandan bir orman yaratdı və ora bir şir nişan bayraq taxdı. Azərbaycan xalqının Nəsimi, Babək, Dədə Qorqud, Vaqif, Nəbi, Nəbati və s. kimi dahi insanlarından pis şəkildə ad aparıldı. Özümüzdən özümüzə düşmən yaratdı və bizi öz keçmişimizlə birgə elədi. Kimsəsiz, köksüz və soysuz yerinə hesaba basdı. Öz yoxluğun bizə qalıb elədi və özünə zəif ata-baba yaratdı. Elə də o sənaye babaları əllərindən tutammadı və şir tutəmi onlara yardım etmədi və xalqın güclü iradə və inamı nəticəsində kökləri şevirib və yıxıldı. Bir belə nasionalist rejimin yürütdüyü siyasət tufanının boğanağında ölümcül vəziyyətə düşdük və o siyasətin davamı hələ də özünü göstərir. Biz də vergi veririk, biz də vətəni qorumaqda candan keçirik, biz də ölkənin avadadlaçmasında iştirak edirik. Biz də müsəlmanıq, biz də bərabər hüquq olmağı istəyirik. Niyə biz üçüncü şəhərvəndik? Niyə bizim məktəb, televizyon, radio, mətbuat, kitab, dərslik yoxumuzdur?. Bunların hamısı Pəhləvi rejimi kimi pis üzlü bir rejimin tutduğu siyasətin nəticəsidir. Deməli, biz göbələk deyilik, yerdən çıxmamışıq, bizim də bir insan kimi bütün imkanlarda haqqımız var.

# YENİ İL VƏ DİNC YAŞAM ÜÇÜN UYĞUN YOLLAR

Hər zaddan öncə insan oğlu özünü düşünərək, özünü göz önünə alaraq başqalarıyla davranmağa başlar. Dinimizdə, dilimizdə, dədə-baba qaydalarımızda, gələnək və görnəklərimizdə hər zaman insanın yaxşı, dinc, verimli, barışcıl və olğun olması üçün bilgi və öyüdlər xəzinəsi olmuşdur. Buna görə də türk insanı hər zaman özünü inanc qaydalarına bağlı hesab edərək öz həyatını paylaşmağı bacaranlardandr. Dədə və nənələrimizin keçdiyi yol bugünki ruhsal biliminin axtarmış olduğu coxlu yaşam yöntəmlərini özündə dərinliklərə içrərək günümüzə yansıtmaqdadır. Deyimlərimiz, ata sözlərimiz, zəngin şifahi el ədəbiyyatımız hamısı - bir sözlə, bizi mükəmməl o olğun olmağa yönləndirməkdədir.

"Hara gedirsiniz özünüzlə dincliyi, rahatlığı oralara da götürün", - deyib ulularımız və bir də bu günki bilimlə tam uyğun şəkildə demişlər: "Getdiyiniz yerdə bir an belə olsa səssizliyi yaradın, sonra öz səssizliyinin səsini dinləyin və bu iç səssizliyi özünüzlə hər yerdə götürün. Bir az da zaman itirməyi bacarın, çalışqanı deyə dünyanın yükünü özünüzə yükləməyin, əyləncəni itirilmiş vaxt hesab etməyin, bəlkə, qazanılmış keyfiyyətli ömürdür. Öz nəfəslərinizin ritmini sayın və onun nə qədər gözəl olduğunu belə anlamağa çalışın, Allahın verdiyi canı belə bir nəfəsin gedib-gəlməsi ilə müqayisədə yaşama davam edin. Həyəcanlı incik dostlarınız varsa, ya onları tərk edin, ya da yola gətirin. Sıxılmış, acı və kor düşüncəli dostlar, yorucu və düzəlməzdir. Dinc, geniş düşüncəli, açıqqəlbli dostları özünüzə seçərək yaşamağınıza rəng qatın.

Dəyişikliklərə önəm verən və dəyişilməkdən qorxmyın. Dəyişin, dəyişdirin. Yeməkdən geyimə, yaşamdan ölümə qdər hər şey dəyişdirməyi bacarın və bu dəyişikliklərin arasında bir az məşq etməyi nəzərdən qaçırmayın. "Gözüm görmək istəmir" kimi sözlərdən qaçın.

Qarıxmayın, gedəcəyiniz yerə bir az tez hərəkət edin. Özünüzə əsəb gərginliyi yükləməyin. Beş-on dəqiqə tez başlamaq sizə zaman daralığın yaşatmayacaq. Unutmayın ki, biz dəqiqələrin əsiriyik, saatların yox. Yeməklərinizə diqqət edin, yağlı və gec həzmli yeməklərdən çəkinin, meyvə yeyin və onları gözəl qablarda özünüzə ikram edin, yediyiniz və içdiyiniz yeri gözəlləşdirin. Az da yesəyiniz keyfiyyətli yeməklər yeyin. Sevinməkdən və nigaran qalmaqdan çəkinməyin, ancaq vaxtsız nigarancılıq sizi üzə bilir, çünki bizim nigaran olduğumuz bir çox şeylər gələcəkdə baş verəcək kimidir və o, ancaq bizim təsəvvürümüzdədir. Şalışın sevinməyi bacarıb və gündəlik gün yaşamını düzgün tənzimləyəsiniz, çünki gələcəyi hələ heç kim bilmir.

Çox kiçik və ayaq altı məsələlərə diqqətinizi yönlətməyin, çünki bu cür düşünmək sizi böyük düşünməkdən qoyar, bacardıqca böyük sorunları kiçikmiş kimi görün.

Su və dağ yarpızı, kəklikotu çayı içməkdən vaz keçməyin. Bununla yanaşı gizli, şəkərli və karbonlu içkilədən uzaq dursanız, ruh yüksəkliyi ilə qovuşarsınız.

Özünüzə söz verin ki, siz dincsiniz, bu, belə də olmalıdır. Öz daxili mənliyimizə deməlisiniz ki, siz belə istəyirsiniz. Başqa cür ola bilməz və çalışın iç məninizi aldadaraq onu zor və qara həyatdan işıq və dinc həyata sövq edəsiniz. Buna görə "mən rahatam, dincəm sakitəm və çox yaxşı halim var" kimi sözləri işlətməkdən çəkinməyin, dincəldikcə dincəlin və dincəlmənin keyfini çıxarın.

Öz gözəlliyinizə diqqət yetirin, özünüzdə olan gözəllikləri daxili duyğularınızla, yaxşı inamla paylaşın. Saçlarınızı

daramaqdan, tumarlamaqdan və onların necə yaraşıqlı olmasından zövq aparın, öz üzərində çalışın. Yaxın adamınızdan istəyin ki, sizin saçınızı darasın və ya oxşasın. Bu işi təkrar edin, sevdiyiniz adamla hissi və ləmsi münasibət yaradın. Bədənizdə olan dincəlmə nöqtələrinə toxunun ya toxunsunlar. Dinc, sizə yaraşan və ondan keyf alacaq geyimləri geyin. Özəlliklə ayaqqabınız rahat olmalıdır. Zira rahatlıq öncə ayaqdan başa uzanır. Ayağınız rahatdırsa, ürəyiniz də rahatdır, ürəyiniz rahatdırsa, qan damar sistemimiz rahatdır və beləliklə, siz rahatsınız. Çərçivələrlə sığmadan modalara aldanmayın, ən rahatını seçin.

Hər şeydə ən dinc, rahat və kamfortlusunu seçin, ən çətin şəraitdə belə ən rahat və keyfiyyətli axtarın. Pozitiv olun, yaxşını axtarmaq pozitiv olmağı gücləndirər.

# BİZİM KÖÇ ÖYKÜLƏRİMİZ

Çox yaşım var. Saqqalımı çoxdan ağartmışam, dişlərimi də protez etmişəm. Saçım da başımda qalmayıb. Bunların heç biri məni usandırmır. Bircə vətənsiz qalmışam. O, məni od vurub yandırır.

75-dən çox yaşım var. Olar 45 ilini Tehrandayam. Burnumun ucunda tütən, ətri məni valeh edən vətən məni özündə çox da qoruyub saxlaya bilməsə də, mən onu həmişə ürəyimdə saxlamışam. Acılarıyla kədərlənmişəm, sevinci ilə sevinmişəm. Ancaq atalar demişkən: "Torpaq uğrunda ölən varsa, vətəndir." Bəlkə də mənim vətənim məndən öncəki ata–analardan, dədə-nənələrdən gileylidir. Ona görə uşaqlarına divan tutur və südəmər-südəmər onu öz isti, sevgili bağrından ayırıb zalimlərə, yağılara sümürgəcilərə verir. Mən Miyanlıyam, bəli şəhərin ətraf kəndlərindənəm. Indi ya o kəndlərin adı dəyişdirilib, ya da yerli-köklü yox olub. Amma mən oralıyam. Yerimi dəyişdirsələr də, soyumu dəyişdirə bilməyirlər. Mən elə türkəm. türk oğluyam. Baxmayaraq ki, elə o yaddaşlardan, Sitəmşah dövründən bizlərə olan ictimai-mədəni təhqirlər və təzyiqlər bizi tükədə bilmədi. Gənc sızıltılarımı anamı az müddətdə də olsa, mənə öyrətdi. Südü ilə əmizdirdiyi dildə oxuduğum yabancı dilin cızma-qaraları ilə kağız üzərinə köçürdüm.

Uşaq idim, işçi idim. Az yaşıma baxmayaraq Tehranın ətrafında bir kərpic karxanasında torpaq ələmə, kərpiçdaşıma işi ilə məşğul idim. Orada işləyirdim. O torpaqların içində yaşayırdım və eləcə də mən və torpaq harmoniyası, vətənsizlik, ana və atasızlıq bəlgəsilini yaratmağa başlayırdı. Demək olar ki, hamımız türk idik, hərəmiz bir kənddən, şəhərdən gəlib buraya toplaşmaqdayıq. Biri Ərdəbildən, biri Həmədandan, digəri

Qəzvindən idi. Bir dildə danışırdıq, elə bil çoxdandı ki, tanışlar və qohumlar idik. Bir birimizə qızışdıqda tez ötüşürdük və yenə həyat barış içində davam edirdi. Gecələr hər kəs öz doğma öykülərini - yurd, sevgi və ata-ana, bacı, qardaş söyləyirdi. Bəziləri çox acı öykülər yaşamışdı. Mən onlardan çox baş açmırdım. Amma həzin və kədərli göz yaşlarından başlarının çəkdiyini anlaya bilirdim.

İsmayıl kişi var idi. Yaşda hamıdan böyük idi. Bir gün cümə günü duyğulanaraq məndən Quran oxumağı rica etdi. Mən də başımın altınddakı Quran kitabını götürdüm və fatihə surəsini oxudum. O, heç nə demirdi. Ancaq və ancaq gözlərindən yaş süzdürür, hərdən də udqunaraq içdən həşqırırdı. Və mənə oxu işarəsini verirdi.

Bir neçə saat bu məsələnin üstündən keçəndən sonra o, mənə yaxınlaşdı və əlini başıma çəkdi və dedi ki, sağ ol, oğlum. Allah ölənlərinə rəhmət eləsin. Allah səni qorusun.

Mən də utanaraq başımı aşağa saldım, çünki böyüklərin bu sözlərindən o qədər də bir şey anlamazdım. Amma bu sözlərin mənalı olduğunu düşünürdüm. İsamyıl kişinin mənimlə belə səmimi olduğunu görcək, ondan belə dərin duyğulanmasının səbəblərini öyrənmək istədim. O, əvvəlcə mənə: - Keyfini pozma oğlum, - deyərək yenə gözləri yaşla doldu. Ancaq o özünü saxlaşdıra bilmədi və hönkürərək ağlamağa başladı. Doğrusu, mən də ağladım. O ağlaya-ağlaya bəzi sözlər deyirdi. Mən isə onları eşidirdim, amma anlaya bilmirdim. Hönkürtü azaldıqca başa düşürdüm ki, o, nə deyir: - Allah bu şahın evin yıxsın, Allah onun oğlun öldürsün. O, bizi bu günə qoyub, o, bizi təhqir edib. O, anaları ağlar qoyub, ataların belini büküb.

O, hey vaysınaraq inadcasına və cəsurcasına sitəmə qarşı münasibıtini bildirməyə başladı.

Nə bilim, bəlkə də o mənə dərs verməyə çalışırdı. Doğrudur, onun bir şagirdi var idi. O da mən idim. Mən

onun sadə və səmimi dilindən tariximi və millətin başı çəkdiyi zülmü öyrənirdim.

O, birçəçik gözbəbəyi olan oğlunu itirmişdi. O, belə böyük ata idi. Onun oğlu şahin əsgərləri tərəfindən Təbrizə hücum vaxtı öldürülmüşdü. Həm də vəhşicəsinə. 19 yaşlı oğlanın düz ürəyinə zalım şah əsgərlərinin süngüsü taxılaraq həyatına son verilmişdi.

İsmayıl kişi 19 yaşlı qəhrəman olan Qəhrəman adlı oğlunu çox dərin düşünərək, "igid idi o",- deyərək anırdı. İnanıram, qanı yerdə qalmayacaq. İnşallah, insanın göz yaşları sel olub bu zalimləri yurdumuzdan silib atacaq.

Mən də başı dumanlı-dumanlı, "Hə", - deyərək başımı aşağa salırdım.

O, bircə mənə inanaraq ürək sözlərini deməyə başlamışdı. Elə bil içində atom bombası gizləmişdi. Və bu kişi onu partlatmağa başlamışdı. Hər gün keçdikcə mənimlə İsmayıl kişi arasında bağlar qırılmaz hala gəlirdi. O, məni sevirdi, məndə ona qarşı sevgi hissi, atalıq hissi, oyanmışdı. Mən - atadan uzaq, anadan mərhum , vətəndən ürzün, acı həyata məhkum 10 yaşlı türk balası hər gün İsmayıl kişi məktəbində dərs oxumağa başladım. O, mənə inandıqdan sonra yastığının altından bir pozğun rəngli kitab çıxararaq başladı onu mənə oxumağa. O türkcə oxuyurdu. Elə anamın dili kimi lap atamın səsi ilə. Mən dedim ki, bəs o tərcümə edir. Ancaq baxdım gördüm yox, elə bu kitab öz dilimizdədir. Və mən sevinə-sevinə dedim:

- İsmayıl kişi, olar o kitaba mən baxam?

Dedi: - Bax, oğlum, amma heç kəsə demə.

Söz verdim. O, kitabı mənə verdi.

Sevindiyimdən özümü saxlaya bilmədim. Dedim ki, mən də gecələr şeir yazıram, qoy gətirim onları sənə göstərim.

İsmayıl kişi və mən ağıla bənzər okul həyatına girdik. Ağsaqqal, beli bükük, yaşlı bir əmi bizi qarşıladı.

Dedi: - Xeyir ola, xoş gəlmisiz.

Kişi dedi: - Bu oğlumu gətirmişəm dərsə yazdıram. Bəlkə, kor qalmaya. Gələcəkdə özü öz başını dolandıra. Bəlkə də, kim nə bilir, bir çoxlarının başın dolandıra.

Yaşlı okul xidmətkarı bizi içəri aldı. Içəridə qaratel, nazikbığlı, ortaboy bir oğlan var idi. Bizi ona təqdim edərək özü getdi. İsmayıl kişi iki qat eylərək ona salam verdi.

O da dedi: - Salam eyləməyə səbəb yoxdur. Sözünüzü deyin, mən eşidirəm.

İsmayıl kişi ağzını açıb danışmaq istədi.

Qarşı tərəf dedi: -Türksüz?

Dedi: - Bəli.

Buyurun əyləşin. Düzdür, okulda türk dilində danışmaq yasaqdır. Ancaq bura dərs sinfi deyil. Ismayıl kişi dedi:

- Bu oğlumu, dərs oxumağa gətirmişəm, izin versəniz adını yazdırardım.

Qara saçlı soruşdu:

- Oğlunun neçə yaşı var?.

Dedi:

- 10 yaşı.

- Bir az dərsə gecikib, eləmi?

- Bəli müəllim, elədi. Ancaq o vaxtı ilə Azərbaycanda ana dilində məktəblər olanda iki il məktəbə gedib, yazıb-oxumağı bilir. Hətta yaxşı şeirlər də yazır. Elə birin dünən gecə mənə oxudu. Istərsiniz sizə də şeir oxiya bilər.

Müəllim:

- Afərin, oğlum, adın nədir?

Dedim:

- Adım Yaşardır.

- Bəh-bəh, nə gözəl adın var. Mənim də adım Taymazdır. Amma buralarda ona Təhmasib deyirlər. Gəl yanıma, görüm bəs indi nə iş görürsən?

-İsmayıl kişi ilə bərabər kərpiç bişirmə karxanasında çalışıram.

Bunu eşidən Taymazın gözləri yaşardı.

- Hələ sənin iş vaxtın deyil, Allah bunlara nə deyim, eləsin...Yaxşı, atan sənə niyə icazə verir işləyəsən? Hə, İsmayıl kişi, bunu niyə işlədirsən?

-Taymaz bəy, o mənim doğma oğlum deyil. Elə oğlum kimidir. Mənim oğlum rəhmətə gedib. Yəni doğrusu, onu öldürüblər, o azadlıq basdırılanda.

Müəllim:

- Allah rəhmət eləsin. Bəs bu Yaşar!!!

- Elə belə, işdə tanış oldum, söz verdim onu oxutdurum. Ona görə sizə müraciət etdik.

Müəllim:

- Yaxşı mən bunu dərsə alıram. Kitabların və dərs ləvazımatın da özüm təmin edəcəyəm, ancaq atası gəlsin burada imza versin.

İsmayıl kişi:

- Atası elə o olaylarda rəhmətə gedib, olar mən imza verim?

Müəllim:

- Gərək yoxdur. Özüm həll edərəm.

Müəllim yaşlı xidmətkarı çağırıb Yaşarı ona tapşırdı. Dedi:

-Sabahdan bu oğlan dərsə gələcək, xəbərin olsun, ona kitab, dəftər və qələm verilsin, mənim hesabıma.

İsmayıl kişi və Yaşar Taymazla sağollaşıb ayrıldılar və kərpiç karxanasına gəldilər.

İsmayıl kişi Yaşarı sabahdan dərsdə olacağı üçün təbrik etdi və bir də dedi:

- Mənim bir az pulum var, elə sənin özünün də pulun var. Olsun, onu saxla, gəl gedək sənə ayaqqabı və paltar alaq.

İsmayıl kişi və Yaşar yollandılar şəhərə, oradan paltar alsınlar. Bazarda Taymaz öyrətməni gördülər. Xoş-beş, nə işiniz, var müəllim? O da dedi:

- Heç, gəldim Yaşara bir şeylər alım, axı ona sahib çıxmaq bizim borcumuzdur.

Yaşarın sevincindən gözləri dolur. Hər şey gözəldir, onun atası olmasa da, yaxşı iş yoldaı, yaxşı öyrətməni var. Yaşar sabahdan təzə paltarlarını geyib okula getdi. Uşaqlar oturmuşdu. Bu içəri girdi.

-Salam müəllim, elə bil gec gəlmişəm, bağışlayın.

Öyrətmən dedi:

- Buyurun əyləşin.

Bu danışığı duyan uşaqlar pıçıltıya düşdülər. Bunlar türkü danışır, məgər dövlət bu dili yasaq eləməyib, gedib demək lazım! Şeytanın dəyirmanı fırlanmağa başladı.

Ancaq Yaşarla Taymaz isti münasibəti hər kəsə bəlli idi. Yaşar həm yaxşı dərs oxuyurdu, həm də davranış baxımından örnək idi. Bir gün dərsdə öyrətmən soruşdu, kim nə şeiri bilir gəlsin oxusun. Hərə bir şeir oxudu. Növbə gəldi Yaşara, o dedi:

-Müəllim olar türkü şeiri oxuyum.

Müəllim dedi:

- Olar.

O başladı bir "Ana" şeirini oxumağa:

Bir ana ağlar Təbriz küçələrində,
Bir ana belin bərk bağlar
Urmu gölündə,
Bir ana telin suvar Araz sahilində.
Bir ana ölümü bəklər sitəm qucağında,
Bir ana lal olar zalım yasağında,

Bir ana qan ağlar şəhid fərağında.
Bir ana ömrü xəzan olar bahar çağında,
Dodaqlarında qurumuş sözü,
Dilində pünhan tarixin özü.
Vaysınar, ovunar, çırpınar,
Bir ana, bir ana...
Həyatı acı, ruhu tutqun,
Gözləri göydən bulud alar,
Ağılarıyla Savalanı, Səhəndi sovurar:
"Səngərlərdə balam vay, ərim hay",
Köksündə isə "vətən hey",-
Deyir bir ana.

Yaşar şeirini oxuduqca ağlayırdı. Bir anda gördü öyrətmən və uşaqların bir çoxu onunla bərabər ağlamağa başlayırlar. Sən demə, bunların da çoxunun ailəsi o vaxtki olaylara görə Azərbaycandan Tehrana və onun ətrafına sürgün edilmişdir.

Yaşar əməlli-başlı mübarizə havasını sinifdə əsdirməyə başlamışdı. Sabahdan o, bir çoxunun qəhrəmanı idi. Onu daha "Yaşar türk oğlu" səsləyirdilər. O da bu adla fəxr edirdi.

Təəssüf ki, altı ay dərsdən keçməmiş Taymaz öyrətmən daha gəlmədi. Hər kəs dedi o başqa okula gedib, nə olub, nə olmayıb?..

Ancaq İsmayıl kişi işin içini öyrənmişdi. SAVAK onu tutmuşdu və həbs etmişdi. O artıq uşaqların ürəklərində yaşayırdı, çünki o, heç zaman dönməyəcəkdir.

Yaşar acıları üst-üstə qalayaraq böyüyürdü. O artıq ali təhsilli mühəndis idi. Çalışdığı idarə tərəfindən Azərbaycana gedən yollarda tunel qazma işində çalışırdı. İsmayıl kişi də yaşlanmışdı. Ancaq əlaqələri bir-biri ilə kəsilməmişdi. O, təhsil illərindən çox dostlar da qazanmışdı.

O, özü o dostlarının köməyi ilə ana dilində yazıb-oxuma mücadiləsi başladaraq, bir neçə kitablar yazmışdı. Onun kitabları dillər əzbəri olsa da, artıq onu yox etmişdilər. Yaşar yaşamasa da, Yaşarın sözləri böyüklərin, uşaqların dilində, dərs dəftərlərində yaşamaqda idi. Eləcə də Yaşarlar yaşayaraq 1359-da Təbrizdə millət son sözü demək üçün acı intiqam ruhunu vicdan sapandı ilə rejimə fırlatdı. Amma hala köç öyküsü davam etməkdədir.

# BU TORPAQLARDA İZİM VAR MƏNİM...

Heç alışmadığım bir durumla, heç görmədiyim bir günlə, Tanrının mənə nəsib etdiyi imkanla bu il ölkəni dolaşmağa başladım. Yaşadığım Tehran sonra adı Qum olan bir diyar. Sonra daha irəlilədim, bir çox şəhər-kənd keçərək ölkənin ən uzaq sınırları olan güneyə doğru getdim, Qəşəm kişi, Bəndər Abbas, nə bilim o qədər yerlər ki, sayı yox, hesabı yox. Hər yerdə bir dillə, bir ağızla qarşılaşdım, sevgi gördüm. Dostluq, qardaşlıq və ortaq hüzurumuzu paylaşdıq. Anlaşacaq dil, paylaşacaq sevgi tapdıq. Təxminən beş min kilometr yol keçdim. Bu şəhərdən, çəmi Şirazdan İsfahana, Bənd Abbasdan Kirmana və.... ancaq bir şeyi anladım ki, bu torpaqlarda mənim də izim var!

İnanmırsınız Şiraza gedin. Oradan Firuzabada, sonra Kirmana gedin. Orada vali Kirmanini ziyarət edin və onun türkcə divanını oxuyun. İstəyirsiz Quma, Savəyə, oradan Təfərşə (Qızılca və digər kəndlərə) gedin və baxın görün, mənim də bu diyard ad silinməz izim var. Təfrəşin Qızılcasından Şirazın Firuzabadına, Təbrizdən Tehrana, Tehrandan Quma, Qumdan Savəyə, Həmədana, oradan Bicara, Zəncana, Ərdəbilə, Tarma, Əncilə, istər daha uzaqlara - Makuya, Culfaya, Soyuqbulaqdan Xoya, yaxud elə bu yaxınlıqda Xəlcəstan deyə böyük bir məntəqəyə. Şəhriyardan tutmuş ta orta əyalətlərdə yaşayan mənim kimi izsiz insanların diyarı elə İslamşəhər, Kərəc, Rudhən... Heç çox uzaqları demirəm... Şəhəri və orada uyan ölülərimiz, tarix yaradan və tarix olan gen və soyumuz, deməli, gəzdikcə Qaşqaydan, Xələcə, oradan da Azərbaycana və oradan da Məxtumqulu diyarı Türkmənistana uzanan yollar.. Hələ Xorasan, bu müqəddəs diyarda yaşayan

Nişabur, Məşhəd Qoçan və daha haraları və haraları demirəm.. Xudafərindən Tehrana, Tehrandan Nişabura, oradan da bir çox yurdlara ulaşdıqdan bir anlamı başa düşdüm ki, bu torpaqlarda mənim izim var. Istərsəniz düzünü öyrənəsiz*! Buyurun siz də gəzin və görün.. Nəminə gedin, Xalxala, Astaraya, Ənəzliyə, çox uzaqlara yox, qulağınızın dibində Qəzvinə, lap yaxında Lahicana gəlin. Duyəkə, Daşlıburuna, hələ-hələ adları dəyişmiş çox yerlərdə özün öz izlərini görəcəksən.

Qırozabadda Sasani sarayının tam bir necə metrliyində Qaşqay türklərinin türkcə musiqi səsləri, Təfrəşdə Qızılcalı nənənin "evə buyur",- deməsi, heç sizi düşündürməz olmazmı?

Ölkə daxili bir mədəni irtibatların gəlişməsi ortamızda olan məsafə uzaqlarında son qoyacaq. Mədəni tədbirlərin kecirilməsi tətil səfərlərin tərcihli yapılması bizim bir-birlərimizlə, habelə iki dağın ortasında yaşayan singanlı, yaxud rəsərgan, qızılcalı gənc və analarla-babalarla daha yaxından ürək sevgimizi paylaşa bilərik. Inanmırsınız, bir imtahan edin.

Nəzərə alsaq ki, həmən-həmən yurdumuzun hər yerində səni tanıyan, sənə ozşayan, ürək sevgisini belə sənlə ana dilində paylaşan birilərini görəcəksən. Bilirsiniz nə demək istəyirəm? Alman, Çin, Tayland nə gərəkdir. Öz uşaq və ailə üzvlərini maşınına mindir. Ərdəbilə, Savəyə, Məncilə, Astaraya, Təbrizə, Makuya, Zəncana, Tarma, Təfrəşə, Kirmana, Blucəstana götür. Lap istərsən Türkmən səhraya, Ağqalaya Xorasana, Qocana, Nişabura götür. Öz babalarının buraxdığı izləri gör. Gör ki ta sevəsən, duyasan, eşq hissi keçirəsən və tarixinlə fəxr duyasan. Istərsən bir Ərdəbildə Şeyx Səfiyə, Zəncanda Cultaniyəyə get. Təbrizdə El gölünə və başqa-başqa diyarlarda istədiyin ən bilgin və tarixi qəhrəmanlarımızın ayaq basdığı torpaqlara gedin.

Əlini qolunu sallaya-sallaya get, cünki bu torpaqlar sənindir. Bir az maddi dünyadan qop, Bəz qalasına, lap qulağının dibində Şəhriyəyə get. Şah Əbdüləzimi, həm də ulu Toğrul bəyi gör. Nə qədər dərin mənəvi hisslər alacaqsan. Vətəndaş, qardaş, maddi dünya tükənən, qurtaran deyil. Əgər ona qapılarsan ətrafındakı böyüklükləri unudarsan, sonra öz varlığına bıcaq olarsan. Elə bizim məcəlləni alıb satıb pulunu.... Təbrizdə Ağayi Mollazadə kimi.... O, illərdir ən zəif damarımız olan nəşriyələrimizi gücünən çıxardığımız bir vaxtda bizə düşmənin vurmadığı zərbəni vuraraq nəşriyələrimizi alıb. Satıb pulunu da yeyib, üstündən su içib. Milyon dəfə zəng etsək də, pulunu göndərməmişdi. Yazıqlar olsun... Bizi yetim görüb, haqqımızı yeyənlərə, bu cümləni də əlavə etdim ki, tarix şahid olsun və o, öz intiqamını alsın. Çünki bu torpaqlarda bizim izimiz var. Biz iz arayırız, nə mal!..

# TÜRKLƏRDƏ SAY VƏ ONUN DÜÇÜNCƏVİ YOZUMU

Ətə ,sümüyə büründüm,
Beləcə fahih göründüm.
(atalar sözü)

Hal-hazırda dünyada elə bir xalq, ya ulusal yoxdur ki, saymağı bilməsin, yaxud bir istədiyi şeyi saya bilməsin, ancaq hər bir ulusun əskiliyinə görə onda say və onun törəmə tərzində gizlənən fəlsəfi anlamı daha da zəngin və sirrlidir. Biz türklər də bu insanlardan biriyik.

Qeyd etmək lazımdır ki, bütün dillər dinamik və canlı olduğundan, başqa uyğarlarla (mədəniyyət) ilişkiyə girib və onunla alış-veriş yapır. Demək olar ki, zaman getdikcə dildə sözlər öz anlamlarını dəyişə bilirlər, ya da ki, arxayıkləşib işludən çıxırlar. Ancaq saymaqda belə hadisə yoxdur. Bir böyük ulusun birlik rəmzi olan sayılar yalnız və yalnız sayının eyni olmasıyla görünmür və varlığını və bütünlüyünü diqqətə çatdıra bilməkdədir.

Hər fərd, yaxud da "mən" olaraq zaman kəsiyində nəsil dəyişilmələri kimlik dəyişdirə bilər. Başqa sözlə, zamanın "mən"in üzərində ötməsi o "mən"in mənsub olduğu kimliyi o "mən"dən ala bilər, ya da dəyişdirə bilər.(Örnək: təxminən 50 il öncə bir Azərbaycan türkünün "türk" mənliyi olduğu halda, indi onun həmən dediyimiz ana və ata mənliyinin Tehranda yaşadığına görə övladının, ya da nəvələrinin başqa "mən"i qəbul etməsi aydındır). Bu o deməkdir ki, "mən" kültürəl bağımlıqdır, tərbiyə metodikasının üzərimizdə uyğunlamasıdır. Ancaq bir millətin mənliyi ondan qopan fərdin mənliyi ilə sarsılmaz təməl və əsas dəyərlərin deformizə edilməsi nəticəsində milli olan olanaqların qopması baş verə bilər. Elə say, yaxud da hesab,

hesablama da bunlardan biridir. Diqqət yetirək: Bizlər ola bilsin biz qazaxıstanlı, ya da Başqurd türkü ilə danışanda onun çox sözlərini anlaya bilməyək, lakin onların saymaqlarını anlamaqda heç bir zorluq çəkmək söz konusu deyil. Coğrafiyayı zamanın getdikcə qocalması və onun bireysəl olaraq yaşam sırasından çıxması get-gedə fərdi şəxsiyyətin bir kimlik kimi özünü yox etməsində təsiri var, ancaq canlı kültürəl hücrələr öyrətməklə (tövlid) məşğul olur. Niyə biz yaşımızı saatlar, günlər, aylar və illərlə ölçürük? Ona görə ki, zaman və onun bizə fərd olaraq qalıb gəlməsinə əminik. Ölürük, qəbirdaşlarımızda ölüm tarixlərimiz yazılır, yəni həyatdan sonra da bizə aid olanlar üçün, öz yaşarlılığımızı isbat olmaq ücün ölümün yaşamda sorun etkisini yaşadırıq. Qandaşlarımız bu da kültürəl hücrədir. Millət o ulus oluşumudur. Yəni zamanın qalibiyyətində məğlub olmamaq öləndən də sonra gələcəyi yaşatmaq. Sözü uzatmadan millətin var olması əlamətlərindən biri də sayıdır. O sayı bizlərdə adi saydığımızda diqqətə alınmasa da, düşüncə çəmbərinə alınandan sonra onlara nə olduğu və nəyi bizə alışadığını başa düşürük. Demək yerinə düşərdi ki, bu məsələ üzrə mən hec bir qənaət və düşüncəyə rastlamamışam, bu haqqda yazacaqlarım yalnız mənim fitri düşüncələrim əsasındadır. Sanıram türkün törəmək, artmaq kimi anlamlarını həm də onun təbiətlə sıx bağlı olduğunu, onun həyat tərzinin bir parçası olan say fəlsəfəsini də görmüş olacağıq. Gələcəkdə araşdırmaqla daha çox anlaşılır.

Bizim düşüncəmizə görə, türklərdə sayılar insan oğlunun doğulub və böyüməsi ilə sıx bağlıdır. Gözünün qabağında böyüyən övladlarını və mal-qarısını görən türk sayı oradan kəşf edərək yaşama davam etmişdir.

Bir ( bər)- ərmək- irmaq (hərəkət etmək anlamındadır. Bəçə, beçə, bəyçə bir dalın kənarından törəmək deməkdir.

(farslar onu uşaq yerinə istifadə edirlər) Bəçənin hərəkət etməsi, yəni bir.

İki -(iyi, iyiq, ayıq), yəni bir beçənin iyi xoş və ayıq görünməsi. Uşağın iki yaşlısı daha şən göünür.

Üç- yeriməkdə uçuşu sərgiləmək, yəni həm yerimək, həm də qol qanad açmaq. Uşağın uçuşa bənzər yürüşü.

Dörd - durub ötmək, daha sürətli hərəkət etmək.

Beş- (biş-beş) pəş, yaxud bi-iş. Buyurub söz danışmaq, söz sahibi olmaq.

Altı- vuruşmaq,çalışmaq mücadilə verərək istədiyini ala bilmək. Bu yaşda insanın ağlı səviyyəsi daha çox nəzərdə tutulur.

Almaq, alqılamaq kimi fəlsəfi düşüncəni içərməkdədir.

Yeddi- (yedi) yemək, yəni bir sözün anlamını fəth etmək. Yemək, içəriyə daldırmaq və onu düşünərək ağlına yedirmək.

Səkkiz- (səkiz) səkya, səki, yürü. Kanalı aşağıdan bir az üstün olmaq. Burada isə öz böyüklərinin izi ilə yürümək, səkmək deməkdir. Hərəkətlə izləmək, səkərək yürümək, həm də özündən böyüyü təqib etmək. Burada insan oğlu düşüncə və ağlı həm də fiziki baxımdan öz öndə gedənlərini izləyərək və ayağını onların ayağının yerinə qoyur.

Doqquz- (tokuz) böyümüş, toxlaşmış və böyük kimi görünmək anlamına gəlir. Özü o duruşu ilə böyüklərə bənzəyir. Toxtamış, böyümüş və görünüşcə kamilləşmiş.

On- ya Oun. Biliyinə, fiziki böyüklüyünə görə uyğunlaşmış adam. Başqalarının bu adama ovğunlana biləcəyi mümkün ola bilər. Ona iş havalə, yaxud tapşırıla bilər.

On birlə on doqquz, demək olar ki, başqalarının bir fərdə yaş kateqoriyasına görə güvənə biləcəyinə ifadədir.

İyirmi - bu yaşda iyi yerimək, savaşlara getmək, ov ovlamaq, həmasələr yaratmaq, iyi və yaxşı işlər görə biləcəyi sanılır.

Otuz - bu yaşda insanın güc içində üzdüyü görünür. Gücün və ağlın həm də başqalarının sənə münasibətidir. Müşkülü aradan qaldırmaq xariqülada işlər görə bilməkdir. Bu sayıdan anlam insanın güc ilə bir çox şeyi həll edilməsinə qadir olmasıdır.

Qırx - bu yaşın anlamı isə insan oğlu üzərində qurulan təsəvvürün irəli gəlmiş, yəni qırxmaq, ətrafını özü üçün toplamaq, özünə qoşun toplamaq, azuqə toplamaq, digər yerdən qırxıb, biçib özümləşdirmək.

Əlli-toplamadıqları bütün sayıların imkanına sahib olan adam.

Altmış- bu yaşda çox şey toplamış ancaq toplamadıqları tərəfindən atılmağa məruz qalmış yaşdır və bu yaşın mahiyyəti türklərdə sayı sırasına beləcə düşünülərək görə bilmişdir. Yalnız qalma, tənhalaşma.

Yetmiş- insan oğlu fiziki baxımdan yetişmiş eyni meyvə kimi dolğunlaşmış, qocalmış, istədiklərindən bir nöqtəyə varmış.

Səksən - bu yaş insana baxılaraq onun yerişi, duruşu əsasında yaranmış, yəni yeridikcə büdrəmiş, yıxılmış, səkmiş və düşər kimi olmuş ihtiyarlı vaxtı olmuş.

Doxsan-cana gələn xəstəliklər ucbatından yemək azalmış və insan sanki toxumuş kimi görünmüş.

Yüz - hər şeydən əlini üzüb və ölməyə hazırlanmaq zamanına yüz demişdilər.

# SÖZLƏR DÜŞÜNCƏNİN GÖZ YAŞLARIDIR...

Söz bizi bizə anladan, gərcek üzümüzü göstərən və yaratıqları (məzluq) içində bizə özəl varlıq dəyəri qazandıran məhfumdur. Hər bir olanın olmuşduranı olan kimi, səbəbin də səbəbi varmış kimi görsənən vücudi mahiyyətimizin məna və anlam etibarilə bir başlanğıcı vardır. Söz də düşüncənin var olmasının səbəbidir. Zaman və duyğusal, bilimcil mahiyyət kəsb edən düşüncənin ifadə tərzi söz yaradılışının bariz nümunəsi kimi olur. Söz Tanrıdan başlayan və onun bütün bəşərlərinə yayılan bariz sevgi və oluşum eşqinin ən alt yapısından biridir. Sözə müxtəlif zamanlarda müxtəlif qiymətlər verilib. Söz Tanrının kəlamıdır. Qurani-Kərimdə də birinci, bir Allah kitabı qədər dərya əzaməti boyda müxtəlif boyutları özündə ehtiva edən, mahiyyət etibari ilə Tanrıdan yaratmaq və yaratıqdan bir-birlərinə canü könüldən başlayaraq yayılan məruf okeanı yaranmaqdadır. Böyüklərimizin kəlamında söz "can" dəyər kimi ifadə və ibarələr çox yer almışdır. Həkim Füzulidə söz ölməz və əbədi mahiyyət kəsb etmişdir. Nizamidə söz tanrının ruhu və təsviri kimi, hətta türkün yaradılış dastanlarından əvvəl söz ilə başlayan müqəddəs və kutsal söz varlığın özüdür. "Sözdən uzaq, gözdən iraq", yaxud "söz sakitliyin nurudur" kimi fəlsəfi ibarələr hamılıqda bir müqəddəs amala xidmət göstərir. O elə sərvətdir ki, yalnız paylaşdıqca çoxalır. Çoxaldıqca ucalır, ucaldıqca qocalır. Qocaldığca canlanır, yayılır və sərhədsiz, sınırsız hala gəlir. Əhməd ədib Yüknəkidən, Məhmud Kaşğaridən, Dədə Qorquddan, Füzulidən, Nəsimidən, Xətaidən, Soltan Məhməd Fatehdən və bir cox ulularımızdan və onların canü könüllərindən qopub gələn

hava və su kimi ruhumuza, yurdumuza hopub və can sərvəti olan mədəni varlıq yalnız söz varlığımızdan və onu ifadə edən, ona anlam qazandıran dildən irəli gəlib. Dil sözün icadıdır. Söz canın məna kəsb edən fəlsəfi əqli və düşüncə və yiyəsidir. Bəşərin bütün dövrlərdə sahib olduğu yüksək mərtəbəliliyi, fəqət sözdən, düşüncədən süzdüyü zaman olmuşdur. Ancaq bu sözün sonsuzları da çox olmuşdur. Çox başlar qırmızı dilin qurbanı olmuşdur. Sonsuza qədər uzanmaq vəsiqəsi almışdır. Elə götürək Azərbaycan oğlu Babəkin fasiq, dindən və adabdan uzaq Mütəssimə dediyi : "Sarala-sarala yaşamaqdan, qızara-qızara ölmək yaxşıdır", sözlərini. Bu düşüncənin arxasında və ertəsində min illər tarix və mədəni ictimai hadisələr uyumaqdadır. Sözün kəsəri və itiliyi onun hər şeydən qiymətli olmasındadır. Düşüncə özgürlüyünü tərənnüm edən azad və bərabər toplum və həyat sahibinin hüceyrələrini bu gün də bizim qanımıza daşımaqdadır.

Sözümüz şərəfimizdir. O, anaların laylaylarında qanımıza hopur, ataların əməyində can olur, ulularımızan mərifətlərində əbədi dərs olur. Yol olur, haqqa dua içimizdə inam bayrağına cevrilir. Həm də söz dilimizdən çıxan hiss, həyəcan və arzularımızın ifadə tərzidir, əskidən bu günədək tarixi varlığımızı yansıtmaqdadır. Sözümüzə sahib çıxaq, çünki söz ruhumuzun qidası, tariximizin aynası, varlığımızın göstəricisidir.

# 24 APREL QONDARMA ERMƏNİ SOYQIRIMI, YAXUD DA ADDIM-ADDIM MÜSƏLMANLARA QARŞI YÜRÜDÜLƏN SƏLİB SAVAŞI

İslam dünyasının ən güclü və ədalətlisi olan Osmanlı imperatorluğu həm də Avropada xristianlıla qarşı-qarşıya dayanan islam gücü, altı yüz ildən artıq islam mədəniyyətini Çindən Avropanın ortalarına qədər yaya bilən ən güclü islam imperatorluğu idi. Qərbdə islamın güclü və sonsuz dərəcədə ədalətli görüntüsünü qəbul edə bilmədiklərindən ona savaş açmışdılar. Sultan Məhəmməd Fatehin İstanbulu fəthindən sonra Qərbin insanlarının Şərqə yanlış yanaşmasına son qoyuldu, türkün gücü ilə islamın son dərəcə ədadlətli müvəffəqiyyəti zülm çəkmiş insanlara ithaf olundu.

Əsrlər boyu ürəklərində kin və nifrət bəsləyən qəzəblər uzun illər xac savaşları əsasında türk və onun timsalında islama zərbə vurmağa cəhd göstərmişdilər. Madrid və İstanbulda islam və onun gətirdiyi mədəniyyətə savaş açan qərblilər, demək olar ki, yüz illərlə öz niyyətlərinə çata bilməmişdilər. Ancaq kin və nifrətlətini gizlədə bilməyən avropalılar misyonerləri vasitəsi ilə çox cəhdlər göstərmişdilər ta ki, islami ərazilərdə məsihiti yaysınlar. Bunlar bəzi yerlərdə müvəffəq olsalar da, çox yerlərdə müvəffəqiyyətsizliyə uğramışdılar.

Qərbin islama qarşı kin və nifrəti tarixdə özünü çox dəyişik formalarda göstərmişdir. Açıq savaş, missiyonerlik və dini təbliğat kampaniyaları, siyasi vandalizim və ya prondasazilər və yalançı erməni qətliamı siyasi oyunu qərblilərin islama qarşı oynadığı yeni oyundur. Qeyd etmək

istəyirəm ki, bu məsələ heç də türkə qarşı deyil. Türkün yerində ərəb, fars və başqa müsəlman xalqları olsaydı belə, bu oyunu mütləq oynayacaqdır. Çünki bu xas millətə qarşı deyil, bu bu gün islami təmsil edən ön cəbhədə olan türklərə qarşıdır.

Hamıya məlumdur ki, birinci dünya savaşında Osmanlı islam imperatorluğunun əleyhinə bütün cəbhələrdə savaş açan avropalılar öz dindaşlarından xain və casus kimi bu böyük quruluşun əleyhinə istifadə etməyə başladılar. Bu işdə fransızlar və ruslar ən çox ermənilərdən yararlanmağa başladılar. Qərbdən İngiltərə, İtalya, Yunanöstan, Fransa və digər Avropa ölkələrinin açdığı cəbhələrdə savaşa girən islam dövləti Şərqdə xristian ruslar tərəfindən də terorrizə məruz qaldı. Rusların islam hüdudlarına girdiyində osmanlı vətəndaşı olan ermənilər onların pişvazına gedərək onlarla islam və türk hakimiyyətinə qarşı iş birliyi yapa biləcəklərinə söz verdilər. Erməni silahlı dəstələri yarandı və bu dəstələrə cilovluq deyirdilər. Onların ən qəddar qan rəhbərlərinin biri də Andranik Avanesyan idi.

Osmanlı dövləti çarəsiz qalıb vətəndaşlarının ona arxadan xəncər vurmasına artıq təhəmmül edə bilməyərək onlarla savaşa girmişdir. Beləcə, erməni-türk savaşı başlamışdı və bu savaşda rusların və Qərb missionerlərinin, həm də qərb silahlarının hər zaman onlara arxa olduğu bəllidir. Ədalətsiz savaşda xaincəsinə müharibədə məğlub olan erməni güclərinin bir çoxu İrana, Suriyaya və Rusiyaya qaçaraq, indi bu günki soyqırım oyununu oynamaqdadırlar. Bunlar tamamilə yalan və uydurmadır.

Əsl həqiqət odur ki, onlar bizim ölkəyə girərək Qərbi və Şərqi Azərbaycanda 10 minlərlə vətəndaşlarımızı qətliam etmişdirlər və bu qətliamların canlı şahidləri hələ də vardır. Bu haqda bir çox fakt dolu yazı və kitablar da mövcuddur.

Bu məsələ İranda Azərbaycan dilli dövrü mətbuatda da işıqlandırılıb.

Göyçay. Bakı, Naxçıvan, Lənkəran soyqırımları, demək olar ki, rus və qərb birləşməsinin erməni silahlılarının əli ilə törətdiyi tarixi cinayətin aşkar nəticəsidir. 100 ildən sonra belə sayları üç milyon olmayan ermənilərin, demək olar ki, ağ yalan uyduraraq o dönəmdə "1\5 milyon insanını itirmişdir",- deməsi heç bir əqli hesablamalarla düz gəlmir. Anadoluda, Azərbaycanda, İranda müsəlman qırğını həyata keçirən erməni muzdurları, nədənsə gözümüzə kül üfürməyə çalışırlar.

Onların Qarabağı işğal etməsi və islam dünyasında ikinci bir İsrailin yaradılmasını gercəkləşdirmələri göz qabağındadır. Tarixi müsəlman torpaqlarında qurulan bugünki Ermənistan, yaxud öz dilləri ilə desək Hayastanın və erməni sözünün mənşəyi islamın Azərbaycan, Qafqaz və Anadolunu fəthindən sonra ortaya çıxmasına şahid oluruq. (Qeyd etmək lazımdır ki, ermənilər heç vaxt özlərinə erməni deməzlər. Onlar özlərini hay adlandırırlar və ölkələrinə də hay, ya Hayastan deyilrlər).

Məlumdur ki, islam fəthindən qabaq İranda və Azərbaycanın cənubunda zərdüştçilərin, Qafqaz və Anadoluda isə albanların hakimiyyəti altında yerli əhalidən təşəkkül tapan məsih dövləti mövcud idi. Islam bu əraziləri fəth edəndən sonra yerli əhalinin bəziləri islamı qəbul etməyib öz dinlərində qaldılar və onlar türklərdən olan məsih dinində qalan insanlara erməni adı verdilər. Bu, o deməkdir ki, ermənilər əslində türk mənşəli insanlardırlar ki, məsihiyət dinindən əl çəkmədilər. Əslində məshiyət və yaxud öz inanclarında qalan bu qrup insanlar dini birlik əsasında sonralar Ukrayna ətraflarından Qafqaza sürgün edilən Məsihi haylarla birləşərək qaynayıb-qarışmağa başladılar. Gələnlər hay, yerli əhali isə erməni adlandılar. Demək olar

ki, ermənilərin haylarla nəcadi bağlılıqları yoxdur. Ona görə hələ də dünya Ermənistanı ermənilərin yurdu olaraq "erməniyyə" kimi tanıdıqları halda, necadpərəst haylar özlərini Hayastan aadlandırırlar və hələ də dünyada heç bir millət hay, yaxud Hayastan ölkəsini rəsmən tanımayıb.

Əzəli və əbədi müsəlman ərazisində qurulmuş Ermənistan dövlətinin quruluş tərzi İsrailin quruluş tərzindən heç də fərqlənmir. Onlar da müsəlman torpaqlarını işğal edərək dövlət qurmuşlar, daha doğrusu avropalılar onları bizə qarşı qurmuşlar. Ermənilər də müsəlmanların ərazisini işğal edərək avropalılar tərəfindən biz müsəlmanlara qarşı dövlət halına gətirilmişdir. Əslində avropalılar onlardan axmaqcasına istifadə edib özlərini cinayətdən uzaq saxlayaraq bütün müsəlmanlara qarşı cinayəti onların əli ilə törətdilər. Qəzza ilə Qarabağ, Fələstin ilə Xocalı, Fələstin və Lobnan əraziləri Azərbaycan ərazilərinin nə fərqi var? Orada da uşaqlar niyzəyə taxılır. Qarabağda, Xuşada, Xankənddə, Xocalıda, Qubada, Salmasda, Xoyda, Laçında, Kəlbəcərdə, Qubadlıda qarnına nizə soxulan hamilə analarımız eynidir. Hər ikisi öləndə deyir: - Əşhədü ənla İlallahə illəllah, əşhədü ənna Muhəmmədən Rəsul Allah. Xocalıda mədrəsə uşaqlarının qarnına nizə soxulur, bədən əzaları avropalılara satılır, fələstində eyni ssenariyo işlədilir. Bu ssenariyoda türk, fars, ərəb önəmli deyil. Məhv olan təki müsəlman olsun.

Qərb dünyası yalançı 24 aprel soyqırımını parlamanlarında müzakirə edərkən, görəsən, Fələstində olan insanları niyə görmür?. Bosniya, Hersoqovina, Sirbistanda 10 mindən çox güllələnən və soyqırıma məruz qalan müsəlmanı niyə görmür? Hiyləgər Qərb müsəlmanları bir-birinin canına salaraq savaşlar törədir. Bununla yanası, çirkin, antihumanistan və şeytanı nəqşlərlə müsəlmanları adam öldürən

və terrorist kimi qələmə vermək üçün onların adına soyqırım senariyosunu yazır.

Ölkəmizə "atom silahı düzəldirisiniz", - deyərək min bir nəqşə çəkən Qərb ön cəbhədə olan Türkiyəyə soyqırım ssenariyosu yazır. Hələ uyuşmamış şiə Azərbaycana savaş açaraq 20% torpaqlarını işğal edir. Yeraltı və yerüstü sərvətini talan edərək onun vətəndaşlarını ölümlə üzbəüz qoyur. Həmdinləri tərəfindən onun torpaqlarında 20 ildən çoxdur yanıq topraq siyasətini həyata keçirir. Gözümüzü açmalıyıq. Hər bir ərazinin yerində dənizdən-dənizə böyük Ermənistan nəqşəsi vardır. Onlar Qara dənizdən Xəlici-farsa qədər hər yeri Ermənistan hesab edirlər və bu vəzifəni də avropalı ərbablarının planı əsasında addım-addım həyata keçirməyə başlayırlar. Bir sözlə, qeyd etmək istəyirəm ki ermənilərin bizə açdığı açıq və gizli savaşlar və yaxud çəkdikləri böyük Ermənistan nəqşələri tamamilə dini müstəvidədir və Qərbin islam və onun gətirdiyi mədəniyyətə qarşı yürütdüyü acımasız siyasətin bir qoludur.

Umutmayaq ki, İsrail və Ermənistan hər ikisi islama qarşı düşmənlərimiz tərəfindən yaradılmış dövlətləridir. Onlar təkcə türkün düşməni yox, onlar bəlkə ümməti-islamın düşmənidirlər.

# BİLİKLİ TOPLUM VƏ İCTİMAİ DƏYİŞİMLƏRİN SİSTEMLİ İRƏLİLƏMƏSİ MƏSƏLƏSİ

Oxuma-yazma, texnolojik araclara və güncəl texnolojidən yararlanma bacarığı həm də bu kimi şağdaş həyat və yaşam məlzəmələrinin tərədüdsüz yaşam sürəc sistemimizə girməsi özü-özlüyündə bilgilənmə yükünün toplumdan kişiyə ötürülməsi və fərdlərin toplumda ideal yerə qədər ucalması, əslində üç eyitimdə özünü büruzə verməkdədir:

1. Yaşadığımız toplumda fərdi biliklənmə və bilgilənmənin ardıcıllığı məsələsi.
2. Fərdi toplumsallaşmağa doğru götürülən fərdi bilgilənmənin toplu bilgilənməyə yönəlik toplum daxili yönəliklərini gücləndirmə.
3. Bilgilənmə və bilik alanının genişlənməsinin mexanizmlərinin tamı və yaxınlaşdırılması.

Əlbəttə, qeyd etmək lazımdır ki, bu üç faktor yalnız açıq və qadağasız toplumlarda həyata keçə bilir. O toplumlarda ki, orada araşdırma təsiri və uluşdurma mexanizminə durğunluq mexanizminin təsiri olmasın. Ölkəyə sevgi, idarəçiliyə inam, topluma və həyatın gələcəyinə özgüvən atmosferi hakim olmalıdır. Bilgilənmə heç vaxt bilgisiz saxlamaqla qazanılmır. Xəbərləşmə paylaşma və daha doğrusu, inanaraq qaynaşmadan doğur.

Araşdırmaçı, inanan vətəndaş və hər bir kəs yaşadığı ölkədə, məkanda öncə ortaq toplumsal sevgi və güvən mexanizmini yaşam sürəcində görərək və ona özünü adaptasiya edərək yola çıxmalıdır. Bilgini və biliyi nizami güclə kontrol etmək və bilgini qorxu halına gətirmək öz-özlüyündə birinci, fərdi sansorculuq, ikinci, zehni və əqli zaval və üçüncüsü isə beyin gücünə səbəb ola bilir.

Bilgiyə məhkəmə qurmaq, həbs, dustaq və cəza kəsmək, əslində tarixi irəliləyəşə mane törətmək və təqdiri-İlahini sorğulamaqdır. Ona görə ki, biz toplum olduğumuz halda kurəsəl ailəyik və bu arada zatən dünya ilə ayaqlaşma və orada olan ortaq paydan faydalanmağımız gərəkməkdədir. Bilgiyə tuzaq hər alanda - humanitar, elm, dini və etnik sahələrdə gərəkdiyində, öz içindən partlaq verərək bilginin bir yerdən qapanmasına, bir yerdən cücərməsinə səbəb ola bilər. O bilgi yabanı hala gələrək toplumdan ayrı qrupların mənafeyinə xidmət göstərməyə başlar ki, bu da yaxşı sonuc verə bilməz.

Bu arada bilik və düşüncənin əqli rabitəsindən yola çıxmaqla xəyallara qarşı bilginin ürətimə və istifadəsinin sistemli mexanizmini əldə etmək və ondan uyuşum, oluşum və bir birləşim nəticəsini çıxararaq ölkə çıxarlarına xidmət alanını yaratmaq lazımdır.

Düşüncə və bilgi özgürlüyü istər iqtisadi, mədəni və başqa sahələrdə ön görəvdə, əlbəttə, görüntü olaraq bir azacıq qorxulu olsa da, zaman məsafəsində yaxşı yönətildiyində çox faydalı olduğunu görə bilərik. Götürək bilgisayar, internet və ondan törəyən feysbok, imeil və digər kullanımları. Hərəsi öz-özlüyündə çox gözəl və xeyirli bilik və bilgilənmə aracları olduqda, eyni zamanda kötü qullanımda zərərli və ziyanvericidir. Ancaq onun ziyanvericiliyi onu isbat etmir ki, onun istifadəçilərini güc yolu ilə durdurmaq gərəkdir. Yox, bəlkə, bu bilgi və bilik araclarının xeyir yönlərini qabartmaq və istifadəçilərə də psixoloji bilikləri aşılamaq və çatdırmaq lazımdır.

Qeyd etmək lazımdır ki, bilgi və biliklə təqdiri davranmaq sonda başqa bir nəticə verməz. Tarixsiz insan, dilsiz bəşər, təcrübəsiz millət, üstün kimliklər, doğrudan da yoxdur. Ancaq bunlar yanlış və qrup mənafeli, bəzən ölkə mənafeyi üçün terorizə edilmiş yanlış bilgilər və biliklər

nəticəsində ortaya çıxır. Uzun müddət nizami gücə arxalanıb bəzi nailiyyətlərə çata bilsə də, ancaq əsl mənasında bunu istifadə edən qrup və ölkələrin ziyanına tamam olmaqdadır. Bunun adı bilgi sümürgəciliyidir. Əqldən uzaq, yalnız sürümgəciliyə dayanan maarifləndirmə sonunda parcalanma və xəlaqiyyətlərin ziddiyyətlərinə gətirib çıxarır.

Bu dediklərimizdən başa düşürük ki, insan istər fərdi, istər toplu həyatında yalnız həm özünün köhnələşmə düşüncəsi və həm də ətrafdakı ona zor uyğulayan diktatoriya ilə mücadilədə yaşayır. Bunun adı da vicdanın sitəmə qarşı savaş və toplumun hafizə və yaddaşın unutqanlıqlara qarşı verdiyi savaş mücadiləsidir.

Toplum olaraq tapdalanan bir yerləri görürsən. Yüz il sonra güc topladıqdan sonra öz tarixi yaddaşını bərpa edərək haqqı haqq etməyə başlayırsan. Məhbuslarına, ölənlərinə törənlər və mərasimlər tutaraq tarixi hafizəsini yenidən canlandırırsan. Daha doğrusu, toplumlar öz içərilərində, cəmi vicdanlarında başları çəkdiyi zülümləri unutmayaraq toplumsal bilgiləndirmələrlə ayaqda tutmağı bacarırlar.

Hər toplumda bilgini bilgisizliyə çevirənlər bilməlidirlər ki, onlar ancaq öz burunlarının ucunu və fərdi mənafelərini görürlər.

Bilgiləndirməni diktatorların fəal ömrü ilə ölçənlər mütləqa yanlış düşünürlər və Tanrının verdiyi ağla qarşı duraraq, zəka ocağının üzərinə kül tökmək istəyirlər.

İkinci eyitimə dönmək, istəsək deyə bilərik ki, hər türlü fikir, düşüncə və bilgi sahəsində aləşdirmə sərbəst olmalıdır. Çünki bu öz-özlüyündə düşüncəvi sistem oluşdura bilər. Böyük bir aləşdirmə sisteminə sahib olan hakim nizamı bilgiləndirmə sistemi, əslində öz varlığını hər gün yeniləşdirərək yaşada bilər. Əksinə, köhnələrək bilgisayar

proqramı kimi kurəsəl düzeydən hədəf ola bilir. Yönətici orqan doğrudan-doğruya ortalığa meyilli bir ələşdi mexanizmasına sahib olmalı və özündə dözümlülük və səbir nümayiş etdirə bilməlidir. Belə bir idarəçilik sistemi gərcəkdən vətəndaşları vətənə qazandrmaq vəzifəsini yerinə yetirmiş olur. Bilgiyə və ələşdirməyə qarşı zor və sitəmdən istifadə, əslində idarə edənin öz iç zəifliyindən doğan doğal amildir. Bunun adı çağdaşlamadan qorxmaqdır. Cahani sistemlə ayaqlaşa bilməyən, özü təsir gücünə malik olmayan yalnız qandallarla, qorxu və zorla susdurma mətudunddan faydalanan idarəcilik meylini kor etmişdir. Belə sistemlər sevgi toplumu yox, nifrət toplumu və toxumu əkməklə gələcəyi qaralamaqdadır.

Nəzərə almaq lazımdır ki, fərdlər və topluluqlar dəyişkən və fərqlidirlər. Onda hər bir ana oluşum toplumu da dəyişkən, dözümlü və mufərəh olmalıdır. Fiziki nəfiyə üstünlük verən ana oluşum toplumları plüralizmdən uzaqdır, qapalıdır, ölümə məhkumdur. Səni qınayanı öldürürsən, bil ki, səni də öldürəcəklər. Paylaş ki, səninlə bölüşsünlər. Toplu bilgisi paylaşımı bacarmalıdır.

Fərdi dəyərlərin toplumsal dəyərlərə şövqu və toplumun fərdlərdən oluşan dəyərlərinə toplum düşüncəsində yer verilməsi, fərdi ürəkləndirərək güclü edər, fərdin gizli zəmirində olan ön bulgini korlayaraq onu xaincəsinə korafəhm edir. İstək və istənilən bilgilər arasında əqli, məntiqi körpü olmaqla tarixi yadddaş ilə yaşadığı, çağdaş yaşam yaddaş ilə bağlaşma olmalıdır. Bu, yəni demokratik anlam və insana verilən dəyər və güvən fəhmin, düçüncənin bilgi ilə bir arada insanın insani özgürlüyünün təminatı və təkamülüdür.

Üçüncü eyitimdə isə bütün düşüncə özgürlüyünə gərgin arac və vəsilələr qövmi, dini, fərdi fərq qoyulmadan hər kəsə eyni olmalıdır. Burada adam və mühit məsələsi, adam və

etnik mədəni məsələlər ortaya qoyulmaqdadır. Əgər biz fərdi bilgiləndirmədə və eyni zamanda geniş alanda toplum bilgi sürəcində ayrıseçkiliyə yer vermiş olsaq, ədalətsizliklə yanaşı, mukaşifəçiliyə qarşı da mane yaratmış oluruq Burada tarixi olaylar, mədəni olanaqlar, milli tutanaqlar, üstəgəl güncəl texnoloci imkanlar bir arada toplum bilgisini zənginləşdirməlidir. Bilgili toplum yaradıcı, dinamik, mukaşif. vicdanlı və paylaşandır. Bilgisiz toplum isə diktator, qorxunc, şovinist, qeyri-yaradıcı və qeyri-mukaşifdir.

Həyat və yaşam bilgisindən, insan özgürlüyündən fərdi və etnik özgürlükdən yola çıxaraq sevilən, sevməyi bacaran, eyni zamanda paylaşmağı özünə hədəf seçən bir sürəcə girməklə gələcək nəslin yolunu açmış olursunuz. Ziddiyyətlər isə öldürücü və yıxıcıdır. Sənə xoş gələn mənə də xoş gəlir, sən üstün deyilsən, mən də aşağa. Səninki səndə, mənimki məndə. Ortaq paylaşım olmalı, yoxsa mücadilə və uzaqlaşma? Gəlin bilgili toplum sayəsində qucaqlaşmağı və özgürlüyü tərənnüm edək.

# ANA DİLİ VƏ KİMLİK MƏSƏLƏSİ

Mən kiçik yaşlarımda elə bilirdim ki, bir uşaqın anası ölsə, uşaq da mütləq ölər. Yavaş-yavaş anamın səsi canıma, qanıma hopduqca atamın isti sevgi və məhəbbətini duyduqca, bu fikirdən daşınmağa başladım və gercəyin özünü tam 6 yaşında düşündüm. O vaxt ki, ibtidai sinfə qədəm qoydum. Hər şey mənim üçün ordan başladı, ölüm də, ölümün ağ həqiqətləri də.

Dərs kitablarına 5 tümən verib aldıq və sinfə keçdik. Birinci kitabın çəkillərini, sonra oxuya bilmədiyimiz yazıları seyr etməyə başladıq. Sevinc hissi hər şeydən üstün idi. Elə ki müəllim sinfə daxil oldu, ayağa qalxdıq. Sən demə bu müəllimlər də elə bəy və xanların qır-qırıntılarıymış. Heç oxumamış diplom alıb müəllim olmuşlar və şahı tərifləməkdən başqa bir şey bilmirlər. Bunlar bir yana. Bir neçə gün cızma-qaradan oxuduqdan sonra yazılara basladıq. Əlimiz qələm tuta bilmirdi, ərəb əlifbası ilə əcaib yazıları qazmalıydıq. Uzun sözün qısası, bu yazılar şəkillər kimi deyildi. Müəllim şəkilləri türkcə, yəni evdə anamızın və atamızın danışdığı ana dilində deyirdi. Ancaq yazıların anlamı başqa idi. Başınızı ağrıtmayım. O gündən ki o yazıları yumruq kimi gözümə dürtdülər, onda bildim ki, hər bir uşağın anası onun üçün 6 yaşında ölür. Anası ölməsə də, onun laylası, şirin dili, duyğu və düşüncələri öldürülür və basdırılır. Qazıq anama, atama, həm də yazıq ana dilimə yazığım gəlir. Və bildim ki, hər bir uşaq anası öləndə ölmür, bəlkə anasınln dili öləndə ölür və yox olur. Indi bundan snra o, istər yüz il yaşasın, ya heç yaşamasın!

Bu kiçik epizodu xatırlatdım ki, insanlar bilsin canlı varlıq olduqda onun kimliyinin təminatcılarından biri elə onun vücudunda kodlaşan danıçıq genləridir.

İnsanı məxluqatın ən şərəflisi edən danışıq və düşüncə onun içində susdurulur, yaxud başqa yönə yönəldilirsə, onda o insanın mənəvi aləmində və var olmasında da defektlər yaranır və irəliləyişinə mane olur. Sadəcə demək istəyirəm ki, uşağın qarşısında yaradılan maneələr onun inkişafına təsir edir. Ola bilər ki, biz elm naminə bir neçə dili, bir neçə ləhcəni bilək. Ancaq bunlar uşaqlıq dövründə ana dili ilə paralel olmalıdır və ya ana dili təhsilinin təkmilləşməsi kimi həyata keçirilməlidir.

O zaman ki ictimai şərait aparıcı rol oynayır, onda rəftar qeyri-təbii məqama çevrilir. Demək olar ki, məntiqi bağlılıq qırılır və uşaq ilə ana dili arasında ucurum yaranır. Bu ucurum özü ilə şübhə və qorxuları gətirir və get-gedə rabitənin kəsilməsinə səbəb olur. Ana - uşaq, uşaq – ata, uşaq - toplum və nəticə alırıq ki, 6 yaşında uşağı ana dilindən ayıranda uşaq ilə ana arasında və həmcinin uşaq ilə ata arasında və qardaş-bacıları, həm də qohumları arasında sevgi və məhəbbət kimi psixoloji amillərin soyuması baş verir. Yeni gələn müəllim həm ana, həm ata, həm də uşağın yaşadığı cəmiyyətin bütün vəzifələrini öz öhdəsinə götürür. Beləliklə, şəxsiyyətin yüksəlmə və tənzimləyici rabitəsi pozulur, şəxsin daxilində pozulma və zidiyyətlər baş qaldırır. Fərdin içində ikilik sistemi yaranır. Alt kompleks və üst kompleks anlamı yavaş-yavaş canlanmağa başlayır.

Fərd böyüdükcə istər-istəməz təkrar olmayan təzahürdən uzaqlaşmağa başlayr. Psixoligiyası məcbur olaraq təkrarlanan təzazhürü qavrayıb onun içində məhv olur. Məsələn, bir türkün öz ailəsində ləhcə ilə farsca danışması buna nümunədir. Demək olar ki, bu kimlik əldə yox, secimə bağlıdır. Bu da öz-özlüyündə fərddə məntiqin azalmasına səbəb olur, çünki bu cür adam varlığında əsl rol oynayan bir parca ömrünü təkrar olan təzahürə qurban vermiş olur.

Bu pəncərədən baxanda görürük ki, zərurətin həlli məsələsi ehtiyacın yaranma və qarşılanma səbəblərindən ortaya çıxır. Ümumilikdə fərdin tarixi ictimai və mədəni yaddaşı pozulmaya məruz qalır. Deməkolar ki, xarici görüntüsü daxili görünüşünə qələbə calır və insan ana dilini unutduqda o, ancaq fiziki-siyasi və iqtisadi amilin suallarına cavab olaraq özünü yaşada bilir. Məsələn: ölkəmizdə fars dili rəsmi dil olduqda o hər gün təkrar olaraq daxili və xarici təzahürə imkan zamanı qazanır və bu dildə hər gün yeniləşmə və dolğunlaşma baş verir. Yazırlar, yeni-yeni yaradıcılıqlar edilir və bütün gün məsələlərinə dil çavab verir. Ancaq bu məsəl bizim dilimizdə əməli olaraq baş vermir, ona görə ki, bizim ana dilimiz kimlik faktoru kimi heç təkrarlanmır!.

Hər gün öz içimizdə senzura qoyularaq gücləndirilmiş dilin kontrolunda qalmağa məcbur olur və yavaş yavaş lüğət xəzinəsini əldən verməyə başlayırıq. Amma biz hər gün dilimizdə bilgi istehsal edə biliriksə, onda onun quruluşu möhkəmlənir və yaradılış gücü artmağa başlayır. Demək olar ki, ana dili kimliyi müəyyənləşdirən amildir. Onu unutmaq olmaz. Ağlı başında olan, anasını, atasını, vətənini, doğma xalqını sevən hər kəs bilməlidir ki, ana dili onun mənəvi varlığıdır, milli vəsiqəsidir və onu göz bəbəyi kimi qorumalıdır. Əks təqdirdə, o, kim olursa-olsun, öz mənəvi dünyasını itirmiş, bu günü, gələcəyi olmayan, kökündən ayrılan bir miskinə çevrilir. Yazıq onun halına...

# MƏKTUB

Uzun illərdir kimsəyə məktub yazmıram. Lap unudulmuş vərdişə çevrilən bu adət, nədənsə, başımdan çıxmır. "Kimə nə yazım, kiminlə sözləşim?" - deyə tapa bilmirəm. Nəhayət, qıfıl açıldı və yazmağa başladım. Yazdım ki, sizlərə yazmış olam, siz sevimli "Xudafərin" ailəsi! Axı mən də onun bir övladıyam. Ancaq yazdıqca düşünürəm: - Görəsən, mənim yazdığım məktubları varı ilə yoxu arasında qalan soydaşlarımızın yüzdə necəsi oxuya bilir? Hər an iztirab içimi çalxalayır ki, bir əsrdən çoxdur özgələşdirmə çomağı başımızın üstündə, kələfcəsi ayaqlarımızda, qıfılı dodaqlarımızdadı. Bəs görəsən, bu türki oxumağı bu insanlar haradan bilirlər? Ola bilir bir çoxu mənə irad tuta və deyə: - Bax, yorğanından artıq ayağın uzadır. Yaxud bəziləri deyə: - Düz deyir. Bu yazıq dərs, məşq, kitabı, dəftəri, radiosu, siması olmayan haradan yazı-pozu bilir ki? Bəziləri də işi boş ver. Bunun da başı ağqıyır ha! Nə olsun ki, nə dildə yazırsan yaz, nə əlifbada oxuyursan oxu, əslən olsun esperanto kimi. Nə lazımdır ünsiyyət qurulsun? Bu kürəselləşmə vurğunları deyirəm, görəsən, niyə bu qədər humanist olublar ki, əbədi-əzəli tarixini unudub, manqurtlaşıb, ankluskon, yaxud digər adəmxorların, neft içənlərin əl oyununa çevirilibdir? Evdə qırıldadır, küçədə mırıldadır, işdə də quruldadır , Allah bilir, özünü də tutduğu ucu, dibi bilinməz yolda hırıldadır. Bilmirəm nə qədər başa sala bildim, deyə bildim? Amma əgər bunların hamısı çatmırsa, onda bir fəlsəfi düşüncəni sizinlə ortaya qoymaq istəyirəm ki, bu mənanın çözülməsində mənə yardımcı olacaqsız. Atalar "varıq" deyib. Bir varlıqdan bunun qarşısı vardan yox olmaqdır. Görəsən, bu psixoloji, sosial, mədəni və fəlsəfi, hətta maarif və ədəbi anlamı öz içində gəzdirən

varlıq nə qədər var olmalıdır, yoxsa varlığı əldə etmək üçün varından yox edilərsən. Ortaq məxrəc bundan ibarətdir ki, iki kərə iki dörd edər. Ya varsan, ya da yoxsan. Yaxud bu ikisinin arasında asılı olaraq qalmış olsun, görəsən ölünün də varlığından anlayış var? Ola bilir. Çünki bəziləri özlərini yox, ölülərini görür. Ya öz saylarıyla sayılmırlar. Ölülərinin sayı ilə hesab olunarlar. Yox, əfəndim, ölmədən var olmaq hər kəsə lazım olan Tanrının yaradılışı, qanunun ana yasasıdır. Ancaq o varlıq və yoxluğun arasında uzun və ən qısa bir məsafə var. O da düşünməkdir. Düşünürsən ki, varsan, ya düşünürsən ki, göbələksən, yaxud düşünürsən yoxsan! Bu sonuncusuna sözüm yoxdur. Çünki çox zadlar düşünmür? O cümlədən, həşərat, nəbatat vəs. Amma insan düşünür, götür-qoy edir, hətta börkü olsa qabağına qoyur, özü-özünə: - Nə sən? Nə sən? –deyir.

Elədi, arkadaş, qardaş, ağa, xanım, bacı, əmi oğlu, soydaş, dindaş, dildaş ,yoldaş, vətəndaş, əməkdaş və....

# TƏFƏKKÜR VƏ İNANC TARİXİMİZDƏ

Təfəkkür və inanc tarizimizdə bəzi qürurlu nöqtələr vardır və onlardan biri Kərbəla olayları, İmam Hüseynin qanlı inqilabının başlanışı və sonda qanın qılınca qələbəsi ilə nəticələnən bu ruhani və bəşəri dövrümün fəlsəfi düşüncəsidir. Bu inqilabın banisi azadlığın və özgürlüyün yanğısını cism və canında gəzdirən Hüseyndir ki, demişdir: "Dininiz yoxdursa ərən olun".

Biz azərbaycanlılar bu inqilabın və ondan irəli gələn yeni fikir bazasının inkişaf etdiricisi və qoruyucusuyuq. Gəlin məhərrəm ayının hörmətinə və Hüseyn ilə birgə 72 yoldaşının qəhrəmancasına şəhid olmasını ürəkdən duyaraq onların yolunun davamcısı olmağa və özgür, ədalətli yaşam naminə həmişə ürəyimizdə yaşadaq. Ruhları sevincli və yolları gedərli olsun. Aşura şüurumuzun, biliyimizin yüksələn, törədən və yaşadan hüceyrəsidir. Çağdaş yaşımızda ən dəyərli və özgürsəl dəyişikliklərdən birinin bünövrəsinin 29 bəhməndə Təbrizdə qoyulan və sonra zillətə uğradan 22 Bəhmən inqilabı ulusumuzun zülmə, irticaya, şahlığa və zorakılığa qarşı ən qutsal toplumsal yürüşdür. Uğurlu olsun. "Xudafərin"çi hər bir vicdanlı şəxsi qeydsiz-şərtsiz ona əməl etməlidir. Artıq "Xudafərin" kəlməsi öz qüdrətini hər bir düşüncə sahibinin təfəkküründə canlandırmaqdadır. Oyaq vicdanların ifadə vəziyyəti olan bu dərgi hər fərdin daxili amalının sönməz nurunun qaranlığa zəfəridir. "Xudafərin" yaxınlaşma üçündür. Düzdür, uzaqlaşmaq üşün çox uzun vaxt sərf etmişik. Ancaq ümiddə səadət var. Səadət də daxili inam qüvvəsi elimizin, obamızın olub. Bu dərgi varlığımızda yeni doğulmuş bir haqq pərvanəsidir. Fikrimiz inqilabi dəyişiklikdir, təzələşmədir, güclənməkdir. "Xudafərin" dərgisi haqq-

hesabdır. Onun faktorunu tarix və gələcək qiymətləndirəcək.

21-ci əsrin bütün səmərəli və müsbət nəticələrinə baxmayaraq bizim, biz türklərin qaməti hələ də iridir. Dili gödək, özü kədər və canı kefsizdir. "Xudafərin" maarif və uyqarımızın dalğalanan bayrağı tək bu əsrdə hər yönlü bir birimizlə əl-ələ verməyi, düz qamətli olmağı addım-addım içimizdə, ruhumuzda və ictimaimizdə yönləndirməyə can atır. Amma bütün bunlar sürətli hal almaq üçün hər kəsin nəyə qadir olduğunu nümayişə qoymasından doğacaq və canlanacaq.

Şərtsiz hər birimizin özünə xas dərd-səri, işi və gücü, ancaq hamımızın birgə amalımız var. Varlığımız, gələcəyimiz, dilimiz, ədəbiyyatımız, kültürümüz, ən başlıcası vəhdətimizdir. O vəhdət ki, hamımızı vücudu birliyə səsləyir. Bu vəhdət içərisində böyüklük, zəfər, enilməzlik qəhrəmanlıq və insanlıq vardır.

"Xudafərin" dərgisi gənc nəslimizin düşüncə bazarıdır. Nə qədər ki, çantanızda düşüncə, mal və monaliz var, burada sərgiləyə bilərsiz.

Yaradıcılıq məkanı olan "Xudafərin" aydınlarımızın öyüd minarəsidir. Təcrübəli insanlarımızın baxış pəncərəsi və sərvətli insanlarımızın imtahan dəftəridir. Bu dərgi hərəkətdir. Duraxlıqdan ucalığa yürüşdür.

Marafon yürüşü, mənşəyi güc, ifadəsi bilim və elmdir. "Xudafərin" ürəkdən ürəyə, eldən elə, vicdandan vicdana uzanan məhəbbət, dostluq, ali oyanış səsi və arzuların amac nöqtəsidir.

Bütünlükdə "Xudafərin" aylıq dərgisi sosial-mədəni hərəkatın yeni nəqliyyat vasitəsidir. Bir arac bilim, texnoliji və sözün nəticəsidir ki, reallaşma, millíləşmə onun əsası, təhsil və təhlil nöqtəsidir.

Yeri gəlmişkən, lazım bilirəm bütün hər kəsdən təşəkkür edəm ona görə ki, "Xudafərin"in beşinci sayıdır ki, sarsılmadan sizin yardımınız ilə çıxmaqdadır və inşallah çıxacaqdır.

Təhqiqatçılardan yeni-yeni yazılar, şairlərdən yeni-yeni şeirlər, tənqidçilərdən intiqad və bölgələrdən maraqlı xəbərlər və müşküllərinə aid mətləblər, işgüzar insanlarımızdan təbliğat gözləyirik. Biz gözləyirik, çünki sizə arxayınıq və əminik ki, elə bağlı olan hər zaman ucalar. Çünki o öz baxışını pisdən seçir, qəzavət edir və qoruyub mühafizə edir. Allah qoysa sonsuza qədər birgəyik, birik!

# NOVRUZ BAYRAMI HAQQINDA TÜRKLƏRDƏ BƏZİ RƏVAYƏTLƏR

Hamıya məlumdur ki, Novruz çox əski türk bayramıdır. Və bunun türkcə də adı "ərgənə gün", yaxud yeni gündür. Daha sonralar türklərin digər uluslarla əlaqələrinin sıxlaşdığı zaman bu Novruz törəni o uluslara da keçmiş olur və hər bir xalqın düçüncə və yaşam tərzinə uyğun olaraq qəbul edilməyə başlanır. Bəzən bu ayin dini, bəzən də milli xarakter alır və bəzi hallardda da dəyişik adlarla istifadə olunur. Novruzun, yaxud yeni günün hansı bir şərtlər altındakı ulus tərəfindən özəl olaraq istifadə edildiyi qəti olar deyilməz. çünki bu tarixdən gələn bir olayı hər kəs öz imkanı dairəsində cözməyə başlamışdır. Hər halda Novruz yaşam tərənnümü, ruhu oxşar bir sevinc mənbəyidir. Bu tükənməz sevinc və fərəh mənbəyini hər kim necə istərsə, o cür istifadə edə bilər. Ancaq unutmaq olmaz ki, bu bir uyqarsal mədəni gələnəkdir və onun yəqin ki, əsl yaradanları onun əsl ideyacısıdırlar.

Bütün uyqarsal dəyərlər zaman çərçivəsində və bəlli sürə içərisində dəyişikliyə məruz qalmışlar və hər bir yeni mədəniyyətlərin gəlişi də onla bölüşüb, oluşub. Elə buna görə Ərgənə, yaxud Novruz bayramı da ulusumuzun hər bir yeni inamı və yaxud həyat tərzini qavradığında onun rəngini özünə üz örtüyü etmişdir. Bunlardan bir necəsini sizlərə xatırlamağa cəhd edəcəyik.

Türkiyədə, özəl olaraq Bəktaşilərdə Novruz zövq və səfa gündür və onların inancına görə bu bayram bu olaylardan dolayı yaranmışdır:

- Həzrət Əlinin doğum günüdür;
- Həzrət Əli və Fatma Zəhranın evləndiyi gündür;

- Həzrət Məhəmmədin Peyğəmbərliyə məbus olduğu gündür;
- Qədim ənənlərə və türk törənlərinə görə baharın gəlişini göstərən bayramdır;
- Günəşin balıq bürcündən qoç bürcünə girdiyi gündür;
- Qış fəslinin sona çatıb baharın başlamasıyla birlikdə türklərin qışlaqlardan yaylaqlara girdiyi gündür;
- Həzrət Əlinin xilaftə çıxdığı gündür;
- Rəvayətə görə Həzrət Əlinin Novruz adlı bir xidmətkarı var imiş. Əlinin xilaftə oturduğu zaman o birinci şəxs olur ki, Həzrət Əlinin ziyarətinə gəlir. Bu iş üçün bütün sərvətini satır, bir yumurta alır və onu saman suyu ilə boyayıb Həzrət Əliyə hədiyyə gətirir. Onun bu saf niyyəti Əlidə xoş təsürat yaradır və deyir: " Bu günü sənin adına Novruz bayramı elan edirəm".

Digər inanclara görə Novruz bayramı daha əski və mifik inanclara dayalı olaraq xalq arasında öz mövqeyini qoruya bilmişdir.

1. Yunus peyğəmbərin balığın qarnından çıxardığı gündür;
2. Nuhun gəmisinin qayaya oturduğu gündür;
3. Türklərin Ərgənə gündən çıxartdıqları beş min ildən bəri doğu dünyasında bilinir. Orta Asiyadan bu tərəfə uzanıb gələn türklük bayramıdır;
4. Əski şərq millətlərinin qəbul etdiyi il başı günüdür;
5. Türk xaqanı Xürəzmşah Məlik şahın icad etdiyi bayramdır.

Azərbaycan xalqı arasında su ilə bağlı "Suyun nəsihəti" adlı bir əfsanə vardır ki, suyun nə qədər önəmliliyini və qutsallığını göstərir.

Su çərşənbəsilə bağlı bütün inanclara baxıldığında, bu inancların çox əski dövranlara qayıtdığını görmək olar. Bütün canlılara həyat verən və türk mifolojik əfsanələrində qeyd olunduğu kimi, hər şeydən öncə dünyanın su olduğu

bir halda bu düşüncələri qanıtlamaqdadır. Suyun önəmliliyi səbəb olubdur ki, xalq falklorunda su ilə bağlı çoxlu bayatı, mahnı,bab sözü və deyimlər yaranmışdır.

İlin axır çərşənbələrinin ikincisi od çərşənbəsidir. Bu çərşənbə üskü çərşənbə, üskü gecəsi, ikinci çərşənbə, doğru çərşənbə, muştuluqçu çərşənbə, odlu çərşənbə də deyilir.

Azərbaycan xalqı üçün od çox müqəddəs və kutsal varlıq sayılmaqdadır. Zərdüşt görüşlərindən çox öncə tarixlərə dayanan bu inanış türk dilli olan Azərbaycan torpaqlarından başlamış xalqaran qalan əşya və nəqş elədikləri qədimi çağlara aid rəsmlərdən görmək və düşünmək olar. Od çərşənbəsinin adət və ənənəlrində baxıldığında, əski türklərdə özəl olan görüşləri aydınca görmək olar.

Od çərşənbəsində insanlar səhər tezdən uca bir təpə üstünə gedib tonqal qalayıb od ətrafında dairə şəklində düzülüb günəşin doğuşuna baxarlar. Günəşin doğuşun salamladıqdan sonra hər kəs yanan oddan bir məşəl götürüb evlərinə gedir.

İlin son üçüncü həftəsi olan yel çərşənbəsinin başqa adı külək oyadan çərşənbədir. İnanclara görə, bu çərşənbədə yatan hava və yel torpağı gəzib, oyanmış suyu və torpağı hərəkətə gətirir. Azərbaycan türklərinin inanclarında dörd cür yel vardır ki, onlar da bu həftə içərisində oynarlar. Bu yellərin adları ağ yel, qara yel, xəzri yel, qırmızı yeldir ki, yel çərşənbəsində bir araya gələrlər.

Yel Azərbaycan mifik inanclarında yol göstərən bələdçi bir qoca kişini təmsil etməkdədir ki, ona xalq işərisində "yel baba" da deyilir. Yel baba meşələrdə və ormanlarda itənlərin qarşısına çıxır, onlara bir yumaq verib yerdə dığırlayır və yumaqla itənlərə yol göstərir. Yel babanın təsəvvürü sonralar "Qarı nənə" və "Göy qurşağı" nağılına keçmişdir. Azərbaycanlıların ən əski təsəvvürlərinə görə yel

baba xırmana gəlməmişdən qabaq oradan buğda və dən götürmək olmaz. Buğda sovuran, zaman inanca görə qarğış eləməzlər, çünki yel baba sovuranın dalında olar.!

Yel çərşənbəsi girən gün xalq söyüd ağacının altına gedib orada niyyət edər.

İlin ən son, önəmli çərşənbəsi torpaq çərşənbəsidir. Torpaq çərşənbə, axır çərşənbə, çərşənbə suri, külə çərşənbə çərşənbə adları ilə də bilinməkdədir.

İnanclara görə dörd ünsür bu həftədə güclənib bir araya gəldikləri üçün, bu çərşənbə üç çərşənbədən çox təntənəli və şadlıqlarla dolu keçirilməlidir. İli şadlıq və şənliklərlə yola salmaq və yeni ili qarşılamaq üçün bu çərşənbə ənənələri xalq arasında çox yayılıb. Bu günün mrasimləri çərşənbə axşamı gününün əvvəlindən ta gecənin son saatlarına qədər sürər.

Axır çərşənbədə təzə gəlin evinə oğlan tərəfindən xonça göndərilir ki, buna da çərşənbəlik deyilir. Bu xoncada becərdilmiş bayram göyü, bir neçə qırmızı bayram balığı, çərşənbə yemişi, gəlin qıza qızıl üzük və paltar, çarşablıq, o evin sair adamlarına əllərindən gəldiyi qədər pay qoyarlar. Bu xoncanın özü çərşənbə günü oğlan tərəfindən qız evinə göndərilir. Bu xoncalara ayna, daraq, üzərlik, sürmə də qoyarlar.

# HƏR SƏBRİN ARXASINDA KİN QÖNÇƏSİ VAR

Mövlanəyə görə eşqsiz yaşamaq ömürü boşa sovurmaq deməkdir. O eşqin nə qədər çeşidli, rəngarəng, bər-bəzəkli olduğu halda, dərhal insanın mənəvi və daxili inkişafına səbəb olacağını və toplumun daha da gözəlləşməsinə gətirib çıxaracağından xəbər verir.

*Hər kə ra camə zə eşqi çag şəd,*
*O zə eyb nəqsi kəl pak şəd.*

Mövlana həzrətləri eşq tarının tanımasını ütərlab kimi xatırladır. Eşqin insanların davranışlarında necə təsir göstərməsindən söhbət açaraq onun nə qədər gərəkli və olumlu olduğunu deyir. O psixoloji baxımdan da eşqi yaradıcı, sevdirici və islahedici hesab edir. Insanların öz-özlərini dərd və ağrılardan qurtarmasından nə qədər təsirli olduğunu vurğulayır. Eşq bəsirətdir, eşq yaradılışın mənasıdır. Bütün insanlıq düşüncəsində olduğu kimi, bizim insanların da mənəvi aləmində eşq yaradılışın özlüyüdür. Onsuz heç nə yaranmır. Hər bir hadisənin qınağa uğraması bir daha eşqin əbədi olduğunu göstərir. Tanrının bütün canlıları yaratmaqdan məqsədi eşqi bizlərə aşılamaq olmuşdur. Eşq toplumu, eşq və sevgi dolu insanlıq aləmi bizdən müqəddəsliyə, paklığa və yüksəkliyə doğru uzanan, heç qırılmayan bağlar teli yaradır. Necə ki, Qurani Kərimdə deyilir: "Əna əqrəb mən həbəl olurid". Mən sizə boynuzun damarından da yaxınam, yəni burada da bir eşq ülkəri yanmaqdadır. O da varlığa ümid və inam, həm də dəvam verən Tanrıya və Tanrının sevgilisi olan insana barış və

sevgi gözləri ilə baxıb, açıq ürəklə yanaşmaq lazımdır. Bizim türk toplumu həqiqətən barışcıl, qeyüqaldan uzaq, əməksevər və sayqı göstərəndir. Çünki bizim toplumu anaları Tanrı sevgisiylə bəsləmişlər, eşq ilə yoğrulmuşlar. Tarix boyu eşq və sevgini özünə bayraq edən türk indi də hər zaman olduğu kimi sağlam, barışcıl toplumun oluşmasında öz varlığından sərmayə qoyur.

***Gər eşq nəbud səxən eşq nəbud,***
***Çəndin səxən nəfs ke goft ke şənidi.***

Bizə qarşı tərəf əgər bu eşqdən bir damla dadmış olsaydı, öz analarına, öz varlıqlarına sayqı ilə yanaşsaydı, onda bilərdi mən hansı eşqdən söhbət açıram.

Bizi məbuda çatdıran, ulaşdıran, yüksəldən həmən eşqdir. Bizi sıxıb varlığımıza nankorcasına baxanlar eşq toplumunun əleyhinədirlər. Vallah bizlər eşq toplumu vurğunuyuq:

***Dər tamam əmr əgər ruz eşq budeyi,***
***Əz xəst zendegani ruz həşr asudeyi.***

Onlar ki bizlərə təhqir, hədə və qorxular gəlirlər, istərdim eləcə Mövlananın qeyd olunan misrasını oxusunlar. Əgər bu yola qəflət ediblər, bundan sonra daha qəflət etməsinlər. Eşqin bir ucu Tanrıda, bir ucu ürəklərimizdədir. Bizlər sağlam toplum naminə eşq cəsinə hər zaman ölkmizdəs evgi göstərmişik. Canımız, malımız və qanımız, günü-gündən qulaq ardı edilən dilimiz və mədəni varlığımızla gəlin mədəni-mənəvi böyüklərimizin sevgi kəlamlarında ölkənin qardaşlıq, sevgi və eşq mənzərəsini tablo kimi gözlər önünə sərək:

***Əgər əz del həsər şayəd kər,***
***Mehrbanit ra şomari nist.***

Doğrudan niyə bir-birinin arasında hasarlar çəkirik?

***Ey gəşte mən əz ğəm fəravan to pəst,***
***Şayəd qamət mən zədrəd hicran to şəst.***
***Ey şəste mən əz qəribo dəstan to dəst,***
***Xod hiç kəs bəsirət və san to həst?***

Şairin dediyi kimi, bizlərə sizlərin dərd-kədərdən əyilmiş, bükülmüş qamətiniz ərməğandır. Niyə bu sayaq gərək olsun? Nə vaxt gözlərimizi açaçağıq? Gəncliyə qiymət verib, onu öyəçəyiq, onun sevgisinə də yer verəçəyik ki, yuxarıdakı şeirlərin məsdəqi olmamış olaq.

***Əz qəmzə to xəstə şod azərdə del mən,***
***Və həkm qəzayəst cərahət bə cərahət.***

Qərb dünyasının rəhngarəng, aldadıcı həyat tərzi, göz qamaşdıran mədəniyyət təmtəraqlı ruhumuzu aldatmaqdadır. Qardaş qardaşa yaman olanda, qardaş qardaşı sevməyəndə qonşunun qucağı isti gəlir. Qafil olma ki:

***Ma ra cegər tir fəraq to xəstə gəşt,***
***Ey səbr fəraq bətan nik cuşni.***

Aldatmadan, qorxutmadan, sevə-sevə sevgini gəncliyin ürəyinə aşılamaq lazımdır.

Heç düşünmüsüz ki, isfahanlı təbrizliyə nə qədər qəribdir? Artıq bəluclu urmiyəlini tanımır. Xorasanlıdan, zəncanlıdan belə xəbəri yoxdur. Niyə belədir, bu kimin xeyrinədir ? Bu nəyin nəticəsidir?

Fikirləşmişik ki, qərb səhvinizmi? Məgər bizi bir birimizdən uzaqlaşdırmaq üçün nə qədər çalışıblar ki, içimizdə olan eşqi söndürə bilmişlər? Amma biz sevgi toplumu yaradaraq onlara Əbu Tahir Xosroni dili ilə belə cavab verək:

***Nəhəng əst hicran və dəryasət eşq,***
***Bədr ya bud cavdanə nəhəng.***

Yəqin qardaşlıq, bərabərlik topluda belə olur və belə olanda düşmənin zəhərli oxunun əsəri aradan gedir. Səbirli toplumda, dözümlü camidə həmişə yaradıcı, ürətici və nikbinlik hökm sürür. Bizlər, biz türklər vətəni, eli, dostluğu, qardaşlığı belə sevirik, ona görə də sadə və qanı istiyik. İllərdir sizilərə qışqıra-qışqıra, qulağınıza fısıldaya-fısıldaya öz şücaət və şəhamətlərilə lal olmuş dilimizlə deyirik:

***Rəbud eşq əz mən qərar və taqət və huşəm,***
***Çərnəmi şənuyi həmə fəğan o xəruşəm.***

Ya da:

***ənan səbr mənuçəhri ər zədəst bərun şəd***
***zə çeşm qeyr mən in rəz ər həmişə puşəm***

Mən şeirləri zəngin fars ədəbiyyatından seçmişəm. Ona görə ki, ölkəmizin belə zəngin mənəvi mədəni varlığı olduğu halda bəs biz niyə səbirlə toplumun sevgi topluma şevrilməsində yenə də hazırlıq göstərmirik? Mən ədəbiyyatın lirik və sufiyanə həm də aşiqanə dili ilə mövzunu aşmağa çalışdım. Çünki rəhmətlik Yusif Xəlil oğlunun dediyi kimi "Hər bir səbrin arxasında kin qönçəsi yatır".

# SEVGİ

Sevgilər dünyada çeşidli yönlərdə ola bilir, ancaq insan özünü dərk etdigindən sonra onun ruhunda fikir və düşüncəsində artıq üç sevgi hər sevgidən üstün olur: Vətən, ulus, dil.

Vətən ona görə ki, cism və canımız onun torpağından, onun təbiətindən və digər doğal varlığından yoğrulub və ona görə ona bağlıdır. Atalar demişkən: - Vətən uğrunda yalnız ölərkən ona borcunu ödəyə bilərsən.

Ulus ona görə ki, el birliyi insanı digər düşmənlərdən qoruyur. Bağlılıq var. Təbii heyvərənin törənişi də eyni davranışa, adət və rəsmlərə malikdir. El ilə ucalan el ilə yüksələr. Elə bağlı olan heç vaxt yıxılmaz. Unudulmaz atalar demişkən: - El özü yaxşısını pisdən seçə bilir. El, ulus anlayışı insanda öz soy kökünə məhəbbəti, bir millət olaraq özünü dərk səviyyəsində inkişaf etdirir. Yeni nəsillər el olaraq gözünü el arzusu ilə açmalıdır. Bir sözlə, millilik bəşəriliyin qapısıdır. Millilik, elçilik, ulus sevərlik humanizmin ötə yoludur. Atalar boş yerdə deməmiş: - Xalqını düşün, çünki xalqsız vətəndə yaşamq qaramal kimi yaşayıb vətən oğlu adı daşımaq deməkdir.

El birliyi bulaq suyunun hekayəsi kimi bir zaddır. Necə ki, bərk daşlara bulaq suyunun qabağını almaq olmaz,elə o şəkildə də el düşüncəsinin, el təfəkkürünün qarşısını kəskin silahlarla, hədə-qorxu ilə almaq mümkün deyil.

El birliyi eyni halda dil birli yaradır və onun təməli hesab olunur.

Dil deyilən maarifçilik hərəkatıdır. Üç böyük sevgidən biri olan dil həqiqətləri öyrənmə, yayma, duyma, düşünmə, aşılama vasitəsidir. Hər bir namuslu vətəndaş dilə ona görə

də yer verir ki, dil mədəni millilə şmə şüuru, birləşmə və əqli gəlişmə mexanizminin ana faktorudur.

Bu gün ört-basdır edilən varlığımız, satqın şəxslər vasitəsi ilə hərraca qoyulan kimliyimiz "Sən yaşa el batsın", - təfəkkürlü ruhsuz, mənəviyyatsız şəxslər tərəfindən mədəniyyət çomağına çevrilib və aldadılmaqdadır. Bu gün sağı da, solu da qənim kəsilib və demək olar ki, Azərbaycan xalqı qul psixoloji məfkurəçiliyin qurbanı olmaqdadır. Ona görə ki, bizim dilimiz, sevimli türkcəmiz, sözün qüdrəti əimizdən alınmışdı. Dili diri saxlamaq millətçiliyin təməli, hər bir ulusun ən ləyaqətli ədalətlərinə məhəbbət ifadəsinin etimadının özülüdür.

Dilimiz, dinimiz, vətənimiz, ulusumuz sevgisi naminə, Azərbaycanın varlığı və dədə-baba dəyərlərinin mühafizəsi üçün seçkilərdə kimi seçəcəyimizə, təkliflərlə münasibət bildirməliyik. Baş barmağını alnına qoy, dərindən fikirləş. Gör kimsən, mən də fikirləşirəm....

# KİMLİK GÖSTƏRİCİLƏRİ

Yaşarkən ölmüş insanın ölməmiş davranışları bəzən qəbirdən xortdayanlardan da acınacaqlı və qorxuludur. Biri yüz il, biri bir gün, yaxud bir neçə gün ya il yaşayır. Təəssüf ki, ömür keçən günlərin hesabı ilə sayılır. Fiziki həyatın artıq danılmaz faktıdır ki, hər kəsin kimlik kartı və müxtəlif bildirgəsi vardır. Ancaq bəzilərinin həyatı onların və fiziksəl görüntüləri ilə ölçülmür. Onlar bir ömür yox, bir tarix yaşayırlar. Hamıya məlumdur ki, yer kürəsi və bütün yaşantı, bütün doğallığ Tanrının "ol" deməsi ilə olmuş və yaranmışdır. Onun güvəncəsi altında davam edir və o istəmiş ki, yaradılış çeşidli olsun və gözəllin özündə yansadsın. Elə maraqlısı da budur. O, "ol" demiş və "ol" dedikləri indi, o olmaq istəyənlərə olma deyirlər. Onda bir varlıq ölür və olmur. Yəni Tanrının izninə qarşı, "ol"a qarşı oldurmaq bir çoxluq fəzasının görümsəl anlamın daxili mənbəyi sanılır, ruhdan, fizikdən ən önəmlisi fikirdə, düşüncədə yox olur. Burada varından, yoxundan olan bir qərib insan yaranır, var ikən yox olur. Bu ki, o yox ikən var imiş və hazırda varlığı danılmazdır. Burada bir insan varlığı fizik, ruh, düşüncə və inamla birgə siyasət və mədəniyyət savaşları alanında səssiz və səmirsiz gömülür. Günü gündən qəbirlərin sayı dirilərin sayından çox olur. Qəbir daşı da qəribə hadisədir. O da o yanın varlığın göstərmir. Elə bil daş, su, hava və hər şey bir canlının var ikən ölüb olmamasına şərait yaradır. O heç diri olduğunda belə talesiz idi, onun alın yazısı qara idi. Belə varlığının nə amala yiyəlik etdiyi ona biganə idi. Simgəsiz, bayraqsız, vətənsiz, dilsiz. O qədər bu sözlərdən yazmaq olar ki, bu adamın əhvalatına, çünki bunların heç biri anlam daxili məna daşımırdı o yazıq üçün...

Sadəcə törəmiş ot, göbələk kimi boy atmış, təki-cütü anlamadan, sağ solunu çəp-rəst bilən, özündən başqa hamını puluna görə tanıyan, uzaqdan idarə olunan robotlar kimi yaşarmış, canlı varlıq cansız hekayəyə malikdir. Ötüb keçənlər onu ilgiləndirmir, olub bitənlər onu düşündürmür, olacaq onun maraq dairəsində deyil. Həyatı qəbiri qədər darış olan dirilər, hər gün evinin pəncərəsindən əsir həyatı yaşarmış kimi elə bil zindandan qaranlığa baxan pəncərələrindən boylanır, ha boylanır, öz gövdəsindən başqa bir şey görmür ki, görmür. Ölü imiş ya diri. Anlamaz şəxsiyyət mərəz də deyil, yox mərəzdən ötmüş şəxsdir. Bu mərəz sınır dışı edilmiş illər boyu əsarət və oturaq həyat yaşamış varlıqdır. And-aman, çox gümanı var tarix bilməz, qarğış və qarqımamış kimi məfhumları yaxşı başa düşər. Hətta ona gündə bir ad qoyarlar, nə bilim nang, mank, azəri, aryayi, sami və s...inandıqlarına gözü yumulu qul, inanmadıqlarına indacasına cahil. Nə deyim, həyatı qəribədir bu zavallının!

Diri ikən, var ikən yox olan bu soydaşımız indi başlayıb əzrailin dilini öyrənir. Axı, bir ayağı o tərəfdədir. Görəsən, bir ayağı bu tərəfdə olanda ana-atasının dilini niyə öyrənmədi, ta ki onların ürəyinin xoş eləsin. Görəsən, sənsiz də mənim bu soydaşımı görmürsüz? Əminəm çox görmürsüz. Elə öz içimiz, yəni öz fərdi içimiz, ailə daxili və əqraba daxilində, nə bilim var ikən yox olan adamın adını siz nə qoyursunuz qoyun, poz verir, biclik eləyir, yoxsa ruhən satılmış, cib üçün al-ver olmuşdur. Hər şey ola bilər, təki siz çalışın diri ikən ölü həyatın yaşamayın. Onda sizə də nəsə.... deyərlər.

# RƏFTAR VƏ ONUN PSİXOLOGİYASI

Dəyərli oxucu, azca səmimi söhbət edək. Deməyəcəksən ki, biz necə səmimi söhbət edə bilərik, çünki siz məni tanımırsız, mən də sizlərlə görüşməmişəm. Onda bəs görəsən bizim aramızda necə söhbət ola bilər? Sizinlə razıyam. Onda gəlin ruhən, daxilən və xəyalən bir birimizlə söhbət edək, sual verək, cavab alaq. Mən sizdən soruşuram: - Yaxınını, qohumunu, dostunu, qardaşını, lap ev əhalisini yaxşı tanıyırsanmı? Məlumdur ki, tanıyıram, deyəcəksən. Necə yəni tanımıram, əlbəttə ki, tanıyıram. Amma mən deyirəm heç də belə deyil. Adamın elə yaxınları, dostları olur ki, min illərdir bir yerdə olmuş olsan belə onu tanımırsan. Çünki bəzən ondan elə rəftar, elə davranış baş verir ki, o sənə qəribə gəlir, təəccüblənirsən, hətta şaşırıb qalırssan ki, belə raftar belə bir insanddan necə baş verə bilər? Görünür, sən oxucu soydaşım, belə hallarla çox rastlaşmışsan. Onda lap yaxşı tanıdığın adamlar tanınmaz olurlar, bəlkə də bu, adi həyat axarıdır. Ya da qeyri-adi olan həyatın pəncərəsindən görünən əməllərdir. Ancaq gəlin etiraf edək ki, çoxdandı tanıdıqlarımız yenə tanınmaz hal aldılar. Bizim ilkin düşüncələrimizi yenə sovinisti top atəşinə tutdular. Yenə payız gəlir və məktəblərin qapısı illərdir tanıdıqlarımızla verilən sözlərin vəd olaraq həyata keçməsi kimi yenə də ana dilli təhsil imkanı biz lal olmuş azərbaycanlılara yaranmadı. Lal demişkən bir şey yadıma düşdü: Lap doğrusu, əzəldən biz türklər dünyaya lal gəlmişdik. Nə yaxşı olardı, onda türk - mürk məsələsi olmazdı. Dilin yoxdur, özündə yoxsan?! Görünür, biz hələ qarşıdakını kifayət qədər tanıya bilməmişik. Yaxud özümüzü hələ yaxşı tanımamışıq. Bəzən də adam özünü tanıya bilmir. Görəsən adamın özü öz əlindən çıxır, adi bir məsələni həll etməkdən aciz qalır. Su "ab" olur, ata "baba". Bunların hamısı mehr ayı gələndə baş verir. Xüsusən bir neçə ibtidai şagird üçün daha anlaşılmaz olur. O öz ata, anasının birdən birə dilini dəyişməsinə şaşırıb qalır, ata-ana da özünü itirir. Uşaq da bu

vəziyyətdən çaş-baş qalır. Oradan özünə təhqir hissi uşağın içində yaranmağa başlayır. Ziddiyyətli ruhi məqam ortaya çıxır. İllər boyunca davam edir ta ki, bizlər bir birimizi tanıdığımız halda tanımamış oluruq. Gəlin etiraf edək ki burada məsələ bir az qəlizləşir. Yəni nə olsun ki, doğrudan da bu dərginin sorumlu müdiri öz başını itirib ha! Deyir mən qonşumu tanımıram. Öz aramızda belə anlar çox olur. Bu vəziyyət həm fərdi əqli zavala, şəxsiyyətcə boşluğa, qabiliyyətcə pucluğa aparıb çıxaxrır. Ona görə sazmani- milli (BMT) demişkən: - Hər kəsin ki, ana dilində savadı yoxdur, həqiqətən, o, savadsızdır. Mehrdə insan ona aşılanan qanı ilə yoğrulan, canı ilə qavranılan ata anasının dilində düşünmənin kifayət etmədiyini yeni dərk edir. Ruhi həyəcanı yaranır. Əbədi sarsılmaz bağlılıq telləri onunla mədəniyyəti və varlığı arasında yarmağa başlayır. Lakin təəssüf ki, bizlər də hələ özümüzə natanışıq. Nədənsə, kimdənsə möcüzə gözləyirik. Belə ictimai müşküllərin ortaya çıxmasının səbəblərin görə bilmirik. Çünki özümüz və başımıza gələnlər haqqında bələdliyimiz hələ çox azdır. Fərd təlim və tərbiyə baxımından olduğundan fərqli olaraq xüsusi bir məcraya salınır, türk insanının, bizim uşaqlarımızın qabiliyyətləri düzgün istiqamətləndirilmir. Heç birisi böyük sosial məsuliyyət üçün hazırlanmır. Psixoloji fəhm yavaş-yavaş özünü itirməyə başlayır. Insanda fəhm deyilən şey kortəbii şəraitdə yaranmır. Çağdaş həyat tərzində qavramaq, dərk etmək və fəhm bilməməliyik ki, əsas insan xüsusiyyətlərindən sayılır. Demək istəyirəm ki, etnik psixologiyamıza yiyələnməyimiz gərək ciddi hal hesab edilsin. Buna görə də ana dilli təhsil vacib hal hesab edilir, bu gün zaman və şərait ciddi surətdə yenilənmişdir, dəyişilmişdir. İndi hər kəsin yaşam tərzinin praktik, psikolojik şərait ehtiyacı daxilində analiz olunması başlamışdır. İndi çox dilliyin həyata keçməsinə hər kəs əhəmiyyət verməlidir.

# TÜRK SÖZÜ, TÜRK ADI, TÜRK VARLIĞI

Ucsuz-bucaqsız çöl, geniş yer kürəsi və orada bir ulus şərqdən qərbə hərəkət edir. O, bütün zirvələrin zirvəsinə yüksəlmiş, fırlanan çərxi-fələk onun döyüşən səhnələrini, elmi kəşflərini, insani keyfiyyətlərini sübut edir. Görkəmli oğulları tarix yaradır, kitabələr yazıb yaddaşları bu günə buraxmış olur.

Hamıya bəllidir ki, bəşər tarixi, dünyanın kəşfi həm də intibah ilə şərtlənir. Dünyamızda etnik kökən, dil mədəniyyəti, bəşəriyyətin, insanlığın yarandığı tarixə gedir çıxır. Türklər Sakit okean sahillərindən Atlantik okeanına qədər geniş bir ərazidə saysız-hesabsız maddi və mədəni dəyərlər yaratmış, dünyanın beş qitəsində türk adını, soyunu əbədi yaşatmış olmuşdur.

Düzdür, bəşəriyyət qədim türklərin cahanşümül tarixini qəbul edir. Ancaq bu tarix mükəmməl şəkildə yazılmayıb. Qaynaqşünaslıq, onomastik, anatomik, toponimik, çətinliklərlə yanaşı, bu yaxınlarda çox sayda süni maneilər də meydana çıxmışdır. Kəskin desək, bu gün də türk sözü, türk adı, türk varlığı Avropanı heyrətə gətirməkdədir.

Onun taktikası, elmi metodikası bu gün də dünyanın aparıcı ölkələri tərəfindən mənimsəlinir, öyrənilir və istifadə olunur. Çox uzaq keçmişlərə dalmadan, atalarımızın əldə etdikləri uğurlar həmişə bizi sərməst eyləmişdir. Ancaq biz onların törənləri olaraq ulularımızın düşüncə və bacarığını sevinə-sevinə gətirib günümüzə çatdıra bilərmişik. Çoşqun ruha, çevik ağıla malik olan türk balalarımız daima hərəkət etməyi, yeni-yeni torpaqlar, yeniliklər gətirməyi özlərinin yaşam kuralına çevirmişdilər.

7 mehr 1384 cü il. "Xudafərin" dərgisi bir türk ruhunun və onun sağlam əməlinin təməli kimi bir il uğurlu və onurlu

yaşam sürəcini geridə buraxdı. Yabanı fikirlərə də məruz qaldı, dost öyüdünə də rastlaşdı. Özündən olanları sevdi və özgələri dostlaşdırmağa çaba göstərdi.

Uzun-uzadı yazı tarixi, yazı təcrübəsi olan xalqımız öz varlığını araşdırmaq, cəmiyyətə aşılamaq və nəhayət yaşatmaq üçün "Xudafərin" dərgisində bir daha start götürdü. "Xudafərin" qədimlərimizi yenilərimizə çalaşdıraraq çağdaş türkün görüntüsünü nümayiş etdirməyə çalışdı.

Mədəniyyətimizin yazıya alınması, onun inkişafı və uyqulanması sübut edibdir ki, biz hər şeyə qadir xalqıq.

Sinələrimiz qələm - dəftər olan kimi, bu gün də dünyanın maarif və mədəniyyətinə, texnologiyasına yiyələnmək bizi ən iri addımlarla dünyanın ən gəlişmiş insanına çevirərək bir daha ağıl, güc və intellektual bacarığımızı sərgiləmiş oldu.

Bilməyimiz lazımdır ki, qədim türklər sevə-sevə yaratdıqlarını ruhən də olsa bizə ötürmüş olmuşlar. Ona görə də, qanımızda coşqunluğ, vücudumuzda enerci, fiziksəl sağlamlıq bizə hər şey etməyə imkan yaradır. Dünən Hindistanın içərilərindən Avropanın ürəyinə kimi güc və bilim sərgiləmiş olan soydaşlarımızın ötkəmliyi bizlərdə vardır.

Təsadüfi deyil ki, dünyanın ekranında yenilənmiş türk zəngin biliyə dərin fəlsəfəyə, məzmunlu uyğara, güclü dövlətçiliyə malikdir.

Bütün bunlara dayalı bir il çətin yaşamanı "Xudafərin" dərgisi sizlərlə olaraq geridə buraxdı və tarixin qəzavat obyektinə çevirdi. İlk yazını icad edən türk bu gün də "Orxon-Yeniseyi " gələnəyini yaşatmış oldu.

Bütün özünü dərk içəriliyi ilə daxili mənliyi bəzəmiş gül üzlü soydaşlarımızın "Xudafərin" dərgisinin bir illik turninə qatılımı və ortaqlığı mənim üçün şəxsən vicdan hesabatı xarakterli bir məna, daxili anlam proyekti oldu. Əlbəttə,

qeyd etməliyəm, bir daha sübut olsun ki, Azərbaycan türkləri hələ də yüz il qadağalara baxmayaraq türkülüyün uca ruhunu, uzaqgörənliyini, geniş dünyagörüşünü, mənəvi, əxlaqi və humanist dəyərlərini etnik və kültürəl olaraq öz mənliklərində yaşatmaqdadırlar.

Yeri gəlmişkən, bütün xalqımızdan, məxsusi olaraq dəyərli mədəniyyətsevərlərə önəm verən sayqılı Səyavuş Məddi, İman İmani, Qənbər Seyfi, Əsgər Rüstəm Pur, Mehdi Pənahi, Ağayi Bədari İldırım və Firudin Behcətlərdən təşəkkür edirik ki, onların sağlam və həqi yardımlarını təməl addımlar hesab edərək bütün millətimizə səslənmək istəyirəm ki, sən yanmasan kim gəlib xahiş edəcək ki, gəlin sizə yardım edək? Doğrudan, sizlər asimilə olursuz, dəyərli soydaşlarım. İndi dünya inteqrasiyasını sevir. Gəlin başqa xalqlarla, uluslarla mədəni alış-veriş edərək var yoxumuzu dünya uluslarının gözü önünə çıxaraq. Yoxsa balina olub o balinasevən burulğanında boğulmağa məhkum olaçağıq. Yaxud başqalarının cidi planlarında asimilə olub və məğrur sayağı kimliyimizdən uzaqlaşıb imperiya qurğularının şovinistcə ideyalarının qurbanı olacağıq.

İnsan qəlbi ətdir, cürür məhv olub gedir. Ey insan, onu yaxşı-yaxşı qoruyub saxla! Alp Ərtonqan, ən qədimdən ərənlərimizin bizə tapşırdıqları ən gözəlləri qoruyub saxlamağa qadir ol. O gözəllərin ən gözəli mədəniyyət və yaşam varlığımızdır. Alp Ərtonqanın dediyi kimi, bir gün hər birimizin qəlbi, nəhayət çürüyəçək. Amma o qəlb cürüməyəçək ki, həqiqətən olduğu zaman xalqı üçün millidirlər və milli olanaqlar üçün mücadilə vermiş olsun. Həmişə insanların yaddaşlarındda ilk iş yadda qalan olur və böyük hesab edilir. Elə mətbuat dünyamızda Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə başladığı, yaxud Məmməd Əmin və başqalarının birinci işi həmişə ana yasa kimin hər

bir iş görən kəsin göz önündə rəhbər olur. İlkin hərəkətləri də, davranışları da təhlil, təqlid obyekti oldu. "Xudafərin"in başladığı iş, yəni millətlə sevgi və millətlə birgə fəaliyyəti, umarım ki, mətbuat orqanlarımız üçün təməl qoydu. O əminliklə deyə bilərik ki, bundan da sonra xalqa və onun köməyinə arxalanan hər bir mədəni abidə öz gedişatı və inkişafını sığorta etmiş olur.

Yəni mən üzümü tuturam xalqımızın aydınlarına, maddi zənginlərinə, xeyirsevər insanlarına və demək istəyirəm ki, ətdən olan qəlblərimizin torpaq altında çürüməsini önləmək naminə bir millətin varlığında yaşamaaq üçün öz həmişəyaşarlığını təmin etmiş olsunlar. Nə qədər uzun ömür yaşasaq da, ölümlə nəticələnəcəkdir. Bəs nə yaxşı ki, ruhumuzu xalqın ruhuna uyuşduraq, qalarqı olaaq. Bir daha "Xudafərin" dərgisinin müdiri-məsulu və sahib imtiyazi olaraq bütün təşrif buyuranlara dərin təşəkkür edirik. Sizlərlə qol-qola, omuz-omuza olmaq nə xoş səadətdir. Əl-ələ verib el birliyini saxlamaq nə uca amaldır. Nəhayət ki, sizlər varsız. Nə yaxşı ki, zəngin, dolğun, həm də yaxşı türklük tariximiz var. Dünəni bu günə və bu günü yarına tanıdan edən mətbuat orqanlarımız var. Ümid edirəm ki, gənclərimiz güclü intellekt və başarılı proqramlarla bu gün yaranan yaradıcı ruhu mükəmməlləşdirərək gələcək nəsillərə ötürmüş olacaqlar. Ta ki olduğumuz kimi həmişə əbədi var olaq.

# YENİ FİKİR VƏ YENİ DÜNYA

Yeni düzən, yeni fikir, yeni ideya və günləşmiş arzu, diləklər, ayıq düşüncə, zor dövran, acı, ədalətsiz həyat kuralları, ayrıseçkiliklıəi ilə dolu hakimiyyət qan-qan deyir, vurur, yıxır. Burada mənəm, Bağdadda kor xəlifə. Özünə özündən başqa qiymət verməyən dünya idarə sistemində ərbabının sözündən çıxmayan hakimiyyət dərəbəylik metodu ilə hakimiyyətçilik arzularını sürümgəçilik, qara niyyətlərini və şovinist qara planlarını axar- baxarını bilmədən qamçı və dar ağacı qanunları ilə ərbabdan izinli həyata keşirməyə çaba sərf edir.

İmperiya, şahlıq və onun yansaması olan nabərabərlik, hədə qorxu, zorakılıq həm ölkə daxili birliyin düşməni və xainçiliyi siyasəti yürüdülür. Kimlik, varlıq, ölüm-dirim, faciyəvi həyat tərzi, ağlar gözlər yoğunlayıb incəlməyən irticai idarə üsulu hər kəsi etiraz və həyat mübarizəsinə səsləyir. Bütün bunlar, həyat gercəklər və həyati fırtına formulu insanlığın qavramı və durumu məsələsi, yəni Azər ayı və dünyanın yeni düzəni ideoloji bloklaşma, məzlum xalqların qurtuluş ümidləri və başqa nələr, nələr.....

Burada yürüdülən ormansayağı hakimiyyət azərbaycanlıları öz xalqlarını savunmaya yönəldirdi. O vaxt ki, yeni yaranan ab-hava və özgürlük qurtuluş və digər gözəl ictimai yaşam kuralları Azərbaycan türkünün beynində yeni düzəndə öz əl, öz başı olmağa səsləyirdi. Bu hadisə milli mücadilə və dəyərlərin özmələşmiş zəminində həyata keçməyə başladı. 21 Azər haqq səsi və istibdadın əlinə son zərbə və azadlığa gül-çiçək ərməğanı olaraq tarixi bir gün kimi azərbaycanlının həyatına bir ömür kimi sübut olundu. O hər kəslər tərəfindən nə adlar, nə isimlərlə və nə uydurmalarla təhlil edilərək qiyməti azaldılaraq yox

edilməyə, unudulmağa sövq edilsə də, hala yaşayan bir gün gün kimi canlarda, ruhlarda yaşamaqdadır. Zülm, istibdad öz hakimiyyət maşını, qüvvəsi və gücü ilə ağı qara etməyi qısa müddət bacara bilsə də, gercəkləri pərdələmək mümkünsüzdür. Muzdur yazarların, asimilə olunmuşların təhlili və araşdırmalarına, varlığına giriz çəkilirsə, ocaq və həqiqət yeni yaranan nəslin qüvveyi-əqlində elmi və məfkurəvi şəkildə canlanmağa başlayır.

Hərəkət və devrimlərin rəhbərləri ictimai şəraiti, coğrafi mövqeyi öyrənilməyə başlayır. Səhvlər, başarılar götür-qoy edilir. Öldürülən insanların ruhu anılır. Mübarizlərin yolu alqışlanır və bir ulusun varlıq nəğmələri tərənnüm edilməyə başlayır. İzi, əlaməti qalmayan iqtidarı lənətlənir, onun qoxusu və dəhşəti tarixi-mənəvi dərslik kitabələrinə həkk olunur. Unudulmur, həm onlar, həm də edilənlər.

Hər gün bu əndişə və donmuş durumdan sıcaq vəziyyətə düşərək hər türlü qalxınma və canlanmaya şərait yaradır. Hər damla qanla bir təfəkkür və intiqam ideyası yaranır. Bütün bunlar üsyan və qiyam əlamətləri kimi sonradan tarixdə öz yerini tutmuş olur. Halbuki işin əsl səbəbi yönətici hakimiyyətin özbaşınalığından öz ərbablarının cızdığı formuldan iri gəlir. Yandırılan kitablar, kül olub havaya sovrulan varlıqlar, dar ağacından asılan canlar unutduruldüqca yaddaşlaşır, varlıqlaşır və özəmləşir.

Azərdən-Azərə və Azərdən Azərlərə bir Azər necə yaranır və necə anılır? Bunu heç bir ideoloji, heç bir sağ-sol düşüncə nəticəsi kimi dəyərləndirmək olmaz.

Basqı, məhdudlaşdırma, özgürlüyə qadağan, haqqların danılması və mədəniyyətlərlə ayaqlaşmamaq, sənə enbarqo, mənə hər şey, sən heç nəsən, mən hər şeydən başam, sən kölısən, mən ərbabam! Nəticədə hamı bir olsun, başqa millətlərin varlığına balta çalınsın. Mən sağ, başqaları

darbədar olsun. Bu idi yönəticilik metodunun, rejimin anti-Azərbacan siyasətinin düşüncəsi və məqsədi.

Hər bir azərbaycanlı dünənini varaqlarkən bu gününü qurmalı və hər yaşadığı anı özü, övladı üçün nə kimi etkiləyici ola biləcəyi məqamını yaxşı bilməlidir. Varlıq vaz keçilən bir zad deyil. Məndən sizə əmanət: - Varlığımızdan göz olun.

# KİMLİK BUNALIMI (BÖHRANI)

İnsan varlığını xarakterizə edən bir çox kateqoriyalar içərisində kimlik göstəricisi ən önəmlilərindəndir. Kimlik bir özüldür və onun insan şüuru ilə vəhdəti və birliyi sağlam düşüncəli insan varlığını ortaya qoyur. Deməк olar ki, bəşərin qalxım süreclərindən ən diqqətə ehtiyacı olanı bu gün onun nə və kim olduğudur. İnsanın ruh və fiziki uluşmalarının bir çox kateqoruyaları olduqda, kimlik olumun ən bariz örnəyidir. Yaş həddi tanmayan, doğulandan ölənə qədər hər kəslə var olan və insan həyatının bütün dönəmlərini öz içinə alan yaş və cins fərqi kimi atımlara baxmadan kimlik mövcudiyyət və olmaq deməkdir. Harada olursan ol, mütləq bir anadan, atadan və yaxud irqdən doğulduğun inkar edilməzdir. Soy, qan və mədəni varlıqlar qapısını, o cümlədən dil və yaşam yönü qabardılmadan kimlik ünsürləridir.

Dəyərli soydaşlar, kimlik məsələsi kiçik yeniyetməlik yaşı dövründə gəlişdiyinə görə, bu yaş həddinə daha üstünlük verməк lazımdır. Bəşər övladı 21-ci yüz illikdə bir çox nailiyyətləri qazansa da, itirdiyi ən dəyərli şeyi onun kimliyi olmuşdur. Günümüzdə dünya imperializmi sümürgəciliyi yanlıları və maraq dairəsi önə sürdüyü batı uyqarı, onun zorla qafalara taxdırılması bütünilətişim aracları ilə dünya sivilizasiyasının yoxluğuna çaba sərf edirlər. Mədəni güc tətbiqi ilə yanaşı, silahli güc tətbiqi də gözə çarpmaqdadır.

Bilimsəl araşdırmalar göstərir ki, kimliyin inkişafının hər bir növündə kimliyin bütün növləri eyni dərəcədə önəm kəsb edir. Deməк olar ki, fərdin sosial varlığında özünü təzahür etdirən əsas rol, yəni şəxsiyyətin inkişafı yalnız kimlik və huyət məsələsi çərçivəsində öz yerini tapa bilir.

Bizim hiss və həyəcani ilgilərimizlə yanaşı, ciddi-mədəni mövcudliğumuz da gərəkməkdədir. Hər bir fərdin yaşı

artdıqca, onun həyatında qaydaların önəmi çoxaldıqca, özünü tanıma prossesi güclənir. Kimlik rəsmi, yaxud zorla təlim edilən vasitələrin hesabına oluşsa da, nəhayət xalqın milli şüuru və ayıqlığı nəticəsində əks istiqamət götürə bilər.

Afrikanın bir cox ölkələri və yaxud Asiyanın bəzi ölkələri, Əlcəzair, Hindistan və sairə ölkələr illər boyu Qərb ölkələrinin planlaşmış mədəni, nizamı təcavüzünə məruz qalırdılarsa, zorla onlar uyqar və frakların dəyişdirilməyə başladısa da, ancaq uzun sürməsə belə bu uluslar, millətlər öz kimliklərinə yiyələnməyə başladılar.

İndi dünyada, daha özəl olaraq batı və batı yönlü ölkələrdə köçmən kültürlü insanlar öz varlığını qorumağa və sübut etməyə çaba göstərirlər. Bu yaxınlarda Fransada baş verən kimlik bunalımı hər kəsi ayıq olmağa səslədi, çünki kimlik belə bir mədəni, sosial və genetik bağdır ki, onu hansı süni və saxta təlim vasitələri ilə kimsələrə aşılamaq olmur. Kimliyin mahiyyətində mənlik şüuru formalaşır. Bunun sayəsində fərdin vəzifə motivləri dəyişir, o, gələcəyə yönəlməyə başlayır. Somalili ya ərəbistanlı kimliyi mövcud olmadığı halda ərəb varlığı vardır. Bu ölkələrdə insani xüsusiyyətlərlə silahlanan hər kəs öncə özünü yaşadığı məkana yox, bağlı olduğu irqi və genetiki bağlara bağlamaq istəyir.

Dəyərli soydaşlar, 4-5 yaşlarımızda bütün bu proseslərin xassələrinin formalaşdığını bildirən bilginlər onun bilavasitə insanın özü qədər yaşayacağını da qeyd edirlər.

Özgələşdirmə, sorma və varını yox etmə siyasəti insanlarda varla yox arasında bir davranış növü yaratmışdır. Qorxu, inamsızlıq, kədər, bacarıqsızlıq, özgəyə tapınma gərəyini, gərəksizliyini bilmək, idrakın yüksəlməsi və digər bu kimi kateqoriyalar yalnız və yalnız kimliklə bağlı məsələlərdir və bunlar hər anından törəyən fərdi və ictimai sorunlardır.

# UYQAR (MƏDƏNİYYƏT) PSİXOLOJİ BİLİM AÇISINDAN

Ulu türk insanı zəngin və köklü bir keçmişə sahibdir. Türklər insanlıq tarixinin ən böyük fatehi, yaradıcısı və inkişaf etdiricisidir. Onun böyüklüyündən çox dəyərli insani amillər törəmişdir. Bu günki bəşər mədəniyyəti keçmiş və indiki türk ulusunun böyük mədəni irsinə arxalanaraq irəliyə sıçramışdır. Düşmənlərin qalaq-qalaq yazdıqları ağ yalanlar, uydurmalar, yaxud gözümüzün qarşısında yandırıb məhv etdikləri, izini yerdən, mənəviyyatdan, tarixdən sildikləri minlərlə faciəvi, acı, qeyri-humanist əməllər türkü alcatmadı, əksinə onu yüksəldi. Axı atalar demişkən: "Al günəş buludları əridir".

Bu mövzuya əsasən sivilizasiyanın ilgilərini elmi və etniki aspektində yontalamağa cəhd etdim. Ölkəmiz sivilizasiya və danışaqlar mövzusunun səbəbkarı olduqda bu məsələni psixoloji elmi baxımdan şərh etməni gərəkli saydım. Bəşər mədəniyyəti elə bir sahədir ki, ondan təcziyə olunmuş şəkildə psixolojini, o cümlədən bu elmin ayrı sahələrini təsəvvür etmək olumsuzdur. Kültür və psixoloji arasındakı qarşılıqlı münasibətlər iki mövqedən dəyərləndirə bilər. Bir yandan kültür məsələlərinə psixolojinin bir bölməsi kimi, məsələn fərdin dərk olinması, həyat əlamətlərinin təzahürləri, eləcə də müxtəlif etnik və sosial guruhlara mənsub olan insanların münasibətlərini öyrənən bölmələrdən biri kimi baxmaq olar. Digər tərəfdən mədəniyyətin prespektivləri baxımından psixolojinin bütün bölmələri, psixoloji metodlar, əxlaqi məsələləri, sosial və elmi gələnəklər də daxil olmaqla bu və ya ayrı sivilizasiyanın məhsulu olduğunu nəzərə almaq olar. Uyqar sözünün çox

geniş istifadə olunmasına baxmayaraq, bu istilahın ümumi qəbul olunmuş tərifi hal-hazırda yoxdur. Bəzi alimlər və müəlliflər mədəniyyəti müxtəlif elementlərin bənzərsiz qarışığından oluşan və həmin toplumu ayrılarından fərqləndirən önəmli bir toplumun tipik və bütün həyat tərzini ifadə edən abstrakt anlayış hesab etməyi təklif edirlər. Digər acıdan isə mədəniyyət fərdin davranışını formalaşdıran və müəyyən guruhun digər üzvləri ilə qarşılıqlı münasibətlər yaratması üçün ilgi, matris rolunu oynayan etnik sosial guruhun mənimsənilmiş obrazı və simvolik elementləri sistemi kimi izah edilir.

Uyqar anlayışı ilə etnik mənsubiyyət sıx bağlıdır. Etnos tarixi dövrdə meydana çıxmış və yox olmuş orijinal quruluşa və təkrarolunmaz davranış tipinə mənsub olan insan toplumudur. Zahiri oxşarlığına baxmayaraq, uyqar, onun yaratdığı maddi və mənəvi dəyərlər insan fəaliyyətinin məhsulu olub, eyni zamanda qarşısında bir çox məsələlər dayanır. O cümlədən: həsas şəraitdə müxtəlif mədəniyyətlərə aid insanların davranışının öyrənilməsi, həyat tərzinin təzahürlərinə və onların gəlişməsinə müxtəlif psixoloji faktorların təsirinin müəyyənləşdirilməsi, cins, yaş, dil və din kimi faktorlarla kültürəl faktorlar arasında ilgilərin araşdırılması, şəxsiyyətin formalaşnasında uyqarların rolu, milli kimlik, dil, sosial durum kimi amillərin insanların və ulusların psixi funksiyalarında, ictimai şüurunda və milli məfkurəsində təsirinin aşkar edilməsi və üzə çıxarılması, kültürəl nədənlərə şərtləndirilmiş sindormaların aşkara çıxarılması, kültürəl və psixolojinin qarşılıqlı ilgisinin müəyyənləşdirilməsi.

Uyqar təkcə hansı davranışın düzgün olub-olmamasını aydınlaşdırmır. O həmçinin insan davranışının formalaşmasında bilavasitə iştirak edir. Əxlaq qaydalarına adət-ənənələrə, eləcə də gündəlik davranış normalarına

kültürəl baxımdan ciddi nəzarət edir. Moda, stil, həyat tərzi və geyim, eyni zamandda çeşidli sosial guruhların nümayəndələri arasında rabitə formaları müəyyən ölçü vahidləri sistemlərindən istifadə şəxsi mədəni ənənlərdən və xarici təsirlərdən asılıdır.

Dünyada tam izolə şəraitində yaşayan çox az xalq tapmaq olar. Odur ki, qeyri xalqlararası rabitə nəticəsində kültürlərin qarşılıqlı şəkildə bir-birinə nüfuz etməsi baş verir. Onu da qeyd etmək vacibdir ki, hər hansı uyqar bağlılığı olan insanların davranışı daimi deyil və ola bilməz. Müxtəlif tarixi dövrlərdə kəskin ekonomi, toplumsal şəraitlə ilgili nəzərə çarpacaq dərəcədə dəyişə bilər. Insan davranışının bəzi formalaı biolojikdir və bu baxımdan şərtləndirilmiş və universal olduğu halda onlar uyqarın etgisi altında müxtəlif cür özünü büruzə verir.

Uyğarsal davranışın formalarının ayrıntıları bunlardır:

1. İdeal-uyqarsal davranış
2. İşlək uyqarsal davranış
3. Uyqarsal davranış sterotipi
4. Deviyant sterotepi - uyqarsal davranış.

Birinci növdə toplum birgə yaşayışı təmin etməyə yönəlmiş, açıq şəkildə təbliğ olunan, daha çox dəyər xarakteri daşıyan davranış normasıdır.

İkinci göstərici gərçekdə şürünün davranışıdır və çox vaxt ideal davranış ilə zidiyyət təşkil edir. Üçüncü forma isə bir uyqarın göstəricisində tez-tez təkrarlanan davranış modelidir.

Davranış bəlirtisi bir uyqar çərçivəsində insanların çoxunun davranışından fərqlənən davranışdır. Davranışın kültürəl formaları həyat və yaşamın bütün yönlərində mövcud olan zaman kəsiyində yeganə mümkün və düzgün qaydalar kimi qəbul olunur. Başqa uluslarda mövcud olan adətlərlə qarşılaşma zamanı onlara qeyri-adi və qəribə

görüntülər kültürəl şərtləndirilmiş davranış sterotipləri tez-tez çuk süjetlərinə çevrilir. Həmin çukların qəhrəmanları isə öz mədəniyyətinin ənənlərinə uyğun hərəkət edən müxtəlif millətlərin nümayəndələri olur. Davranış sterotiplərində olan bəzi fərqlər müəyyən ictimai kimlik ilə əlaqədardır. Misal üçün, qeyd etmək olar ki, illər boyu fars sovinizminin məfkurəsinin sızıntısı olan türkü təhqir üçün söylənilən çukların elə bu məzmun və mahiyyətin bizə axtardığı anlamdır. Dilimizin qeyri oxşarlığı, böyüklüyümüz, zəngin mədəniyyətimiz, çalışqanlığımız, qoçaqlığımız və ... kimi fərdi və ictimai özəlliklərimiz bizi dost xalq ilə fərqləndirdiyi üçün, biz türklərin daha sanballı həyat tərzinə malik olduğumuzun göstəricisidir. Çeşidli uyqarların nümayəndələrində davranış ilə yanaşı təfəkkür sferası xeyli fərqlənir. Demək olar ki, hər bir millətin özünün xas düşüncə tərzi vardır və müxtlif uyqarlarda orqanizm və onun funksiyalarına fərqli baxışlar mövcuddur. Türk ulusunda türk elləri ruhi və cismi funksiyalar tam vəhdət kimi qəbul edilir. Qövmi-mədəni fərqli əsrlə keçidində büruzə verir. Hətta bir çox məişət forma və məzmunlarının müəyyənləşdirilməsində belə etki buraxır. Misal üçün deyə bilərəm ki tarixən türkün yaranış geindən gələn varislik elementi nəticəsində bizim qırmızı, yaşıl, göy, sarı kimi ümum türk istilahları fars dilind işlənən sərx, səbz, abi cə zərd rənglərinə müvafiq deyil. Bu qəbildən olan uyqarsal düşüncə tərzi sayda da özünü göstərir. Bəzi formalarda onluq yox, on ikilik mövcuddur. Ən maraqlı burasıdır ki, müxtəlif xalqlarda zamanın qavranılması fərqlidir. Məsələn, indiki gələcək və keçmiş zamanlar və s. Farslardan fərqli olaraq türklərdə geniç zaman da mövcuddur.

Bu dünya bir pəncərədir, hər gələn baxar gedər. Bu zaman özlüyündə sonsuz zamandır. Belə incə və zərif düçüncələrdir ki, çeşidli ulusların kültürəl fərqlərini nümayiş

etdirir. Əlbəttə, bütün bunlar xalqların beynlərində neyronlar şəbəkəsinin quruluşu ilə ilgilidir. Odur ki, biz türk uşağının fars dilində təhsil alması ona görə çətindir ki, onun beynində müvafiq quruluşlu neyron şəbəkəsi yoxdur. Bu yaranışdır, buna qarşı bəşər ideolijilərin həyata keşirilməsi fərdi və kültürəl psixi nasazlığa sövq etmək və Tanrının yaratdığı struktura dəxalət etmək deməkdir. Psixoloji elmi nöqteyi-nəzərdən millətləri yekdəst etmək agahanə günaha mürtəkib olmaq deməkdir. Təbiidir ki, türkün doğma dildə məlumat sürəci fars və yaxud ərəbdən fərqlənəcəkdir. Uyqar eyni zamanda ailə və qohumluq ilgiləri anlayışını da müəyyən edir. Azərbaycan türkünün ailəsi ingilis anlayışından kəmiyyət və keyfiyyət baxımından fərqlidir. Azərbaycan türkcəsində ata və ana xətti ilə olan qohumların məxsus adları var. Halbuki ruslarda və ya başqa xalqların dillərində belə bir defrensiya qeyd olunmur. Ailə haqqında sual verərkən türk insanı ata, yaxud əmi və dayısına və fars insası ilə "bə can madərəm",- deyə özünü göstərməkdədir.

Gerçəkdən hər bir xalq onu ayrı xalqlardan, uluslardan fərqləndirən qövmu-psixoliji özəlliklərə malikdir. Hamıya məlumdur ki, ingilislər mühafizəkarlığı, almanlar dəqiqliyi, türklər işgüzarlığı, ermənilər qəddarlığı, farslar rahət tələbliyi, gilanlılar qonaqpərvərliyi, muğullar dözümlülüyü ilə seçilir. Doğaldır ki, qövm ya ulusal barəsində belə təsəvvürlər həmin əksər nümayəndələrinin nəsildən-nəslə verilən müəyyən psixoloji özəllikləri əsasında formalaşır. Bununla bağlı ideal şəxsiyyət yaranır. Buna əsasən yaxşı adam barədə təsəvvür yaranır, yaxud yaxşı millət, pis millət anlamı ortaya çıxır. Müasir toplumda yaşayan hər kəs bu özəllikləri mənimsəməyə can atmağa başlayır. Mədəni dəyərlərə uyğun mifik və həqiqi şəxsiyyətlər təqlid üşün nümunə olur. Demək olar ki, hər bir xalqın aldığı gen, itim öyrətim dini və maddi yöndə onun tipik nümayəndəsi üçün

xarakterik olan psixoloji xüsusiyyətlət formalaşdırır. Əlbəttə, qeyd etmək lazımdır ki, etnopsixoloji sabit seyil. İdeal tip və tipik şəxsiyyət yalnız zaman kəsiyində xarakterizə oluna bilir. Əski şüurda insanların psixoloji dəyişikliklərini görə bilirik. Ancaq o insanlar yavaş-yavaş özünü dərk prosesinə başlamışlar və etnokültürəl dəyərlərinə malik olmağa başlamışdır. Heş kəsə sirr deyil ki, mədəni asimilyasonlar heç zaman uğurlu olmamışdır. Çünki hər bir xalqın mintalitetinə uyğun güclü psixoloji dayaqlar vardır. Baxmayaraq ki, kəskin distərs keçirdiklərindən zəif və həssas xalq olurlar. Lakin keçirdikləri acı və ağrıların dərəcəsi çox mühümdür. Misal üçün, götürək yüksək gəlirli bir həkim bolluq içində yaşayır. Ancaq öz həzm olmasını gözü ilə görür və o bütün dünya ləzzətlərinə qarşı duraraq asimilyasiya zülmünə qarşı mübarizə aparır. O bilir ki, mübarizəsinin nəticəsində bütün maddi imkanlarını əldən verə bilər, ancaq o uyqarlığını qara maddi pərdələrin arxasında gizlətmək istəmir və hər zaman bu mənəvi sıxıntıdan qurtarmağa cəhd edir. Nəhayət onda bir zaman soyçuluq fobiyası yaranır. Amma ötəri olur, sonra onda kültürəl şok baş verir və nəhayət ki, o özü ailə və özgə ulus daxilindən çıxaraq öz varlığını elan edir. Etnik asimilasiyası beləcə baş tutmur. Çünki zorla adaptasiya mümkün deyil. Beləliklə, uyqarsal psixolici bəzi sosial psixoloci elementlərə dayalı insanda varlıq düşüncəsini canlandırır.

# TƏHSİLİMİZ, SORUNUMUZ VƏ SORUMLULUĞUMUZ

Ümumbəşəri təhsilin 10 min ildən artıq bir tarixi keçmiş vardır. Demək olar ki, bəşəriyyət bu müddət ərzind öyrənib, öyrədib və öyrənmə prosesini mərhələli şəkildə təkmilləşdirib. Məqsədimiz təhsil sistemi və üsulu barədə fikir söyləməkdir. Bu günkü bəşəri tərəqqi mükəmməl təhsil sistemi ilə qırılmaz tellərlə bağlıdır.

Ümumazərbaycan ictimai, siyasi, mədəni və coğrafi ərazisi Gülüstan və Türkmənçay müqaviləsinə qədər əyani təhsil atmosferində nəfəs şəkmişdir. Baxmayaraq ki, kütləvi əqli təhsil sistemi zəif olmuşdur, ancaq təhsil metodu və siyasəti eyni olmuşdur. Vahid dil, vahid ədəbi və yazı dili olmuşdur. Azərbaycan bu təməl əsasında öz demokratik və azad cəmiyyət təhsil sistemini qura bilmişdir. Və tarixinin bir çox dövrlərində bu təşəbbüsü görmək mümkündür.

Azərbaycan parcalandıqdan sonra quzey və güney bölümü fərqli siyasi və ictimai rejimlər çərçivəsində öz həyatını davam etdirərək müxtəlif dəyişikliyə uğrayıb. Köhnə təhsil üsulu qınanılaraq hər iki bölümdə başqa-başqa ideoloji yüklü və imperiya marağına uyğun təhsil sistemi yaradılmağa başlanmışdır. Düzdür, Azərbaycanın quzeyində təhsil məsələsi imperiya xidmətində olsa da, öz sferasında cərəyan etmişdir. Lakin bu prosses Azərbaycan güneyində heç də qənaətbəxş olmamışdır. Qeyd etmək lazımdır ki, Azrbaycanın quzeyindən fərqli olmamaqla güneydə milli-mədəni haqq uğrunda, ana dil və onun təhsili barəsində mərkəzi dövlətlə mücadilə davam etməkdir və zaman-zaman bu tələblər mübarizə xarakteri də almış, inqilablar şəklində xalqımızın tarixində öz izini buraxmışdır. Şübhəsiz, bu inqilabların məqsədi xalqın mədəni varlığının

qorunması əsasında baş vermişdir. Hər zaman xalqımız igid övladlarının qanı bahasına həm güneydə, həm də quzeydə təhsil uğrunda məqsədyönlü mücadilə etmişdir. Lakin quzeydə xalqın təlim-tərbiyəsi onun özü tərəfindən yox, bəlkə ruslar tərəfindən və onların maraqlarına uyğun həll olunmuşdur.

Hamıya məlumdur ki, təhsil insanların əqli, bacarıq və qabiliyyət potensialının həryönlü inkişafına, dirçəlişinə və işləmliyinə kömək edən təməl vasitəsidir. Bunu bilən imperiya hər iki tərəfdə öz məqsədlərinə yğun hərəkət edərək xalqımızın harmonik inkişafına qəddadrcasına qarşı durmuşdur. Həm fərdi, həm də toplumun geri qalmasına səbəb olmuşdur. Ən narahat etdirici budur ki, Azərbaycan parçalandıqdan sonra hər iki tərəfin bir-birindən məlumatsızlığı, nəhayət ortaq birgə təməl dayaqlarının unudulmasına gətirib çıxarmışdır. Misal üçün, götürək hal-hazırda bizim Azrbaycanda orta təhsilini qurtaranların 90% dünya şöhrətli Hillarini belə tanımırlar və onun haqqında bunların kafasında heç bir bilgi yoxdur. 1965-ci ildən bu tərəfə yürüdülən asimlasion siyasətin bütün təhsil sistemini qapsamışdır. Və xalqın mədəni varlığını öyrənilməsini pərdələmişdir. Düşmən çox yaxşı bilir ki, cahil olan hər zaman ağıllının quludur. Ona görə də, təhsil üsulu məhz bu fikir əsasında qurulmuşdur. Hüseyn Cavid demişkən: - Bilgidə Allahın gücü var. Doğrudur, bu gücü düşmən ancaq xalqımızın məhvi bahasına öz tərəfinə çəkməkdə hələ də israrlıdır.

Alt payısı sağlam bir millətin yüksək səviyyəyə qalxması üçün, demək olar ki, təhsil ən səmərəli yollardan və baş vurula biləcək metodlardan biri və ana xəttidir. Halbuki bu qocalmaz bəşəri-mədəni termin öz əhəmiyyətini bizim Azərbaycanda itirmişdir. Elm və təhsil hər bir xalqın qüdrətli, bilici və müdrük övladlarının yetişmə

mexanizmidir. Öz milli təhsili olmayan xalq heç zaman mükəmməl xalq hesab edilə bilməz. Hər bir millət mütləq öz milli-mədəni adət və ənənələrin əsasında milli məzmunlu tədris sistemi və müəssisələrinə sahib olmalıdır. Ona görə də təhsil deyilən sahə cahillik cəbhəsi ilə cəhd deməkdir. Bu hər tərəfli və milli mahiyyət daşımalıdır. Hər bir təhsilin və elmin əsas qüdrəti dil və yazışma qabiliyyəti olan zəngin varlığa bağlıdır. Bu zəngin varlıq isə yazı dili və kitab vasitəsi ilə nəsildən nəsilə və fərddən fərdə, başqa sözlə, bütün vətəndaşlara ötürülür.

# GÜNEY AZƏRBAYCANDA TƏHSİLİN YAXIN TARİXİNƏ DAİR

Hamıya məlum olduğu kimi, güney Azərbaycan mədəni və kültürəl baxımdan türk dünyasının bir parçasıdır. Deməli, Azərbaycan türk dillərinin inkişafı prosesindən kənarda qala bilməzdi. Demək olar ki, türk dillərinin inkişafı prosesi Azərbaycan türkcəsinin inkişafı sferasına daxildir.

120 il öncə Azərbaycanın maarifci oğlu Nirzə Həsən Rüşdiyə "Vətən dili" adlı kitabını yazaraq qocaman Təbriz şəhərində yeni təhsil üsullu tədris məktəbini yaradaraq ana dilində təhsilləndirmə və xalqını maarifləndirməyə başladı. O zaman cəmiyyətdə təhsilin yerini məhz "Vətən dili" kitabı ilə xalqına anlatmağa başladı, çünki fərdin bütün çıxarları düzgün təhsillənmədə və oxuduğu kitabların rolundan asılıdır. Mirzə Həsən Rüşdiyə təhsil almaq üşün o günkü cağdaş tələbata cavab verən Nəcəf şəhərinin təhsil mərkəzinə yollandı. Sonra o İstanbul şəhəri və Misirə gedərək mükəmməl təhsil aldı. Beləcə o müəllimlik üsulunu öyrəndi və doğma şəhəri Təbrizə dönərək bu şəhərin Şeşgilan məhləsində məktəb açdı, yeni əlifba və yeni üsulla Azərbaycan balalarını öyrətməyə başladı. O, 40 saat ərzində yazıb-oxumaq öyrədirdi.

Qeyd etmək lazımdır ki, bu dəyərli alim Təbriz şəhərinə gələndən öncə Azərbaycanın ayrılmaz parcası olan İrəvan şəhərində beş il meddətində təlim və tərbiyə məsələsi ilə məşğul olmuşdur. O, 1882 də İrəvan şəhərində üsuli-cədid əsasında ana dilli məktəb açaraq xalqı maarifləndirməyə başlamışdır.

Mirzə Həsən Rüşdiyə ana dilimizin bütün incəliklərini və ahəng qanununa uyğunluğunu səlis və müxtəsər şəkildə öz kitabında inikas etdirir. O, bütün ömrü boyu Azərbaycanın sadə yolla mükəmməl təhsil almasını diqqət mərkəzində saxlayaraq bu yolda böyük addımlar atmışdır.

Firidun bəy Köçərliyə görə bütün islam dünyasında Azərbaycan yeganə ölkədir ki səs üsulu (ahəng qanunu) uyğunlu ilə tədrisini qoymuşdur.`

Mirzə Həsən Rüşdiyənin "Vətən dili" kitabi Təbrizin daralfünun mətbəəsində şap olunmuşdur. Qeyd etmək lazımdır ki, ingiltərəli doktor Banəz 1833-cü ildə, təqribən Türknmənçay müqaviləsindən 7 il sonra İranda səyahət edərkən Təbrizin nüfus sayını dörd yüz min nəfər qeyd edir və o zaman Tehran əhalisinin 25 min nəfərdən ibarət olduğunu yazır. Elə buna görə də o qeyd edir ki, avropalılar Təbrizdə özünü avropadakı kimi təsəvvür edirdilər. Burada olan mədəni şərait heyranedici idi. İranda birinci çap aparatı 1811-ci ildə Təbriz şəhərində quraşdırıldı. 19-cu əsrin ortalarında Azərbaycanda beş çapxana mövcud idi. Bu şapxanalar, demək olar ki, yaxın şərq və türk dünyasına ən ciddi mədəni xidmət göstərirdi. Bu çapxanalarda adı şəkilən kitablar ilk dəfə Azərbaycanda, öz dilimizdə nəşr edilmişdir. Bunlara misal olaraq "Qarabağnamə", "Dərbəndnamə", digər bir dərs kitabları və Mirzə Şəfi Vazehin 1852-ci ildə Təbrizdə ana dilində çap olunmuş "Kitabi-türki" dərsliyini misal göstərmək olar.

Təbriz çapxanalarında ana dilimizdə nəşr olunan kitablar hal-hazırda dünyanın bir çox kitabxana və muzeylərində, o cümlədən Bakı, Moskva, Tiflis, Tehran, İstanbul, Qahirə, Bağdad, Berlin, Paris, London, Vaşinqton, Hidistan və s saxlanılmaqdadır. Məhəmmədəli Tərbiyətin yazdığına görə, türk dünyasında Təbriz birinci şəhərdir ki, mətbəəsi var. O mətbəələrdə türk dilli kitablar çap olunur. O zamanlar

çapxana sözünə Təbrizdə "Basma xanə" deyilirdi və İranda hamı bu sözü işlədirdi.

Mirzə Həsən Rüşidiyənin əsasını qoyduğu təhsil yeni metodla olağına baxmayaraq, öz qocalmayacağını da xalqın şifahi yaradıcılığına arxalanaraq sübut etmişdir. Baxmayaraq ki, bəzi elmi məvfumlar qocalmağa başlamışdır. Ancaq onun yaradıcısı olduğu təhsil hələ də Azərbaycan xalqının ictimai damarlarında cərəyan etməkdədir.

Çünki o öz dilinə, atalar sözünə güvnərək sadə və axıcı bir dillə yurdun övladını maarifləndirməyə cəhd etmişdir. Ikinci təhsil ocağı Təbriz Rüşdiyə məktəbindən tam 21 il sonra Xalxal şəhərində Nasir Dəftər Rüşdiyə tərəfindən yaradıldı. Burada ana dilli təhsil Bakıdan öz şəhərinə dönmüş Mirzə Məhəmməd Tağı tərəfindən həyata keçirildi. Bu məktəbdə türk dili Osmanlı üsulu ilə tədris etdirildi. Deyilənlərə görə, bu cür təhsil üsulu Azərbaycan türklərinə çox xoş təəssürat bağışladı. Buna görə də türk dilli Azərbaycan uşaqları çox sürətlə yazıb oxumaq öyrənirdilər.

Qeyd etmək lazımdır ki, ana dilimizdə təhsil günü-gündən inkişaf etdirilir. Xalqımız dərin zəkası, yüksək mədəni səviyyəsi təhsil prosesini kəsilməz bir hala dönüşdürdü və təhsilin qarşısında duran məqsədlərə çatmağa səy göstərdi. Məlumdur ki, o günlər təhsilin qarşısında duran ən ciddi məsələ yazıb-oxumağı öyrənmək idi. Elə buna görə də ardı-arası kəsilmədən məktəblər açılırdı və ana dilli təhsil inkişaf edirdi.

Digər bir məktəb Tərbiyət adına Təbriz şəhərində yarandı. Bu məktəbin müdiri Mirzə Əbdülrəhim tərəfindən "Ana dili" adlı kitab talif edilib 1912–ci ildə Təbriz şəhərində nəşr edilərək tədris məcrasına daxil olundu.

Adı çıkilən dərslik kitabı Təbrizdən başqa Azərbaycanın digər şəhərləri, o cümlədən Marağa şəhərində dərs vasitəsi kimi istifadə edilirdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan türkcəsi təkcə azərbaycanlılar tərəfindən yaradılan məktəblərdə yox, həm də amerikalı missionerlərin yaratdıqları təhsil ocaqlarında, o cümlədən Memorial akuldə tədris olunurdu. Əlbəttə, hamıya məlumdur ki, bu missionerlərin məqsədi xristianlağı təbliğ etmək idi. Buna görə Təbrizdə erməni dilində tədris mərkəzlərində xalqının dili olduğuna Azərbaycan dilini öz dərs proqramlarına salmışdılar. Dərslər rus, erməni, ingilis, fars dillərində aparılırdı.

Birgə yaşamağı öyrədən təhsil sistemi bu gün də YUNESKO tərəfindən qeyd edilir. O zamankı Azərbaycan təhsil sistemi ana dilli olmağı ilə yanaşı, yaşamaq mədəniyyətini də öyrədirdi. Buna görə də xaricilər tərəfindən yaradılmış təhsil ocaqlarında, ümumiyyətlə aparıcı təhsil dili Azərbaycan türkcəsi idi. O zamankı Azərbaycan təhsili aldanmayan bir millət yarada bilmişdir. Demək olar ki, öz müasir vəzifəsini də yerinə yetirmişdir.

Məşrutə dönəmində Güney Azərbaycanda təhsil mərkəzləri daha da çoxalaraq öz ana dilimizdə xalqı maarifləndirməyə başladı. Danılmaz faktordur ki, Azərbaycanın bütün elan və tələbə qəbulları Azərbaycan türkcəsində qəzetlərdə dərc olunurdu. Azərbaycanın bütün balalrı düşüncə və istəklərini yalnız və yalnız öz ana dillərində yazırdılar.

Amalımız, iqbalımız iqbali- vətəndir
Sərhəd bizə , qələ bizə xaki- vətəndir.
Dava günü yeksər görünən qanlı kəfəndir,
Azərbaycanlılarıq, can veribən nam alaraq biz ....

Təbrizdə "Səadət", "Ədəb", "Nobər", "Rüşdiyə", "Rəşd Qüdsi" adlı məktəblər öz fəaliyyətlərini ana dilli dərslər

əsasında həyata keçirdi. Hətta Məşrutə hərəkatı zamanı azərbaycanlıların bütün yazı və şüarları öz ana dillərində idi.

Çox yaşa, ey əncümən, ey əfsərföq vətən
Dövləti- məşrutə ilə millət olsun dər aman.

Türkcə təhsil, zəngin maarifləndirmə Azərbaycanda günü-gündən müasir təlabat əsasında inkişaf etdirdi və hər gün öz səmərəsini verdi. Tehranda Qacar hökumətini qəsb edən şovinist Rza şah Pəhləvi iş başına gələndən sonra anti-türk siyasəti yürütməyə başladı. Vahid İran milləti yaratmaq xülyası ilə azərbaycanlıların mədəni və milli hərəkətlərini qadağan edərək azərbaycanlıların təhsil mərkəzlərini qapatdı və fars dilli təhsil sistemi altında xalqımızın asımlıyasiyasına başladı. O gündən bu günə 80 ildən artıqdır ki, Azərbaycan övladları öz ana dillərində təhsil almaqda çətinliklərə məruz qalmışlar. Nəhayət ki, Azərbaycan xalqı bütün çətinliklərə qalib gələrək öz iradəsini yenə də 1945- ci ildə nümayiş etdirdi.

1945-46-cı illərdə Azərbaycanda baş verən, bi il müddətində davam edən milli demokratik hərəkatının bu az müddətdə ölkənin bütün siyasi, ekonomi, milli-mədəni sahələrində yaratdığı gözə çarpan dönüşlər və yeniliklər, milli maarif və təhsil sahəsində hərəkatın tarixi milli dünyamıza uyğun uğurlu addımlar götürüldü.

Azərbaycan milli demokratik hakimiyyəti çıxardığı qərarlarda Azərbaycan xalqını təmsil edən milli dilin bütün məktəblərdə icbari surətdə oxunulmasını takid etmişdir. Bu milli borcu yerinə yetirməyə mane olanlara düşmən adı verildi. Bu dönəmdə milli maarifcilik təşkilatında dərs kitablatrı çox sürətlə qocaman müəllim və maarif xadimləri tərəfindən həyata keçirildi. Dərs kitablarının ön sözündə belə bir yazı var idi. "İllərdən bəri zülm və ədalətsiz

siyasətlər nəticəsində aradan aparılan ana dilimizi yenidən həyata keçirmək və böyük tarixlərə malik olan yurdumuzu maarif və mədəniyyət sahəsində yüksək inkişaf səviyyəsinə çatdırmaqla Azərbaycan xalqını az bir zamanda mütərəqqi millətlər cərgəsinə daxil etmək". Azərbaycan milli hökuməti öz proqramında qeyd etdiyinə görə... bütün məktəblərdə ana dilimizin rəsmi tədris olunması və bu işin yaxşı icra edilməsini təmin etmək üçün tədris üsulunu məktəblərdə də yetişdirib yeni bir metod üzrə ana dilində kitablar yazmaq üçün bir kitab komisyonunun təyin edilməsini öz birinci nömrəli 28 Azər tarixli əmrləti mücəbbinə elan buyurmuşdular.

Azərbaycan milli demokratik dövlətinin bu hərəkəti uşaqlarla yanaşı bütün əhalini təhsilalma prosesinə daxil etdi. Belə ki, bi il ərzind xeyli əhali öz ana dilində yazıb-oxuma öyrəndi. Bu illərin ən maraqlı hadisəsi ondan ibarətdir ki, Azərbaycan uşaqları bütün təhsil mərkəzlərində ana dilli təhsili fərəhlə öyrənməyə başladılar. Bu illərin dərs kitablarında ən çox şairlərin, yazıçıların, tarixi qəhrəmanların tərcümeyi-ihalına yer verilirdi. Dərs kitabları olduqca demokratik üsul və dünyagörüşü ilə yazılmış, onlarda sağlam milli və insanı baxışlar öz inikasını tapmışdır.

Ancaq uğurlu günlər çox davam etmədi. Xalqın iradəsi qəddar düşmənlər tərəfindən çökddürüldü. Imperiya sülhünə qurban edilmiş Azərbaycan xalqı yüz minlər insanını qurban verdi. Dar ağacları ana dilli məktəblər önündə quruldu və xalqın milli alimləri, siyasi xadimlər ilə yanaşı müəllim və şagirdləri də düşmən ordusu tərəfindən edam edildi.

Ana dilli kitablar yandırıldı. Balaş Azər oğlu demişkən: -Xalqın təfəkkür dünyasının yadigarları odlandı. Alovların dillərinin varaqladığı kitablardan necə-necə dahinin,

mütəfəkkirin və sənət bahadırlarının şəkilləri tonqallardan boylanıb cəlladlara nifrətlə baxırdı. Bu nifrət hissi hər gün xalqımın ürəyində daşmaqdadır.

Nəhayət ki, şovinizm öz vəhşi əməlləri ilə Azərbaycan xalqının bütün varlığına qarşı ən qəddar vəhşi əməllərdən çəkinmədi. Qədim şumerlərdən, zəngin türk mədəniyyətindən qorxan düşmən böyük türk ulusunun övladlarını zamanın onlara yaratdığı imkan ucbatından son nəfəsinə kimi boğmağa başladı. Nəhayət, bu qəddarlıq İranda islam inqilabının qələbəsini ilə və Pəhləvi reciminin devrilməsi ilə sona çatdı. Nisbi azadlıq yarandı. Milli ruhlu qəzet, jurnal və kitablar Azərbaycanda nəşr olunmağa başladı. Ana dilli təhsil məşəlləri alovlanmağa başladı, lakin müxtəlif bəhanələrlə bir il sonra bütün bunlar söndürüldü.. Baxmayaraq ki, ölkənin anayasasının 15-ci maddəsində digər xalqların öz ana dilində öz ədəbiyyatlarını fars dilinin kənarında oxumağa haqqı qeyd olunub, ancaq bu qanuna əməl edilməmişdir. 50 illik Pəhləvi rejimi dövründə Azərbaycan xalqı öz doğma yurdu Azərbaycanda dözülməz təzyiqlərə məruz qalırdı. Bu təzyiq yenidən canlanmağa başladı. Belə ağır illərin xalqın polad iradəsini qırmağa qadir olmadığını bilin şovinistlər müxtəlif qeyri-humanist yollarla azərbaycanlıları yox etməyə cəhd göstərsələr də, hənuz ki bu xalıq yaşayır və yaşayacaqdır. Çünki Şəhriyar, Məhəmmədəli Fərzanə, Yədullah Əmini, Həbib Sahir, Əli Təbrizli, Cavad Heyət,Əli Daşqın, Mehdi Nəimi, Hüseyn Düzgün və onlarla alim ziyalının elmi-mədəni xidmətləri indi geniş planda, kütləvi şəkildə həyata keçirilir.

Şahlıq rejiminin şovinist siyasəti yeni formada baş qaldırdı və müxtəlif vasitələrlə türk dilli nəşrlərin geniş vüsət alması və ya təhsil məsələsinə imkan verilmədi.

Hal-hazırda Azərbaycan dili şifahi danışıq dili formasında bütün Azərbaycan şəhər və kəndlərində ümumi

ünsiyyət vasitəsi olmaqdan əlavə, bu əyalətlərdə radio və telefonlarda işlədilir. Ancaq dilin elmi şəkildə təhsil olunmaması səbəb olub ki, dil qaydaları kobudcasına pozulsun. Demək olar ki, dil təhsil olmadığından qrammatik baxımından məhv olmaq həddinə çatmışdır.

Hər bir təhsil o millətdə düzgün qərar qəbul etmə faktını canlandıra və vətəndaşlıq müvəfəqiyyətini yüksəldə, ana dilli təhsili inkişafına zəmin yarada bilər. Qeyd etmək lazımdır ki, hal-hazırda Azərbaycan türkcəsi baxmayaraq ki, 35 milyon insanın insan dilidir, ancaq bu dilin bu günki gündə mövcudluğunun qorunması yeganə yazılı yol ilədir. Hal-hazırda İranda nəşr olunan qəzet və jurnalların bir faizinə qədəri bu dildədir. Bir də quzey Azərbaycanda yazılan bədii, tarixi və ədəbi kitabların əsgi hərflərə köçürülüb burada yayılması 1997-ci ildənbəri orada ədəbi dilin canlanmasına səbəb olubdur. Beləliklə, quzey Azərbaycanda yaranan ədəbi əsərlərin bura çatdırılması dilimizin inkişafına bilavasitə təsir etdiricidir.

# 20 YANVAR, XOCALI SOYQIRIMI VƏ QUTSAL DƏYƏRLƏRİMİZ

Atalar demişkən: - Keçmişini dəyərləndirə bilməyən ulusal gələcəyini qura bilməz. Yaxud ataların əməyini övladları dəyərləndirər. Uzun tarixi kin və nifrət, dini və irqi soy kök düşməni - başqa sözlə, ayrı-ayrı mədəniyyət və mintalitetlərin bir araya gələ bilmədiyindən onların uzun illər toqquşması və yaxud kimlərinsə marağına görə hərəkət retməsi qaçılmazdır. Şər qüvvələrin mənafeyi və stratejisinə uyğun hərəkət edənlərdə intiqam hissləri gülənəndə , onlar bu gündə və sabah da bu düşmənçiliyi yaşatmalı olacaqlar. Türkün düşmənlərinin əqidəsinə görə, "türkəm" deyən səs boğulmalı, "türkəm" deyən hər kəs yox olmalıdır. Bu qəribin və onun toxmağı olan bəzi qonşu xalqların türklərə qarşı tarixən yürütdükləri siyasətin gərçek üzüdür. Islamiyyətin, ədalətin, qardaşlığın çarcısı olan türk min ildən artıqdır ki, xristianların açıq və gizli təcavüzünə qarşı qalmışlar.

Atillanın Macarıstanı, Soltan Məhəmməd Fatehin Qəstəntiyəni (İslambul) fəthi, Əmir Teymurun Moskvaya qədər irəliləməsi, osmanlıların Van şəhərinə doğru yürüşləri, nəhayət türklərin Rum imperiyası əsarətinə son qoyması və inanlıları qaranlıq zülmətdən işığa, bərabərliyə doğru dəvəti bu gün də yalançı Avropa insan xalqları carcılarına həzm edilməzdir. Çünki gerçek ədaləti və haqq səsi türkün qılıncında və camilərdən ucalan azan səsində duyan o günkü Avropa insanı, bu gün də ədalətin sərt və doğru üzündən qorxu keçirir. Hər türlü mane olmağa çalışır. Bu maneələrdən biri xristianların şərq qolu və ən şovinisti olan

rusların Orta asiya və Qafqazlara iki yüz ildən artıq təcavüz və basqısıdır.

Türk soy və boylarından oluşan orta Asiya, Sibir və Qafqaz əhalisi istər çar imperatorluğu, istərsə də bolşevizim dövründə tam imperiya siyasəti ilə üzləşdilər. İnanclarına qadağa, milli varlıqlarına asimliyasyon düzənləndi. Bu siyasətin da davamını batı Avropada başqa türlü müsəlman olan hər kəsə yapdılar. Orta doğuda İsrail dövlətinin yaradılışı, İran-İraq savaşının çaxmağının çəkilməsi, hicab və dini inanclara qarşı sanksiyalar, qadağalar lap Avropanın göbəyində tətbiq olundu. Nəhayət, xristian dövlətləri Əfqanistanda bir kasadan su içərək İraqda xalqı əzdilər və onun sərvətini bölüşdülər. Ölkəmizə meydan oxuyurlar. Ərbablar sirr saxlayaraq çox vaxt ən mühüm cinayətləri nökərlüklərinin əlləri ilə törətməyə üstün verirlər. Onlardan ən ağırı Azərbaycanın Qarabağ və onun məzlum şəhəri Xocalıda baş verdi. (1992, fevral-24-25)

20 Yanvarda ruslar Azərbaycan türkünün istiqlal səsi, özgürlük, bağımsızlıq haykırısını tank və topla boğmaq istəsə də, bacara bilmədi. Düzdür, Azərbaycan xalqının uşaq, qoca, qadın, əlil və ümum əhalisinə Bakının xiyaban və küçələrində divan tutuldu. Millət iki yüzə yaxın övladını Azərbaycan türkünün qanı içində boğulan Bakı şəhərində qərənfil və çiçəklər ilə şəhidlər xiyabanına gömdü. Gömdü ki, onların ruhu Azərbaycanı qorusun və bu ruhların ölü və ulu səviyyəsi hər il insanların öz istiqlal və özgürlüklərindən göz olmağa səsləsin.

Bütün bu uğurları öz içinə sığdırmayan rus imperiyası intiqam aracını qurdu və erməni hiylə və təcavüz maşınını işə saldı. Qondarma Qarabağ münaqişəsi düzəldərək əslində erməni əhalisi olmayan Qarabağı qırğına qışqırdılır. Özləri erməni əsgərləri qılığına girərək 57-ci rus alayı vasitəsi ilə silahı olmayan, qoşunu olmayan türkü qətliam etdilər. O

gündən bu günə bu məzlum türkün səsini heç bir papaz, heç bir Avropa insan hüququ yanlısı eşitmək istəmir.

Xocalı gecə yarısı basıldı. Dinc əhali, əli yalın xalq top, tüfəng atəşinə məruz qaldı. Körpələr diri-diri nizələrə taxıldı. Səlib savaşının qisasını almaq amacıilə müsəlman azərbaycanlıların qız və qadınlarına təcavüz edildi. Evlər yandırıldı. Əsir tutlan kişilərin isə belində ocaq, tonqal qaladılar.

20-ci əsrin ən dəhşətli cinayətini törətdilər. Özlərini mədəni xalq hesab edənlər, beləcə də qərb və şərqli ərbabların izni və yardımı ilə Xocalıda su yerinə qan içdilər.

Erməni daşnak ASALA terrorçu təşkilatları eyni cinayətə əl atmış oldular. Hər iki tərəfdə təcavüzə məruz qalan müsəlman cinayəıti törədən imperialist nökərləri oldu. Qıbrsdan Qırğızıstana, Serbiyadan Xocalıya, Qəzzədən Qarabağa, Şərqi Türküstandan Bosniya-Hersoqovinya, Tatarıstandan Albaniyaya qədər hər yerdə üzləşdiyimiz haqsızlıqlar bu günlər ən qutssal dəyərimiz, yəni peyğəmbər əfəndimizə həqarət və ihanətlə Danimarkada planlı şəkildə həyata keçirilməyə başladı. Dünya xalqlarının oynaşına örtük tutmaq üçün qərb və Amerika başda olmaqla mədəni və kutsal dəyərlər savaş tərhi həyata keçirildi. Bütün insani varlıqlara yalançı sayqı göstərən qərb ölkələri bu gün peyğəmbər əfəndimizin bəşəri və elmi əxlaqiyyata sığmayan karikaturasını dərc edərək milyardan aşağı müsəlmanın ruhunu kirləməyə başladılar. Bu müsəlmanlar, bu neft əcdahaları, bu pul yanğınları, bu dünya huskarları... Mədəni dəyərlərdən xəbərləri olmayanlar yenə bizi arxadan vurmağa cəhd göstərdilər.

Hər halda inanıram ki, istər ermənisi, istər hər kimi hansı adla olur-olsun bunu bilməlidirlər ki, bu gün bütün irqlərdən olan və qafasında islama sayqı bəsləyən hər kəs onların iç üzünü tanıyır. Bir daha Türkiyənin Trabzon

şəhərində 14 yaşlı gəncin bir kişiyə saldırısı durdurulmazdır. Çünki gənclik artıq məsələ ilə uğraşmaya başlamışdır. Hey Biz hey mədəniyyət danışığı dedik, onlar mədəniyyəti çatışdırdılar. Biz saf ürək, onlar məkirli düşmən oldular. Yetər ki, haqlı olaraq öz haqq və hüququmuzu qorumağı bacaraq, Tanrı bütün şəhidlərimizə, ələlxüsus 20 yanvar və Xocalı soyqırımı qurbanlarına rəhmət eləsin.

# DUMANLI QAFALAR, QARMAQARIŞIQ DÜNYA

Dumanlı qafalar, qarmaqarışıq dünya, düzənsiz güc qurumları.. Doymaz batı dünyası, zəngin doğu aləmi, bic, yırtıcı batı yönəticiləri, hərəkətsiz şərq etiqadları və onlarla, yüzlərlə həll edilməmiş torpaq, kültür və mədəni haqqları sorunu yaşadığımız yer kürəsini əxlaq, iqtisad, siyasət və digər bu kimi faktorlara həll edilməz duruma soxmuşdur.

Böyük güclərin digərlərinə təzyiq, basqı alarmaları, kiçiklərin daxildı ölkə əhalilərinə zülm və basqıları bütün bəşəri arzuların 21 yüz illikdə də boşa çıxmasına nədən olur. Çevrəmiz canlı və görünməzdir. İçimiz acı və sarsıdıcı. On illərdir mədəni və digər xalqlarımız baykot olaraq qalmaqdadı, şüuru gəlişmə stop durumundadır. Varımız yox edilir. Yoxumuz var olaraq gözümüzə savrulur.

Günahsız, suçsuz adımıza, ulusumuza nələr edilir, bunu anlatmadığımıza ona görə bizə yağdıranlar böhtan və iftiralar ağ yalan olaraq bəşəri anlaqsızlıq kimi öz alınlarına yazılacaq.

1386-cı il bütün tarixi acılarla yanaşı, yenə basqı, qorxu və iztirab içərisində ulusumuzun yeni tarixi kimi və uzaqda soydaşlarımız üçün ata, balalarının uğursuz və köləlik tarixi kimi dərsliklərdə oxunacaq və bizim fəxr edilə biləcək atalar ola biləcəyimiz sual altındadır.

Xatırlamaq lazımdır ki, biz tarixdə fateh babalarımızın mədlik, ağbirçəklərimizin əməlləri ilə fəxr edirik.

Misal üçün şah İsmayıl Xətayinin, Tomirisin və minlərlə belə uğurlu ata-anaların işləri xatirimizdədir və onlardan məmnuniyyətlə ad aparırıq.

Görəsən, gələcək tarixdə bizim bugünkü köləlik vəziyyətimizi uzaq nəsillərimiz necə qiymətləndirəcək?

Dəyərli yurddaşlar, gələcək bu gün bizim əllərimizlə qurulur, sizin tarixi taleyiniz yalnız bu günkü müdrik anların nəticəsidir.

Çox sadə və təbiidir ki, özümüzü düşünək və kimliyimizi başa düşək, onu qorumağı bacaraq.

Mal, mülk və dünyəvi olan hər şey müvəqüqətidir. Villa və həyətlər, pul və paralar, qızıl, gümüşlər heç şahlarda qalmadı. Yalnız bir böyük əməl, bir böyük iş, cəsarətli real iş gerçəyi qalarqıdır.

Dəyərli yurddaşlar, yörəmizi bütün sorunların bürüdüyü halda əl-əl üstə qoyub oturmaq, zaman itirmək və müşkülləri gələcək nəslə ötürməkdir. Siz hər şeydən çox sevdiyiniz övladlarınızı bu gün həll edə bilmədiyiniz müşküllərin çəmbərisində buraxıb getməyə haqlı deyilsiz. Üstümüzə yürüyən açıq və örtülü düşmənlərə tutarlı müdafiə imkanları yaratmağımız lazımdır.

Kölə olub, nökər olub igid bəsləmək imkansızdır. Dilsiz, okulsuz xalqdan nə gözləmək olar? Çadırda, çəpərdə, manqal başında, küçə başlarında yabancı dərs kurslarında nə kimi şeylər becərmək olar? Qarın cürüyən, siqaret puluna namus al-veri edən, kiralıq yaşamaaq üçün böyrək satıb pul-piş verənlərdən nə gözləmək olar? İki bacı bir manto geyib okula gedəndə, ana və qızın ikisinin bir ayaqqabısı olanda, gecəni Allah ümidilə sabahlayan qardaş-bacından nə kimi dəyərləri gözləyirsən? Ana dilini buraxıb ata babasına qədər düşmən olandan, soyuna, kökünə düşmən yaradılandan sabah bütün əxlaqı dəyərlərin yerli-köklü silinməsindən savayı nələr gözləmək olar? Yalançı, rəngli həyat qürbətdə gözlərimizə pərdə olaraq asılmış, acı həqiqətləri görə bilmirik. "Xudafərin" dərgisi olaraq bütün ictimai və fərhəngi məsələləri aydınlaşdırmaq üçün əl-ələ verməyimizi rica edirəm. Ölkəmizin bizə ehtiyacı var. Hər kəs gücümüzü bilməlidir.

# ORXON YAZILARI

Türk yazılarının tarixinin öyrənliməsi 18 əsrin ilk yarısına təsadüf edir.İlk dəfə türk kitabələrindən Əlaləddin ata Məlik Güveni bəhs etmişdir. Ancaq kimsə bunlara diqqət etməmişdir. O biri tərəfdən Cin vəsiqələri də bu kitabələrin olduğunu xəbər verməkdə idi. Tozkiyə yazılarını ilk dəfə elm aləminə tanıtdıran Yuhan fon StahlenBergdir.

İsveçli bir zabit olan Yuhan məşhur Poladava savaşında iştirak etmiş və ruslara əsir düşmüşdür. Onun azad dolanmasına icazə verilmişdir. O bu havalidə 13 il yaşamışdır. Və 1722 də vətəninə dönə bilmişdir. Əsarətdə olduğu gündən ona qadağan edilmədiyi üçün həvalinin çox yerlərini dolanmışdır. Burada yaşayan qövmlər haqqında çoxlu məlumat toplamışdır. Voqallar arasında olduğundan biz voqalın qurban olduğu mərasimi görmüşdü.

Ostyaklar, samoyedlər, yakutlar, tatarlar və moğollar arasında dolanmışdır. Etnoqrafik məlumatlar toplamışdır. Vətənə dönükdən sonra "Das Nord and ostlichetheli von" adlı məşhur əsərini nəşr etdirir. Bu əsər dərhal layiq olduğu şöhrəti qazandı. Bütün elm aləmini düşünməyə çağırdı. Həmin əsərdə ilk dəfə olaraq müəllif türk kitabələrindən bəhs etmişdir. Hətta kitabında bu məchul yazıların surətini də nəşr etmişdir. Bundan bir xeylimüddət sonra orta Asiya gedənlər bu yazıların kopyalarını gətirdilər və əsərlərində dərc etdilər. 18-ci yüz ilin sonralarında Rusiyada səyahət edən Pallas da səyahətnaməsində bu məchul yazılı kitabələrdən bəzilərinin kopyalarını dərc etmişdir. Daha sonra Spassky də 1822 ci ildə "Peterozburqda İnscriptiones Sibiriacae a ntguis gubusdam sculputuris et inscriptioni" adlı əsərini nəşr etmişdir. Burada 22 kitabənin kopiyası verilmişdir. Bu əsnada Messerschmilt daha bir kitabə kəşf

eləmişdir. Ancaq bir il sonra məchul yazılar hər kəsə məlum olmuş, fəqət bunları kimlərə aid olduğu və haranı ehtiva etdiyini məvhul və naməlum qalmışdır. 1925-ci ildə Abel Remisat bu kitabələri türklərin qədim məmləkətlərində olduğunu bildirmişdir. Yazıların sirrini açmaq 19-cu əsrin axırlarında Kopenhagen daneşgahı müqayisəli filoloji professoru Vilhelm Tomsenə nəsib olmuşdur.19-cu yüz illikdə Rus arxeoloqlarının Yad Rintseff Asiyadan Orxon irmağı civarındakı türk yazılarının kopyalarını elm aləminə çatdırdıqdan sonra bir Finland səfər heyyəti Heikelin rəyasətində oraya səyahətə getmişdir. Kitabələrin mükəmməl fotoqraflarını və stampaclarını gətirməyə müəffəq olmuşdur. 1892-ci də səfər heyəti əsərini nəşr etmiş, artıq bu əsərlər elm dünyasında etud edilə bilməyəcək bir hala gəlmişdir. Yazıların başında Çincə mətinlər də olduğundan bunların tərcüməsi edilmiş və Gabriel, Eshegel və Parker kimi alimlər 832-ci ilində Çin imperatoru Hiuen-tsung tərəfindən həkk etdirilən yazı ilə məşğul olmuşdur. Yazının almanca tərcüməsini Georg Vanders tərəfindən əncam verilmişdir. Bu yazıları həll etmək şərəfi Tomsona qismət olduğunu söyləmişdik. Tomson 1893-cü də bu yazıları həll edərək turək, Gültəkin kəlmələrini oxumağa müvəffəq olmuşdur. Və Bulletin de L, Akademikcroyale des sciences et des letter do danemark da "s 285299" yazıların açarını nəşr etmişdir. Ardınca alim yazıların tərcüməsilə məşğul olarkən rusiyalı alim Radolff türk yazılarının tərcüməsini "Petrozborq 1890 Die altturkischen inschriffen der mongolei" adı ilə nəşr etmişdir. Bundan bir necə il sonra da Tomson Orxon yazılarını elmi bir surətdə fransızca tərcüməsi ilə "Helsingfors da Memories de la sosietefinno ougrienenin" beşinci cildi olaraq nəşr etmişdir. Orxon yazıları bu adı daşıyan irmağın əski məcrası vadisində olub iki yazının bilindiyi yer həmən bir-birinə yaxındır. Arada bir

kilometr məsafə vardır. Bu kitabənin daha sağlam qalmış olanı Bilgə xanın balaca qardaşı Kültəkin adına 832-ci ilində tikilmiş olan abidədir. Bu abidə 3.5 metrdir. Yuxarıdan aşağa gəldikcə yoğun bir şəkildə və mərmər daşındandır. Abidənin yuxarısı 22-1 və aşağısı 32-1 metr enlikdədir, daşın hər tərəfi yazılıbdır. Çincə kətibhəsi də vardır. Yazıların üzərindəki cəbhələri professor Tomson dörd səmtdə göstərir. Və onları doğu, batı, quzey, güney səmtlərinə bölür. Yazının doğu səmtində 40, güney və quzey səmtində 13 sətir mövcuddur. Bunlar şəkli bir tərzdə yazılmışdır. Güney səmtindəki sətirlər hökmdarın millətinə qarşı nəsihətlərini, çinlilərlə savaş aparmalı haqqında tövsiyələrini ehtiva edir. Bunlar müqəddimə mahiyyətində də ola bilər. Nəhayət, Tomsonun ən son tərcüməsi kimi biz də əsərin tərcüməsini bu səmtdən başlamağı münasib gördük. Kitabə tapıldığı vaxt yerə dəymiş bir halda ikən təkrar qabaqkı yerinə batırılmışdır. Abidədən bir az o tərəfdə daşdan tikilmiş bir qurban kəsiləcək yer vardır. Bununla abidə arasında torpaq bir təpə durur ki, bütün bina ordan çıxan keramit parcalarındantikilmişdir. Təpənin yanında mərmərdən düzəlmiş və başları ancaq buralara gələn qumlar tərəfindən qoparılmış olan yeddi heykəl vardır. Bütün bu ərazinin məhutəsinin bir sıra duvarlarla hörüldüyü məlumdur. İkinci yazı 733-ci ildə ölən xan adına 735-ci ildə tikilmiş, abidənin ümumi vəziyyəti və tərtibatı tamamilə ayrı yazıda olduğu kimidir. Yazı əvvəlkindən bir az daha yüksəkcə olduğundan, doğu tərəfinə 41 sətir yerləşmişdir. Digər səmtində 15 sətir vardır. Bu kitabə birinci kitabəyə görə daha çox xarab olmuşdur. Bunun da çincə kitabəsi vardır. Ancaq pozulmuşdur və çox az yerləri oxuna bilir.

# QANSIZ DAMAR, DİLSİZ BAŞ

Görəsən, birdən-birə möcüzə olsaydı, bütün ölülər dirilsə idi, o qəbirdə yatan bütün ata və analarımız, ölü babalarımız dirilib gəlsəydi, nə olardı?

Yəqin ki, bundan böyük hadisə tarixdə baş verməmiş olardı, həm də bütün yalan-palan, oğru-doğru yazan tarixçilərin kitab-dəftəri bağlanardı. Kim nə vaxt türk olub, kim nə vaxt rus olub, yaxud kim nə olub? Yaxud kim nə olmayıb? məsələsinin dəftəri həmişəlik qatdalanmış olardı. Əlbəttə, bizim üçün xoş odur ki, isinib qəm və əzalarını yediyimiz əzizləri bir daha görərdik. Və yəqin ki, çox sevinərdik, çünki dünyanın ən qəhrəman insanları olan ölü əcdadlqımızla dünyaya fəxr sata bilərdik!.

Bar-bar bağırdığımız Tomiris xanım, canımızddan çox sevdiyimiz Səttarxan, inandığınız Fərabi, Mahmud Kaşğari, Dədə Qorqud, Əbu Əli Sina və s...

Fəlsəfə, nücum və musiqi ilə uğraşan dünyaya meydan oxuyan bir çox alim və siyasətçilərimiz,o cümlədən Xoca Nəsrəddin Tusi və Əhədi Marağayi, Şeyx Mahmud Şəbüstəri, Babək, Əmir Teymur - bəzilərinin göxü götürmədiyindən dediyi Teymurləng. Allah eləməmiş, qulağıma qurğuşun, qəbir çatlasa və oyanıb gəlsələr və görsələr ki, onların buraxıb getdiyi mədəni-ərazi və elmi irsi kimlər idarə edir, görəsən nə olar? Amma, məncə onlar durub gəlsələr və görsələr ki, arxalarında buraxdığı övladları yadlaşıb və cılız bir şey olub, yüz faiz utandıqlarından bir daha üzülərdilər. Ona görə də ölərdilər ki, dılğır erməni onların torpağın işğal etmiş, tarixi yer yaddaşını silməyə cəhd etmişdir və onun övladlarını soyqırıma məruz qoymuşdur.

Ona görə ki, illər boyu, bəlkə, əsrlər boyu bizə yalvarıb vergi verən, ədalətimizdə pənah tutub yaşayan Avropa xalqları bu gün osmanlıdan qalan babalara meydan oxuyur və onların türk olmayacaqlarının yuxusunu görür.

İllər və əsrlər boyu soyunu, kökünü, recnini və qanını dəyişdirdiyimiz ruslar 200 ildən artıq onun torpaqlarını işğal edərək övladlarına divan tutur və bilicilərini sürgün edir, edam edir, bir sözlə varını yox edir. 140 milyon insanı bu günçün təməl haqqlardan məhrum edərək bütün gücü ilə varına balta çalır və onun dədə-baba yer-yurd adlarını dyişdirərək tanınmaz edir.

Alban tarixi abidələrini bu gün dini şərtlər adı altında özəmləşdirən iki çüt bir tək ermənivə cavab verə bilmədiyimizə görə onlar bizə nə kimi ifadələrlə müraciət edərlər? Bütünlüklə öz varlığımıza yiyə durmadığımıza görə onlardan nələr eşidəcəyik? (Qədim məsihit dövründə Məsih dininə qulluq edən Azərbaycan türklərinin əsərləri)

Evində, çölündə başqalaşıb aşını sup edənlərə, ayaqqabısı kəfş olanlara, Dədə Qorquddan xəbərsiz, Nizamidn heç nə bilməyənlərə, işini, arını-abrısını yalan modernləşməyə qurban verənlərə, ana dilini unudub yad dildə danışanlara "sağ olun"mu deyəcəklər?

Kişi odur işini düz qura, xanım odur kişini düz idarə edə, analıq borcunu yerinə yetirə. Onad suyu su olar, çörəyi çörək, gülü gül, goru-gor. Uydurma çağdaşlaşmaya uymayan hər kəs mənim nə dediyimi yaxşı bilir.

Əziz vətəndaşlar, köpüyə boşuna əl atmayın, sel aparırsa tədbir qılın. Papağımızı qabağımıza qoyub bir dərindən düşünək, axı mənim atamın, mənim anamın başqalarından nəyi əskikdir, görəsən? Bir az mürvət, bir az bilik lazımdır ki, sən öz əzəmət və böyüklüyünü dərk edəsən.

Mən yuxu görmüşdüm ki, ölü əcdadlarımız bizim bu rüsvayçılığımızdan bərk nigaran idiələr. Çünki onların uca

ruhları bizim başımızın üstündə gəzirlər və bütün əməllərimizə nəzarət edirlər. Əgər sizin bir fərsiz övladınız olsa, pulunuzu aparıb uyuşdurucuya versə, narahat olarsız ya olmazsız?

Elə buna görə də, nurla dolan əcdadlarımız bizim bifər olduğumuzdan bərk narahatdırlar. Çünki biz onları layiqincə mühafizə edə bilməmişik. Bizə əmanət etdiklərini başı boşluqdan zərrə-zərrə, qram-qram verə-verə gəlib bu hala qalmışıq Allah bizdən sonra gələnlərə rəhm eləsin. Onların işi lap çətindir, çünki ölü ruhlar onlardan bərk narahatdır. Çünki onların dilin heç bir-biri ilə danışanda başa düşmürlər. Yenə bizə rəhmət!!.

# AZƏRBAYCANDA MİLLİ ÖZÜNÜDƏRKİN TƏHLİLİ

On beş ildən artıqdır ki, azərbayanlılar arasında bir oyanış və dirçəlmə prossesi başlamışdır. Qısa müddətli bu hərəkatın mənası mədəni kimlik və türk dilinin ölkə, bölgədə yayğınlaşması ilə yanaşı, onun dərsliklərlə tədrisi və kütləvi informasiyaya vasitələrində istifadəsi deməkdir. Yerli idarəetmədə yerli kadrlara önəm verilməsidir.

Baxmayaraq ki, azərbaycanlılar uzun müddətdir varlığını müdafiə üşün çox mühüm işlər görmüşlər, ancaq yüz il ərzində son on illik daha da önəm daşıyır və azərbaycanlıların milli özünüdərki hələ demək olar ki, tam bir hərəkat yox, bəlkə, bir ciddi hərəkatın ön görüntüsüdür. Bu hərəkat və oyanışın özəllikləri ondan ibarətdir ki, bu xalqın öz daxilindən qaynamış olmuşdur. Bu milli özünüdərki dünya və bölgə müstəvisində dəyərləndirmək olar.

Azərbaycanda son on ildə başlanan milli şüur oyanışı və özünüdərk, demək olar ki, yeni Azərbaycan aydınlarının dünyada yaranan fikir ruşeyimindən can alması nəticəsindədir. Ona görə bu fikir, özünüdərk cərəyanı, xüsusilə gənclər və öyrəncilər arasındda özünə baza yaratmışdır. Əlbəttə, qeyd etmək lazımdır ki, bu milli özünüdərk prosesində həm xalq, həm yerli ruhanilərin, həm də ziyalıların himayəsi önəm daşıyır. Unutmaq olmaz ki, Azərbaycanın milli kimlik oyanışı məsləsində, hətta ölkədaxili icra orqanlarının da müsbət meyli hissi olunmaqdadır. Bunu İslami Şura Məclisinin nümayəndələrinin mövzu və ifadələrində də görmək olar. Azərbaycanda yaranan hərəkatın üst yapısı, demək olar ki, öz-özlüyündə toplantılar, kültürəl yaradıcılıqlar, şeir və

musiqi toplantılarında, həm də yerli nəşriyyə və gündəliklərdə öz inikasını tapır. Yerli seçkilərdə milli tələblərin qabarıq şəkildə özünü göstərməsi, tumar və məktubların yuxarı düzəydə görəvlilərə ünvanlanması - hamısı kutlu oyanışdan xəbər verir. Gündən-günə türk dilli mətbuatın tirajının çoxalması bunu göstərir ki, xalq məsələnin mahiyyətindən xəbərdardır.

Bu hərəkatın gərcek üzü bütün türk yaşayan bölgələrdə özünü göstərməkdədir. O çümlədən: Təbriz, Ərdəbil, Zəncan, hətta Tehranda da hiss olunmaqdadır. Bu hərəkatın fəalları, ümumiyyətlə bütün təbəqələri ehtiva edir. Hal-hazırda xas bir siyasi görüş və düşüncənin üstünlüyü qabarıq şəkildə özünü göstərmir. Ancaq hərəkatın kütləvi hal alması və xalqlaşması qaçılmaz hal almışdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın milli hərəkatları, öncəliklə də yaxın tarixi özünüdərk mahiyyətli hərəkatları, demək olar ki, ictimai və ədalət məhvərləri istəkləri kimi görünməkdədir. Bunların bəzisi sosialist düşüncəsi tərzinə aid olan sovet dönəmində o rejimin Azərbaycana etkisi kimi dəyərləndirilə bilər. Bəzisi də dini müstəvidə və başqaları da yerli özəl milli mənsubiyyət zəminində özünü göstərməkdədir.

Azərbaycanda özünüdərk hərəkatında əsas saxlayıcı platforma yoxdur, ancaq çeşidli yönətilmə metodları görünməkdədir. Bunu müxtəlif hidayət kanalları dünəndən bu günə mükəmməlləşdirməkdədir.

Əlbəttə, hərəkatın mahiyyətindən görünən odur ki, müxtəlif tipləri özündə ehtiva edən özünüdərk sürəci, demək olar ki, bir məsələ üzərində yekdildirlər. O da milli haqlar məsələsidir. Məsələyə baxdıqda fikir və səliqə ayrılıqları olduğu halda, ixtilafın olmadğı görünməkdədir. Məsələnin üzərindən hər gün keçdikdə, demək olar ki, bu hərəkat sabitləşir, möhkəmlənir və güclənir. Tələb olunan haqlar

verilmədiyində aşırı millətçilik ortaya çıxa bilməməyə doğru irəliləyir.

Əlbəttə, azərbaycanlıların dil, kültür, ərazi və iqtisadi yatırım və qalxınma sorunları ilə yanaşı, onlara başqa qonşu xalqlar, o cümlədən kürdlər vasitəsi ilə basqı edilməsi də həyəcan doğura bilər. Müxtəlif kürd şəhərlərindən Urmiyə və başqa Azərbaycan şəhərlərinə axın edən kürd kütləsi gələcəkdə azərbaycanlıların həyatında müşkül yaradacağı göz ardı edilmir. Azərbaycan Cümhuriyyətində köçmən ermənilərin Qarabağa ərazi ideyası və onun nəticəsində savaşın ortaya çıxması, deмək olar ki, digər azərbaycanlılara tarixdən dərs almağı vacib etmişdir.

Azərbaycan milli özünüdərk hərəkatı, demək olar ki, qanuni dayaqlara əsaslı bir hərəkatdır. O cümlədən 15 və 19- cu Anayasa maddələrinin tələbi və bu tələblərin əsasında mədəni haqların verilməsi, demək olar ki, azərbaycanlılar tərəfindən qanuni olaraq istənilir. Ancaq qapalı mərkəzyönlü idarə sistemi bu mədəni tələbatı nafərmanlıq adlandırsa da, işin gərçek üzündə bir xalq, bir tələb, bir zəngin tarix dayanır.

Qacarların süqutunddan sonra Pəhləvi hakimiyyətinin ariyacılıq siyasəti və islam inqilabından sonra milli birlik məsələsi, demək olar ki, azərbaycanlılardan birinci növbədə tarixi fürsəti aldı. Qeyd etmək lazımdır ki, iki ideoloji yönün həyata keçirilməsində fars dili və mədəniyyəti əsas götürüldü və azərbaycanlıların milli və kültürəl varlığı öz əhəmiyyətini itirməyə başladı.

Beləliklə, azərbaycanlıların milli istəklərini tarixi pərdələmə sürəci öz altına aldı. Hətta qanuni və haqlı istəklərə qarşı bir çox məqamlarda sərt tədbirlər həyata keçirildi.

Dilinə, kültürünə, bir sözlə müasir dünyada varlığına təzminat verilmədi. Bütün gərəkli olan şeylər ondan

əsirgələndi. Mədəni-siyasi tələblər öz özlüyündə iqtisadi düşüşə gətirib çıxardı.

Milli və demokratik hərəkatlar öz içində xalqı kütləvi şəkildə birləşdirməyə qadirdir. Bu məsələni təkcə Azərbaycan özünüdərk hərəkatı yox, bəlkə azərbaycanlı hər bir türk öz-özlüyündə düşünür. Bunu deməyə əsas verən, bu yaxınlarda İran "Cümə qəzeti"nin ihanətinə cavab olaraq azərbaycanlıların təpkisini göstərmək olar. İnficar ictimai xətri bu anlarda ölkəni təhdid altına ala bilir. Məsələni yenidən götür-qoy etmək lazımdır. Günü-gündən vətəndaşlıq şüurunun artdığı bir dönəmdə hakim xalqların hakim etiqadları azlıqların, ya basqıda yaşayan xalqların istəklərini dinləmək məcburiyyətindədirlər. Fakt belədir ki, qardaşlıq nümayişi adlı fantaziyanı yenidən bərpa etmək röyası kəskin olaraq ölkənin parçalanmasına səbəb ola bilər. Heç bir şovinist hərəkət öz-özlüyündə həm yurüdənə, həm yürüdülənə şirin nəticə verməz. Çünki sən üstünlük istəyirsən, bil ki, o birisi də səndən azlıq olmayan xalqdır. Mənə belə gəlir ki, demokratik və qardaşlıq dəyərləri hakim qılmaq hər kəsin, hər millətin haqq və hüquqlarına sayqı ilə yanaşmaq uzun ömürlü yaşamağın qarantisidir.

# ORTA DOĞU: GƏLƏCƏYİMİZİN YENİ DÜZƏN ADLI BÖLÜCÜ QƏRB YÖNLÜMLÜ PLANLARI

Türkiyə, Qafqaz və ölkəmizin şimal hissəsi, İraqın süni Kürdüstan əyaləti qərbin hazırladığı "Orta doğu" planda mühüm yer tutur. Əslində ətrafda oynanan bütün oyunlar, şətrəncin bütün növ hərəkətləri şahı mat etməkdən ibarətdir.

Hal-hazırda yaşadığımız bu mədəniyyət qaynağı olan tarixi ərazilər ən qədimdən bu günə kimi bəşər oğlunun ən qaynar həyat nöqtəsi olmuşdur. Tanrı ən böyük dinləri, o cümlədən: islam,xristian və s.. dünyanın bu hissəsində insanlığa ərməğan etmişdir. Yaradıcı və uluşduran bir ərazi, yəni Orta doğu günümüzdə yüzlər milyon insanın yaşayışının mərkəzi qaynağı olan məkandır.

Neft, qaz, çeşidli dinlər və inanclar, alt quruluşların nasazlığı, çox irqlik, coğrafi, siyasi, ölkədaxili və ölkəarası sərhədlərin düzgün cızılması və bunlardan daha üstün bölgədə olan yönətici recimlərin mərkəzyönlü idarə sistemləri bu bölgədə vəziyyəti mürəkkəbləşdirir. Ölkə gəlirlərinin düzgün, adambaşınaa paylanmaması, hökumət və dövlət məmurları tərəfindən xalqın sərvətinin mənimsənilməsi, anarxiya, silahlı dəstələrin mövcudiyyəti, ideoloji və maddi mənafelərin toqquşması, kimlik probleminin qabarıq şəkildə özünü göstərməsi, yeni yaranan ölkələrin daxili və xarici səbatsızlığı, ədalət və inkişafın dünya tempi ilə ayaqlaşmaması və bunlara bənzər bir çox fakt və amillər öz özlüyündə Orta doğunu bir para ölümcül çətinliklərin qucağına sürükləməyə səbəb olur. Bölgədə qərb, xüsusilə Amerika kimi güc dövlətlərinin özəl mənafeyi, bunların bir başa dəstəyi və yaxud dolayı dəstəkləri ilə yaradılan süni dövlətlər Orta doğunu çətin duruma salıb.

Silahlanma yarışması müstəvisində gedən rəqabət, demək olar ki, Orta doğunu silahların deposuna – anbarına çevirib. Silahlanma və qarşıdurma yarışması çox hallarda süni şəkildə qərb ölkələri tərəfindən yaradılır. Qondarma dövlətlərin öz qeyri-demokratik hakimiyyətlərini qoruma planları, bütün iç qorxularını atlatmaq üçün onları yaradan dövlətlərin buyuruq quluna çevrilməsi nəticəsində, demək olar ki, ölkə içi və ölkə dışı gücsüzlüyün göstərgəsi kimi hakim dairələr silahlanmaya əl ataraq qonşu və ya qarşı dövlətə hədə və qorxu gəlməyi davam etdirilir.

Bu alanda qonşu qərb dövlətlərinin barmaq boyda İsrailə qəti cavab verə bilmədiklərini görməmək olmaz. Qərbin qərb təfəkkürünün bariz göstərgəsi olan İsrailin qarşısında qorxaqlıq nümayiş etdirən qərb hökümətləri bir sıra digər məsələlərdə çox cəsur çıxış edərək güc nümayiş etdirirlər. Lakin bu türli cəsarətin nümayişi ilk öncə pilənmiş şara bənzəyir. Yer və onu piləyən adam görünməsə də, düşünülə bilər. O cümlədən, ölkəmizin cənubdda bir neçə adası ilə ilgili qərb dövlətləri birliyinin düşmənsayağı jestlərinin nümayişi bu planın arxasında nələrin və kimlərin olduğunu göz önünə sərir. Bu hərəkət və qəti mövzu nümayişi islam və bu inancın təməl atributlarına yönəlik daxildən çürütmə, çirkin əməllərin kimlər tərəfindən bizə qarşı olduğunu İsrail-qərb duruşması acısından qabarıq görmək mümkündür.

İsrail və onun qəddar əməllərinə qarşı qorxaqlıq və təcavüzkarlıq nümayiş etdirən ərəb hakimiyyətləri bir-birlərinə qarşı sərt və düşmənsayağı iradə sərgiləməklə işin nə olduğu və hansı qapının hansı açar ilə açılmağını göstərir. Bu məqamı ona görə xatırladım ki, ölkənin cənubunda olan durum bizim üçün aydın olsun və bəlli ki, aydındır. Qeyri-hüquqi, qeyri-demokratik dövlətlərin mövcudiyyəti nə bölgə, nə də ölkələrdə yaşayan ulusların xeyrinədir. Bununla yanaşı, ölkənin şərqində terrorizmin

qaynar çeşməsi olan Əfqanıstan, Pakistan və bir qədər uzaqda ac insan sürülərinin bütün maddi qaynaqlardan uzaq olduğu kütləni görmək olar. Qərbin bölgəyə çəkdikləri planda ölkənin şərqində həmişə qaynar olaraq, mədəniyyətdən uzaq, ac-yalavac, silahın burnunda çörək daşıyan insanların olmasını saxlamaları, gələcək Orta doğu xəritəsinin cızılması yönündə qabarıq əhəmiyyətə malikdir. Orta doğunun bu hissəsində sərhədlərin qeyri-sabitliyi, uyuşdurucu əkilməsi, becərilməsi, örtülməsi və yayımı ilə tranziti, bölgə əhalisinin maarifləndirilməməsi, savadsızlıq və həyat tərzinin çox düşük olması, adamların başqalarına qul olmağa və onların əmrlərini yerinə yetirməyə hazır olağa istiqamətləndirilməsi mövcud şərait kimi qiymətləndirilə bilər. Gələcək orta Doğu xəritəsinin cızılması da mühüm amil kimi diqqət mərkəzindədir. Orta doğunun İraq hissəsi və edilən açıq basqı, yürüdülən işğal siyasəti gizli qalan daha bir şeyin olduğunu deməyə imkan verir.

Dünənin supermənі Səddam qərbin dəstəyi ilə həm ərəblərə, həm də qonşulara meydan oxuyaraq nədən birdən birə suyu süzülmüş siçan kimi dünyanın gözünün qarşısına çıxır? Nədən o törətdikləri cinayətə görə tutulduğu yerdə öldürülmür? Nədən onun sarayları bütün diqqət ilə bombardman olunduqda, o qaçmağı bacarır? Bu al pişiyi, qərbin əhliləşdirilmiş heyvani, qərbin tərif elədiyi sirk meydançasından kənar çıxa bilmir. Çünki keçdiyi dərslərin əksinə hərəkət eləsə, onda ərbablarının nəqşəsi alt-üst olardı.

Bütün müsəlman qardaşlar bilməlidir ki, bölgədə oynanan oyunlar xaricdən kontrol edilərək həyata keçirilir. Elə ölkəmizdə şahlıq reciminin devrilməsi və Məhəmmədrza şah qoçunu götürərək yerinə bölgədə Səddam qoçunu jandarm etmək hamısı bunu sübut edir. İngiltərə, Amerika və qərb üç bucağının dünya düzəyinə, eləcə də Orta doğuya

və onun tükənməz enerji sərvətinə yiyələnməsi üçün İslam dünyasını daxildən sarsıtmaq niyyəti onların əsl stratejik planlarıdır. Unutmaq olmaz ki, səlib yürüşünü ruhlarında, kitablarında bəsləyib saxlayan qərbilər nəyə görəsə inanc və ruhu müsəlman olana çətin ki, dost münasibəti bəsləsin.

Dedik ki, qərbin Orta doğu planında uzağa hesablanmış məsələlər var və bunların ən mühümü bundan ibarətdir ki, Orta doğuda başsız İran, ayaqsız Türkiyə, qolsuz Suriya və gövdəsiz Azərbaycan olsun və bütün bunların parçalarından yaradılmış azad Kürdüstan dövləti olsun. O dövlət ki, xalq dili ilə desək, bicdir. Belə dövlətlərin tarixdə istismarcı qüvvələr tərəfindən yerli əhaliyə qarşı jandarm kimi yaradıldığı məlumdur. Bunlardan ən təhlükəlisi İsrail Ermənistan kimi dövlətlərdir ki, bunların yaradılma amacı və məqsədi terrorun kölgəsinin bölgədə hazır olmasıdır. Bundan iki məqsəd güdülür.

1. İstismarçı dövlət bütün cinayətləri öz əlilə yox, bəlkə bu qulp dövlətlər vasitəsi ilə törədir. Qarabağ müharibəsi kimi. Bu müharibə qərbin Azərbaycanın neft və qaz mənbələrinə yiyələnməsi üçün Amerika, İngiltərə və İsrail tərəfindən yaradılmış, ruslar aparıcı qüvvə kimi ermənilərin əli ilə Azərbaycanın əraziosini işğal edərək iki qonşunu əbədi düşmənə çevrdilər. Ermənistan dövlətini sonra Türkün düşməninə çevirərək ondan amil kimi istifadə edirlər. Sonra Minsk sazişi qrupu yaradılaraq dayədən mehriban ana rolunu oynaya bilirlər. 14 ildir ki, məzlum Azərbaycan xalqının pulu, Minskqrupunun əli ilə nəqşə çəkilir. O biri tərəfdən bir "Çeçen məsələsi" yaradaraq rusun dəstəyini almaq üçün çeçenləri onun gözünə soxurlar.

2. Kölgə dövləti uzaqdan idarə və yaxında çaxnaşma amalına yönəlik stratecik planlarını həyata keçirilməsi, yəni BMT-də və Təhlükəsizlik Şurasında səs çoxluğu yaratmaq, işlərə qanuni şəkil vermək onların stategiya və

taktikalarıdır. Başlıca məqsəd dünya xalqlarını yalan ilə ovundurmaq, bütün günahı məzlumların boynuna qoymaq və onların ölkələrini demokrası adı ilə yaxında olan qondarma və bic dövlətlər vasitəsi hər zaman iztirabda saxlayaraq talamaqdan ibarətdir.

Orta doğuda yeni, atasız, soysuz, köksüz və qondarma dövlətin Kürdüstan olacağı artıq hər kəsə bəllidir. Bu yöndə İraqda demək olar ki, yarım müstəqil Kürdüstan dövləti yaradılmışdır. Bu, bölgə ən sürətli inkişaf edən nöqtələrdən biridir. Bununla bərabər, İsrailin hərbi savaşa girməsi və terror başlığı adlı altında yerli müdafiə qüvvələrini aradan götürmə siyasəti orada olan bütün qüvvələrə qarşı həyata keçirilir. Fələstində qondarma hakimiyyət düzəltmə və islami guruhların, o cümlədən Həmasın hökumət qurmasına imkan verməklə yanaşı, Suriyaya təzyiq edərək imtiyaz qoparmaq, nəhayət onun İraq sərhədləri yaxınlarında kürdlərin yaşadığı bölgələrdə Kürd Muxtar hökumətni qurmaq da Orta doğu planına daxildir. Planın digər bir bəndi isə ən yaxın sürəcdə İraq kürdləri ilə İran, Türkiyə kürdlərini birləşdirmək, sonra İranı bütün cəhtlərdən mühasirə edərək, qövmi parçalama siyasəti yürüdərək ölkəni qol-bud etməkdir. Yenə burada kürd qardaşlardan ehrəm kimi istifadə edərək yuxarıdan Türkiyə sərhədlərinə, aşağıdan Savə, Zəncan və Təbriz kimi kürd sərhədləri cızaraq, nəhayət işin iç hissəsini görməklə Orta doğunu nəzarətlərində saxlamaq istəyirlər. Bu çirkin planda ölkənin Azərbaycan hüdudları 80% Kürdistan torpağı olaraq göstərilməkdədir. 20% qalan Azərbaycan torpaqları isə Cənubi Azərbaycan olaraq İran talışları ilə birlikdə Azərbaycan Cümhuriyyətinə paylaşdırılır. Bu Azərbaycan dövlətinin tam içində müstəqil Ermənistan dövləti durur. (Baxın görün bu Azərbaycanın taleyi nə olar?) Demək, bu planlar Təbriz və Urmiya kimi nəhəng Azərbaycan

şəhərləri, o cümlədən, Xoy, Miyana və digər şəhərlər Kürdistanın ərazisi hesab edilərək xəritədən götürülməkdədir. Ölkəmizin ərəbnişin bölgələri isə qondarma ərəb dövlətinə qatılmış, şərqdən isə azad Bəlucistan ölkəsi yaradılaraq xəritəsi çəkilməkdədir.

Nəhayət, Orta doğunun son təkmilləşmə planı Türkiyəyə təzyiq edilərək kürd yaşayan bölgələrin terror və qiyamlar vasitəsi ilə Türkiyədən qoparılıb böyük Kürdistan ölkəsinə yapışdırılması, beləliklə, böyük, yaxud dizdən dizə Kürdüstan ölkəsi yaradılmasıdır. O Kürdüstan ki, onun atası-anası özləri yox, bəlkə süni şəkildə mayalanmadan törəyən qərb toxumlu ölkə olaraq heç öz dilini də danışmayan, ancaq birinci on il jandarm vəzifəsini sürdürmək tapşırığını həyata keçirəcək və sonra quruldugu kimi dağılaçaq və bölgədə buraxılmış münaqişə ocağına çevriləcək.

Hər halda, bu qərbin çəkdiyi və müttəffiqlərinin vasitəsi ilə bölgədə həyata keçirmək istədikləri plandır. Ancaq buna nə böyük Türk milləti, nə azərbaycanlı, nə İran, Suriya icazə verməməlidir. Hətta, kürd özü belə gələcək uşaqlarının naminə, onların rifahı üçün belə bir planın həyata keçirilməsinə imkan verməməlidir.

Bir sözlə, onların qulu olmaq lazımdır. Yeni Orta doğu düzəni barədə sizdən mətləblər gözləyirik və biz də bu mövzunu davam edəcəyik.

# KƏFƏNSİZ CƏSƏD, BAŞ DAŞISIZ MƏZAR

Nədənsə, bu günlər ağlımı və fikrimi bürümüş vətən, özlüm və həqiqi yaşam mücadiləsi yazılarımda yansımaqdan əl çəkmir. Doğrusu, bir ömür boyunu oxşayacağım vətən məhəbbətini duyacağım. Ana vətən heç bir an da olsun məni buraxmaq istəmir. Sevgilisinə susayan gənclər kimi məni də sevə-sevə öz isti ortamına çəkən vətən bir daha duyğu və düşüncələrimdə böyük bir yanğın alovlandırır.

Hamımız görmüşük və tarixdən üzü bəri bütün qorxaq və haqqı dananlar, zalım və irticayi sifətlər həmişə öz qəbirlərini, məzarlarını baş daşlarını çox hündür və əzəmətli görmək istəyirlər. Bu dünyanı iki əlli qucaqlayan, maddi dəyərlər içində olan bu insanların ən sarsıdıqları şey ölümdür. Onlar bu məsələ ilə qarşılamamaqları üçün güclü əskurət dəstələri ilə yanaşı, üst düzeyi də qorumaq imkanları yaradaraq öz ölümlərin gecikdirmək istərlər. Onlar fanı dünyada vətəni kullanacaq gəlir qaynağı, xalqı isə rəiyət hesab edər, bütün yanlışlıqlarını gözardı edərək öldürülmə, sürgün və zülmlə məşğul olarlar. Ölüm onlar üçün həm qəbahət, həm də son deməkdir.

Ancaq bunlardan kənarda ən böyük və müqəddəs bir inanc var. O da vətəni qorumaq və vətən üçün ölməkdir. Burada ölümdən qorxmaq yox, ölümü qəbul etmək fəxarət hesab edilir. Şöhrət arxasında gizlənməsinlər bu dünyadakı evlərinin metrajı ilə son mənzilin metrajını o qədər də fərq etməyən insanlar. Onlar göydələnlər tikənlər yox, dəllal olub, xalqın cibinə girənlərdir.

Pula pul deməyib var-yoxunu millət, xalaq, yaxşı əmməllər yolunda sovuranlar ölüm barədə düşünməzlər. Onlar müqəddəs vətən çörəyinin qurusuna, təmiz suyuna və

bir də atalarının halal qazancına, analarının verdiyi südə güvənənlər və ehtiramla yanaşanlardır.

Vətəni sevmək tək sevincdən deyil, hər hansı acıdan baxıb yurdu və vətəni sevə bilsən, sənə eşq olsun. Vətəni sərhədlərdə qorumaqla, vətəni içəridə qorumaqla, vətəni xaricdə qorumaqla vətən vətən olur. Vətəni dildə, kültürdə dini və milli inanclarda, elmdə, əqldə və sevməkdə qorumaqla öz canına hopduranlara eşq olsun! Vətəni sevirik ki, vətənsiz olmayaq. Vətən, yurd sevgisi təmənnasızdır. Çünki o səni yaradıb və yaradanı sevmək hər zaman təmənnasızdır. O, nə verib ala bilər!

İndi bizlər dünya mədəniyyəti deyə kürəsəlləşmə, varlanma və bütün hər şeyi qazanmaqla vətənsizliyə doğru getdik! Nədən bizi o nöqtəyə sövq edənlər öz ərazilərini genişləndirməklə məşğuldurlar? Vətənləri olmayan bəzi vətəndaşsız torpaqları silah gücü ilə zəbt edərək guya demokrasi naminə, əslində öz ana vətənlərini qorumaq naminə əsgərlərinin tapdağına çevririrlər.

Dünyada və bütün ömrümün ucu və sonunda haqq etdiyim bir şey vardır ki, orada vətən boyda bir dərin eşqin nə olduğunu anlamaq! Zira o eşq uğrunda biz hər şeyimizdən, o cümlədən ən sevdiklərimizdən vaz keçə bilirik. Baxmayaraq ki, indi müasir dünyada vətən eşqini pul ilə ölçənlər də var. Ancaq bir şey çox önəmlidir ki, o da vətəni sevmək və onun uğrunda ölmək. O ölüm ki, orada sənə kəfən caiz deyil, baş daşı lazım deyil.

Bilirsiz niyə? Ona görə ki, sənin ən tanınma simvolun vətən boyda böyük bir eşq ünmanıdır. Büküldüyün kəfən isə ana torpaqdır. Bəli, ana torpaq! Onun qucağı ən müqəddəs və mehriban qucaqlardandır. Luks arabaları, cibi dolu çoxlu vətəndaşı olan vətənə xainlər, səngər əvəzinə qərbin diskatekalarını övladları üçün tərcih edənlər, ailəvi məzarlar sifariş edənlər, inanın ki, vətəni elə öz ayaqlarının,

ayaqqabıların əndazəsi qədər düşünürlər. Daha qabarıq desək, onlar vətəni gecə yataq taxtlarını qoyduqları ölçüdə və uzanıb yatdıqları metrajlarında bilirlər. Ancaq bu adamların tamahları, iştahları çox olduğundan, görürsən bir ev burda, biri Losancelesdə. Heç harada olacaaqlarına qərar da verə bilmirlər. Hey fikirləşirlər ki, görəsən sabah nə olacaq? Çapıb talamaq üçün vətəndaşına zülm etməkdən usanmayıb sinələrinə döyənlər ölmədən əvvəl geniş qəbirlər, qiymətli baş daşıları sifariş edirlər. Bilirsiz niyə? Ona görə ki, onların içindəki vətən elə öz içləri boydadır.

Bu dünyada açdıqları dükanlar boyda vətənləri olan bu adamlar bütün vətəni özünə fəxrlə qəbir hesab edənlərin nə anlamda düşündüklərini belə cözə bilməzlər. Bəli, vətəndaş yurddaş, hamımızın içində dərin iz buraxan vətənin hala bizlərə ehtiyacı var. Vətən uğrunda ölən varsa, vətən vətəndir. Yoxsa şəhidsiz torpaq, şəhid qanı ilə suvarılmayan torpaq nəyə yarar? Heykəllərini ucaldanlar bilməlidirlər ki, vətəni hündür baş daşları yox, vətəni zər tabutlar, əlvan kəfənlər yox, yalnız qoç ərənlərin halal, qıpqırmızı qanları, nişansız məzarların uca məqamı qoruyur.

Elə müqəddəslik, qutsallıq da burdan əmələ gəlir. Bizə belə öyrədiblər ki, öncə özünü, ailəni sev, sonra harada pul və gəlir varsa oranı sev. İstəsən məmləkətində əslən məhacir olana köləlik et, dünyanın ərbablarının sərmayə yatırdıqları şəhər və ölkələrdə hamballıq elə, fərq eləməz.

Bizə bir az babat yaşayış üçün nə varsa satan, cilddən-cildə girən, gecə klublarında gün keçirənlər yox, öz yaşamını öz sevdiklərinə qurban verən insanlar vətənin müqəddəsliyin öyrədiblər. Onlar yurdun ən hündür zirvələrinə ucalaraq sarsılmaz dağlar kimi olurlar. Həmişə baş daşsız, ancaq ürəklərimizdə yaşayırlar. Şərəf və ləyaqətlərini vətən uğrunda xərcləyən oğul və qızlar məzarlıqlara yox, bizlərin biz vətən övladlarının könüllərinə dəfn olurlar. Onlar o

qədər pak könüllüdürlər ki, bu dünyada ən hündür və ən gözəl villaları bizim balaca ürəklərimizə tərcih edirlər. Əhsən, belə bir ulu və əzəmətli seçimə!

Sevimli vətəndaş, maddi qazancdan sonra heç oturub bir az da olsa düşünmüsən ki, sənə bir belə verən vətən üçün sən nə vermisən? Dörd-beş evi Tehranda, biz necə mağazası, neçə min hektar yeri Tehrandan şimalda və Şəhristanda, villaları ölkənin ən gözəl nöqtələrində - bir sözlə, nemət içində üzənlər heç bir az da olsa düşünürlərmi bütün bunlar nəyin bahasına, hanki oğulların və qızların canı və qanı bahasına əldə olunub? Məzrasız igidlərin sizə verdiklərini insanların vətənə olan sevgilərini düşünməklə ödəmək lazımdır.

İşgəncələrə dözən canların ağrı və acılarını bir an duya bilməyən vətəndaş, şəhid anasının həzin nalə və sızıltılarını anlamayan yurdddaş vətənin nə olduğunu necə anlayacaq? Acgözlükdən uzaq olaraq ən gözəl hissləri bizim üçün verən vətəni yaxşı başa düşmək lazımdır. Vətən bizi səsləyir. Ona olan borcumuzu vermək vaxtıdır.

# QAŞQAY TÜRKLƏRİNİN SOY KÖKÜ HAQQINDA

Məşhur Macar dilçisi Hamlet Budapeştdə çap etdirdiyi kitabında Qaşqaylarla bağlı bildirirdi ki, Qaşqay istilahı "qəçəmək", yəni "qaçmaq" kökündən olan qaçqaydır ki, Anadolu türkcəsində qoşmaq olub, sonralar qaşqaya çevrilib.

Qaşqay adı ilə tanınan etnos ümumtürk dünyasının milli-mədəni varlığının bir parçasıdır. Böyük ərazisi və siyasi inzibatı kəmiyyəti olan türklər tarixi köçlər zamanı tez-tez şərti məskənlərini dəyişsələr də, el birliklərini, tayfa qurumunu daim möhkəmləndirməyə şalışmış, mərkəzi hakimiyyətin yaranmasına imkan verən dil, inam, adət-ənənlərini, məişət və yaşam tərzinin ümumi prinsiplərini nəsildən nəsilə ötürmüşlər.

Yeni köçdükləri ərazilərə böyük təsərrüfat mədəniyyəti, hərbi-siyasi güc, üstün mənəvi dəyərlər aparan qaşqaylar da ümumtürk hakimiyyətinin daşıqıcıları kimi tarixdə öz sözlərini demişlər. Lakin bu köçlər, miqrasiyalar həmişə sakit ötüşməmiş, ciddi münaqişələr davamlı savaşlara müşayiət olunmuşdur ki, nəticədə el birliklərinin siyasi-inzibati quruluşu müəyyən deformasiyası ilə nəticələnmişdir. Bu gün ölkənin fars vilayətində qərar tutmuş qaşqaylar da belə bir ağrılı taleh yaşamış, öz tarixini milli kimliyini, etnopsixolojisini qoruyub saxlamaq üçün çətin mübarizə yolları keçmiş, əbədi barış, sülh, mədəniyyət daşıcısı kimi dünya xalqlarının yanında qalan türklər kimi tarixi proseslər üzündən bu gün yaşadıqları ərazilərdə bir çox milli-mənəvi, siyasi-idari çətinliklərlə üzləşirlər. Anti türk siyasət maşınının qaşqaylara qarşı işlədiyi bu günlərdə

qədim soydaşlarımızın tarixinə ekskurs da bu zərurətdən meyddana çıxır.

Qaşqay eli qədim və mürəkkəb tarixə malikdir. Onların nə vaxt haradan və hansı amillərin təsir altında mərkəz və güney bölgələrinə köçürülməsi və ilkin məskunlaşmaları haqqındda çeşidli nəzəriyyələr irəli sürülmüşdür.

Qaşqay və yaxud qaşqayi etnoniminin etimolojisi dəqiq məlum deyil. Bu sözün semantikasını açmağa çalışan ilk müəlliflərdən biri "Fransnameyi-nasir" əsərinin müəllifi Mirzə Həsəsn Qasayi yazır: " Xələc elinin rum və kiçik Asiya məmləkətlərindən İraqi-əcəm torpaqlarından gələrkən onların bir guruhu qaçaraq fars məmləkətində məskunlaşdıqları üçün xələc camaatı onları qaçqayi adlandırırdılar"(1-312).

Qaşqay qorxmaz, igid, hindularda isə qəşqə heyvan alnında böyük xal mənası daşıyır (2-42).

"Tarixi-Məsudi"də yazıldığına görə, səlcuqlar dövründə Kaşqar şəhərində sakin olan 20 min civarında qara tatar tayfası Səd bin Zəngi ilə birlikdə fars əyalətinə gəlib kaşğər və yaxud qəşqəri, sonra isə qaşqay adlandırıldı.

Qaşqay eli haqqında araşdırmalar aparan Fərhad Dofər onların mənşəcə oğuz türkləri və batı türkləri olduğunu qeyd etmişdir. Bu fakt qaşqayların tarixi vətənlərinin haradda yerləşməsi, İran, Türküstan və Azərbaycan haqqında fikir söyləməyə imkan verir.

Bu mövzuya toxunan başqa müəlliflərdən fərli olaraq Məhəmməd Taqı Zehtabi hesab edir ki, mənşəcə oğuz türklərinin böyük tayfalarından biri qaşqaylardır. Kəş bölgəsində yaşayan qaşqaylardan bir guruhu sonralar siyasi şəraitə düşdüklərinə görə Azərbaycan və İranın quzeyinə köçərək uzun müddət burada yaşamışdırlar. On bir əsr bundan əvvəl İranın güney və mərkəzinə köçürülən bu

tayfalar "Kəş qayalar" sonralar isə qaşqaylar, kaşğaylar kimi tanındılar.

Hüseyn Ceyidi oğuz ellərinin inteqrasiyasına həsr olunmuş kitabında doktor Zəhtabinin fikirlərinə əsaslanaraq yazır: "Qaşqay elinin sağ qanadı Sakay kimi tanınan oğuz, başqa bir bölümü isə Akaydır. Sakaylar 900 il əvvəl İran yaylasına köçürülüb. Pazırıq xalçasında Orxon yazılarındakı "Q" simvolikası qaşqayların kilim və xalçalarındakı "Q"nın iki tərəfli işarəsi şəklində mövcuddur.

Bu isə qaşqayların hələ yeni eradan əvvəl birinci min illikdə qədim İranda məskunlaşdığını sübut edir. Bu araşdıqıcıların fikrinə görə, qaşqayi istilahı qəş və ya kəş+qay sözləri əsasındda formalaşaraq "Qəş qala" mənası daşıyır, və əslində Kəş şəhərinin, Mesopotamiyanın indiki adıdır. Müxtəsər, Kəş bölgəsinin türkləri qaşqayi hesab edilir.

12-ci əsrin əvvəllərində türklər ərazi, məkan baxımından batı və doğu türklərlə ayrılır. Moğolustandan Ural dağlarının ətəklərinə kimi ərazi şərq türklərinin, Altay dağlarından Daşkəndə kimi ərazilər isə qərb türklərinin hakimiyyəti altında idi.

Qaşqayların köçünü türkün yer üzündə böyük köçlərindən biri hesab edən Pyer Oberlinq yazır: "9-11-ci əsrlərdə qəznəvilərin, səlcuqların yürüşləri zamanı türk tayfalarının Orta doğu və İrana gələn qollarından biri də qaşqaylardır".

Mirzə Cəfər Xormuci qaşqayi elinin Solğuri atabəyləri ilə birlikdə qıpçaq çölündən İrana gələn türkmənlərdən olmalarını iddia edir.

İqbal Aştiyanı isə qaşqay elini Qıçaq çölünün türkmənlərindən hesab edir. Onların sonralar Hindustana və Sistana, Ərak, nəhayət fars əyalətinə gedib məskinlaşmaları fikrini söyləyir.

Mirzə Məhəmməd Hüseyn Müstofi yazır: "Keçmişdə hərbi quruculuq işlərinin çətinliyi ilə əlaqədar olaraq köçərilənləri bu

işə cəlb edib onları fars əyalətindəki dağlarda məskunlaşdırdılar. Fars və İranın güneyində zəngənə, gəraili, qaşqayi ellərinin olmalarına diqqət etməklə, bunların Cəfəri dövründəki qaşqaylar olduğunu bilmək çətin deyil.

İstxəri qaşqayları orta Asiya türkləri hesab edərək yazır: "Beş yüz min çadır altında yüz tayfadan artıq yaşayırdılar. Onların əsas mərkəzləri Fars idi".

13-cü əsrdə Şirazdadki tarixi abidə qalıqları ilə zəngin Şiraz kəndlərindən olan Mayini türklərin məskunlaşdığı yer kimi göstəriblər.

Fransız arxeoloqu Fenlandon fars əyalətində olarkən köçərilərin elxanı Molfiyə bildirmişdir ki, onlar bu yerə rumdan köçürülmüşlər. Adı çəkilən yer İranın güneyində, Əhməd vilayətində olan Run, yaxud Rum çölüdür(132-11).

İran, Türkiyə və Azərbaycan türkləri yaşayan bölgələrə səfər etmiş rus etnoqrafı Vladimir Minorski yazır: " Xələc tayfası Orta doğunun böyük tayfalarındandır. Onlar Türkiyədən tutmuş Hindistana və Əfqanıstanadək yayılmışdır. Xələclərin bir guruhi Anadoludaa, başqa bir guruhi isə Azərbaycan və mərkəzi İranda məskunlaşmışdır. Xələclər yığcam halında Xələcistanda yaşayırlar. Farsda məskunlaşmış qaşqayların bir guruhi xələclərdən ayrılmışdılar. Bu köçün səbəbləri aydın deyil. Lakin bu prosses 11-12–ci əsrlərdə, səlcuqlar dövründə baş vermişdir (13-24).

Minorski daha sonra Bəhbəhan ətrafında sakin olan ağacərilər tərkibində Əfşar, Qarabağı, Bəydilli, Cığatay istilahlarının türk mənşəli olmalarını qeyd etməklə, onları səfəvilər dövründə fars əyalətinə göndərilmiş şahsevənlərin övladı və qalıqları hesab etmişdir.

Qaşqaylar haqqında araşdırma aparmış Amerika qövmşünası doktor Bek yazır: " Qaşqaylar 11-ci əsrdə İranın ərazisinə gəlmiş oğuz türklərinin qalıqlarıdır. Onların köklərini mərkəzi Asiyada, yaxud Türküstanda axtarmaq lazımdır.

Qövmşünasların fikrinə görə, "qəşqə" sözü at və ya alnı ağ qoyun mənasındadır. Türk dillərində "qəşqə" həm də bərəkət, var-dövlət mənasında işlənir".

Bu məsələ haqqında təhqiqat aparan Bartold yazır: "Qaşqay sözü əslində qəşqəli, yaxud qəşqəlu olmuşdur. Getdikcə türk dilində olan "li" və "lu" şəkilcisi ilə əvəzlənmiş qaşqay etnonomi yaranmışdır".

Bir sıra araşdırmacılar "qaşqay" sözünün toponim mənşəli olmasını da ehtimal edirlər. Onların fikrinə görə qaşqay yer adıdır.

Sonralar siyasi, hərbi yürüşlər, yeni otluq sahələrini axtarmaq səbəbləri özündən onlar buranı tərk edərək İranın güneyinə köçürmüşdülər. Lord Kerzen yazır: " Qaşqayların əvvəl yaşadıqları yer orta Asiyada Kaşqar, yaxud Kaşğar şəhəri olmuşdur. Onları Hülaki xan fars əyalətinə hərbi xidmətlər üçün gətirmişdir. Sonralar bu etnosu Özbəkistandakı Qaşqar çayının adı ilə ilgiləndirmişlər.

Təbrizlə Miyanə arasında Qaşqar adlı bir kənd, Əhərdə Qaşğar dağ adlı dağ var. Əhərin quzey batısında Qəşqə meşə, Xoy və Maku yaxınlığındasa Qaşğar bulaq adlı kəndlərə rast gəlmək olar. Qaşqarilərin bir guruhunun bu kəndlərdə sakin olduqları ehtimal edilir. Onlar səfəvilər dövründə tayfanın güclənməsi ilə bu bölgədən köçmüşlər.

İran tarixçilərindən bir guruhu, o cümlədən Səid Nəfisinin fikrincə, farsa gələməmişdən qabaq qaşqayların tarixi vətəni Azərbaycan idi. Lakin müəllif heç bir fakt göstərmir. Sirus Şövqi öz araşdırmalarında yazır ki, qaşqaylar Azərbaycanın batı bölgəsində, Ermənistan və doğu Türkiyənin bir hissəsində məskunlaşmışlar.

İbn Şəhab Yəzdi yazır: " Qaşqayların bəzi tayfalarının 14-cü əsrin əvvəllərində fars əyalətinin altı sərhəd bölgəsində yaylaqları var idi".

"Cameüt-tarix" kitabında qeyd olunmuşdur ki, Gənduman kəndi türklərin bir guruhunun yaylağı idi. Bu gün qaşqayların bəzi tayfaları oranın sakinləridir. Bunu bölgədə 180 il bundan əvvələ aid qəbir sübut edir.

Qaşqayların 30-40 min çadrı var. Bu tayfanın əsas qollarından biri Ələmi adlanır. Onlar 330 çadır sahibidirlər. Başçıları Elxan, yaylaqları İsfahan, qonşuları isə Bəxtiyarilər idi (12-242).

Türk dilli tayfaların farsda məskunlaşması haqqında fərziyələr var. Mərakeşli Səyah ibn Bətutə 13-cü əsrdə İrana gəlmiş (1227 ci ildə), İsfahan yolu ilə Şiraza səfər edərək yazmışdı: "İzəd xəvastdan Rum çölü yolu ilə Nayinə getdik. Rum çölü türklərin yurdudur(717-212).

Başqa bir versiyaya görə 14-cü əsrin əvvəllərində qaşqayi tayfalarının fars əyalət sərhədlərinin altı bölgəsində yaylaqları var idi. 1318-ci ildə farsda olan Şəhab Yezdi "Cameüt-tarix" də yazır: Kəndmənan kəndi türklərin yaylağıdır. Bu iki fakt əsasən qaşqaylar 13 əsrdən farsda sakin idilər. Yəni onların farsa gəlmələrinin altı əsrlik tarixi var.

Batı Avropa səyyahları dil, mədəniyyət məlumatsızlığı özündən qaşqaylar haqqında tələsik, yanlış fikirlər irəli sürmüşlər.

İranı gəzmiş alman səyyahı araşdırıcısı Karesten Neyber öz "Səfərnamə"sində fars köçərilərinin yanlış olaraq kürd adlandırılmışdır. "Səfərnamə"də türkmən qadınlarının xalcacılıqla məşğul olmaları, hər il xaricə xeyli xalça ixracı olduğu qeyd olunur.

Bu, heç şübhəsiz ki, qaşqay həyat tərzinin, məişətinin nişanələridir. Çünki qaşqay xalçaları qədim tarixə malikdir. 19-cu əsr səyyahlarının məlumatı, çox ehtimal ki, Kürdşimal adlı kəndlə bağlıdır. Taverniya İsfahan-Şiraz yolunda Asiya kəndindəki bir düzənlikdən bəhs edərək qeyd edirik ki, şah Abbas oranı əkinçilik üçün gürcülərə vermişdir.

# VƏTƏN NƏ DEYİR?

Vətən acı, şirin, solğun, üzüntülü, rəngarəng və başarılı həyatımızın qiymət verilən məkanıdır.

Hər kəs üçün vətən hər kəsin özü üçün anlam daşıyır. Kimlər üçün vətən onun can və damarlarında axan qan, kimlər üçün vətən onun cibində ya bank hesablarında olan pulun miqdarıdır. Vətən yetimlər üçün vətəndir, vətən çörəyini halaldan, vətənin torpaq və suyundan qazananın vətənidir. Vətən kimlər üçün ən yüksək sevgi və sayqıdır. Vətən bəziləri üçün ən müqəddəs duyğudur. Bəziləri üçün onun torpağı kəfəndir. Kimlər üçün vətən arzuların qanad açıb uçan məkanıdır. Vətən vətəni sevənlər üçün nə bankdır, nə villa, nə də lüks maşın, nə də məqam və vəzifədir. Vətən onlar üçün şərəfdir, namusdur, daxilində yüksələn inamdır. Min illər kök salmış bayraqdır. Anadır və onun timsalında candır. O can ki, onda tutan can məkanı yalnız və yalnız onun üçün ölərək haqqını əda etmiş olurlar.

Vətən bəziləri üçün ulu əcdadlarımızın ruhu, tarix boyu qalaq-qalaq, üst-üstə yatırılmış babaların, ataların sümükləridir. Vətən bunlar üçün bir loğma çörəkdir. O çörək ki, öpülür və göz üstə qoyulur. Vətən sevgidir. O sevgi ki, ana qədər uca məqamdır. Ona görə ki, o vətən onların ruhuna, qanına hopmuşdur.

Vətən dünya deyil, dünyəvi deyil, vətən özəldir, ana kimi. Vətən gözəldir namus kimi,vətən müqəddəsdir alın təri kimi. Vətən vaz keçilən sadəcə ad deyil. O səni yetişdirən, səni böyüdən, səni üyüdən, səni iyidən tək bir qəlbə sığmayan ölkə qədər böyük və insanları qədər müxtəlif və rəngarəngdir.

Vətən şəhidlərin iniltisində əbədiləşən, bütövləşən, yükənləşən məfkurədə inamdır. Vətən hər kəsin beynində yaradılan gərçək təsvirdir. Eyni insanın atası, anası kimi, hətta ən sevdiyi körpəsi kimidir. Vətənin şanını pul ilə, bazar parametrləri ilə ölçmək olmaz! Ona görə olmaz ki, bizim ömrümüz vətənin ömründən milyon dəfələr qısadır. Vətən eşqdir, yandırar cismi. O cismi ki, təmannasızdır.

Hörmətli soydaşlar, yurddaşlar! Vətən insan düşüncəsində ən zirvədə dayanan ana bilimdir. Çünki o öz varlığını bizə əsirgəməyir. Can deyərək bizi o köksündə bəsləyir, əzəl və son bizə sahib çıxır.

Vətəni maddi eyitimlər düzəyində götürən şəxslər ancaq onu istifadə edirlər. Ona xəyanət edirlər, yalan deyirlər. Ona qarşı dururlar və ona hörmətsizlik edirlər.

Qafil ondan ki, gün gələcək, zaman ötəcək. Vətən də o türlü övladlarına elə onlar kimi münasibət bəsləyəcək. Ancaq bilmək lazımdır ki, yalnız və yalnız vətən uğrunda ölən varsa vətəndir.

Əsl vətən tarixi yaddaşını həmişə iti və hazır saxlayır. Övladına sahib çıxır. Onun əzilməsinə, acımasına imkan vermir, yolunda acı çəkənləri bütün tarix boyu xalqın şirin hafizəsində saxlayaraq onları daim sevdirir.

Vətən kürəsləşmənin müqəddəs nöqtəsidir, çünki bütün dünya xalqalrını sevmək yalnız öz xalq və vətənini sevməkdən başlayır. Vətən deyəndə insanın beynində elmi duyumlara yol açan mənəvi zənginlik və rasional həmişə vəhdətdə olur, demək olar ki, vətəndaş bir cəmiyyətində bunların birləşmə nöqtəsi vətəndir və onlar burada bir-birlərini tamamlayır.

Vətən hər bir vətəndaş üçün duyğu, təsvir, anlayış və mühakimələrin törəniş və kəsişmə zəminidir. Vətən insan idrakını müxtəlif pillələrdə inkişaf etdirən və ona qiymət verən yeganə mənəvi və dünyəvi məkandır. Hər birimizin

şəxsi həyatın oluşduran hadisələrin baş verdiyi unudulmaz xatirələrin bir ucundan o biri ucuna uzanan faktura vətəndir. Vətən insan həyatında heç vaxt təkrarlanmayan, bənzərsiz olaydır. Vətən oradır ki, insan hər zaman içində ora ehtiyac duyur. Vətən anlayışların, bədii idrak və və fəlsəfi təfəkkürün ana qaynağıdır. Vətən adi şüurun məhsulu deyil, vətən yüksək amalın və uca idrakın və bizi formalaşdıran bütün biliklərin ürünüdür.

Vətən acı, şirin, solğun özüntülü, rəngarəng və başarılı həyatımızın qiymət verilən məkanıdır. Bu qiymət mühacir həyatında ola bilmir. Vətən yeganə məkandır ki, insan özünü orada kölə yox, onun əsl sahibi hiss edir. Vətən bütün bizlərin ən gözəl duyğu və düşüncələrinin ümumiləşdiyi bir sahə olmaqla müqəddəs mexanizmdir.

O mexanizm ki, biz özümüz onun üçün ayaqlayırıq və onun üçün yaşayırıq və onun üçün ölürük. Vətən fərdi həyatımızın içimizdə olan fotosudur.

Eyni zamanda insan və təbiət münasibətlərinin ən mükəmməl və dərin xarakterini özündə əks etdirən, mahiyyətcə əvəzolunmaz, danılmaz mənəvi və dünyəvi faktlara dyanan br məfhum var. O məfhum hərkəs üçün vətəndir. Vətən tarixi keçmişimizi, çağdaş əqli bilik səviyyəsində ana kitab kimi qoruyub saxlayan və təhlil edəndir.

Vətəni hər şəxs öz düşüncə və bilik müstəvisində sistemləşdirməlidir, çünki fərdiyyətdən cəmiyyətə və bütün bunların tərəqqi verilməsinin alt yapısıdır. Vətən bizi formalaşdıran, yaradan, bəsləyən anadır. Baxmayaraq insanın mühitlə əlaqələri dəyişə bilər, ancaq daxilində olan vətən sevgisi dəyişməz olaraq qalır. Vətən elə o sevgidir.

# NOVRUZ BAYRAMI

Novruz bayramı hamıya əzizdir. Bu tarixi olayın öz içindən etiva etdiyi fəlsəfi anlayışa görə bu bayramada məqsəd yalnız bəşəri dəyərlərə xidmət etməkdən ibarətdir. Onun ən gözəl nümunəsi insanların bir birilə sevinclərini paylaşmasıdır.

Bayram olacaq şövkətlilə, şanlılar
Dövlətlilər,pullular, milyonlular,
Tir boyunlar, şiş qarınlar, canlılar....

Hə doğrudan, qarşıdan yeni gün, yeni il - Novruz bayramı gəlir. Düzdür, bu bayramın gəlişi millətimizin həyatında əlverişli rol oynayır. Bütövlükdə götürsək, bayramın gəlişi hər bir insanı sevindirir. Qışın qara günlərini arxada buraxıb, yaza girən insanlara hər türlü sevinc hissləri aşlayırlar. Deməli, tarixin qaranlıq yollarından keçib gələn "Ərgənə gün" yaxud "Yeni gün" və onun tərcüməsi olan Novruz bayramı insan dünyasının şəfa verən dərdlərə əlac olan nə varsa özü ilə gətirib insanlığa bəxş edir.

Novruz bayramı dilimizin, atalarımızın, analarımızın babalarımızın, dədələrimizin həyatını onların özü istəklərini sevinc və fərəhlərini dərd və ələmlərini bütün tarixi yaşına hopduraraq həm gözəlliyi, həm təravəti, həm də barışı və gülərüzlülüyü bizə ərmağan gətirmişdir.

Novruzla yaranan, xalqımızın qəlbindən qopan, insanların dolğun və səmimi daxili aləmlərinin əks-sədası özünü uşaqların, böyüklərin dilində bayatılar, laylalar, qoşmalar, gəraylılar, atalar sözləri, məsəllər, dastanlar, nağıllar kimi göstərməkdə və könül oxşamaqdadır.

Yeni gün bayramında elimizin məhəbbət dünyası, qəhrəmanlıq tarixi, şirin və acı gülüşü, bütövlükdə hər bir

vətən övladının iç yansımalarını qarşılıqlı şəkildə ortaya qoyur. Kimi fərəhlə dolu, kimi isə ac, pulsuz onun istiqbalına gedir.

Novruz Dədə Qorqud, Babək, Nəbi və Koroğludan üzü bəri təbiətin zəfər bayramı kimi bizə gəlib çıxmışdır. Ordakı qar, qış yerini gözəl, rəngarəng yaza buraxır. Gərəkdir ki, hər bir insan da daxili qayğılarından özünü azad etsin və içində olan bütün kin və nifrətə qələbə çalsın.

Novruz öz gözəlliyini böyüklərimizin söz sənətindən göstərərək bizə ərmağan edib. Novruzun ucalığı ruh yüksəldici təbii tempi Həsənoğlunun, Nəsiminin, Xətayinin, Füzulinin, Qövsinin, Məsihinin, Mahmud Kaşğarinin, Yusif Xas Hacibin, Əhməd Yuknakinin, Vaqifin, Nəbatinin, Hadinin, Şəhriyarın, Cavidin, Səmədin bizə qoyub getdiyi ədəbi irsdə də öz hal-havasını qoruyub saxlayır.

Novruz bayramı ahəngini ana dilimizdə, sevimli türkcəmizdə, xalqın yaratdığı muğamlarda, aşıq qoşmalarında, el mahnılarında incəlik və gözəlliyi ilə nümayiş etdirməkdədir. Dilimizin, tarixi və bu günki varlığımızın milli özünü ifadə etmənin mühüm nişanəsi olan Novruz var idi və olaraq da qalır.

Novruz mərasimlərinin gələnək və görünəkləri hər zaman dilimizin ən gözəl ədəbi-mənəvi nümunələrini özündə əhtiva edir, buna görə qədim xalqın zəngin dili zəngin bayram ifadələrində də əks olunur. Indi heş kim inkar edə bilməz ki, millətimizin ta qədimdən üzü bəri çeşidli ənənələrini öz zərifliyi ilə qoruyub saxlayan və inkişaf etdirən ana diimiz hər şeyə qadirdir və bunu bayramlarda, törənlərdə daha qabarıq görmək mümkündür.

Novruz bayramı hamıya əzizdir, gözəllik və təmizlik bayramıdır. Hovruzda evlərin, qalaların, ürəklərin qapısı açıq tutulur. Hr kəs istədiyi evə gedib bayramlaşa bilir və demək olar ki, ən mühüm ünsiyyət vasitəsi olan bu bayram

doğrudan da içimiz yansıyaraq bizləri mehriban, əli açıq, gözü tox olmağa sövq edir.

Bu günün digər özəlliyi ondan ibarətdir ki, aylar boyu xəbərimiz olmadığı qonşumuzun müşkülündən agah oluruq, əl uzaldırıq, əl tuturuq. Beləcə həqiqi və gercək bir sevgi və sevinci öz dxilimizdə və xaricimizdə yaşadırıq. Bu gün həm də vicdanların imtahan günüdür. Son model maşınları minənlər, ən gözəl paltarları geyinlər, yaxşı yemək yeyənlər bir də öz ətraflarına baxırlar və ətraflarında olan bəzi müşkülləri həll etməyə öz içlərində plan hazırlayırlar.

Novruz yeni planların başlanğıcı və köhnə planların nəticəsi günüdür. Ona görə də bizdə nəticə alırıq ki, "Xudafərin" aylıq dərgisi olaraq tək-tək uğurlarımızda yanımızda olan dostlar, o cümlədən çox dəyərli Məhəmməd Pənahi , İman İmani, Ruşən Novruzi, İsmail Hadi, Qənbər Sufi, Bicən Folad, Pur Rəhim Məməqani, Yusif Qövsi, Mollazadə, Əli Cəng, Səfa Şəmi, Barış Azər, Ərcəng, mühüm şirkətlərin dəyərli müdirləri Əli Məhəmməd Niya, Qəribi, Ağayi Mirzayi və digər adlarını çəkmədiyimiz dostlardan təşəkkür edək.

Əminəm ki, məcəlləmizin daha da yayğınlaşmasında yenə də bərabər olacağıq. Əl-ələ verib öz mədəniyyət və fərhəngimizin yayılmasında yaxından hüzurumuz olacaqdır. Yeni ildə yeni dostlarımızın, yeni düşüncə və imkanlarla bizimlə olmaq arzusu ilə hər bir vətəndaşımıza, xüsusilə hər bir "Xudafərin" oxucusuna gələn ilin bol və bərəkətli olmasını Ulu Tanrıdan diləyirəm.

Canınız sağ olsun, alnınız açıq olsun, ürəyiniz xoş niyyətli və üzünüz gülər olsun. Görüşənədək bütün dostlar, bayramınız mübarək olsun!

# QARA 20 YANVARDAN 17 İL KEÇDİ

20 Yanvar Azərbaycan xalqının imperiya qoşunu qarşısında bir günlük məğlubiyyəti kimi görsənsə də, gərcekdən bir ömürlük, bəlkə də əbədi qələbəsidir.

Düz 17 il bundan öncə qara qüvvələr pəncəsi, daha doğrusu rus, erməni məkrli siyasəti türk-müsəlman Azərbaycan xalqına olunmaz və dözülməz sitəm yürütdü. Tam 20 min nəfər silahlı qoşun ruslar tərəfindən Bakı şəhərinə yeridildi. Əli yalın xalqa divan tutduldu. Erməni-rus iş birliyi, daha düzgünü məsihit-islam savaşı Bakı küçələrində bir daha canlandı. Ermənilər Qarabağın işğalını həyata keçirmək üçün rus ordusunu azərbaycanlıların üstünə yürüməyə tərğib etdi.

40 il gizli ordu qurmuş, daşnak və ASALA kimi terror örgütlərini yaratmış məkrli ermənilər bu dəfə mesəlmanlar əleyhinə rusları da özlərilə əl bir etmişlər. Bu qorxu və vəhşətin sayəsində bölgədə istədiklərinə nail olan ermənilər ölkəmizin sərhədlərində yeni savaş cəbhələri yaratdılar. Beləliklə, qardaşlıq, dostluq və əməkdaşlıq planlarına zərbə vurdular. Ölkəmizi Azərbaycanla qarşı-qarşıya qoydular. Baxmayaraq biz onlarala soydaş və dindadş idik, ancaq məkirli erməni siyasəti iki müsəlman dövlətini birləşmədən uzaq saxlaya bildi. Beləliklə, öz mənfur əməllərini həyata keşirmiş oldular.

20 Yanvar olaylarında xüsusi təlim görmüş və psixoloji hazırlıqlara yiyələnmiş imperiya qoşunu tam 131 azrbaycanlı insanın həyatına son qoydu.

20 Yanvar olayları düşmənlərə üzü qaralıq, azərbaycanlılara isə milli birlik və milli həmrəylik gətirmişdir. Buna görə Azərbaycan tarixində qızıl hərflərlə yazılaraq imperiya üçün qara ləkə kimi tarixdə həkk

olmuşdur. Vətən hər zaman şəhid qanı ilə təravətlənir, çiçək açır. Azərbaycan torpağı da öz şəhidlərinin qanı ilə suvarıldı və onun nəticəsi olaraq bağımsız Azərbaycan dünya ölkələri birliyi arasında öz bayrağını ucaltdı.

20 Yanvar şəhidlik zirvəsi və xalqın zülmə qarşı etiraz səsidir. Bu gün tanrının insanla dil tapması və məzlumların zalimlərə qələbəsi kimi də yadda qalmışdır. Indi bu günü, demək olar ki, bütün azərbaycanlılar özgürlüyün simgəsi kimi anırlar, ona inanıb və hörmət edirlər.

Min illər boyu mədəniyyətimizin bizlərə aşıladığı "Vətən uğrunda ölən varsa, vətən vətəndir" deyimi özünü 20 Yanvarda bir haqq kimi haqq etdi. Indi bu günü əzizləyən hər kəs, sanki o günü unudulmaz kimi öz iç ruhlarında yaşamaqdadırlar. Hər zaman qələbə göründüyü kimi deyil. Dünya tarixində elə qələbələr var ki, zahirdə məğlubiyyət, özü qələbədir. Onlardan biri də 20 Yanvar hadisəsidir.

20 Yanvar Azərbaycan xalqının zəfəridir, əbədi qələbəsidir. Bu zəfərin anlamını başa düşməyən rus imperiya qoşunu və erməni xəyanətkarları hələ də Azərbaycan xalqının bu zəfərinin acısını yaşamaqdadırlar.

20 Yanvar taleyimizin tarixidir. Səlib savaşında Bakıda islamın qələbəsidir. Sanki sultan Məhəmmədin İstanbulda qələbəsi kimi bu qələbə bütün azadlıqsevər insanların ruhunda hər zaman yaşanacaq. Yeni bir müsəlman ölkəsinin bayrağı təbii ki, bizə qürur verir və qan ilə, şəhid harayı ilə suvarılan və sığorta edilən bu bayraq bir daha enməyəcək.

Bu gün münasibəti ilə bütün müsəlmanlara, o cümlədən qardaş Azərbaycan xalqına baş sağlıqı deyirik, ulu Tanrıdan ölənlərə rəhmət və qalanlara səadət diləyirik.

# ŞUŞA ŞƏHƏRİNİN TARİXİNƏ BİR BAXIŞ

Şuşa Qarabağ dağ silsiləsində 1400 metr yüksəklikdə yerləşir. Bu şəhər dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən bir dağ yamacı üzərində salınmışdır. Şəhərin yuxarı hissəsi nisbətən 300-400 metr yüksəkdir. Səhərin şimal tərəfindən Xəlfəli çayı, sol tərəfindən Tər-tər çayı axır. Şəhər şimal tərəfindən sıldırım qayalarla əhatə olunub. Yalnız bir tərəfdə İrəvan qapısı, ayaq trəfdə Gəncə qapısı vardır. Şuşa çənub tərəfdən Cıdır düzü, Üçmıx təpələri, Daşaltı kəndi və Kırs dağ silsiləsi ilə əhatə olunmuşdur. Şimaldan şəhəri Xəlfəli çayı və Xəlfəli kəndi, Şıxtökən yamacı əhatə edir. Qərbdə Şuşanın Zarıslı və Qaladərəsi kəndləri, məşhur Turşsu yaylası, Sağsağanlı dağ kimi mənzərəli və gözəl yerləri vardır. Şərqdən Şuşa kəndi, Bağrıqan dağı, Topxana meşəsi, Təpəçay və Xəzinə qayası ilə əhatə olunmuşdur. Şuşanın şimal-qərbində, təxminən şəhərdən 2-3 kənar gözəl və səfalı bir meşə var. Bu meşədə ayna kimi saf və şəffaf suyu olan mşhur İsa bulağı, Damla bulağı, Soyuq bulaq yerləşir.

Şuşanın salınma tarixi, etimologiyası barədə müxtəlif fikirlər və mülahizələr vardır. Elmi ədəbiyyatda şəhərin əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənah Əli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, aparılan tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu sübut edir. Pənah xan isə mühüm hərbi strateji mövqeydə yerləşən həmin yaşayış məntəqəsinin ətrafına müdafiə divarı çəkdirmiş və oranı əbədiləşdirmişdir. O, Şuşanı qədim Azərbaycan memarlıq abidələri əsasında tikmək üçün adamlar göndərib Təbriz Ərdəbil və başqa şəhərlərdən memarlar gətirmiş və həmin sənətkarlar özləri də Şuşada sakin olmuşlar.

Şuşa şəhərində Pənah xan zərbxana açdırıb pul kəsdirdi. Xanlığın gümüşdən kəsdirdiyi pula da şəhərin adı Pənahabad adı verilmişdir. Sonralar xalq arasında bu ad dəyişdirilib sadəcə Pənahbat deyilirdi.

Həmçinin Qarabağda "Xan Ərşini" adı ilə bir ölçü miqyası da var idi. Bu arşın hazırki metrdən 5-10 sm artıq olmuşdur. Eyni zamanda çəki daşı olaraq "Estil" deyilən ağırlıq ölçüsü tətbiq olunurdu. Bu da təxminən 80 qram ağırlığında idi.

Pənahabad gündən-günə inkişaf edərək abadlaşır, döyüşə-döyüşə genişlənir. Pənah xanın qalası da get-gedə xalq dilində ixtisarlaşıb yalnız "qala" adlanır. Az sonra "Şuşa qalası" "Şişə" adı kimi işlənməyə başladı.

Qarbağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənah Əli xaanın adıilə Pənahabad adlandırılmışdır. 18-ci əsrin 2-ci yarısından şəhərin əhalisi sürətlə artmağa başladı. Qısa müddətə iqtisadi, siyasi, mədəni cəhətdən Azərbaycanın mühüm şəhərlərindən birinə çevrilən Şuşada sənətkarlığın bəzi sahələri yüksək inkişaf etmişdir.

Şəhərdə dəmirçi, boyaqçı, başmaqçı və başqa məhəllələr, bir neçə karvansaralar, bazar və s. yaradılmışdır.

Şuşada ticarət xüsusilə inkişaf etmişdir. Şuşa tacirəri Təbriz, Tehran, İstanbul, İsfahan, Moskva və s. şəhərlərə müxtəlif sənətkarlıq məhsulları və ipək məmulatları aparırdılar.

Pənahəli xandan sonra oğlu İbrahim Xəlil xan Qarabağ xanlığının hakimi oldu. 1752-1806-cı illərdə, İbrahim Xəlil xanın dövründə Şuşada xeyli abadlıq işləri aparıldı. 1783-84-cü illərdə şəhərin ətrafına daha möhkəm qala divarı çəkildi. 1795-ci ilin yayında Ağa Məhəmməd xan Qacar Şuanı mühasirəyə aldı, ancaq 33 gündən sonra ciddi müqavimətə tuş gəldi. Sonra Gürcüstana hücum edib, Tiflisi ələ keçirdi. 1797-ci ildə o yenidən Qarabağa yürüş etdi. Bu dəfə

müqavimətə rast gəlməyən Ağa Məhəmməd xanın qoşunu Şuşanı tutdu. Lakin tezliklə Qacar bir sui-qəsd nəticəsində Şuşada öldürüldü.

19-cu əsrin əvvəllərində general Sisiyanovun başçılıq etdiyi çar qoşunu Azərbaycanın işərilərinə doğru irəlilədi.

İbrahim xan 1805-ci ildə Kürəkçay müqaviləsinə əsasən Rusiyanın himayəsini qəbul etdi. Şuşa 1813-cü ildə Gürcüstan müqaviləsinə əsasən Qarabağ xanlığının tərkibinə Rusiyaya birləşdirildi. 1822-ci ildə Qarabağ xanlığı ləğv edildi. Şuşa yeni yaradılmış hərbi dairənin mərkəzinə çevrildi. Şəhər hərbi komendantlıq tərəfindən idarə edildi. 1826-28-ci illər Rusiya-İran müharibəsi zamanı İran şahzadəsi Abbas Mirzənin qoşunları Şuşanı mühasirəyə aldı. Şuşalılar müqavimət göstərdilər və müvəffəqiyyətsizliyə uğrayan Abbas Mirzə geri çəkildi. 1841-ci ildən qəza mərkəzinə çevrilən Şuşa Göyçay, Cavad, Cəbrayıl, Zəngəzur qəzaları ilə həmsərhəd idi. Şəhər 1846-cı ildən Bakı, 1867-ci ildən isə Yelizavetpol quberniyasına daxil edilmişdir.

Sonralar Mifri, Kəbirli. Zəngəzur və Cavanşir məntəqələri Şuşadan ayrılıb müstəqil qəzalara cevrildilər.

Şuşa qəzasını qəza rəisi, onun müavini, xəzanadar, məntəqə iclasçıları idarə edirdi. Şuşada məhkəmə yaradılmışdı. Şuşanın sahəsi 1897-ci ildə 4911 km, əhalisi 14074 nəfər olmuşdur. Şuşa qəzası 1929-cu ildə ləğv edildi.

1871-ci ildə Xurşud Banu Natəvan öz hesabına Sarı Baba dağındakı İsa bulağından Şuşaya su kəməri çəkdirmiş, hamam tikdirmişdir.

1872-ci ildə Moskvada açılmış sərgidə Şuşa xalçası gümüş medala layiq görülmüşdür.

XIX əsrin ortalarında Azərbaycanda kapitalizmin inkişafı Şuşanın iqtisadi həyatına böyük təsir etdi. 19-cu əsrin ikinci yarısında Şuşada sənaye müəssisələri yaranmağa başladı. Bu şəhər əhalisinin sürtlə artmasına səbəb oldu.

1886-cı ildə şuşada 25 mindən artıq əhali yaşayırdı. XX əsrin sonlarında Şuşa şəhərinin 40 minə yaxın nüfuzu var idi. Qafqazda Tiflis və Bakıdan sonra ikinci şəhər sayılırdı. 1918-ci il sentyabr ayının 25-də Osmanlı qounları Cəmal Cavid bəyin komandanlığı və Azərbaycan dövlətinin nümayəndəsi olan İsmayıl xan Ziyadxanov ilə birlikdə Şuşanı tutdu. 1920-ci ildə daşnakların Qarabağda törətdikləri milli qırğın Şuşaya da yayıldı.

Şəhərin bir hissəsi tamamilə yandırıldı. May ayının 12-də XI Qızıl ordu hissələri Şuşaya daxil oldu. Şuşada Sovet hakimiyyəti quruldu. Lakin uyun ayının 3-dən 4-nə keçən gecə Müsavat hökumətinin tərəfdarları qiyam qaldırıb Şuşanı ələ keçirdilər. Iyul ayının 15-də yenə də XI Qızıl Ordu hissələrinin köməyi ilə Şuşada Sovet hakimiyyəti yenidən bərpa olundu. Azərbaycan Mərkəzi İnqilab Komitəsinin 1923-cü il 7 iyul tarixli qərarına əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa Muxtar Vilayətinin tərkibinə daxil edildi.

Şuşanın şəhərsalma strukturunun formalaşmasına şərqin feodal şəhərləri üçün səciyyəvi olan mərhələlərinə bölgü sistemi böyük təsir göstərmişdir. Şəhərin və onun ayrı-ayrı məhələlərinin memarlıq, planlaşdırma quruluşunun yaranması 3 mərhələyə bölünür.

Birinci mərhələ 1753-54-cü illərdə başlanmış, Şuşanın qala divarları və qəsrlərin tikilməsi, şəhərin Şuşa sahəsinin aşağı hissəsinin və aşağı məhəllələrinin formalaşması ilə başa çatmışdır.

İkinci mərhələ İbrahim Xəlil xanın hakimiyyəti illərinə, yəni 1759-1806-ci illərə təsadüf edir. Bu dövrdə şəhərin Şuşa sahəsinin yuxarı hissəsi tikilmiş və yuxarı məhəllələr formalaşmışdır.

Üçüncü mərhələ şəhər ərazisinin daha dərə-təpəli olan qərb sahəsinin yuxarı hissəsinin tikilməsi və burada

məhəllələrin salınması Qarabağ xanlığının Rusiyaya birləşdirilməsindən sonrakı illərə aiddir.

Aşağı və yuxarı məhəllələrin tikintisinin qurtarması və qərb məhllələrin formalaşması ilə Şuşanın memarlıq, planlaşdırma quruluşunun inkişafının üçüncü, yəni sonuncu mərhələsi başa çatmışdır.

Öz inkişafının sonrakı mərhələlərində şəhərin qərb hissəsi istisna olmaqla, Şuşada əsaslı surətdə yenidənqurma işləri aparılmış, buna görə də tarixən yaranmış memarlıq, planlaşdırma quruluşu dövrümüzədək qalmamışdır.

Şuşanın zəngin tarixi memarlıq irsindən şəhərsalma sənəti, abidələri, yaşayış evləri diqqəti cəlb edir.

Bu abidələrdən qala divarları, qaladakı qəsrlər, Pənahəli xanın sarayı, Qara Böyük xanın bürcü, Şuşanın əsas darvazası olan Gəncə qapısı, Xurşud Banunun saray tipli malikanəsi, Əsəd bəyin evi, Mehmandarovların evi, Yuxarı məscid, Gövhərağa adlanan Cümə məscidi, türbələr, bulaqlar və s. misal göstərmək olar. Bunlar hamısı 18-19-cu əsrlər Azərbaycan memarlığının gözəl nümunələrindəndir.

Qarabağ ermənilərı və Ermənistan Respublikasının ordusu Azərbaycan ərazisinə soxulmadan əvvəl Şuşanın siması dəyişmişdir. Şəhərin qədim abidələri bərpa olunmuşdu. Bəzilərindən mədəni-kütləvi tədbirlər üçün istifadə olunurdu. Məsələn, Zöhrabovların evi şəkil qalereyasına şevrilmişdi.

Əlbəttə, Sovet dövründə müsəlmanların müqəddəs məkanları olan məscidlərə hər yerdə xor baxılan kimi, Şuşa şəhərində Cümə məscidi tarixi ölkəşünaslıq mərkəzinə çevrilmişdi. Son illərdə şəhərin qış kinoteatrı, doqquz mərtəbəli mehmanxanası, Şuşa sanatoruyasının yeni korpusu, rabitə evi tikilmiş, mədəniyyət və istirahət parkları salınmışdı.

Şuşanı su ilə təchiz etmək üçün su kəmərləri, o cümlədən mineral su kəməri çəkilmiş, iki mərtəbəli mineral su qalereyası tikilmişdi.

Şuşada 1982-ci ildə Molla Pənah Vaqifin məqbərəsinin açılışı olmuş, 1985-ci ildə Üzeyir Hacıbəyovun abidəsi ucaldılmışdır. Şuşada Bülbül, Molla Pənah Vaqif, M. Əzizbəyov, Xurşud Banu Natəvan, N. Nərimanov və başqalarının büstləri qoyulmuşdur.

1977-ci ildə Şuşa Azərbaycanın memarlıq tarixi qoruğuna cevrilmişdir. Şuşa keçən əsrlərdə ədəbiyyat, incəsənət, xüsusilə musiqi sahəsində Zaqafqaziyada ən mühüm və demək olar ki, birinci yeri tutmuşdur.

Şuşa Vaqifləri, Zakirləri, Aşıq Pəriləri yetişdirmişdir. Bu tarixi şəhərdə dünyaya gələn Hacı Hüsü, Məsədi İsi, Əbdülbaqi Sadıqcan, Cabbar Qaryağdı oğlu, Geçəçi oğlu Məhəmməd, İslam Abdullayev, Seyid Şuşinski, Mir Mövsüm Nəvvab, Üzeyir Hacıbəyov, Fərhad Ağazadə, Əbdürrəhim bəy Haqverdiyev kimi sənətkarlar dünya səviyyəsində məşhurdular.

# NƏRİMAN HƏSƏNZADƏNİN YARADICILIQ ALƏMİNDƏ SÖZÜN GÜCÜ, SEVGI VƏ DUYĞULARIN GÖZƏLLİYİ

Nəriman Həsənzadə gərçək aşiqdir. O öz yaradıcılığında aşiqin dünyəvi sevgisini, gərçək duyğu və hisslərini qələmə alır. O, olduğu kimidir və göründüyü kimi də olduğundan sözün bədii anlamında insani varlığın Azərbaycan ədəbi mühitində tarixdən uzanıb gələn bədii əsər sızıntısıdır. Ulus və yurd, el-oba, ictimai-siyasi, bədii-fəlsəfi və irfani gerçəklərə öz yaradıcılığında yer verən şair, yeri gələndə öz oxucusuna dünyəvi və xəlqi meyllərlə yanaşı həyatın rayihə və nəfəsini də bəxş etməyi bacarır. Gerçək yaşanılmış həyat onun şeir dünyasında gerçək duyğularla, hisslərlə qələmə alınmış, ona görə də onun şeirlərində təbiilik, canlılıq və səmimiyyətlə yanaşı, etiraz və mübarizə də öz əksini tapır.

Nəriman bir şair kimi yaşadığı həyatda lirik aşiqdir, sevən qəhrəmandır. O öz qəlbində eşq əsiridir. Hər zaman yüksək duyğuların etkisi ilə öz iradəsini sınamağı bacarmışdır. Müsbət baxışlarla yanaşı, həyatın sərt mövqeyinə amansız və mötərizdir. O vətən aşiqidir, bölünməkdən xoşu gəlməyən şairdir. Yaradıcılığında böyük türk dünyasının qəlbinin ritmlərini yaşatsa da, Qorqud atadan ilham alaraq Manasa, Ətəbətül Həqaiqə, Divanül-lüğətül türkə boylansa da, içində bölünmüş Vətənin birliyini haraylayan şairdir.

Yurdsevərlik, Vətən bütövlüyü onun fikir və yaradıcılıq dünyasında o qədər geniş vüsət almışdır ki, o səadətini uca göylərdə yox, xəyali aləmlərdə deyil, yalnız gerçək Vətən torpağının bütövlüyündə axtarır. Vətənə həsr etdiyi əsərlərində ulusal vicdan əhvali-ruhiyyəsi öz əksini

tapır. Onları milli təfəkkürün tələblərinə uyğun ərsəyə gətirir. Nəriman müəllim Vətənin gerçəkliyinə, dövrün və zamanın, habelə tarixi süreclərin onun realist dünyasında yaratdığı tələblərə çox açıq və aydın baxışlarla baxır. Faktları lirik və romantik pərdələr arxasında gizlətməyi sevmir. Bütün çətinliklərə baxmayaraq, dilimizin, yurdumuzun, ən başlıcası, milli marağımızın ehtiyacını qarşılayan əsərlər yazmaqla tarixi borcunu yerinə yetirmiş olur.

Sevgi və vətən naminə yoxluğu sevməyən şair ömür boyu gərçək aşiq olmağın mübariz əhvali-ruhiyyəsini gənclərə aşılamağı bacarır. Vətən adına açıq və gizli mübarizə aparmaqdan çəkinmir. Sevgi yolunda düzlüyə, sədaqətə və vəfalı olmağa, bütün yüksək mənəvi keyfiyyətlərə inanan şair xoşbəxtliyin ancaq vətən səadətindən doğacağına inanır və bu xoşbəxtliyi şeirlərində oxucuları ilə paylaşaraq öz dünya gözəlliyinə qoşmağını da elə xalqı ilə bir olmaqda axtarır.

Nərimanın fikir və yaradıcılıq dünyası zəngindir. O, keyfiyyətə kəmiyyətdən çox yer verir. Deməк olar ki, bütün ədəbi üslublarda öz qələmini sınayan şair günümüzün tələblərinə uyğun olaraq öz yaradıcılığını kökləmişdir. Onun bədii təfəkküründə xalqdan gələn eyham və ilhamlar əsas istiqaməti təşkil edir. O həm də paradoksal duyğu və ifadələrə yer verərək, sevgidən niftərə keçməyi bacarır. Bunlarla yanaşı, o, epik təhkiyyə imkanlarını da nymayiş etdirməyi bilir. Lirik mühakimələr qurur, emosional gərginliklər yaşayır. Şair Məsihi demişkən: «Aşiqi sevən qəşrəmanı qəlbindəki eşq əsiridir».

Nəriman Həsənzadə ömürü ilahi pay hesab etsə də, dünyəvi, milli və xəlqi şəxsiyyətdir. Toplumda olan uyğunsuzluqlardan kədərlənən, Vətəndə baş verən acılardan üzüntüsünü dönə-dönə dilə gətirən şair sevinc və xoş ovqatla

yaşamağı da yüksək tutur. Əsərlərində həyatın məlzəmələri olan sevgi və duyğuların gözəlliklərinə geniş yer verir.

Böyük sələflərini, yəni Dədə Qorqud, İzzəddin Həsənoğlu, M.Füzuli, N.Gəncəvi, Xaqani, Məsihi, Ş.İ.Xətayi, M.Ə.Sabir, S.Ə.Şirvani, B.Vahabzadə, S.Vurğun, Xəlil Rza Ulutürk, Səhənd Bulut Qaraçorlu və M.Şəhriyarı ürəkdən sevərək onların söz dünyalarında Nəriman olmağı əks etdirməyi bilən şair keçmişinə öz sevgi və münasibətini Vətən kontekstində və Vətən coğrafi ərazisindən başqa, mənəvi söz ərazisinə də inanaraq onun genişliyinə, fikir dünyasına sayğılarını, sevinclərini yaradıcığında əks etdirir.

O yaradıcılığında insanın eşqdən yarandığını təsdiq edərək bu eşqin ən geniş anlamının Vətən olduğunu deyir. Eşqdən yaranan insan aşiq olur. Öz ulularına, öz torpağına, suyuna, çevrəsinə, anasına, bayrağına və bütün varlıq göstərgələrinə, demək olar ki, vətənə vurulur. Vətənə vurğun olmağı, vətən üçün atəşdə yanmağı, şəhidlik zirvəsinə ucalmağı o, ən böyük səadət hesab edir. Vətən eşqi şərəfdir, bu eşqdən yorulmaq ölmək deməkdir, mənəvi yoxluq deməkdir.

Şair Nəriman Həsənzadə Dərbənddən Tehrana, Bakıdan Təbrizə, Xudafərindən Culfaya, Urmiyədən Gəncəyə, Zəncandan Qubaya qədər olan mənəvi xəritə cizgilərini ən başarılı söz və təfəkkür ifadələri ilə bəyan etməyi bilir, dostu və düşmənini yaxşı tanıyır. Nəriman Vətəni sevməyi, yurda xəstə düşməyi ilahi varlıqla bağlayır. Hər kimin canında o yoxdursa, deməli, onda ilahi duyğu və hisslər də yox deməkdir.

Nəriman Həsənzadə maarifçi kimi «Əkinçi»dən başlayan milli maariflənməni davam etdirir. Bu yolda o öz sələflərinin, o cümlədən, M.F.Axundzadə, M.C.Məmmədquluzadə, M.Ə.Rəsulzadə və Elçibəy kimi

dühaların yolunu «Ədəbiyyat» qəzetinə başçılıq etməklə genişləndirir, işləyir, təkmilləşdirir, yaradır və öyrədir.

O yazılarında böyük cəsarətə yol verir, sözünü cəsarətlə deyir. C.Məmmədquluzadə demişkən: «Açıq ana dilində, açıq turkcəmizdə yazır». Bunu utanmadan, cəsarətlə, qorxmadan, vüqarla və əzəmətlə edir. O, Əli bəy Hüseynzadənin, Məhəmməd Hadinin carçısı olduğu azadlığı tərənnüm edir.

Vətənsevərlik, eşq, məhəbbət, zəmanədən şikayət, irəliyə doğru hərəkət, vətən birliyi, insan kamilliyi və yurdunun parçalanmadan xilas olması, erməni, rus və başqa türk düşmənlərindən xilas olması, Azərbaycan torpaqlarına göz dikənlərdən yazan şair Təbrizi bağrına basır, Şuşa üçün ürəyi əsir, şəhid düşən əsgərlər üçün ağı yazır, Arazı qınayır və bir söyüd timsalında başını o taydan bu taya əyərək Vətəni qucaqlayır və onu qoxulayır. O, «Nabat xalanın çörəyi» əsərində o taylılara bu taylıların qəhrəmanlıqlarından dərs keçir. Şairin şeirinin ruhunu bunlar təşkil edir. Onun bir şair kimi əsas məqsədi, qayəsi və amacı Vətən özgürlüyü, xalqının öz mənliyi, yabancılardan çox etkilənməmək, uzaq olmaq və ən doğru insanı mənəviyyatca saf və azad görməkdir. O, hər yerdə Vətən sevgisini, insani və milli dəyərlərimizi üstün tutur, oxucusuna gözəllik duyğularını aşılamağı bacarır. Hamını yaşamın gözəlliyini duymağa səsləyir, sevməyi ülvi və müqəddəs hesab edir. Dünya malına, şöhrətinə yox, ali bir eşqə könül verməyə səsləyir bütün insanları. Ona görə, insanı var edən, əbədi yaşadan, sevdirən, ucaldan onun şöhrəti, maddi istəyi və sərvəti deyil, yalnız mənəvi, ruhi gözəlliyidir. İnsanı yüksək, qudsal məqamlara yüksəldən və Tanrıya qədər ucaldan şəhidlik zirvəsidir, Vətən sevgisidir.

Nəriman Həsənzadənin insanı qış möhnətindən sıxılsa da, baharı qarşılamağı bacarır. Parça-parça olub

nisgillər içində yaşasa da, birləşmə ümidini itirmir. Onun yaradıcılığında sevgi və gözəllik duyğuları yaz nəfəsi kimidir. Onun insanı bir bahar bağçasıdır. Orada güllər, çiçəklər, sünbüllər açır, bülbüllər oxuyur. Vətənin dağ-dərələrini lalələr bürüyür. Səngərlərdə döyüşən şəhid əsgərin qanı ilə al-əlvan lalələr dağları bəzəyir. Şair sevgili yarını hər zaman axtarır, qəbir daşlarını sevməsə belə, Vətən torpağının bir parçası olduğundan bağrına basaraq hıçqırıqla ağlayır. Sərv ağacıtək uca boyu ilə öyünsə də, Nəriman əyilib bənövşəni qoxulamağı bacarır. O, sevgili yar sorağında yurdun bütün diyarlarını gəzir, baxmayaraq ki, həyat yoldaşının ölümü onu qəm fəraqında boğur. Bir daha gəlib çıxmayacağına inanmasa da, sevgilisini qara torpağa versə də, onu öz ürəyində əbədi yaşatmağı bacarır.

Şairin qəlbini Vətən həsrəti, yoldaş həsrəti, yolsuzluqlar kimi həzin kədərlər bürüyür. Yurdunun sorunları onu düşündürüb dərdə salır. Bütün bunlarla yanaşı, yaşamı sevməyi bacaran şair gül yanaqları, sərv boyu, Vətən bütövlüyü, özgürlük və özümləşməni hər gün şeirlərində yaşadır və inandırır.

Biz inanırıq ki, Nərimanın söz sənəti həqiqətdə əbədi həqiqət olacaqdır. Ata sözlərində, ana laylalarında, nağıl və dastanlarda, özgürlük səngərlərində, dillərdə əzbər olacaqdır, həmişə onun sözünün gücünü sevgi və duyğuların gözəlliyində yaşayacaqdır.

# İRANDA TÜRKLƏRİN SAYI VƏ COĞRAFİ GÖSTƏRİCİLƏRİ

İran türklərinin coğrafiyası və əhalinin pərakəndəliyi:

İran ərazisinin dörddə birini çöllük və yaşanılmaz ərazi təşkil edir. Yaşanılan yerlərdən ¼ -i, yəni 300 min kv.kilometr böyüklükdə bir ərazi turklərin yurdudur. Bu Azərbaycan Cümhuriyyətindən dörd dəfə böyük, Türkiyənin isə 40%-i deməkdir. İran türkləri isə ölkənin təxminən üçdə birini təşkil edir. Demək olar ki, 75 milyon əhalisi olan İranın 30-35 milyonunu türklər təşkil edir. Türklərlə yanaşı 3 milyona yaxın kürd, tat, lor, gilək və talış da türk dilini bilərək istifadə edirlər. İranda yaşayan türklər əsasən 3 böyük sahədə yerləşirlər: 1) Azərbaycan ərazisi (İranın şimali qərbi); 2) Xorasan (İranın şimali-şərqi); 3) Güney və mərkəzi türk yurdları.

Şimali-qərb, yaxud Azərbaycan ərazisi 170 min kv. kilometr təşkil edir. Burada yaşayan türklər siyasi, iqtisadi və ictimai sahələrdə başqa türklərə görə daha çox inkişaf etmişlər. İranda yaşayan türklərin ¾-ü bu bölgədədir ki, bu da 25 milyon insan deməkdir. Təbriz şəhərinin 4 milyon əhalisi 100/100-ü türklər, Tehran şəhərinin isə 1/3-ü türklərdir. Zəncan deyilən şəhərdən qərbə doğru tarixi ərazi Azərbaycan adlanır. Zəncandan şərqə doğru Qəzvin, Qum, Tehran, Həmədan mərkəzi əlyalətləri adlanır. Onun tarixi adı isə İraqi-Əcəmdir. Azərbaycanın güneyində və cənub qərbində türklər kürdlərlə sərhəddir. Kürdlər isə türk dilini ünsiyyət dili kimi istifadə edirlər. Astara, Həşbər və Ənzəli şəhərləri türklərdən ibarətdir. Meşə və dağlarda isə talışlar yaşayır. Talışlar da kürdlər kimi türk dilini istifadə edirlər. Tehran, Kərəc, Savə və Qum bölgələrində türklərlə yanaşı farslar da yaşayırlar. Bu ərazilərdə isə türklər fars dilini bilirlər.

İranın şimali-qərbindəki türklərinin formalaşmasında əsas qədim türk ellərindən avşar, bayat, bəydilli, bayındır, qıpçaq və xələc türkləri üstünlük təşkil edir. Bunlarla yanaşı təkəli, şamlı, zülqədər, varsaq, çəpəni, kəngərli, ayrım, qarapapaq, inanlı, usanlı, ispirli, qaragözlü, borçalı, ağqoyunlu, qaraqoyunlu, rumlu, ustaclı və başqa ellərin adını çəkmək olar. Qeyd etmək lazımdır ki, İraqi-Əcəmdə tatlar da türkləşərək türk millətinə daxil olmuşdur. Buna baxmayaraq, qıpçaq və xələc türklərinin özünəməxsus ləhcələri qorunub saxlanılmışdır. Xələc türkcəsində danışan tayfalar Qum, Təfriş, Sələfçekan və Ərak şəhərlərində və kəndlərində yaşamaqdadırlar. Azərbaycanda türklərin 99 %-i müsəlmandır.

Dediklərimizdən başqa, türkmən türkləri İranın şimali-şərq ərazilərində yaşayır. Onların ərazisi 23 min kv. kilometrdir, sayları isə 1 milyondan çoxdur və Türkmənistan, eləcə də Əfqanıstan kimi ölkələrlə sərhəddir.

Xorasan türkləri isə 2 milyondan çox nüfusa sahibdir. Ümumiyyətlə, İranın Əfqanıstan sərhədlərində olan Dərəgəz, Şirvan, Bocnurd, Nişabur, İsfərayn və Türbətheydəriyyə şəhərlərində yaşamaqdadırlar. Həmçinin Findirisk və Ramyan mahalının əhalisi də türkdür. Burada yaşayan əhali türkmən türkcəsinin qarışığı ilə Azərbaycan türkcəsinin qarışığından ibarət bir dildə danışır. İranın Xorasan əyalətinin türklərinin danışdıqları dil özbək türklərinin dilinə yaxındır. Xorasan türklərinin təşkilində gəraylı, teymurtaş, ciğatay, cəlair, qarşıquzey, avşar, bayat, ustaclı, əcirli, kəngərli və qaragözlülər tayfaları iştirak edirlər. Bunlar isə 52 min kv. kilometr ərazidə məskunlaşmışlar.

**Güney və Orta İran türkləri.** Bu türklər 5 tayfadan ibarətdirlər: 1) qaşqaylar; 2) xəmsələr; 3) Xuzistan türkləri; 4) Kirman türkləri; 5) İsfahan türkləri. Qaşqaylar Fars, Çaharmahal Bəxtiyari, Kohkiluye və Buyurəhməd əyalətlərində yaşayırlar. Bir qismləri isə Buşəhr və Xuzistanda yaşayırlar. Onların tərkibində isə qayı, avşar, bayat və xələc tayfa-

ları vardır. Xəmsələr fars əyalətinin şərqində Usanlı və İnanlı tayfalarının tərkibində yaşayırlar. Xuzistan türkləri isə İranın Ramhormoz və Şuştər şəhərlərində, ağaceri, avşar və lerki tayfalarından ibarət olaraq yaşamaqdadırlar.

Kirman türkləri isə avşar və bıçaqçı ellərindən ibarətdir və Baft, Sircan və Ciroft bölgələrində yaşayırlar. Orta İran türkləri isə Ərak şəhərinin güneyində, İsfahan şəhərinin yaxınlığında Fridən və Çadqan bölgələrində yaşayırlar və ümumən bayat elindəndirlər. Bu türklər çox qədim zamanlardan buraları özlərinə məskən etmişlər. Bunların məskunlaşdığı ərazi isə təxminən 65 min kv. kilometrdir. Orta İran türklərinin dili demək olar ki, Azərbaycan türkcəsinin müxtəlif şivələrindən sayıla bilər, ancaq fars dilinin təsiri buralarda daha güclü olmuşdur.

Təbiətcə zəngin olan Azərbaycan və digər türklərin yaşadığı ərazi zaman-zaman əsl türklər tərəfindən tutulmuş və hələ də bu gün özlərini türk hesab edərək yaşamaqdadırlar. Ərdəbil, Zəncan, Xəmsə, Əbhər, Tarum, Xürrəmdərə, Qəzvin, Həmədan, Əsədabad, Sunqur, Savə, Ərak, Zərənd, Qidar, Şəhrikurd, İsfahan, Şirvan, Servilayət, Nişabur, Məşhəd, Dərəgəz, Bocnurd, Daşlıburun, Tehran, Təbriz, Şəhriyar, Kərəc,Ləvasanad, Əhər, Urmiyə, Meşkin (Xiyav), Muğan, Germi, Biləsuvar, Aslandüz, Astara, Həşdbər, Miyana, Qaraçimən, Culfa, Mərənd, Makı, Marağa, Xoy, Xudafərin, Kəleybər, Gərmadüz, Borand, Qaradağ və digər şəhərlər demək olar ki, türklərin çox yaşadığı şəhərlərdəndir.

Ümumən Azərbaycan türkləri İranda aparıcı türklər hesab olunurlar və İran ərazisində yaşayan başqa türklər bunlara böyük qardaş gözü ilə baxırlar. İran deyilən ölkə çox sayda türk toponimləri ilə tanınmaqdadır. Demək olar ki, bütün İran ərazisində türk yer adları dağ və tayfa adlarına rast gəlmək mümkündür. Bu da qədim tarixə malikdir. Akketlər, lulubilər, quttilər, hurilər, kasipilər, osetlər bu ərazilərdə yaşayaraq öz izlərini buraxmışlar. Azərbaycan qədim

zərdüşt inancına görə müqəddəs məkan kimi digər xalqlar tərfindən ziyarətgah kimi istifadə olunmuşdur. Müxtəlif etnik tayfa və qövmlərin Azərbaycana gəlib yerləşmələri iltisaqi dilli xalqlarla yanaşı, çox uzun tarixi məsafə qət etmişdir. Nəhayət, Azərbaycan ümummədəniyyətinin tarixi intibahı dövrü, yəni XII-XIII əsrlərdən başlayaraq nəzəri əsaslarla üzə çıxmışdır.

Azərbaycanda müxtəlif türk soylu tayfaların dövlət qrumaları Azərbaycan xalqının qədim tarixə malik türk xalqlarından biri olmasının göstəricisidir. Orta əsrlərdən formalaşmağa başlayan Azərbaycan-türk ulusu (milləti) özünəməxsus zəngin mədəniyyəti ilə bu ərazilərdə yaşayan digər etnik tayfaları öz təsiri altına salaraq ümumtürk Azərbaycan mədəniyyəti formasında birləşdirmişdir. Bu arada Azərbaycanın ən qədim eposu (ümumtürk dünyası eposu) birinci minilliyin oratalarından yaranmağa başlamışdır və bu da "Dədə Qorqud" eposudur.

Türkmənlər, Anadolu türkləri, Azərbaycan türkləri bu eposu müştərək mədəni varlıq kimi qəbul etməkdədirlər. "Dədə Qorqud" eposu oğuz türklərinin şərqdən qərbə axını ilə yaranmışdır. Bu eposda təsvir edilən tarixi hadisələr VII-XI əsrlər tarixi coğrafiyasında demək olar ki, Azərbaycan ərazisindən kənara çıxmamışdır. Kitabın dili azərbaycan türkcəsində qorunub saxlanmışdır. Bu kitabda yerli və gəlmə qıpçaq türkləri ilə oğuz türklərinin siyasi, mənəvi, ideoloji əlaqələri öz əksini tapmışdır.

XVII-XVIII ərlərdən başlayaraq ümumazərbaycan ədəbiyyatının intibah dövrü demokratik əsaslar üzərində qurulmuş güclü etnokulturoloji gücə malikdir. Realist bədii-estetik idrakın əsas metodologiyası burada formalaşmışdır. Azərbaycan ədəbiyyatının, yəni türk ədəbiyyatının predmeti isə demək olar ki, Azərbaycan coğrafiyasında yaşayan azərbaycan insanının həyatıdır. Dərin keçmişə, zəngin tarixə,

yüksək mədəniyyətə, güclü dövlətlərə malik olan azərbaycan xalqı milli-mənəvi dirçəlişə bütöv millət olaraq addım atmışdır. Bu da 19-cu əsrin əvvəllərinə qədər Güney və Quzey Azərbaycan umumcoğrafiyasında xalqın yaradıcılıq imkanlarının nümayiş etdirilməsində və perspektivinin müəyyənləşməsində mühüm rol oynayır.

XIX əsrin sonu Azərbaycan türk dili iki istiqamətdə öz ədəbiyyatını və yaradıcılıq yolunu davam edərək eyni dil və eyni ruhu yaşatmaqda idi. Artıq İran-rus müharibələrindən sonra Gülüstan və Türkmənçay müqavilələri ilə 2 yerə parçalanan Azərbaycan xalqı və ərazisi (Quzey Azərbaycan Rusiyanın tərkibində, Güney Azərbaycan isə İranın tərkibində) siyasi-mədəni həyatını davam etmək məcburiyyətində idi.

XX əsrin əvvəlləri Azərbaycanda istər Quzey, istərsə də Güneydə bir çox maarifçi mərkəzlər yaranmağa başladı: Molla Nəsrəddinçilər, Fyuzatçılar milli ideyalar uğrunda və bütöv Azərbaycan, həm də türkçülük uğrunda mübarizə apardılar. Quzey Azərbaycanda 20-ci əsrin 80-90-illərində millilik ədəbiyyatda keyfiyyətə çevrilmişdir. Ancaq Azərbaycan türk ədəbiyyatı biri digərindən fərqli olaraq iki sosial-siyasi bölgədə, yəni şimal və cənubda təzahür edirdi. Hər ikisi bir xalqın yaradıcılıq enercisini əks etdirirdi. Ancaq müxtəlif ictimai-siyasi şəraitlərdə davam etdiyinə görə ideoloji fərqlər ortaya çıxır. Lakin ərazi fonunda baxdıqda hər iki tərəfdə yaranan ədəbiyyat Azərbaycan ədəbiyyatı idi. Ədəbiyyatını, dilini, milli kimliyini ta qədimlərdən öz genlərində daşıyan Azərbaycan türkləri fars və rus işğalında olduqda belə, tarixi təfəkkürünü ədəbiyyatda inkişaf etdirməyini bacarmışdır. Azərbaycan türklərinin ədəbiyyatı, dili iki fərqli yöndə inkişaf edərək Quzey Azərbaycan 1991-ci ildə öz müstəqilliyini qazanaraq daha dəqiq inkişaf yoluna qədəm qoymuşdur. Lakin dünya insanının bir çoxunun bilmə-

diyi faktı, yəni bölünmüş Azərbaycan həqiqətləri xalqın milli şüurunda inkişaf etməkdədir. Ona görə ki, xalq başqa idarəetmə sistemi tərkiblərində yaşasa da, öz tarixini, dil və ədəbiyyatını ləyaqətlə yaşatmağı bacarmışdır.

İran (Azərbaycan və digər İran türkləri) türkləri ana dillərini mərkəzi dövlət tərəfindən yasaq olmasına baxmayaraq, onu bu günkü ədəbi dil səviyyəsinə qədər gətirib çıxartmağı bacarmışdır. İranda Məhəmməd Rza şah dönəmi 1945-ci ildən sonra, yəni Milli Azərbaycan hökumətinin bir illik ömründən sonra türk dilinin qadağan edilməsi, türkcə yazıb oxumanı suç sayması təxminən 50 il bu dili danışan insanlara bu günləri yaşatdı. Deməк olar ki, 1945-46-cı illərdən sonra İranda yaşayan türklər öz dillərində heç bir kitab və mətbuat orqanı nəşr etdirə bilmədi. Üstəlik müxtəlif sərəncam və fərmanlarla, türk dilinə təhqir kompaniyaları ilə bu dili yox etməyə cəhd etdilər. Lakin 1979-cu ildən başlayan xalq hərəkatı İranda şah rejimini devirdi və yeni bir İran İslam Respublikası yarandı. Bu hakimiyyətin 2 il müddətində türk dilinə verdiyi meydan nəticəsində yüzlərlə kitab, jurnal və qəzet nəşr edildi.

Çox təəssüf ki, bu azadlığın ömrü uzun sürmədi. Yenə türkcə kitab və nəşrlərə yasaq qoyuldu. Uzun müddət xalqın mübarizəsi nəticəsində yenidən yavaş-yavaş ana dilinin inkişaf əsintisi başladı. Yüzlərcə tələbə dərgiləri və elmi ictimai-ədəbi dərgilər, şeir topluları, ədəbi-mədəni sahədə kitablar işıq üzü görməyə başladı. Quzey Azərbaycanda nəşr olunan kitabların əski əlifbaya çevrilməsi Güney Azərbaycanda yenidən tarixi-ədəbi birləşməyə səbəb oldu. Hal-hazırda Güney Azərbaycanda yüzlərlə yazar, şair, siyasətçi, tənqidçi, elm adamları Azərbaycan türkcəsində yazıb yaratmaqdadırlar. Onlardan ən öndə gələnləri ustad Şəhriyar, Məhəmmədəli Fərzanə, Məhəmmədtağı Zehtabi Kirişçi, dr.Hüseyn Şərqi Soytürk, Əlirza Sərraf, M.Güneyli, profes-

sor doktor Hüseyn Sədiq Düzgün, Eloğlu, Barışmaz, Sönməz, Mənzuri, İsmayıl Hadi, S.Muğanlı, Vüqar Nemət və onlarla dəyərli bilik, elm və mədəniyyət xadimlərinin adlarını çəkmək mümkündür. Hal-hazırda məşhur «Varlıq», «Xudafərin», «Azərbaycan» kimi mətbuat orqanları azərbaycan türkcəsinin yaradıcılığını inkişaf etdirməkdədirlər. Bütün dünya türklərinin bilməsi lazımdır ki, biz türklər burada - İranda (Güney Azərbaycan) və İranın başqa ərazilərində yaşayırıq və hər gün türk gəncliyi milli özünüdərk şüuruna yiyələnərək türk dünyasına geniş sahələrdə əlaqə qurmaqdadır.

# MÜNDƏRİCAT


Ön söz ........ 3
Qulamhüseyn Saidinin (Gövhərmurad) bioqrafiyası (1925-1975) ........ 12
Güney Azərbaycanı satira ədəbiyyatının sultanı Ustad Məhəmməd Hüseyn Kərimi ........ 17
Dəyərli folklorşünas alim Məhəmmədəli Qövsi Fərzanə ........ 23
Dilimiz-diriliyimiz ........ 28
Kimliyimiz,yaddaşımız, varlığımız və yoxluğumuz ........ 40
Kimlik nədir? ........ 44
Mətbuat kimliyin ana xəttidir ........ 47
21 Azər: Sitəmə qarşı mücadilə və özünəinamın əsas rəmzi ........ 50
Ulusal(milli) törənlər və kimlik məsələsi ........ 53
Bir il də ölmədim, ana! ........ 56
Bitməmiş gülün nə günahı? ........ 59
Qisas qiyamətə qalmır ........ 62
"Daşnaksütun" və onun quruluşunun ideolojisi ........ 65
Din və kimlik məsələsi müqəddəs məkanlar düzəyində ........ 69
Sevgi toplumu acıları tez unutdurur ........ 73
Yeni il və milliləşmə ........ 75
Yalançı erməni soyqrımına qarşı nələri etmək olar? ........ 77
Bir şairin Vətən xatirəsi ........ 84
Urmu gölü sevdadır göz yaşlarımızın nisgillərində ........ 92
Zaman gəlir, şəhriyar ölür ........ 94
İnsani istək və güvən psixoloji baxımından ........ 96
Pəhləvi dövrünün özgələşdirmə siyasətinin camiəşünas təhlili ........ 99
Yeni il və dinc yaşam üçün uyğun yollar ........ 107
Bizim köç öykülərimiz ........ 110
Bu torpaqlarda izim var mənim ........ 118
Türklərdə say və onun düçüncəvi yozumu ........ 121
Sözlər düşüncənin göz yaşlarıdır... ........ 125
24 aprel qondarma erməni soyqırımı, yaxud da addım-addım müsəlmanlara qarşı yürüdülən səlib savaşı ........ 127
Bilikli toplum və ictimai dəyişimlərin sistemli irəliləməsi məsələsi ........ 132
Ana dili və kimlik məsələsi ........ 137
Məktub ........ 140
Təfəkkür və inanc tariximizdə ........ 142
Novruz bayramı haqqında türklərdə bəzi rəvayətlər ........ 145
Hər səbrin arxasında kin qönçəsi var ........ 149
Sevgi ........ 153

Kimlik göstəriciləri ........ 156
Rəftar və onun psixologiyası ........ 157
Türk sözü, türk adı, türk varlığı ........ 159
Yeni fikir və yeni dünya ........ 163
Kimlik bunalımı (böhranı) ........ 166
Uyqar (mədəniyyət) psixoloji bilim açısından ........ 168
Təhsilimiz, sorunumuz və sorumluluğumuz ........ 174
Güney Azərbaycanda təhsilin yaxın tarixinə dair ........ 177
20 yanvar, Xocalı soyqırımı və qutsal dəyərlərimiz ........ 185
Dumanlı Qafalar, qarmaqarışıq dünya ........ 189
Orxon yazıları ........ 191
Qansız damar, dilsiz baş ........ 194
Azərbaycanda Milli özünüdərkin təhlili ........ 197
Orta doğu: gələcəyimizin yeni düzən adlı bölücü qərb yönlümlü planları ........ 201
Kəfənsiz cəsəd, baş daşısız məzar ........ 207
Qaşqay türklərinin soy kökü haqqında ........ 211
Vətən nə deyir? ........ 217
Novruz bayramı ........ 220
Qara 20 yanvardan 17 il keçdi ........ 223
Şuşa şəhərinin tarixinə bir baxış ........ 225
Nəriman Həsənzadənin yaradıcılıq aləmində sözün gücü, sevgi və duyğuların gözəlliyi ........ 231
İranda türklərin sayı və coğrafi göstəriciləri ........ 236

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Dizayn: *Zahid Məmmədov*
Texniki redaktor: *Rövşanə Nizamiqızı*

Yığılmağa verilmiş **14.06.2013**
Çapa imzalanmış **05.07.2013**
Şərti çap vərəqi **15,2.** Sifariş **№ 98**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**
Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.



**HÜSEYN ŞƏRQİDƏRƏCƏK**
**(SOYTÜRK)**

ELM VƏ TƏHSİL